**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# FOLKLOR VƏ DÖVLƏTÇİLİK DÜŞÜNCƏSİ

## III kitab

**BAKI – 2018**

AMEA Rəyasət Heyətinin 21 fevral 2015-ci il tarixli, 5/3 saylı qərarı ilə tövsiyə edilmiş elmi tədqiqat proqramı ("Türk xalqlarında dövlət simvol, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi") çərçivəsində nəşr olunur.

**Layihə rəhbəri:** **akademik Muxtar KAZIMOĞLU (İMANOV)**

**Folklor və dövlətçilik düşüncəsi. III kitab.** Bakı, Elm və təhsil, 2018, 254 səh.

folklor.az

F $\frac{4603000000}{N\text{-}098\text{-}2018}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2018

# HEYDƏR ƏLİYEV VƏ
# "KİTABİ-DƏDƏ QORQUD" EPOSU

**Muxtar Kazımoğlu (Azərbaycan)**
mukhtarkazimoglu@gmail.com

## HEYDAR ALIYEV AND
## THE EPIC "THE BOOK OF DADA GORGUD"

ABSTRACT

Outstanding statesman Heydar Aliyev worked to develop Science and culture with his characteristic consistency, logic and care. Aware of the irreplaceable role of folklore in strengthening national roots and national consciousness, Heydar Aliyev signed a historic decree on celebrating the 1300th anniversary of the epic "The Book of Dada Gorgud". That decree prompted the need to rethink "The Book of Dada Gorgud" and the era in which it was created. In his speeches on "The Book of Dada Gorgud", Heydar Aliyev drew attention to its creation in the 7th century and described the epic as a literary monument not only of the Azerbaijani people, but of other Turkic peoples, too. He considered it especially important to dwell in more detail on the question of the epic and national statehood. Referring to the book's clear expression of the ideal of the political independence of the Oghuz ffom other States, Heydar Aliyev especially stressed the unrivalled importance of the epic in reinforcing and maintaining the political independence of Azerbaijan. In his speeches about "The Book of Dada Gorgud", Heydar Aliyev described it as "our moral codex", "an authoritative source of our national aesthetics", "the mirror of our history, ethnic memory and archaic thinking", and "a song of the soul, morality, speech and language", and drew attention to issues yet to be studied,

opening the way to new research into the epic.

***Key words:*** Heydar Aliyev, "The Book of Dada Gorgud", epic, statehood, thought, independence, ethnic memory.

## ГЕЙДАР АЛИЕВ И ЭПОС «КИТАБИ-ДЕДЕ ГОРГУД»

РЕЗЮМЕ

Видный государственный деятель Гейдар Алиев, с характерными для его деятельности системностью, последовательностью, точным расчётом на будущее, принимал меры, направленные на развитие науки и культуры. Принимая во внимание незаменимую роль фольклора в самосознании народа, укреплении его привязанности к национальным корням Гейдар Алиев подписал исторический указ о проведении 1300-летнего юбилея эпоса «Китаби-Деде Горгуд». Этот указ выявил необходимость вновь задуматься об эпосе «Китаби-Деде Горгуд» и об эпохе его создания. В своих выступлениях, посвящённых дастану «Китаби-Деде Горгуд»,заостряя особое внимание на его создании в VII веке, отмечая, что наряду с азербайджанским народом дастан является литературным памятником и других тюркоязычных народов, Гейдар Алиев считал особенно важным более подробно остановиться на вопросе эпоса и национальной государственности. Опираясь на яркое выражение в «Китаби-Деде Горгуд» идеи политической самостоятельности и независимости страны огузов от других государств, Гейдар Алиев особо отмечал непревзойдённую важность эпоса в деле сохранения и ещё большего укрепления политической независимости Азербайджана. Гейдар Алиев в своих выступлениях, посвящённых «Китаби -Деде Горгуд», называя его «кодексом чести», «надёжным источником национальной эстетики», «зер-

калом истории, этнической памяти, архаического мышления», «песнью речи, языка, нравственного духа», обратил внимание на неоткрытые страницы, неизученные вопросы дастана и тем самым открыл дорогу для будущих исследований, связанных с этим дастаном.

**Ключевые слова:** Гейдар Алиев, «Китаби-Деде Горгуд», эпос, сознание государственности, государственная независимость, этническая память.

Görkəmli dövlət xadimi Heydər Əliyevin çoxşaxəli fəaliyyətində elm, təhsil və mədəniyyətin inkişafına diqqət və qayğı həmişə ön planda olmuşdur. Ulu öndərin elm siyasəti milli maraqların təmin edilməsinə yönəlmiş, humanitar elmimizin ideya istiqamətinin müəyyənləşməsində mühüm rol oynamışdır.

1970-ci illərə qədər sovet rejiminin Azərbaycan folkloruna və folklorşünaslığına münasibəti xüsusi sərtliyi ilə seçilmişdir. 1930-cu illərdə folklorşünaslarımızdan bir çoxunun repressiya olunması, dediyimiz sərt münasibəti sübut edən faktlardandır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlardan folklora və folklorşünaslığa münasibət müsbət mənada dəyişmişdir. Azərbaycan Elmlər Akademiyası əməkdaşları 1970-80-cı illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarını, eləcə də Azərbaycan məhəbbət dastanları, nağıllar, qaravəllilər, lətifələr, atalar sözləri, bayatılar, əfsanə və rəvayətlərdən ibarət topluları təkrar-təkrar nəşr etdirmişlər. O illərdə M.H.Təhmasib, M.Seyidov, İ.Abbaslı və b. alimlərimizin folklorşünaslıq sahəsində sanballı elmi əsərləri ortaya çıxmışdır.

Heydər Əliyevin 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam Qərbi Azərbaycanın (İrəvan Çuxurunun, Vedibasarın, Göyçənin, Zəngəzurun və s.) tarixi-mədəni irsinin məhz Azərbaycan xal-

qına mənsubluğunun rəsmən bəyan edilməsi olmuş və bu irsə sahib çıxmağımız üçün bir işarə mahiyyəti daşımışdır. Bu sərəncamla bağlı Azərbaycanda, Ermənistanda və SSRİ-nin paytaxtı Moskvada keçirilən rəsmi tədbirlər indi Ermənistan adlandırılan torpaqlardakı tarixi və mədəni irsə xalqımızın və dövlətimizin haqlı iddiasının əsasını qoymuşdur. Bu sərəncam təkcə Aşıq Ələsgər irsinin deyil, Qərbi Azərbaycandakı aşıq mühiti və onun görkəmli nümayəndələrinin (Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Növrəs İman, Aşıq Məmmədhüseyn və b.) poetik irsinin toplanması və tədqiqi işində müstəsna rol oynamışdır.

Heydər Əliyev Aşıq Ələsgərin yubiley tədbirlərinin ardınca 1981-ci ildə Aşıq Alının 180 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalamışdır. Heydər Əliyevin bu kimi sərəncamları Ermənistan rəhbərliyini Göyçədə yubiley tədbirləri keçirməyə, böyük sənətkarlarımıza abidələr ucaltmağa məcbur etmişdir.

Heydər Əliyev Novruz ənənələrinin, Qurban və Ramazan kimi dini bayramların dirçəldilməsində, rəsmi dövlət bayramları elan olunmasında tarixi rol oynamışdır. 1970-ci illər bir çox tədbirlərlə yanaşı, həm də Novruzun dövlət səviyyəli bayram kimi qeyd olunması ilə yadda qalmışdır. 1979-cu ildə Heydər Əliyevin göstərişi ilə İçərişəhərdə təşkil olunan Novruz şənliyi Azərbaycan televiziyası ilə canlı yayımlanmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyev azərbaycançılığı milli dövlətimizin əsas ideologiyası elan etmişdir. Dünya azərbaycanlılarının I qurultayının təşəbbüskarı olan Heydər Əliyev həmin qurultaydakı məşhur nitqində (10 noyabr 2001-ci il) azərbaycançılığın əsas prinsiplərini bəyan etmiş və bu ideyanı dünya azərbaycanlılarını birləşdirən başlıca ideya kimi səciyyələndirmişdir. Heydər Əliyev milli ideologiyanın milli dövlətçilik ənənələri və tarixi keçmişimizlə sıx bağlı olmasını mühüm bir şərt kimi irəli

sürmüşdür. Heydər Əliyev milli ideologiyanın formalaşmasında mədəni irsin, xüsusən şifahi və yazılı ədəbiyyatın əhəmiyyətini həmişə önə çəkmişdir.

Heydər Əliyevin elm və mədəniyyətin inkişafı istiqamətində gördüyü işlər ona xas sistemlilik, ardıcıllıq və gələcəyə hesablanması ilə seçilmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən bir il sonra – 1994-cü ildə Azərbaycan folklorşünaslığı üçün yaddaqalan hadisə baş vermiş, Azərbaycan Milli Elmlər Akademiyasında xüsusi statuslu qurum – "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzi yaradılmışdır. Bu həmin qurumdur ki, 2003-cü ildə Heydər Əliyevin tövsiyəsi ilə Folklor İnstitutuna çevrilmişdir.

Heydər Əliyevin "ana kitabımız" adlandırdığı (1, 6) "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi haqqında 1997-ci il 20 aprel tarixli fərmanı, ulu öndərin təşəbbüsü ilə YUNESCO səviyyəsində həmin eposa aid tədbirlərin təşkil edilməsi müstəqil Azərbaycanın ilk nəhəng elmi-mədəni tədbirlərindən biri kimi Azərbaycan folklorşünaslığının və ümumən humanitariyasının inkişafında mühüm əhəmiyyət daşımışdır.

1999-2000-ci illərdə qorqudşünaslıq sahəsində yeni-yeni tədqiqatlar aparılmış, AMEA "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzində (indiki Folklor İnstitutunda), Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli alimlərin rəhbərlik etdiyi "Qorqudşünaslıq" şöbələri və ya elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlamış, yubiley tədbirləri çərçivəsində "bütün türk xalqlarının tarixi və mədəniyyəti üçün mötəbər bir qaynaq rolu oynayacaq" (Heydər Əliyev) iki cildlik möhtəşəm "Kitabi-Dədə Qorqud" ensiklopediyası" çap olunmuş, eposla bağlı neçə-neçə monoqrafiya (T.Hacıyev. Dədə Qorqud: dilimiz və düşüncəmiz; Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud; K.Abdulla. Sirr içində das-

tan və yaxud gizli Dədə Qorqud – 2; N.Cəfərov. Eposdan kitaba; B.Abdullayev. "Kitabi-Dədə Qorqud"un poetikası; O.Əliyev. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru; R.Kamal. "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası və s.) işıq üzü görmüşdür.

AMEA Folklor İnstitutunda rüblük "Dədə Qorqud" jurnalının nəşrə başlaması isə folklorşünaslar üçün mühüm töhfə olmuşdur. Həmin jurnal Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun öyrənilməsinə və təbliğinə marağın artırılması barədə tövsiyə və tapşırıqlarının bəhrəsi kimi ortaya çıxmışdır.

Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyi ilə bağlı tarixi fərmanı bu epos haqda, bu eposun meydana gəlmə dövrü, ideya-bədii xüsusiyyətləri və dili haqda yenidən düşünüb-daşınmaq zərurəti yaratdı. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik tarixini qeyd etmək Azərbaycan ədəbi dilinin 1300 illik tarixini qeyd etmək demək idi. Bu, o demək idi ki, Azərbaycan ədəbiyyatında türkdilli ədəbi əsərlərin tarixinin ən azı VII əsrdən başladığını söyləməyə əsas var. Heydər Əliyev heç də təsadüfən qeyd etmirdi ki, "bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır" (2).

“Kitabi-Dədə Qorqud”un 1300 illiyi ilə bağlı tarixi fərman bir tərəfdən bu eposun ilk rüşeymlərinin VII əsrdə yaranmasını diqqət mərkəzinə çəkirdisə, digər tərəfdən hansı coğrafiyanın eposda daha qabarıq görünməsinə diqqəti yönəldirdi. “Kitabi-Dədə Qorqud”un nə dərəcədə Azərbaycan, nə dərəcədə ümumtürk, nə dərəcədə dünya mədəni hadisəsi olması Heydər Əliyevin eposa dair mülahizələrində xüsusi yer tuturdu: “Dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə həmişəlik daxil olmuş “Kitabi-Dədə Qorqud” dastanının Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq onun 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi məqsədilə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi haqqında fərman imzaladım” (1, 12). Dünya miqyaslı mənəvi sərvət olan “Kitabi-Dədə Qorqud”un yalnız Azərbaycan xalqının yox, bütövlükdə türk xalqlarının mədəniyyətinin təbliğində mühüm əhəmiyyət daşıdığını, türk xalqlarının mədəni birliyində xüsusi rol oynadığını ciddi şəkildə nəzərə aldığına görədir ki, Heydər Əliyev 1300 illik yubiley tədbirini Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü ilə eyni vaxtda keçirilməsini daha məqsədəuyğun hesab etdi: “Dünən Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü öz işini uğurla sona çatdırdı. Biz bu Zirvə görüşündə Türkdilli Dövlətlər Birliyi yaranan vaxtdan keçmiş 8 il ərzində gördüyümüz işləri təhlil etdik, ona nəzər saldıq və böyük nailiyyətlər əldə etdiyimizi bildirdik. Təbiidir ki, Türkdilli Dövlətlər Birliyinin yaranması, türk dünyasında, bizim xalqlarımızın hər birinin həyatında tarixi hadisə olmuşdur. Amma 8 il ərzində onun yaşaması, inkişaf etməsi, genişlənməsi bu birliyin yaranmasının bir tərəfdən nə qədər zəruri olduğunu nümayiş etdirirdi, ikinci tərəfdən də bu birliyin bizim xalqlarımız üçün gələcəkdə nə qədər gərəkli olduğunu göstərdi…

Bu gün biz hamımız VI Zirvə görüşünü uğurla başa çatdıraraq, xalqlarımızın müştərək abidəsi olan "Kitabi-Dədə Qorqud"un yubileyinə toplaşmışıq. Bu yubileyi daha da çox əhəmiyyətli edən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk" (2).

1300 il əvvəl yaranması xüsusi olaraq diqqətə çatdırılan, Azərbaycan xalqı ilə yanaşı, digər türk xalqlarının də ədəbi abidəsi kimi təqdim edilən "Kitabi-Dədə Qorqud"a beynəlxalq səviyyədə yubiley keçirmək, Heydər Əliyevin qənaətinə görə, bu eposu layiqincə öyrənməyin və tanıtmağın mühüm bir vasitəsi idi. Yubileyə hazırlıq işlərinin başladığı 1997-ci il, yubileyin keçirildiyi 2000-ci il Azərbaycan üçün ictimai-siyasi və iqtisadi baxımdan heç də asan illər deyildi. Çətinliyi dərindən dərk edən Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsini çox vacib sayırdı: "Bəziləri… var ki, deyirlər: "Belə yubileylərin keçirilməsi nəyə lazımdır?" Hətta bəyan edirlər ki, "Bu, keçmiş sovet sisteminin yaratdığı adət-ənənədir və biz bundan imtina etməliyik". Bəziləri deyirlər ki, "ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşı didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?.." Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, hardan gəlmişik, hardayıq, hara gedirik. Biz beləliklə özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik" (3). Bu sözlərdən bir daha aydın olur ki, Heydər Əliyev ağır bir durumda olan – ərazisizinin 20 faizi işğal edilən, bir milyon vətəndaşı qaçqın və köçkün vəziyyətinə düşən Azərbaycanı

böhrandan çıxarmağın mühüm yollarından birini milli şüurun gücləndirilməsində, xalqda özünə inam hissinin dərinləşdirilməsində görürdü. Bu yolda "Kitabi-Dədə Qorqud" eposunun təlqinedici gücü əvəzsizdir. Heydər Əliyevin müdrikcəsinə "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud"da milli özünüdərk ideyası hər hansı başqa dastanımızla müqayisə edilməyəcək dərəcədə qabarıqdır. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin nə qədər qabarıq ifadə olunduğunu Oğuz eli ifadəsinin bu eposda daşıdığı məna yükündən də bilmək olur. Aydın olur ki, el (il) sözü qədim türk dilindəki budun (bodun) sözü ilə heç də hər məqamda eyni mənada işlənmir. Budun adlanan toplum siyasi cəhətdən müstəqil ola da bilər, olmaya da bilər. El adlanan toplum isə siyasi cəhətdən müstəqil olan toplumdur və onun göz bəbəyi kimi qorunan ərazisi, sərhədləri vardır. El sözü "Kitabi-Dədə Qorqud"da da məhz bu mənada işlənir. "Kitabi-Dədə Qorqud"da el sözünün siyasi müstəqillik bildirməyinin bir göstəricisidir ki, Oğuz eli ifadəsi Oğuz cəmiyyəti mənası ilə bərabər, Oğuz vətəni, Oğuz dövləti mənalarını da daşıyır. Yəni Oğuz eli ifadəsi altında dastançı xalq adlı sosial qurumun, vətən adlı coğrafi məkanın və hakimiyyət adlı siyasi qurumun vəhdətini nəzərdə tutur, bu vəhdətin pozulmazlığını məhz siyasi müstəqillikdə, başqa dövlətlərdən asılı olmamaqda görür. Siyasi müstəqillik, Oğuz elinin başqa dövlətlərdən asılı olmaması "Kitabi-Dədə Qorqud"da taleyüklü məsələ kimi təqdim olunur, Oğuz igidləri, hətta bütövlükdə Oğuz cəmiyyəti kişili-qadınlı, qocalı-cavanlı xalq, vətən və dövlət yolunda ölüm-dirim savaşına atılırlar. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin qabarıq əks olunmasına əsaslanan Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi işində bu eposun mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulayır:

“Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Məhz bu baxımdan “Kitabi-Dədə Qorqud” ensiklopediyası ilk növbədə gənc nəslə ünvanlanan bir kitabdır” (1, 6). 1300 illik yubiley tədbirinə qədərki mühüm addımlar sırasında “Kitabi-Dədə Qorqud” ensiklopediyasını xüsusi qiymətləndirərkən Heydər Əliyev həmin ensiklopediyanın da başlıca dəyərini “Kitabi-Dədə Qorqud” eposunun özü ilə birlikdə dövlət müstəqilliyimizə yardımçı olmaqda görür. Xalqa, torpağa, dövlətə bağlılığın ön plana çıxarılması, qəhrəmanlığın xalq qəhrəmanlığı səviyyəsinə qaldırılması “Kitabi-Dədə Qorqud” eposunda Heydər Əliyevin diqqətini cəlb edən başlıca ideya istiqamətlərindən biridir: “Kitabi-Dədə Qorqud” qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında epos yox, bütöv xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası… böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının

bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır" (1, 6).

Müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasında "Kitabi-Dədə Qorqud"un təlqinedici rolunu yüksək qiymətləndirən Heydər Əliyev bu eposun öyrənilməsində folklorşünasların qarşılaşdığı çətinliklərdən bəhs etməyi də vacib sayır. 1930-cu illərin sonlarında Əmin Abid kimi qorqudşünasların repressiya qurbanı olduğunu xatırladan Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi hücumların 1940-cu illərin sonlarından etibarən yenidən kəskin şəkil almasını xüsusi olaraq qeyd edir: "Ədəbiyyata və incəsənətə qarşı yönəldilmiş məşhur "Jdanov qərarları"nın ab-havasına uyğun olaraq "Kitabi-Dədə Qorqud"a qarşı hücumlar başladı… "Kitabi-Dədə Qorqud" eposunun ümumən xalq eposu olmadığı bildirildi və bu eposu "yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq" şüarları səsləndi. Görkəmli Azərbaycan alimləri Həmid Araslı və Məmmədhüseyn Təhmasib, akademik Vasili Bartoldun ruscaya çevirdiyi "Книга моего Деда Коркуда" kitabının 1950-ci ildə Bakıda Elmlər Akademiyasında çapı rejimin sərt reaksiyasına məruz qaldı (1,10). Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi kampaniyanın yalnız Azərbaycanda yox, digər türkdilli respublikalarda aparıldığını vurğulayaraq deyir: "Başqa türkdilli respublikalarda, xüsusən Türkmənistanda "Dədə Qorqud"un əleyhinə dəhşətli bir təbliğat geniş şəkildə həyata keçirildi. Əslində eposa qadağa damğası vuruldu. Epos bütün tədqiqat planları, tədris proqramları və dərsliklərdən çıxarıldı" (1, 10). Yalnız Azərbaycanda yox, başqa türkdilli respublikalarda da "Kitabi-Dədə Qorqud"un siyasi rejim tərəfindən yasaq edilməsinin başlıca səbəbi nə idi? "Kitabi-Dədə Qorqud"a qarşı siyasi kampaniyanın başlıca səbəblərindən biri bu eposun milli kimliyimizi doğru-dürüst nişan verməsi, türk xalqlarının mədəni

birliyinə mühüm zəmin yaratması idi. Türk xalqlarının özünüdərk prosesinə mane olmaq xətti tutan siyasi rejim bu xalqların mədəni birliyinə mühüm zəmin ola biləcək "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrə "mürtəcə əsər" damğası vurur, "pantürkizm" adı altında həmin abidələrin tədqiq və təbliğinin qarşısını almağa çalışırdı. Heydər Əliyevin aşağıdakı sözləri bu acı həqiqətin əsl mahiyyətini bir daha açıb göstərir: "1950-ci ilin may ayında "Dədə Qorqud"un kobud siyasi səhv olduğu partiya yığıncağında rəsmi elan edildi. Bu rəsmi mövqe bildirildikdən sonra eposun xalqa zidd bir əsər olduğu tezisi irəli sürüldü. Həmin partiya yığıncağının hesabatında deyilirdi: "Pantürkistlər tərəfindən Azərbaycan ədəbiyyatının qədim abidəsi kimi qələmə verilən "Dədə Qorqud" eposunun Azərbaycan xalqı ilə, onun tarixi, folkloru və dili ilə heç bir əlaqəsi yoxdur. "Dədə Qorqud"da Azərbaycan xalqı üçün yabançı olan həyat tərzi, adət və ənənələr təsvir edilmişdir"…

Eposun ünvanına səslənən ittihamlardan sonra ayrı-ayrı alimlərin mövqeləri kəskin tənqid atəşinə tutuldu. Artıq epos sözünün özü belə dırnaq içərisində işlədilirdi. O dövrdə elə bir iclas, elə bir qurultay, elə bir konfrans olmurdu ki, orada "Dədə Qorqud" tənqid olunmasın" (1, 10). Heydər Əliyevin "əxlaq kodeksimiz", "milli estetikamızın mötəbər qaynağı", "tariximizin, etnik yaddaşımızın, arxaik təfəkkürümüzün güzgüsü", "nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi" adlandırdığı "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrin hərtərəfli və dərindən öyrənilməsində dövlət qayğısı əvəzsiz rol oynayır. Bunu 1970-ci illər Azərbaycanını əvvəlki onilliklər Azərbaycanı ilə müqayisə etdikdə daha aydın görmək olur. 1970-ci illərdə "Azərbaycanın folklor örnəkləri həm filoloqların, həm filosofların, həm tarixçilərin, həm də etnoqrafların diqqətini daha çox çəkməyə başladı. Daha doğrusu, "Kitabi-Dədə Qorqud" yalnız tarixçilərin və ədə-

biyyatşünasların fundamental, monoqrafik tədqiqat predmeti olmaqla məhdudlaşmadı; dərsliklərə, proqramlara salındı, eləcə də televiziya və radionun efir məkanına daxil oldu. Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilmiş "Dədə Qorqud" filmi ilə "Dədə Qorqud" dastanının ekran həyatı başladı. Bu məsələdə Heydər Əliyevin bəzən açıq şəkildə görünən, bəzən də görünməyən müstəsna xidmətləri var idi. Yazıçılar eposa münasibətdə birinci şəxsin doğma münasibətini şəraitdən asılı olaraq açıq, ya da gizli şəkildə ifadə olunan qayğısını, təəssübünü daim hiss edirdilər" (5, 79).

Sovet dövründə "Kitabi-Dədə Qorqud"un tədqiq və təbliğinə bəzən açıq, bəzən gizli şəkildə qayğı göstərən Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı olarkən bu eposun nəinki hərtərəfli öyrənilməsi və dünyada tanıdılması istiqamətində tarixi xidmətlər göstərdi, eyni zamanda bu eposla bağlı görüləcək işlərə yeni-yeni yollar açdı: "Kitabi-Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər "Kitabi-Dədə Qorqud"un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür… Ona görə də... mən "Kitabi-Dədə Qorqud"un tədqiqi, təbliği ilə məşğul olmuş … alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar … öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. "Kitabi-Dədə Qorqud" dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır". Heydər Əliyevin arzu və istəklərinə uyğun olaraq "Kitabi-Dədə Qorqud"un yeni-yeni sirrlərinin açılması istiqamətində araşdırmalar davam etdi, dövlət səviyyəsində atılan addımlar, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un elm aləminə məlum ol-

masının, ilk tərcümə və nəşr edilməsinin 200 illiyi ilə bağlı olaraq imzaladığı sərəncam bu eposa yenidən qayıtmaq və onu dünyaya tanıtmaqda müstəsna rol oynadı.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı // "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I cild. Bakı, Yeni Nəşrlər Evi, 2000, səh. 5-12.

2. Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı // Respublika Sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 11 aprel 2000-ci il.

3. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə // "Gülüstan" Sarayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Xalq qəzeti", 12 aprel 2000-ci il.

4. Heydər Əliyevin dövlətçilik və azərbaycançılıq haqqında kəlamları. Naxçıvan, 2013.

5. Cəlal Qasımov. Heydər Əliyev və "Kitabi-Dədə Qorqud"// Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı, Nurlan, 2013, səh. 57-87.

# OĞUZNAMƏNİN SOSİAL, SİYASİ-İDEOLOJİ ANLAMI

**Əfzələddin Əsgər**
efzeleddinesger@gmail.ru

XÜLASƏ

Oğuznamə etnik kimlik şüurunun ifadəsi olaraq yaranmışdır. Etnik kimlik şüuru bir qayda olaraq əcdadlarının kimliyi şəklində ifadə olunur. Ona görə də Oğuznamə məlum etnosun içərisində tarix funksiyası daşıyırdı və bu tarix məlum etnosun üzvlərinin burada varlıq səbəbini etnik sistemin içərisində yerini müəyyən edirdi. İstər bütövlükdə etnosun, istərsə də etnik dünyanın mənsublarının siyasi idealları Oğuznaməyə söykənirdi. Bu baxımdan Oğuznamə həm də siyasi-idealoji anlam daşıyırdı.

***Açar sözlər:*** Oğuznamə, Oğuz kağan, etnik kimlik, dövlətçilik.

## THE SOCIAL, POLITICAL-IDEOLOGICAL MEANING OF OGUZNAME

SUMMARY

Oghuzname is formed as an expression of ethnic identity consciousness. The ethnic identity consciousness is expressed in the form of identity of ancestors. That's why Oghuzname means a historical function within known ethnos and this history determine within the ethnic system the existence reason of known ethnos members. Either the ethnos or the political ideals of the members of the ethnic world are based on Oghuzname. From this point of view Oghuzname has a political-ideological meaning.

***Key words:*** Oghuzname, Oghuz Khagan, ethnic identity, statehood.

Oğuzlar haqqında dastanlar şifahi-bədii yaradıcılıq tariximizin ən böyük hadisələrindən biridir. Orta əsrlər tariximizin və mədəniyyətimizin elə bir qatı yoxdur ki, oğuzlar haqqında dastanlar oraya nüfuz etməmiş olsun. Onlar bir etnosiyasi birlik olaraq Oğuz elindən bəhs edir. Bu dastanlar "Oğuz eli", "oğuz qövmü", "qalın oğuz" və ya sadəcə "oğuz" adı verdiyi etnosiyasi birliyi və ona mənsub olan qəhrəmanları vəsf edir. Burada Oğuzun Oğuz elini yaratmasından, dünyanı fəth etməsindən, Oğuz elinin tarixindən, oğuz ərənlərinin və alplarının Oğuz eli uğrunda "kafər"ə qarşı qəzalarından və s. söz açılır. Dastanlarda və öygülərdə bu xalq və ona mənsub olanlar böyük bir pafosla tərənnüm olunur. Elə ona görə də bu dastanlara "Oğuznamə" adı verilir.

Ancaq Oğuznamənin Oğuz elindən bəhs edən məzmunu onun yalnız üzdə olan tərəfidir. Oğuz eli haqqında dastanlar yarandığı və yaşadığı etnik mühitdə nə kimi anlam daşıyırdı və bu mühitin hansı ehtiyaclarını ödəyirdi kimi məsələlər bu günə qədər aydınlaşdırılmamış qalır. Nəzərə alsaq ki, Oğuznamənin əsl anlamı, yəni onun yaşadığı etnik mühitin sosial, siyasi-ideoloji və hətta iqtisadi institutları ilə əlaqəsi bu nöqtədə üzə çıxır, onda məsələnin nə dərəcədə vacib olduğunu təsəvvür etmək çətin deyil. Beləliklə, Oğuznamənin yaşadığı etnik mühitlə funksional əlaqələrinin öyrənilməsi onun anlamını da ortaya qoymuş olur.

Oğuz haqqında dastan dünyaya hakim olan və ya hakim olmaq iddiasında olan bir xalqın düşüncəsinin məhsuludur. Ona görə də bu dastan yalnız bənzər tarixi yol keçən böyük etnosiyası birliklərin işinə yaraya bilərdi. Bununla yanaşı, hər bir xalq onu alaraq öz tarixinə uyğunlaşdırmalı idi. Oğuz haqqında dastanın Rəşidəddin, Əbülqazi və. s. kimi orta əsr müəlliflərinin əsərlərində təsviri verilən Oğuznamə versiyasında biz bu

halla qarşılaşırıq. Etnik tarixin epikləşməsi qanunauyğunluqlarını müşahidə etmək baxımından dastan misilsiz material verir.



Oğuz haqqında dastanın həm uyğur, həm də Oğuznamə versiyasında Oğuz cahangirlik yürüşlərindən sonra öz övladları arasında hakimiyyət bölgüsü aparır. O, üç böyük övladını ənənəvi hərbi-inzibati bölgüdə hakim vəziyyətində olan Bozok, üç kiçik övladını isə onlardan asılı vəziyyətdə olan Üçok qanadına qoyur. Ancaq dastanın uyğur versiyasından fərqli olaraq, Oğuznamə versiyası Oğuzun altı oğlunun 24 törəməsinin də adlarını sıralayır. Bu 24 törəmənin adlarının əksəriyyəti başqa bir şey yox, oba-oba, oymaq-oymaq türkman dünyasının hər tərəfinə səpələnmiş oğuz mənşəli tayfaların adlarıdır. Oğuznamənin funksional mahiyyəti də elə bu yerdə üzə çıxır. Görmək çətin deyil ki, boyların adları şəxsləndirilərək boyun mənsublarının əcdadları kimi təqdim olunur və "Oğuz övladı" kimi Oğuznamənin qəhrəmanlarına çevrilir. Bu şəkildə Oğuznamə ilə onun etnik mühiti arasında ünsiyyət qurulur. Orta əsrlərdən günümüzə gəlib çatmış soykötüklərində Oğuznamə qəhrəmanlarının əcdadlar siyahısına salınması bu ün-

siyyətin xarakterini anlamaq üçün xüsusi əhəmiyyət daşıyır. Məsələn, "Şəcəreyi-tərakimə"də Salır Öqurcukun söykötüyü Salır – Dağ xan – Oğuz xan şəklində tamamlanır: "Onun atası Salır, onun atası Dağ xan, onun atası Oğuz xan" (38, 70). Orta əsrlərdə hər bir türkman ailəsinin gerçək əcdadlarla başlayıb Oğuznamə qəhrəmanları ilə sona yetən söykötükləri olmuşdur. Ağqoyunlu sultanları Bayandur xanın, Osmanlı sultanları Kayı xanın övladları sayılırdı. Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbixan Xunci türkmanları "Uğuz xanın övladları" adlandırıb, həm Osmanlı, həm də Ağqoyunlu sultanlarına "Uğuzxanlıların budaqları" deyir (22, 40). Orta əsrlərdə uyğun türkman boylarının "Kayı xan övladı", "Əfşar xan övladı", "Gün və Ay və Yıldız övladları", şəklində Oğuznaməyə əsasən ifadəsi də eyni hadisənin təzahürüdür (74, 8). Rəşidəddinin aşağıdakı cümləsi müasiri olduğu türkmanların Oğuznaməyə münasibətini ifadə etməklə deyilənləri ümumiləşdirir və konkret şəkildə Oğuznamənin funksional mahiyyətini ortaya qoyur: "Dünyada mövcud olan bütün türkmənlər Oğuzun [yuxarıda] xatırlatdığımız iyirmi dörd törəməsinin nəslindən [əmələ gəlib] (23, 85). Səbəbsiz deyil ki, türkmanlar bu dastanı özlərinin tarixi sayırdılar. Oğuz haqqında dastan və oğuz tarixi haqqında oğuznamələrdən ibarət olan "Şəcəreyi-tərakimə" əsəri Türkmənistan türkmənlərinin "doğru və etibarlı tarix"ə olan ehtiyaclarını ödəmək üçün yazılmışdı. *Yuxarıda deyilənlərə əsaslanıb, Oğuznamənin türkman etnik mühitində etnik kimlik şüurunun ifadəsi olaraq əcdadlar haqqında dastanlar kimi yarandığını qəti şəkildə söyləmək mümkündür.* Bir etnosiyasi birlik olaraq oğuzlar, doğrudan da, türkmanların əcdadı idi. Onlar bu tarixi hadisəni epik hadisəyə çevirib öz əcdadları olan oğuzlar haqqında dastanlar yaratdılar. Burada, "ol zəmanlar", "oğuz zəmanı" kimi vəsf olunan epik dünya türkman düşüncəsində tarixə qovuşmuş əcdadların

dünyası idi. Onu da xatırladaq ki, soy kimliyi şüurunun ifadəsi olaraq əcdadlar haqqında mübarək mətn (etnoqoniya) qədim və orta əsrlər dünyasının bütün etnik təsisatlarına xas olan universal hadisədir. Türkmanlar da bir etnos olaraq bu qanunauyğunluqdan kənarda qalmır.

Qarşıya çıxan bu vəziyyət bizi oğuznamələrə mövcud münasibəti dəyişməyə vadar edir. Əgər Oğuznamə Oğuz dastanları yox, oğuzlar haqqında türkman dastanlarıdırsa, onda sözügedən epik yaradıcılıq hadisəsi türkman düşüncəsi, türkman etnik mühiti və türkman tarixi kontekstində araşdırılmalıdır. İrəlidə görəcəyimiz kimi, Oğuznamə ilə bağlı əsaslı məsələlər bu müstəvidə öz həllini tapır. Öncə, Oğuz elinin yaranmasına nəzər salaq. Tarixi Oğuz elinin yaranmasından yuxarıda bəhs olundu. Bəs Oğuznamə onu hansı şəkildə təsvir edir?

Oğuznamədə epik qəhrəmanın dünyaya gəlişi onun "Bir Tanrı" inancını bəyan etməsi ilə müşayiət olunur. Bu inanc əsasında epik qəhrəman atasının dövlətini, yəni "Qara xan elini" iki yerə bölür. "Bir Tanrı"ya inananlar Oğuzun, inanmayanlar Qara xanın ətrafına toplanır. Baş verən döyüşdə Oğuzun atası Qara xan, əmiləri Kür xan və Küz xan ölür. Ardınca o, əmilərinin tərəfində olanlarla 75 il müharibə edib, onları Türküstandan çıxarır və "Karakuruma" qədər təqib edir. Tuğla çayı sahillərinə qədər uzanan çöl və vadilərdə məskunlaşmağa məcbur olan bu tayfalara Oğuz, *moval* adı verir. *Moğol* etnoniminin Oğuznamə variantı olan bu sözü dastan "qəmli, məzlum, bədbəxt" şəklində mənalandırır. Oğuz "Bir Tanrı"ya inanan tərəfdarlarını isə *uyğur* adlandırır. Ancaq Oğuznamə inanc əsasında yaranan yeni xalqa *uyğur* adı vermir. Oğuz uyğurları etnik birliyin içərisinə salıb doxsan yurddan toplanmış *on tokuz oğuzdan* ibarət ordu yaradır (24, 32). Yəni yaranan yeni etnosiyasi birliyə *oğuz* adı verir və onların gücü ilə dünyanı itaətə gətirir. Məsələyə tarixi baxımdan yanaşsaq, demək olar ki,

inanc əsasında yaranan xalq nə uyğurlardır, nə də oğuzlar. Təsvir etdiyimiz etnoloji mənzərəyə əsaslanıb bu xalqın türkmanlar olduğunu qəti şəkildə söyləmək mümkündür. Burada sadəcə olaraq, Mərvazinin (XII) təsvir etdiyi tarixi hadisə əks olunur: "Oğuzlar islam hüdudlarına gələndən sonra, müsəlman olaraq *türkmən* adını aldılar. Bu türkmənlərlə müsəlman olmayan oğuzlar arasında müharibə oldu. Sonra onlardan müsəlman olanlar çoxaldı. Yaxşı müsəlman oldular. Bunlar kafir soydaşlarına qalib gəlib onları qovdular" (48, 96). Oğuznamədə hətta tarixi gerçəkliyə uyğun şəkildə Oğuz elinin hansı şəkildə parçalanması və onların hansı şəkildə yeni etnik dünyaya qatılması da əks olunur. Əbülqazi Oğuznaməyə söykənərək yazır: "Elin böyük hissəsi Qara xanın, kiçik hissəsi Oğuzun ətrafında toplandı. Qara xanın kiçik qardaşlarının çoxlu uşaqları var idi. Heç kimin ağlına gəlməzdi ki, onlar Qara xandan üz döndərərlər. Onların hamısı Oğuzun yanına gəldi" (38, 42). Beləliklə, Oğuz cəmiyyətinin bütün özəklərinin parçalanması Oğuznamədə atalar və oğulların qarşıdurması şəklində əks olunur. Birinciləri ənənənin qoruyucuları kimi mühafizəkarların, ikinciləri isə passionar qüvvələrin əksi saysaq, Oğuznamənin tarixi gerçəkliyi düzgün əks etdirdiyini söyləmək olar. Bununla bərabər, dastandakı "Qaraxan eli" tarixi baxımdan Oğuz elidir. "Bir Tanrı" inancı əsasında yaranan xalq isə oğuzlar yox, deyildiyi kimi, türkmanlardır. Bu şəkildə etnos əcdadlarını özünə bənzədərək tarixi sosiumun epik variantını yaradır. Yəni Oğuz elinin yaranışını Türkman elinin yaranışına uyğun şəkildə təsvir edir. B.E.Putilovun qəhrəmanlıq dastanlarını nəzərdə tutaraq epik sosium "təkcə real-tarixi sosiumun məzmunu ilə izomorf deyil, həm də bir çox cəhətləri ilə onun ziddinədir" fikri qarşılaşdığımız hadisəyə münasibətdə tam mənası ilə özünü doğruldur (55, 46).

Oğuz haqqında dastanın Rəşidəddin tərəfindən təsviri verilən ən qədim variantında, tarixi gerçəkliyin əksinə olaraq, Qaraxan tərəfdarları ilə Oğuz tərəfdarları arasında konflikt islam müstəvisində deyil, "Bir Tanrı" inancı müstəvisində baş verir. Cığatay mədəniyyəti çevrəsinə aid mətnlərdə isə konfliktin islam müstəvisində baş verməsi iddia olunur. X.Koroğlu Rəşidəddin mətnini nəzərdə tutaraq Oğuzun islama deyil, "Bir Tanrı"ya inandığını söyləyir və məsələnin üzərindən sükutla keçir (39, 64). Müəllifin bu davranışı "Bir Tanrı" inancının islamla bağlılığına şübhə oyadır. Belə təsəvvür yaranır ki, "Bir Tanrı" inancı başqa bir dini düşüncə ilə bağlıdır. Türklərin islam dininə qədər də "Bir Tanrı"ya inandıqlarını və ya İsa dininin islamdan öncə türklər arasında yayıldığını nəzərə alsaq (26, 140-161; 65), X.Koroğlunun səpdiyi şübhə toxumunun bizi haralara apara biləcəyini təsəvvür etmək olar. Ona görə də məsələnin nə yerdə olduğunu aydınlaşdırmaq məcburiyyətindəyik.

Öncə, "Bir Tanrı" inancının İsa dini ilə əlaqəsindən danışmaq istərdik. Bu dinin əsasında dayanan Tanrı Oğlu inancının tarixi türklər arasında çox qədimdir. Onunla bağlı inanışlar son dövrə qədər yaşamaqda idi (53, 2-31). Hökmdarın *Ulu Tanrı Oğlu* titulu ilə taxta çıxması da türk tarixinə xas bir hadisədir (4, 68; 44, 16). Bu məsələdən ətraflı bəhs etmək qarşıya qoyduğumuz məqsədə uyğun deyil. Sözümüzün canı odur ki, İsa dininin Tanrı Oğlu inancı türklərə doğma idi. Səbəbsiz deyil ki, türklər İsa dinini Tanrı Oğlu ilə bağlı inancları müstəvisində anlayırdılar. Xaçpərəstlərin Tanrı Oğlu haqqında mübarək mətnin qəhrəmanlarından biri olan Erkenin adı ilə *Ergeun/Arxaun* adlanması deyilən gerçəkliyi ifadə edir (53, 1-2). Oğuznamə də bu düşüncəyə uyğun şəkildə İsa dininə inananları "Tanrı Oğlu" anlamında *Baq Pur (Baqa – Putra)* sözünün (41, 428) Oğuznamə variantı ilə *təkfur/təkur* adlandırsa da, onları Oğuzun və Oğuz elinin düşmənləri sırasına qoyur. Bu-

rada "təkur dininin" içərisində bütpərəsətlik ünsürləri olsa da, əsas etibarı ilə, keşişli, kilsəli xaçpərəstlər təsvir olunur. Oğuz təkfur ellərini diz çökdürür, oğuz ərənləri onların kilsəsini yıxıb, yerində məscid tikir. Deмək istəyirik ki, "Bir Tanrı"ya inanan Oğuzla, müsəlman oğuzların təkfura münasibəti fərqli deyil. Bu halda Oğuznamədə sözügedən "Bir Tanrı" inancının İsa dini ilə əlaqəsinə yer qalmır. Onun islamdan öncəki "Bir Tanrı" inancı ilə bağlılığı haqqında M.H.Təhmasibin söylədiyi fikir də özünü doğrultmur (67, 9). Məsələyə nəzər salaq.

Türklərin kitablı dinlərdən öncə "Bir Tanrı"ya tapınması bəllidir (65). Onun oğuzlarda varlığına İbn Fədlan (X) şahidlik edir: "İçərilərindən biri zülmə məruz qalarsa və ya xoşagəlməz bir şey görəndə başını göyə qaldırıb "Bir Tanrı" deyər". Bu, türklərdə "Bir Allah" deməkdir (30, 31). Ancaq tarixi həqiqətin əksinə olaraq, Oğuznamə "Bir Tanrı" inancını Oğuzun adı ilə bağlayır və Qara xan elinin ondan xəbərsiz olduğunu söyləyir. Dastanda Oğuzun üz çevirdiyi arvadlarının dilindən deyilir: "Oğuz bizə bir xaliqə inanmağı və ona itaət etməyi təklif etdi. Ancaq biz ona dedik ki, biz belə bir xaliqi tanımırıq. O, qəzəblənib bizdən aralandı" (24, 27). Qaraxan eli məhz bu inanc əsasında parçalanır, iman gətirənlər, deyildiyi kimi, birləşərək Oğuz elini, gətirməyənlər "Moval" elini yaradır. Oğuznamənin tarixi həqiqətə dayanaraq oğuzlarda "Bir Tanrı" inancının varlığını inkar etməsi təkcə təsviri verilən hadisənin tarixi baxımdan islamı ifadə etməsindən deyil, həm də sözügedən "Bir Tanrı" inancının islam düşüncəsindən doğmasındadır. Oğuzun Adəmi tanıması, Məkkə, Mədinə, Dəməşq kimi islamın mübarək şəhərlərinə tapınması məsələnin üzdə olan tərəfidir (24, 52-54). Onun alt qatı ondan ibarətdir ki, Oğuznamə islam təfəkkürünün Allahın Rəsulu ilə başlayan islam dövrünü, islamaqədərki "Bir Tanrı" inancından ayırmasından yararlanaraq İbrahim peyğəmbərin yerinə Oğu-

zu qoyur və onu Məhəmməd peyğəmbərin mənəvi sələfinə çevirərək peyğəmbərlik ünvanı verir. Oğuznaməyə görə, Oğuz Allahın Rəsulunun haqq dinini bəyan etməsindən çox-çox əvvəlki dövrlərdə yaşamış və "Bir Tanrı" inancını bəyan edərək Oğuz elini bu inanc əsasında yaratmışdır. Oğuz elinin islam dinini qəbul etməsi Oğuz tarixinin sonrakı dövrlərində, Rəşidəddinə görə, Kayı İnal xanın, Dədə Qorqudun zamanında baş vermişdir. Allahın Rəsulu haqq dinini bəyan edən kimi onun yanına Oğuz elindən nümayəndələr göndərilir. Onlar geriyə dönüb islam peyğəmbərinin Oğuz elində səhabəsi olurlar, yəni islamı qəbul edirlər (24, 70). Dədə Qorqud oğuznamələrində Dədə Qorqudun "Rəsulu Əleyhissəlam zamanına yaxın" bir zamanda yaşaması haqqında qeyd və ya Bükdüz Əmənin *"varuban peyğəmbərin yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan"* şəklində təriflənməsi deyilən məsələ ilə bağlıdır. Ona görə də "Oğuz zəmanının ... islamın birinci əsri" olması haqqında V.V.Bartolda məxsus fikir bütövlükdə "oğuz zəmanını" deyil, onun bir hissəsi olan Bayandur xan "zəmanını", yəni oğuz tarixinin Dədə Qorqud oğuznamələrində vəsf olunan islam dövrünü ifadə edir (8, 480).

Oğuz tarixinin inanc müstəvisində dövrləndirilməsi orta əsr müəlliflərinin nəzərindən qaçmamışdır. Onlar Oğuznaməyə söykənərək məsələni xüsusi şəkildə vurğulamışlar. "Bəhrüləhsab" adlı bir əsərdə verilən məlumata söykənən Bayburtlu Osman III Murad dövründə (1574-1595) yazdığı əsərində oğuz tarixinin birinci dövrünü "din-məzhəb bilməzlər idi, amma haqqa iqrarları var idi" şəklində səciyyələndirir. İslam dövrünü isə Bayandur xanın Xorasandan Aniyə, Karsa gələrək Gürcüstan kafirləri ilə qırx il savaşıb Doqquz Tümən Gürcüstan bəylərindən xərac alandan və Dəmirkapunu alıb Küştase məliyin başını kəsəndən sonra, yəni Bayandur xanın taxta oturduğu vaxtlarda baş verdiyini söyləyir: Bayandur xan Allahın Rəsulu-

nu yuxuda görüb iman gətirir; İç Oğuz başı Qazan xanla, Taş Oğuz başı Dündar bəyi Kəbəyə göndərir; Qazan xan və Dündar bəy peyğəmbərin iman təklifini qəbul edir; Allahın Rəsulu Salmani-Farsini onlara qoşub Dərbəndə göndərir; Səlman islamı onlara öyrədib Dədə Qorqudu şeyx qoyur (18, 40-41).

Bayburtlu Osmanın verdiyi məlumat, şübhəsiz ki, Oğuznamədən qaynaqlanır. Məlumatın xarakterini nəzərə alsaq, onun hər hansı bir dastanın giriş hissəsində verilə biləcəyini düşünmək olar ... Əbülqazi bu məsələyə özünəməxsus şəkildə yanaşaraq bir ziyalı kimi onu tarixiləşdirməyə cəhd edir və nəsillər vəsiləsi hesabı ilə Oğuz xanın Məhəmməd peyğəmbərdən dörd min il əvvəl yaşadığını söyləyir (38, 71). Ağqoyunlu tarixçisi də Oğuz tarixinin inanc müstəvisində dövrləşdirilməsinə diqqət yetirir: "İslama qədər bayandurlar o zamankı peyğəmbərlərin buyruqlarına boyun əymişlər və islam meydana çıxan kimi onlar onu qəbul etmişlər" (22, 55). Bununla yanaşı, müəllif "islama qədər bayandurlar o zamankı peyğəmbərlərə boyun əymişlər" deyərkən oğuz tarixinin birinci dövrünü yanlış səciyyələndirir. Məsələ bundadır ki, Oğuznamə Məhəmməd peyğəmbərə qədər Oğuzdan başqa, heç bir peyğəmbər tanımır. Ənənəvi təfəkkür bu məsələdə islam auditoriyasından qorxmayacaq dərəcədə cəsarətli idi. Ancaq Oğuz elinin tarixini – Oğuznaməni yazıya alıb islam auditoriyasına təqdim edən orta əsr müəllifləri bu auditoriyadan xoflanaraq müxtəlif çarələr düşünməyə başladılar. Günümüzə gəlib çatmış ən qədim Rəşidəddin mətnində Oğuz soyunu peyğəmbərlər tarixi haqqında islam (ümumiyyətlə, sami) ənənəsi ilə birləşdirmə cəhdi uğursuz alınıb. Bulca xanı Nuh peyğəmbərə bağlamaq istəyən söyləyicinin düşdüyü vəziyyəti Rəşidəddin təsvir edərək yazır: "Türklər Yafəsi Bulca adlandırır və adlandırmağa da davam edirlər və dürüst bilmirlər ki, bu Bulca Nuhun oğludur və ya nəvəsidir. Ancaq on-

ların hamısı o (Bulca), onun (Nuhun) soyundandır və ona (Nuha) yaxın zamanda yaşayıb fikrinə şərikdirlər" (23, 80). Bütün bu ciddi-cəhdlərin əsl səbəbi Oğuz soyunu "peyğəmbərlər tarixinə" bağlamadan ortalığa çıxarmaq qorxusudur. Nəzərə alsaq ki, orta əsrlərin müsəlman təfəkkürü "peyğəmbərlər tarixi" ilə bağlılığı olmayan hər hansı bir soyun varlığını təsəvvür belə etmirdi, onda söyləyicilərin düşdüyü vəziyyəti anlamaq olar. Bir sözlə, Oğuznamə təfəkkürü onları əməlli-başlı çaşdırmışdı. Həsən Bayat, Əbubəkir Tehrani, Əbülqazi və s. mətnində oğuz soyunun "peyğəmbərlər tarixi" ilə uzlaşdırılmasının şifahi ənənə ilə heç bir əlaqəsi yoxdur. Belə uzlaşdırmalar şəcərələri yazan müəlliflərə aiddir. Unutmaq olmaz ki, Oğuz soyunun peyğəmbərlər tarixinə bağlanması "Bir Tanrı" inancının "Qaraxan eli" içərisində Oğuzdan öncə də olması düşüncəsi yaradır. Ancaq Oğuznamə, deyildiyi kimi, tarixi həqiqətin əksinə olaraq, bu inancı Oğuzun adı ilə bağlayır və belə bir inancın Oğuzdan öncə də türklər arasında varlığını qətiyyətlə inkar edir. Ona görə də Oğuz soyunu peyğəmbərlər tarixinə bağlamaq istəyən müəlliflər və ya söyləyicilər Oğuznamənin mahiyyətini anlamayıblar və ya anlamaq istəməyiblər. Sözümüz odur ki, Oğuz soyunun, "peyğəmbərlər tarixi"nə bağlanması "Bir Tanrı" inancının Qaraxan eli (türklər) içərisində Oğuzla başlaması haqqında Oğuznamə düşüncəsinə ziddir. Bununla yanaşı, Cığatay mədəniyyəti çevrəsində yazılmış əsərlərdə Oğuzun "Türküstan Məhəmmədi" kimi təqdim edilərək islam dinini qəbul etdirməsi və Oğuz elini bu inanc əsasında yaratması da Oğuz tarixinin Oğuznamə yozumunu ifadə etmir. Oğuznamə məsələyə münasibətdə islam düşüncəsini ciddi şəkildə gözləyərək Oğuzu Məhəmməd peyğəmbərin sələfi kimi təqdim edir və ona görə də peyğəmbərdən öncə islamdan söz sala bilməzdi. Belə məlum olur ki, Cığatay mədəniyyəti çevrəsində yazılmış mətn-

lərdən fərqli olaraq, Rəşidəddin mətni birbaşa Oğuznamənin məsələyə münasibətini ifadə edir.

Nəhayət, deyilənlərə əsaslanıb Oğuznamə üzərində islamın haqqı barədə fikir söyləmək olar. Məlumdur ki, araşdırıcıların əksəriyyəti oğuznamələrdəki islama bu və ya başqa ölçüdə "islami ünsür" və ya *islamlaşma* səviyyəsində yanaşır. H.Araslı "Kitabi-Dədə Qorqud" mətninin *islamlaşmasını* katiblərlə bağlamaq istəyir (5, 8). T.Hacıyev məsələyə şifahi bədii yaradıcılıq müstəvisindən yanaşır və bu hadisəni ozan yaradıcılığı ilə əlaqələndirir (28, 79). M.Təhmasib "Kitabi-Dədə Qorqud"dakı islamla bağlı elementlərin "VII əsrdən sonrakı mühitlə" əlaqəli olduğunu vurğulayıb daha qədim "etiqad və görüşlərə" diqqət yetirir (66, 33-39). V.V.Bartold "Kitabi-Dədə Qorqud"da islam dininin üzdə olmasından, "əhəmiyyətsiz təsiri"ndən danışır (8, 482). Əslində, Dədə Qorqud oğuznamələrində islamın üzdə olması fikri mətnin *islamlaşması* konsepsiyasının ifadə formalarından biridir. V.V.Bartoldun "Kitabi-Dədə Qorqud"dakı islam məsələsinə belə münasibəti öncə E.Rossi, ardınca O.Ş.Gökyayın tənqidinə məruz qalmışdır. O.Ş.Gökyay F.Köprülünün və A.İnanın eyni fikirdə olduqlarını yada salır və islamla bağlı ünsürlərə diqqət yetirərək yazır: "Kitabda bunların tutduğu yer heç də üzdə olan inanışlar və məlumatlar kimi görünmür" (25, CCLXXII). Ardınca Müjgan Cumburun "Dədə Qorqud oğuznamələrində islami ünsürlər" adlı məqaləsini dastanlarda "islami ünsürlər"in dərinliyini göstərmə təşəbbüsü kimi qiymətləndirmək olar (14, 77-159). Ancaq hər iki müəllif islamın dərinliyini "islami ünsürlərin" kəmiyyət çoxluğu şəklində anlayır. Məsələnin bu şəkildə idrakı özü-özlüyündə müəllifləri oğuznamələrin *islamlaşması* konsepsiyasının tərəfdarları sırasına qoyur. Bir halda ki, oğuznamələrdə islam "ünsür" səviyyəsindədir, onda bu "ünsürlərin" kəmiyyəti məsələnin mahiyyətinə o qədər də tə-

sir etmir. Oğuznamə və islam probleminə P.Pelyo da *islamlaşma* şəklində yanaşır. Müəllif Maksadofun "Oğuz" dastanının "Türküstanda türklərin VIII əsrdə islam dünyası ilə təmasından sonra yaradılmış olması" fikrinə qarşı çıxmaqla sözügedən mövqedə dayandığını göstərir (52, 16).

Məsələnin bu şəkildə qoyuluşu Oğuznamənin islamdan öncə yaranması təsəvvüründən qaynaqlanır. Oğuzların qədim xalq, Oğuznamənin isə onların yaradıcılığının məhsulu olmasını düşünən araşdırıcı məsələni *islamlaşma* şəklində qoymağa məcburdur. Üstəlik ortada Oğuz haqqında dastanın hər hansı "islami ünsürdən" uzaq uyğur versiyası var. Oğuznaməni Uyğurnamədən ayırmayan araşdırıcı istər-istəməz *islamlaşma* fikrini ortaya atır. Ancaq məsələyə başqa münasibət də var. N.Cəfərov "Kitabi-Dədə Qorqud"da islam məsələsini sırf poetik hadisə kimi dəyərləndirir və bu hadisəni dastanların "ideoloji-mənəvi mühiti" ilə, yəni islam mühiti ilə əlaqələndirir. "İslam dini mötivləri"ni "Kitab"ın ideya-estetik, poetik əsaslarından biri olduğunu dilə gətirən müəllif dastanların islam mühitində yarandığını etiraf etmiş olur (13, 5). Bununla bərabər, Oğuznamədə islamın yerindən danışarkən onu yaradan xalqın düşüncə tipi nəzərə alınmalıdır. Bütün xalqlar kimi, türkmanların da özünəməxsus düşüncə sistemi olmuşdur. Onların islam inancı əsasında yaranmış xalq olduqlarını yada salsaq, türkman düşüncə sisteminin ənənəvi düşüncədən gələn ünsürlərlə, islamdan gələn ünsürlərin əsasında formalaşdığını söyləmək olar. Oğuznamə də bu düşüncə tipinin məhsuludur. Təsadüfi deyil ki, Oğuznamələrdə ənənədən gələn ünsürlərlə islamdan gələn ünsürlər bir çox hallarda yanaşı işlənir və paralelizmin komponentləri bu iki ünsürdən təşkil olunur. Yaxud da ənənədən gələn ünsürlər islam örtüyünə bürünür (20, 3-9).

Bəşər tarixinin ən böyük hadisələrindən olan türkman hərəkatı olmasaydı, çox güman ki, Oğuznamə də yaranmaya-

caqdı. Söhbət türkman ellərindən biri olan Səlcuqlu hərəkatından və Səlcuqlu dövlətinin bayrağı altında türkmanların cahangirlik yürüşlərindən gedir. Bu yürüşlər Türküstandan Misirə qədər uzanan Böyük Səlcuqlu imperiyasının yaranmasına gətirib çıxartdı. Baş verən bu tarixi hadisə ruhuna görə türk cahan hakimiyyəti düşüncəsini ifadə edən Oğuz haqqında qədim dastanı xatırladırdı və ozanlar bu qədim dastanı götürüb onun əsasında Oğuznamə yaratdılar. Orta əsr müəlliflərinin əsərlərində bu dastanın əsas etibarilə məzmunu verilmişdir. Ancaq bu halında da onun monumental görkəmini görməmək mümkün deyil.

Oğuznamədə epik sosiumun ərazisi, deyildiyi kimi, Türküstandır. Oğuz Qaraxan tərəfdarlarını Türküstandan çıxarıb Karakuruma qovduqdan sonra bu ərazidə ona qarşı çıxanları itaətə gətirir və "Talasdan, Sayramdan Mavərənnəhrə, Buxaraya və Xarəzmə qədər olan torpaqları tutub öz hakimiyyəti altına alır. Bununla belə, Oğuzun şimal-qərb istiqamətində yürüşləri "başqurd"ların itaətə gətirilməsi ilə başlayır (24, 31). Bu, o deməkdir ki, "başqurd"lardan cənuba və şərqə doğru uzanan torpaqlar Oğuzun və Oğuz elinin ana vətənidir, yəni Türküstandır. Artıq deyildiyi kimi, Oğuz elinin tarixi coğrafiyası da elə bu şəkildə olub. Deməli, Oğuzun hərbi yürüşünün ikinci mərhələsi oğuzların Türküstana hakim olmasını ifadə edir.

Oğuzun cahangirlik yürüşləri, deyildiyi kimi, tarixi baxımdan böyük türkman hərəkatını əks etdirir. Ancaq bu hərəkat epik ənənənin verdiyi imkanlar çərçivəsində, eləcə də qədim və orta əsr türk təfəkküründə cahan hakimiyyəti düşüncəsinin tutumu ilə uzlaşaraq əks olunur. Oğuznamənin epik tarix olduğunu nəzərə alsaq, bu, elə belə də olmalı idi. Bu baxımdan Oğuz xanın Çinə, Maçinə və Hindistana yürüşünü deyilən səbəblərə bağlamaq mümkündür. Bundan başqa, Kıl-Barakla savaşın dastanın uyğur versiyasına da xas olduğunu

yada salsaq, onun epik mahiyyət daşıdığını söyləmək olar. Halbuki *barakların* etnik varlığı, irəlidə görəcəyimiz kimi, əfsanə deyil. Ancaq dastanın uyğur versiyasından fərqli olaraq, Oğuznamə bu hadisəyə geniş epik məzmun verir.

Oğuznamə Çin, Maçin, Hind, Sınmi Yağma xan, naməlum İnal xan, Qur, Qarçistan, Habil və Zabilin fəthini tələsik söyləyəndən sonra şimal-qərbə keçir. Burada "başqurd"ların və kıl-barakların itaətə gətirilməsi aydın şəkildə əks olunur. Qaranlıq ölkəyə səfərdən sonra Oğuz Dərbəndə yaxınlaşır. Maraqlıdır ki, Oğuznamə tarixi gerçəkliyin əksinə olaraq, yürüşü cənubdan deyil, şimaldan başlayır. Öncə Dərbənd, ardınca Şirvan fəth olunur. "Oğuz kağan" dastanında Oğuzun atları Muz dağında, Oğuznamədə isə Dərbəndin alınması zamanı itir. Gürcüstanın dirənişi heç bir fayda vermir. Bundan sonra Antakşəhrin Təkfur xanı, franklar və rumlular boyun əyir. Hiss olunur ki, Oğuznamə bu hadisələrə xüsusi diqqət yetirir və onlardan həvəslə danışır. Dəməşq və Misir Oğuz ordusu qarşısında tab gətirə bilməyəcəklərini anlayıb tabe olurlar. Ancaq Oğuzun islam ölkələrinə xüsusi münasibəti var. O, Adəm peyğəmbərin dəfn olunduğu yerə – Dəməşqə hücum etmək istəmir, Məkkədən, Mədinədən torpaq gətirtdirib bədəninə sürtür. Oğuz geriyə dönərək şərq istiqamətində irəliləyir. Bağdaddan sonra Bəsrə, Xuzistan tutulur. İsfahanlıların müqaviməti Yüşi Xocanın düşündüyü hərbi hiylə ilə qırılır. Ardınca Fars, Kirman, İraqi-Əcəm, Rey, Qəzvin, Həmədan tabe olur. O, yaylamaq üçün Dəmavəndə yola düşür. "Oğuz" dastanı üçün səciyyəvi olan kalaçlar məsələsi Dəmavənd səfərində baş verir. Yəni Oğuznamə xələcləri burada yaxalayır. Mazandaran, Gurgan, Dehistan və Kuhistan və s. bölgələrin fəthindən sonra ana yurda – Türküstana dönür. Burada Bozok-Üçok sistemini yaradır. Hakimiyyəti böyük oğlu Gün xana vəsiyyət edib dünyasını dəyişir.

Rəşidəddin mətni əsasında son dərəcə qısa şəkildə etdiyimiz təsvirdən görünür ki, dastanın Oğuznamə versiyasında Oğuzun cahangirlik yürüşlərinin ağırlıq mərkəzi Dərbənddən başlayan və Buxara sərhəddində yerləşən Yalquz Ağacda tamamlanan qərb yürüşünün üzərinə düşür. Şərqə doğru yürüşləri “könülsüz və tələsik” şəkildə söyləyən Oğuznamə qərb yürüşlərindən danışarkən dil açır. Bununla yanaşı, Oğuznamə bu ölkələri, az qala el-el, mahal-mahal tanıyır. Bu tanışlıq Türküstan alplarının Misirə, Anadolunun qərbinə qədər uzanan tarixi yürüşləri və bu böyük coğrafiyaya yayılmaları ilə bağlı olaraq yaranmışdı. Söhbət türkmanların qərb axınlarından gedir. Bu axınlar onlarla dövlətin tarix səhnəsindən silinməsi və Böyük Səlcuqlu imperiyasının quruluşu ilə tamamlandı.

Oğuzun cənub-qərb istiqamətində cahangirlik yürüşləri, şübhəsiz ki, funksional mahiyyət daşıyaraq hegemon xalq kimi türkmanların sözügedən coğrafiyaya yayılmasının tarixini izah edirdi. Ancaq tarixi həqiqətin əksinə olaraq, Oğuznamə bu hadisənin islamdan çox-çox əvvəllər baş verdiyini söyləyir və beləliklə, bu tarixi qədimləşdirir.



**Epik sosiumun üzvləri və onların "mətndənkənar gerçəkliklə" əlaqəsi**

Etnik anlamı ilə oğuzun yalnız Oğuz soyundan olanlardan ibarət olması fikri (6, 93) Oğuznamənin təsvir etdiyi mənzərəni ifadə etmir. Dastanda Oğuz tərəfdarları da bu sıraya daxil edilir. Deyildiyi kimi, Oğuz onlara *uyğur* adı verir. Ancaq o, Talas və Sayramın müdafiəsini "uyğur tayfalarına" tapşırır və *on toquz oğuz* adı verilən bir ordu yaradır. Oğuznamə *on toquz oğuz* etnoniminin mənasını onların "doxsan min yurddan Oğuzun ətrafına toplanması" ilə əlaqələndirir. Dastanların *doxsan min* sayına mübarək anlam verib onu formul şəklində işlətdiyini nəzərə alsaq, sözügedən etnonimin yozumunun epik mahiyyət daşıdığını görmək olar. Əslində, *on toquz oğuz* VIII əsrdə yazılması ehtimal olunan "Moyin çor" abidəsində adı çəkilən *on uyğur doqquz oğuz* etnoniminin (56, 145) Oğuznamə variantıdır. Uyğurlar bu etnonimi *on uyğur doqquz uyğur* şəklinə salıb, onu uyğurlaşdırır (23, 146). Oğuznamə isə həmin etnonimin içərisindən *uyğur* sözünü çıxardıb, onu *on toquz oğuz* şəklinə salır və beləliklə, qədim etnonimdən yararlanaraq vəsf etdiyi xalqa *oğuz* adı verir. Kanqlı, kalaç, karluk, qıpçaq kimi tayfaların uyğurların içərisindən çıxması haqqında Rəşidəddinin söylədiyi fikir (23, 75) *on toquz oğuz* məsələsinin diqqətdən yayınması ilə bağlı olmuşdur. Doğrudur, mətndə kanqlılar haqqında məlumat *on toquz oğuzdan* öncə verilir, ancaq müəllifin dastanın məzmununu verdiyini nəzərə alsaq, kanqlılar haqqında tələsikliyə yol verdiyini düşünmək olar. Beləliklə, sözügedən tayfalar *on toquz oğuzun* içərisindən çıxır. Bu şəkildə Oğuz hərəkatı etnik anlamı ilə oğuz hərəkatına çevrilir.

S.P.Tolstov qıpçaqların Oğuznamədəki halını onların oğuzlara tabe olması şəklində dəyərləndirir (70, 91). Ancaq məsələnin əsl qiymətini ona funksional baxımdan yanaşan Rə-

şidəddin verir. Müəllif epik sosiumun tarixi sosiumu ifadə etdiyini nəzərdə tutaraq sözügedən tayfaları "Oğuzla bir olan və ona birləşən türkmənlər" adlandırır (23, 85). Başqa bir yerdə məsələyə eyni şəkildə yanaşan müəllif, fikrini daha konkret şəkildə ifadə edərək türkmənlərin "qıpçaqlara, kanqlılara, karluklara və başqa tayfalara bölündüyünü" və "onların Oğuz soyu ilə qarışdığını" söyləyir (23, 83). Deməli, Oğuz haqqında qədim dastanda adı çəkilən etnik birliklər Oğuznamədə Oğuz elinin bir parçası kimi təqdim olunur. Məsələ aydındır! Oğuz elinin etnik tərkibi Oğuznamədə türkmanların etnik tərkibi əsasında yaradılır. Beləliklə, Oğuznamə Oğuz elinin (əcdadların) yaranmasını və qismən də, cahangirlik yürüşlərini hansı şəkildə türkmanların (varislərin) yaranışına və tarixi yürüşlərinə uyğun şəkildə təsvir edirsə, epik sosiumun üzvlərini də o şəkildə türkmanların etnik tərkibinə uyğun şəkildə təsvir edir. Burada Kanqlı, Qıpçaq, Karluk, Kalaçın Oğuz haqqında dastanın ənənəvi qəhrəmanları olması mahiyyəti dəyişmir. Sadəcə olaraq, qədim dastan müxtəlif etnik mühitlərdə yenidən doğulur və onun ənənəvi motivləri fərqli şəkildə mənalandırılırdı. Məsələn, əgər "Oğuz kağan" dastanında karluk, kalaç, kanqlı və qıpçaqlar uyğurlara tabe olan xalq kimi mənalanırdısa, türkman etnik mühitində yaranan Oğuznamədə onlar etnosun bir parçası kimi təsəvvür olunurdu. Əgər türkmanların tərkibinə sözügedən xalqlardan oba və oymaqlar qatılmışdısa, onda mübarək dastan buna laqeyd qala bilməzdi. Oğuznamənin aid olduğu etnik mühit içərisində yerinə yetirməli olduğu funksiya məsələnin mahiyyətini anlamağa imkan verir. Soykimliyi (əcdadlar) haqqında mübarək dastan "keçmiş haqqında hekayə" olmaqla yanaşı, "bu günü, bəzən də gələcəyi izah etmək vasitəsi"dir (71, 12). Ona görə də əcdadlar haqqında dastanda məlum etnosun çağalıq dövrü təsvir olunur və onun cizgiləri çəkilir. Bu şəkildə Oğuznamə arxaik düşüncənin "başlanğıcı

olan mövcuddur" (Y.M.Lotman) prinsipinə əməl edərək mövcud olanın başlanğıcından danışır.

Qeyd edək ki, oğuzlar da daxil olmaqla adı çəkilən xalqların hər birinin özlərinə xas olan etnoqonik səciyyəli "mif və ya mifolojiləşmiş tarixi əfsanələri" (V.N.Toporov) olmuşdur. Burada heç olmasa, qaraxanlıların özlərini *Şana* və ya *Əfrasiyab soyuna* bağlamaları haqqında Məsudinin verdiyi məlumatı (36, 84) və ya uyğur xalqının mənşəyi haqqında "Bögü təkin" dastanını xatırlatmaq istərdik (50, 74-77). Ancaq türkman etnik mühiti içərisində belə bir funksiyanı Oğuznamə yerinə yetirirdi və etnosun içərisində olan bütün tayfalar özlərinin soykötüklərini Oğuznamə əsasında izah edirdilər. Məsələn, Qıpçağın doğuluşunun təsvirini verəndən sonra Rəşidəddin, müasirlərinin münasibətini ifadə edərək yazır: "Başqa türklərin fikrinə görə, bütün qıpçaq tayfaları bu Qıpçaqdan əmələ gəliblər" (24, 36). Yaxud da qara düşüb yolda qaldığı üçün Oğuzun Karluk adı verdiyi ailələr (çox güman ki, şəxs) haqqında məlumat verəndən sonra Rəşidəddin "müasir dövrdə özünü karluk adlandıranların bu ailədən törədiyini" söyləyir (24, 61). Əbülqazi "Kanqlı elinin" Oğuzun Kanqlı, "Kalaç elinin" Kalaç adı verdiyi şəxsdən törədiyini yazır (38, 43, 46). Kanqlı, qıpçaq, karluk və kalaçların mənşəyinin Oğuznamə yozumu həm türkmanların etnik sərhədləri içərisində olanlara, həm də ondan kənarda olanlara aid olunması məsələnin mahiyyətini dəyişmir. Məlum etnos öz tərkibini qəbilələr şəklində tanıyırdı və öz xalqının hüdudlarını yaxşı bilirdi. Bu baxımdan bəydililərin barakları türkman saymaması maraq doğurur. F.Sümer bəydililərin bu barədə yanlış düşündüyünü söyləyir (60, 194-195). Ancaq barakların Oğuznamədə Oğuzun düşmənləri sırasında dayandığını yada salsaq, bəydililərin yanılmadığını görmək olar.

Oğuznamədə Oğuz Yabqu dövlətinin (tarixi sosiumun) subyektləri olan boylar, deyildiyi kimi, Oğuz törəmələri kimi təqdim olunur. Oğuznaməyə görə, onların sayı 24 olub. Bu düşüncə şüurlarda o dərəcədə kök salıb ki, boyların sayı və tərkibinin başqa cür ola biləcəyi heç kimin ağlına gəlmir. Ancaq Oğuz elinin iyirmi dörd boydan ibarət olmasını təsdiq edən heç bir tarixi qaynaq yoxdur. İyirmi dörd rəqəmini biz Oğuznamədən almışıq. M.Kaşğarlı iyirmi iki oğuz boyunun adını çəkir. Ancaq M.Kaşğarlı "Divanı" bu məsələdə etibarlı mənbə sayıla bilməz. Deyildiyi kimi, M.Kaşğarlı bu məsələdən Oğuz elinin dağılmasından ən azı 100 il sonra danışır. Onun "Divanü lüğat-it-türk"ü yazdığı illərdə Oğuz eli tarix səhnəsindən çoxdan silinmişdi. Müəllifin "oğuzlar türkməndir" deməsindən görünür ki, o, oğuzları yalnız *türkmən* halında tanıyıb. Fikrimizcə, "Divanü lüğat-it-türk"də verilən məlumat Oğuznaməyə əsaslanır. M.Kaşğarlının boyların adlarını onların babalarının adı sayması da, məlum olduğu kimi, Oğuznamə düşüncəsidir. Bununla belə, boyların sayını iyirmi dörd deyil, iyirmi iki olması söyləyicinin biliyindən, M.Kaşğarlının məsələyə münasibətindən və ya boyların tərkibinin hələ sabitləşməməsindən asılı ola bilərdi. Hər halda XIII əsrdə Oğuznamə iyirmi dörd rəqəminin üstündə dayanır və bu iyirmi dörd təkcə Oğuz haqqında dastanda deyil, başqa oğuznamələrdə də "iyirmi dörd boyun oxşayan", "iyirmi dörd bahadır sancaq bəyi" və ya "iyirmi dörd xas boy" şəklində hallanır (27, 86; 33, 95). Deməli, poetik sistemin ünsürünə çevrilir.

Araşdırıcılar (A.N.Bernştam, S.P.Tolstov) iyirmi dörd boy məsələsini iyirmi dörd boydan təşkil olunan Böyük Hun imperiyası ilə əlaqələndirirlər (9, 37; 70, 78-80). Əgər iyirmi dörd rəqəminin arxasında daha qədim düşüncə durmursa, onda bu hadisəni hunlarla bağlamaqdan başqa çarə qalmır. Həqiqətən də, Mərkəzi Asiya xalqlarının tarixində böyük hadisə

olan və əsrlərlə yaşamış bir dövlətin etnososial sistemi bu xalqların düşüncəsində mübarək rəqəmə çevrilə bilərdi. Onun əski türkman dünyasına aid bölgələrdə sosial, siyasi və mədəni səviyyədə işlənməsinə aid çoxsaylı faktlar var (60, 78-80; 70, 209-210). Belə görünür ki, iyirmi dörd boy məsələsi sırf epik hadisədir və epik sosiumun mübarəkliyini ifadə edir. Bu hadisə M.Kaşğarlının "doqquz tuğlu xan" barədə söylədiyinə bənzəyir: "Xanın vilayəti nə qədər çox, dərəcəsi nə qədər yüksək olursa-olsun, tuğun sayı doqquzdan artıq olmaz. Çünki bu, uğurlu rəqəmdir" (31, 127). Belə olan halda Oğuznamə tarixi sosiumun üzvlərini ya iyirmi dördə qaldırmalı, ya da iyirmi dördə endirməli idi. Fikrimizcə, boyların siyahısı tərtib olunarkən təkcə boyun tarixi sosiumun üzvü olması deyil, həm də onların türkman elləri içərisində nüfuzu əsas götürülmüşdür. Təsadüfi deyil ki, Oğuznamə M.Kaşğarlının məlumat verdiyi *çaruq* boyunu tezliklə Oğuz boyları sırasından çıxarır. F.Rəşidəddinin siyahısında bu boyun adı yoxdur. Düşünürük ki, bunun səbəbi, M.Kaşğarlının söylədiyi kimi, onların sayca az olmaları ilə bağlı olmuşdur (31, 56). Bu fikir oba və kənd adları içərisində *çaruqlu* adının seyrək şəkildə çəkilməsi ilə də təsdiq olunur (60, 259). Zəifliyi ucbatından təsir gücünü itirən *çaruqlu* boyu Oğuznamənin də nəzərindən düşmüşdür. Başqa bir örnək: Rəşidəddin *yaparlı* boyunun *yağma* olduğunu, Oğuzun onları cəzalandıraraq Xitay tərəfə göndərdiyini və bu səbəblə "bu zamanda türkmən ölkəsində onun soyundan yoxdur" söyləyir (69, 51). Həqiqətən də, yer-yurd, oba-oymaq, kənd adları içərisində *yaparlı* adına təsadüf olunmur (60, 259). Aydın olur ki, Oğuznamə *yaparlı* boyunun tarixi sosiumun üzvü olmasını unutmayıb. Bununla belə, onların türkmanların içərisində olmamasını bağışlamır. Əbülqazidə *yaparlı* boyu türkmənlər içərisində bu gün də yaşayan *yasir* boyu ilə əvəz olunur. Bu boyun adı nə M.Kaşğarlıda, nə də F.Rəşidəddində

var. Buradan görünür ki, oğuz boylarının Oğuznamədə göstərilən tərkibi müəyyən hallarda onların türkman cəmiyyətindəki nüfuzundan asılı olub. Orta əsrlər tarixi ilə məşğul olan araşdırıcılar Oğuznaməni tarixi qaynaq yerinə qoyub oğuz boylarından danışarkən məsələnin bu tərəfini nəzərə almalıdırlar. Onu demək istəyirik ki, Oğuznamədə adı çəkilən oğuz boyları onların mütləq mənada tarixi sosiumun üzvü olmasını ifadə etmir. Oğuz boyları sırasında yer tutmaq üçün güclü bir türkman eli olmaq da kifayət edərdi. Ancaq bu, heç də Oğuznamədə adı çəkilən boyların tarixi sosiumla heç bir bağı olmaması anlamına gəlmir. Yeri gəlmişkən, boyların süniliyi məsələsində S.P.Tolstovun ifrata varması şübhəsizdir. Müəllifin bu şəkildə düşünməsi oğuz boyları ilə Türkmənistan türkmənlərinin etnik tərkibinə daxil olan boyları müqayisə etməsindən qaynaqlanır (70, 78). Biz Oğuz boylarının türkman etnik mühitinə necə daxil olmasından və necə yayılmasından bəhs etdiyimiz üçün məsələnin üzərinə təkrar qayıtmağa ehtiyac görmürük. Sözümüz odur ki, Oğuznamənin Oğuz elinin subyekti kimi tanıtdığı oğuz boylarının hamısı tarixi sosiumun üzvü olmamışdır. Ona görə də Oğuznamənin tanıdığı oğuz boyları oğuz gerçəkliyi ilə türkman gerçəkliyinin qovuşuğundan yaranıb. Bir sözlə, epik mahiyyət daşıyır.

Siyahıda olan Oğuz boylarının Oğuznamədə “fəaliyyətinə görə” də bir-birindən fərqlənməsi sözügedən məsələ baxımından düşündürücüdür. İş ondadır ki, Oğuz boylarının bir çoxunun adı ancaq boyların siyahısında çəkilir. Yəni onlar epik sosiumun üzvü kimi fəaliyyət göstərmirlər. Alkabölük (alkaevli), qarabölük (qaraevli), dodurqa, kızık, karkın, çəpni, eymur, alayuntlu, ürəkir kimi boylar bu qəbildəndir. Bu vəziyyət onların türkman cəmiyyətində Oğuznamənin diqqətini cəlb edəcək dərəcədə güclü olmadıqlarını göstərir. Bunun əksinə olaraq, yalnız türkman etnik mühitində müstəqil və güclü bir el kimi

meydana çıxan qaramanlı və kozanlıların Oğuznaməyə daxil olması da bu baxımdan çox şey deyir. Söhbət Səlim oğlu Qaraman və Okçu Kozan kimi Oğuznamə qəhrəmanlarından gedir.

Biz 24 boy məsələsi ilə bağlı qeydlərimizi X.Koroğlunun bir fikrinə münasibət bildirməklə tamamlamaq istərdik. Müəllif Oğuznamə ilə bağlı araşdırmasında Oğuznamə saydığı "Oğuz kağan" dastanında "24 oğuz tayfası haqqında məlumatın olmamasını" göstərir (39, 46). Məsələyə belə münasibət Oğuz haqqında dastanla Oğuznaməni eyniləşdirmədən doğur. Nəticədə dastanın hər hansı bir versiya və ya variantı Oğuznamə sayılır. Elə ona görə də müəllif "Oğuz kağan" dastanının sonunda 24 boy haqqında məlumat axtarır. Qeyd edək ki, Oğuz haqqında dastan nəinki türkman və hətta ondan çox-çox erkən yaranmış uyğur versiyasından da öncə epik ənənədə müxtəlif variantları ilə yaşayan dastanlardan biri olub. Onun uyğur etnik mühitində yaranan "Oğuz kağan" versiyası ilə Oğuznamə versiyası bu variantların əsasında formalaşıb və ehtimal ki, biri uyğur, o biri türkman etnik mühitində oxşar



funksiya yerinə yetirib. Boyların siyahısının, əsas etibarilə, dastanın mənsub olduğu etnosun sosial sifarişi əsasında yarandığını nəzərə alsaq, onda bir versiya üçün səciyyəvi olan boyların dastanın başqa versiyasına da salınması mümkün deyildi. Hər iki etnosun müxtəlif tayfalardan təşkil olduğunu yada salsaq, söhbətin nədən getdiyi aydın olar.

**Oğuznamə və sosial həyat**

Oğuznamə, eləcə də onun mənsub olduğu xalq öz ömrünü başa vurduğundan onun yaşadığı etnik mühitdə sosial funksiyasından danışmaq o qədər də asan deyil. Ancaq bu məsələnin öyrənilməsi, bütün mübarək mətnlər kimi, Oğuznamənin də əsl simasını üzə çıxarır. B.Malinovskinin söylədiyi kimi, "mifin əsl mənası, faktiki olaraq onun mahiyyəti hekayədə yox, sosial təşkilatın prinsiplərindədir. Yerli, mifi fraqmentlər halında dinləyərkən yox, bilavasitə sosial həyat prosesində mənimsəyir" (46, 113). Ancaq cahangir atalar haqqında dastanlar ifa olunarkən də auditoriyaya az şey demirdi.

Autoriya Oğuz ata və oğuz atalar haqqında dastanlara böyük heyranlıqla qulaq asırdı. "Bir Tanrı" inancı əsasında el yaradıb ona öz adını verən və bu ellə birgə "dünya mənim" deyib gündoğanla günbatan arasında yaşayan bütün xalqları itaətə gətirən cahangir atalarla "atanın adı övlada mülkdür" düşüncəsi ilə hər bir xalq fəxr edərdi və türkmanlar da bu baxımdan istisna təşkil etmirdi.

Oğuz ata və etnik anlamı ilə oğuz atalar haqqında dastanların hesabına türkmanlar məhz özlərini dünyaya sahiblik haqqı çatan tək xalq sayırdılar və tarix, irəlidə görəcəyimiz kimi, Oğuznaməyə bu üzünü də göstərmək imkanı yaratdı. Ancaq bu məsələyə Oğuznamənin etnik mühit içərisində sosial funksiyasından başlamaq istərdik.

Qədimdən bəri türk dünyasında təmizqanlılar, qanıqarışıqlardan seçilmiş, birincilərə üstün haqlar verilmişdir. Bu institut türkmənlər arasında son dövrlərə qədər qalmaqda idi. Ənənəyə görə, türkmən qadından doğulan uşaqlar təmizqanlı, *"kırnak" (-kəniz)* adı verilən qeyri-türkmən qadından doğulan uşaqlar qanıqarışıq türkmən sayılırdı. Birincilərə *iq,* ikincilərə *qul* deyilirdi. Xalqı təşkil edən tayfalar da *iq – qul* prinsipi ilə təsnif olunurdular: qanıqarışıqlar və ya türkmənlərin tərkibinə sonralar daxil olan tayfalar *qul,* təmizqanlı tayfalar isə *iq* sayılır və *qul tayfalar iq tayfalardan* aşağı tutulurdu. Məsələn, təmizqanlı türkmən qadın (*iq*) *qul* türkmənə ərə verilməzdi (77, 319-323).

Türkmən cəmiyyətinin həm *iq – qul,* həm də oğuz – qeyri-oğuz şəklində təsnif olunduğunu söyləyən Q.P.Vasilyevanın fikri ilə razılaşmaq olmaz (75, 96). Məsələ bundadır ki, Oğuznamədə təsvir olunan epik sosiumun üzvləri Əbülqazidə *iq – qul* prinsipi ilə təsnif olunur. Burada sonradan türkmənlərin içərisinə qatılan tayfalar (qireyli, sultanlı, oklı, yurtçı, kazıkurt, lala, sayır və s.) Oğuzun nəvələrinin kənizlərindən doğulanlar kimi təqdim olunur. Qeyri-türkmən qadınların kəniz sayıldığını nəzərə alsaq, sonradan türkmənlərin içərisinə qatılan tayfaların *qul* kateqoriyasına daxil edildiyini görmək olar. Əlbəttə, məsələnin bu tərəfi türkmən gerçəkliyini ifadə edir. Ən maraqlısı odur ki, epik sosiumun "qədim üzvləri" olan *kanqlı, qıpçaq, karluk, kalaçlar* da onlarla birgə *qul* kateqoriyasına daxil edilir və Oğuz övladlarının kənizdən doğulan uşaqları ilə birgə 24 boyun çilovdarı olur. Yəni *qul* kateqoriyasına daxil edilərək təmizqanlı Oğuz soyunun xidmətçiləri kimi təqdim olunur. Sözügedən tayfaların *qul* kateqoriyasına daxil edilməsi təsadüfi deyildi. Türkman düşüncəsinə görə, təkcə qanıqarışıqlar deyil, həm də dövlət qulluğuna girən

şəxslər *qul* sayılırdı. Məmurların və nizami ordu əsgərlərinin orta əsrlərdə *qul* adlanması deyilən hadisə ilə bağlı idi.

Epik sosiumun üzvlərinin *iq – qul* prinsipi ilə təsnifinin Türkmənistan türkmənlərinə onların etnik əcdadı olan türkmanlardan qaldığını vurğulayaraq demək istəyirik ki, onların *iq – qul* prinsipi ilə təsnifi türkman cəmiyyətində oğuz tayfalarının qeyri-oğuz tayfalardan sosial, mənəvi və siyasi müstəvidə üstün tutulduğunu ifadə edirdi.Bir şey həqiqətdir ki, ənənəvi türkman düşüncəsi *qullara* siyasi hakimiyyət haqqı tanımırdı. Təsadüfi deyil ki, səlcuqlular qəznəlilərə baş qaldırarkən onların *qul* soyundan olmalarını əsas gətirirdilər (42, 89). Söhbət Qəznəli dövlətinin qurucusu olan Səbuk təkinin Samani dövlətinin əmiri olmasından gedir. Bunun əksinə olaraq, ağqoyunluların "heç bir təşkilata tabe olmaması və sərkərdələrdən asılı olmaması" öz zamanında onların siyasi hakimiyyət haqqının əsaslarından biri kimi irəli sürülürdü (22, 39). Bu müstəvidə nizami orduya qatılaraq *qul* olmaq Oğuz soyunun şərəf və ləyaqətinin ləkələnməsi və buradan da siyasi hakimiyyətə gedən yolun bağlanması kimi yozulur. Göründüyü kimi, nəinki *qu*l, hətta *qul* tanasını qulaqlarına keçirərək *Mübarək Soyun* şərəfinə ləkə gətirmiş *iq* də siyasi hakimiyyət haqqını itirmiş olurdu.

*Qul* kateqoriyasına daxil olan türkmanların siyasi hakimiyyət haqqı olmasa da, onların da türkman cəmiyyətində deməyə sözləri var idi. Etnosun tərkibində olan uyğur tayfaları, şübhəsiz ki, Oğuz atanın ilk tərəfdarları olmaları və Oğuz yurdunu düşmənlərdən qorumaları, kanqlılar araba düzəldib Oğuzun əldə etdiyi qəniməti daşımaları, qıpçaqlar Oğuz elinə qarşı qiyam qaldırmış kıl-barakları itaətə gətirmələri və Oğuz elinin bir hissəsini idarə etmələri ilə fəxr edə bilərdilər. Kalaçlar və karluklar Oğuzun cəzalandırdığı tayfalar olsa da, onlar Oğuz yürüşlərində iştirak etmələri ilə öyünməli idilər. Ən başlıcası

isə sözügedən qədim etnik birliklərlə bağlı motivlər onların hansı səbəbdən türkman olmalarını motivləşdirirdi.

Qədim türklərin yaratdığı bütün etnik və siyasi qurumlar inzibati baxımdan iki yerə bölünür və bu bölgü etnosiyasi sistemin əsasında dayanırdı (72, 29-40). Oğuzlar da bu baxımdan istisna təşkil etmir. Tarixi qaynaqlarda (İbn-əl Əsir, Hafizi-Abru) *Buzuk* və *Uçuk* adı ilə qeyd olunan oğuz etnik sistemi (60, 113-114; 4, 186) Oğuznamədə *Bozok-Üçok*, yaxud *Bozaq-Üçoq* şəklində əks olunur. Məlum olduğu kimi, bu adlar dastanın uyğur versiyasına da xasdır. Maraqlıdır ki, uyğur etnosiyasi sistemi də məhz bu şəkildə adlanmışdır (37, 33-34). Bu baxımdan dastanın hər iki versiyası tarixi gerçəkliyi əks etdirir. Bununla yanaşı, dastanın həm uyğur, həm də Oğuznamə versiyasında *Nizamın* yaradıcısı Oğuzdur. O, oğlanları arasında hakimiyyət bölgüsü apararaq, onlardan üçünə hakim *Bozok*, üçünə isə onlardan asılı olan *Üçok* ünvanı verir və bu şəkildə Oğuznamə tarixi sosiumun etnosiyasi sistemini götürərək onu Oğuzun adı ilə bağlayır. Ənənəvi düşüncə "əzəli olanı" mübarək sayır. Ona görə də Oğuznamə məlum *nizamı* Oğuzun adına bağlayaraq ona mübarək sima verir.

Dastanda sözügedən bütün hadisələr, o cümlədən də *Mübarək Nizam* özü-özlüyündə maraqlı bir tarixi əhvalatdır. Onun gücü (eləcə də semantikası) sosial həyatda fəaliyyətə keçdiyi zaman ortaya çıxır.

Türkman etnik sistemi *Bozok-Üçok* bölgüsü əsasında qurulmamışdı. Türkman elləri sırasında qarşılaşdığımız *Bozok* və *Üçok* adı (60, 619-622) məsələnin mahiyyətini dəyişmir. Onların oğuz etnik sisteminə uyğun şəkildə təşkil olunması və nə vaxtsa vahid el olub sonradan parçalanması bizdə şübhə doğurmur. Bununla yanaşı, bu hal lokal səciyyə daşıyırdı. Ancaq oğuznamələrdə Oğuz elinin *Bozok-Üçok* və onunla paralel anlam daşıyan *İç Oğuz-Taş Oğuz* şəklində təsnif olunma-

sından görünür ki, *Mübarək Nizamın* əsas komponenti kimi bu bölgü tarix boyu türkmanların şüurunda yaşamışdır. Bu halda onun mənəvi səviyyədə fəaliyyət göstərməsinə şübhə ola bilməz. Deməli, siyasi güc sahibi olub-olmamasından asılı olmadan türkman cəmiyyətində *bozoklardan* olan boyların uruq və tirələri *üçoklardan* olan boyların uruq və tirələrindən üstün tutulmuşdur. Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqinin Osmanlı elçisi kimi 1449-cu ildə Təbrizə gəlmiş tarixçi Şükrullaha Kayı soyunun üstünlüyünü nəzərdə tutaraq söylədiyi sözlər *Mübarək Nizamın* türkman həyatında oynadığı rolu təsəvvür etmək üçün maraqlı örnək verir: "Qardaşım Sultan Muradın nəsəbi bizim nəsəbimizdən ağadır. Göklə dənizin arasında fərq olduğu kimi" (61, 51).

Deyildiyi kimi, "iyirmi dörd xas boy", Oğuznaməyə görə, oğuzların siyasi hakimiyyətə haqqı çatan hissəsidir. Ancaq Oğuznamədə siyasi hakimiyyət böyüklük prinsipi ilə verilir. Belə ki, burada Oğuzdan sonra onun böyük oğlu Gün xan taxta oturur. Gün xandan sonra hakimiyyət onun böyük oğlu Kayı xana keçir və irəlidə bəhs edəcəyimiz kimi, Kayı soyu çərçivəsində də davam edir. Yəni *kayı* bütün Oğuz elləri üzərində siyasi hakimiyyət haqqı çatan yeganə boy kimi təqdim olunur. Bununla yanaşı, *kayı* boyu türkman dünyasında siyasi hakimiyyət haqqını heç vaxt gerçəkləşdirə bilmədi. Məlum olduğu kimi, türkmanların tarixi boyu bütün ellər üzərində *bozokların* birinci boyu *kayı* deyil, *üçokların* sonuncu boyuna mənsub olan *kınıkların Səlcuqlu ailəsi* hakim ola bilmişdi. Deməli, həmişə olduğu kimi, "salavat gücə bağlıdır" qanunu gerçək həyatda öz sözünü demişdi. Ancaq siyasi hakimiyyət məsələsində türkmanların Oğuznaməyə məhəl qoymadıqlarını söyləmək olmaz. İrəlidə görəcəyimiz kimi, *osmanlılar* türkman bəyliklərini özlərinə tabe etdirmək istəyərək məhz *kayı* adına sığınmışdılar. Bununla yanaşı, istər böyük

dövlətlərin, istərsə də kiçik bəyliklərin qurucuları siyasi hakimiyyət haqqını Oğuznamədən alırdılar. Yəni onların siyasi hakimiyyət iddiası *Mübarək Soya* mənsub olmalarına əsaslanırdı. Ona görə də bütün türkman ellərinin, bəyliklərinin, dövlətlərinin başında Oğuz soyuna mənsub olan bəylər, xanlar və sultanlar dayanırdı.

Türkman tayfalarının "tarixi sanksiyalaşdırmaq məqsədi ilə" (K.Levi-Stross) öz soykötüklərində dəyişiklik etməsi halları da Oğuznamənin türkman həyatında yerini anlamaq baxımından əhəmiyyətlidir. Bu baxımdan Qaraqoyunlu Qara Yusifin soykötüyünün Dəniz alp vasitəsi ilə Oğuz soyuna bağlanması maraq doğurur (61, 51). Orta əsr qaynaqlarında qaraqoyunluların hakim sülaləsi *barani* qəbiləsinə aid edilir (61, 147). Deyildiyi kimi, sonuncu oğuz yabquları olan Əli xan və oğlu Kılıç Arslan Şahməlik də bu qəbilədən idi. Baranilərin şimal-qərb istiqamətində köç edən hissəsi rus letopislərində *berendey* şəklində yad olunur (3, 138). Əgər məlum qəbilə Oğuz elinin yaşadığı dövrdə belə *barani* adı ilə tanınırdısa, onda qaraqoyunluların *yiva* boyundan olması fikri özünə yer tapmır (15, 345). Z.V.Toqan, deyildiyi kimi, *baranilərin* kanqlı qəbilələrindən olması fikrindədir. İrəlidə görəcəyimiz kimi, bu etnonimin şəxsləndirilərək *Buran* şəklində oğuz yabquları sırasına daxil edilməsinə baxmayaraq, oğuz boyları arasında *barani* adı yoxdur. F.Sümerin "qaynaqlarda Şah Məliyin oğuz mənşəli olduğuna dair bir ifadə yoxdur" söyləməsi (58, 58) əslində *barani* adının 24 boy arasında çəkilməməsini ifadə edir. Fikrimizcə, bu hadisə türkmanların hafizəsində *baranilərin* acı xatirəsi ilə bağlı olmuşdur. Türkmanlarla *barani* qəbiləsindən olan yabqular – Əli xan və Şah Məlik arasında düşmənçilik tarixə yaxşı məlumdur. Təsadüfi deyil ki, Oğuznamə Oğuz elinin dağılmasının məsuliyyətini *baranilərin* boynuna qoyur. Deməli, Oğuznamə tarixi gerçəkliyin qarşısında boyun əyib onları oğuz

yabquları sırasına salsa da, *Mübarək Soyun* mənsubları sırasından silir. Bu halda Qara Yusifin soykötüyünün hansı boy vasitəsi ilə Dəniz alpa çatması məsələsi müəmmalı qalır. Qaraqoyunlu elində *yivalı* oymaqların çoxluğuna və onların kəsdiyi sikkələrdə *yiva* damğasının varlığına əsaslanan araşdırıcılar onların *yiva* boyundan olmasını ehtimal edir (15, 345). Ancaq F.Sümer sözügedən sikkələrdəki işarənin damğa deyil, naxış olduğunu sübuta yetirir (60, 15). Bununla yanaşı, Oğuznamədə Dəniz xanın övladlarının Yiva, İqdır, Bəkdüz, Kınıkdan ibarət olduğunu nəzərə alsaq, Qaraqoyunlu sülaləsinin onlardan biri vasitəsi ilə özlərini Dəniz xana çatdırdıqlarını düşünmək olar. Göründüyü kimi, soykötüyü dəyişikliyi siyasi hakimiyyətə gedən yolu açmaq üçün Oğuznamədən "rüsxət almaq" məqsədi ilə edilirdi və bu, yeganə hal deyildi. Ağqoyunluların "Kitabi-Diyarbəkriyyə"də təsviri verilən soykötüyü kifayət qədər saxtalaşdırılmışdır. Sözün etdiyimiz məsələ ilə bağlı bu soykötüyündə bizim diqqətimizi cəlb edən cəhət Bayandırın Gün xanın övladı kimi verilməsidir (19, 46). Məsələyə toxunan R.Şükürova haqlı olaraq bu dəyişikliyin siyasi hakimiyyətin legitimləşdirilməsinə xidmət etdiyini söyləyir (62, 28). Bununla yanaşı, Əbubəkr Tehraninin Bayandır xanı Gün xanın övladı kimi təqdim etməsi yazılı qaynaqlardan gəlir. Bunun əksinə olaraq, canlı auditoriyanın gözünün içinə baxa-baxa yalan deyib hamının tanıdığı *bayandırların* soykötüyünü dəyişərək onları Gün xan soyuna calamaq heç də asan deyildi. "Kitabi-Dədə Qorqud"da "Gök xan oğlu"nun müəmmalı "Qamğan oğlu" ilə əvəzlənməsi, ehtimal ki, bu ehtiyacdan ortaya çıxıb. Ancaq *bayandırların* Gök xanın övladı olması şifahi ənənədən silinməmişdi. Bayburtlu Osman Bayandırın (mətndə Bayundur) Kaydur xan və Turmuş xanla birgə Gök alpın oğlu olduğunu söyləyir (18, 40).

Ağqoyunlulardan fərqli olaraq, Osmanlı soykötüyünün saxtalaşdırılması şifahi ənənənin təsviri ilə bağlı olmuşdur. Söhbət Oğuznamənin *bayandırlaşması* ilə bağlı olaraq *kayı* boyundan olan osmanlıların Gün xan övladı kimi deyil, Gök xan övladı kimi təqdim olunmasından gedir. Məlum olduğu kimi, osmanlılar Aşık Paşazadə, M.Nəşri kimi qədim Osmanlı qaynaqlarında Oğuz və Gök alp övladı kimi təqdim olunur. Onların *kayı* boyundan olması ilk dəfə Yazıçıoğlu Əli dilindən deyilir (76, 29). Bu hal araşdırıcıda osmanlıların *kayı* boyundan olmasına şübhə yaradır (68, 322). Ancaq Orxan qazi zamanında kəsilmiş sikkələrdə görünən *kayı* damğası (49, 20-21) osmanlıların *kayı* boyundan olması barədə şübhələri dağıdır. Orta əsrlərdə deyilən səbəblə bağlı olaraq soykötüklərinin dəyişdirilməsi halları, yəqin ki, tez-tez baş vermişdir. Maraqlıdır ki, bu hadisə Kazan Universitetinin Əlyazmalar Kitabxanasında saxlanılan "Bəyani-Oğuznamə"də də özünü göstərir. Məsələyə münasibət bildirən F.Türkmən onu "bəylər arasındakı güc nisbətinin dəyişməsi və zamanla etibarlarının fərqlənməsi" şəklində dəyərləndirir (73, 14).

Türkmanlar mənsub olduğu etnosun üzvlərini ancaq Oğuznaməyə dayanan soylar əsasında tanıyırdı. Kim hansı uruqdandır, hansı uruq hansı tirədəndir, hansı tirə hansı boydandır, eləcə də *iq* və *qul, Bozok* və *Üçok* mənsubiyyəti gündəlik həyatda türkmanları məşğul edən məsələlərdən idi. Rəşidəddin yazır: "Türkmanlar hər bir hakimin, hər bir əmirin bu tayfaların hansı qolundan olduğunu aydın şəkildə bilirlər" (23, 90). Bu baxımdan maraqlı bir qeydlə Yazıçıoğlu Əlidə qarşılaşırıq: "... iyirmi dörd boy Oğuz oğlanları ... hər biri kendü boyların ve asılların bilürlər ki, ḳanḳi kavmdan ve ḳabileden dürürler" (76, 20). Bu ənənə keçən əsrə qədər davam etmişdir. Qaraşxan oğlu Yomudski Türkmənistan türkmənlərini nəzərdə tutaraq keçən əsrin əvvəllərində yazırdı: "Türkmənlərin hamısı

kiçik detallarına və soykötüyü xəttinin dolanbaclarına qədər öz köklərini öyrənməyi çox sevirlər. Onlar sümük qohumluğu əsasında həm ayrı-ayrı şəxslər arasında, həm də qruplar, tirələr, nəsillər və tayfalar arasında qohumluğu aşkara çıxardırlar" (77, 313). Belə biliklər Oğuznamədən baş götürən soykötükləri əsasında mümkün olurdu. Yenə həmin müəllif yazır: "Şəcərə əcdadların, ardınca ataların və anaların adlarını və onların əsil-kökünü tez-tez çox dəqiq şəkildə göstərir. Ona görə də türkmənlərə yad qanın gəlişi yollarını, eləcə də mövcud qruplaşmaların əsasını və səbəbini şəcərəyə görə müəyyən etmək mümkündür" (77, 316). Əsil-köklə bağlı mübahisələr zamanı "şəcərəyə" müraciət olunur və bu şəkildə kimin kimliyi ortaya qoyulurdu (77, 314).

Qohumluq əlaqələrinin yaranması zamanı soy kimliyi məsələsi xüsusilə aktivləşməli idi. Gəlin unutmayaq, "Atalar sözü"ndə qarşılaşdığımız sosial qiyamətin əlaməti kimi Dədə Qorqud dilindən deyilən: "Əslin, kökin bilmədügü yerdən qız almasa, urığın, turığın tanımadığun soya qız verməsə" kəlamı türkman düşüncəsinin məhsulu idi. Əsil-kökün türkman düşüncəsində hansı müstəvidə dəyərləndirildiyini təsəvvürə gətirsək, nə demək istədiyimiz aydın olar.

Ən nəhayət, Oğuznamə qəhrəmanlarının hər biri sosial sifarişə və türkman düşüncəsinə uyğun olaraq konkret bir boyun, tirənin, uruğun mənsubu idi. Bu baxımdan İrkıl Xocanın, Dədə Qorqudun soykötüyünün başında durması təsadüfi deyildi (1, 63; 38, 74). Uyğun olaraq başqa Oğuznamə qəhrəmanlarının da soykötüklərində yer tutması istisna olunmur. Deməli, ifa prosesində deyilib-deyilməməsindən asılı olmayaraq auditoriya qəhrəmanın hansı boydan və ya hansı uruqdan olduğunu yaxşı bilirdi. Bu mənada mətndə qəhrəmanın şəninə qoşulan sözlər həm də konkret bir boyun, uruğun və ya elin iftixar yeri idi.

**Monqol ağalığı və Oğuznamə**

Monqolların tarixi yürüşlərinə qədər türkmanlar *monqol/moğol* adlı bir xalq tanımırdı. Ancaq monqolların müzəffər yürüşləri Oğuz övladlarını fakt qarşısında qoydu və Oğuznamə monqollara münasibət bildirmək məcburiyyəti qarşısında qaldı. Oğuznamə dünyaya hakim olan bu xalqı, deyildiyi kimi, Oğuz övladının qohumu kimi təqdim edir. A.Ercilasun Oğuznamədə əks olunan monqollarla türklərin qohumluğu düşüncəsinin Mete xan dövründən başlandığını ehtimal edir (17, 14-15). Ancaq monqollarla türklərin qohumluğunu ifadə edən motiv sırf funksional mahiyyət daşıyır və əgər monqollar bir etnos olaraq siyasət meydanına çıxmasaydı, Oğuz övladı ilə monqolların qohumluğu Oğuznamənin yadına düşməyəcəkdi. Oğuznamə gerçəkliyi qəbul edərək siyasi güc sahibi olan bu xalqı Oğuz övladının soydaşı kimi təqdim edib, bir yandan Oğuz törəmələrinə təskinlik, başqa yandan monqollarla siyasi əlaqə yaratmaq istəyən ellərə rüsxət verir. Ancaq monqollarla bağlı motivin əsas mənası tamamilə başqadır. Bəllidir ki, Oğuznamə cahan hakimiyyəti haqqını yalnız Oğuz övladına verir. Bu baxımdan Oğuz törəmələri Oğuz atanın Türküstandan Karakuruma qədər qovub *moval* adı verdiyi kafir soydaşlarının siyasi ağalığı ilə barışa bilməzdi. Türküstandan Azərbaycana qədər yayılmış böyük türkman kütlələrinin monqol axınlarının qarşısında geriyə çəkilərək Misir Məmlük dövlətinə və Anadolu səlcuqlularına sığınmasının və monqollara qarşı mübarizə aparmasının əsas səbəbi də burada axtarılmalıdır.

Monqol siyasi dairələri türkmanların mübarizə əzminin haradan qaynaqlandığını yaxşı bilirdilər. Cığatay mədəniyyəti çevrəsində yazılmış əsərlərdə Oğuz soyunun, eləcə də Oğuznamənin monqollaşdırılması yalnız bu müstəvidə izah olunur.



Demək lazımdır ki, Cığatay mədəniyyəti çevrəsində yazılmış əsərlərdə Oğuz soyunun monqollaşdırılması təsvir etdiyimiz şəkildə Oğuznamənin monqolları Oğuzun əmisi övladları kimi təqdim etməsindən qaynaqlanır. Şifahi ənənədən gələn bu motivə əsaslanan müəlliflər monqollarla türkləri doğrudan-doğruya qohum sayır. Məsələn, Ata Məlik Cüveyninin Cığatay türkcəsinə tərcümə olunmuş “Tarixi-Cahanquşay” əsərinin Oğuz dastanının təsviri verilmiş hissəsində oxuyuruq: “Bilgil kim moğol ili bilə türk ulusununq aslıbunyadı bir turur basa” (59, 10). Oğuznamədən gələn bu düşüncədən yararlanan Cığatay müəllifləri Oğuz soyunu monqollaşdırmaq üçün bəhanə tapırlar.

Sözügedən bölgədə yazılmış əsərlərdə Oğuz soyunun monqollaşdırılması, birinci növbədə, Oğuzun soykötüyünün monqollaşdırılması şəklində özünü göstərir. Məsələn, “Şərəfnameyi-şahi” müəllifi Hafizi Tanış Buxari, Seyyid Xəvəndoğlu Əmir xanın “Rövzətü-s-Səfa” əsərinə müraciət edərək Oğuzun söykötüyünü Dubbakuy xan – Kiyuk xan – Alınca xan – Monqol xan – Kara xan şəklində təsvir edir (49, 48).

Burada Kiyuk xan – Alınca xan – Monqol xan kimi Oğuznaməyə bəlli olmayan adlar Oğuz soyunun monqollaşdırılması ilə bağlı olaraq ortaya çıxıb. Eyni halla "Şəcəreyi-tərakimə"də də qarşılaşırıq. Əbülqazi əsərdə soykötüyünün Kara xandan öncəki həlqəsinə, "Şərəfnameyi-şahi"də olduğu kimi, Alınca xanın Tatar və Monqol adlı oğlanlarını salır, Kara xan, Kür xan, Kır xan, Ur xan Monqol xanın oğlanları kimi təqdim olunur və bu şəkildə Oğuz soyu monqollaşdırılır. Oğuz soyunun monqollaşdırılması Mirzə Uluqbəyin "Tarixi-abira ulusu" və Hafizi Tanış Buxarinin "Şərəfnameyi-şahi" əsərində "Erkeneqon"un Oğuz haqqında dastana calaq olunması ilə müşayiət olunur. Məlumdur ki, hər iki mətn, biri monqol, o biri türkman etnik mühitində olmaq etibarilə, paralel funksiya daşımışdır. Onların hansı şəkildə kontaminasiya olduğunu təsəvvür etmək üçün "Erkeneqon" adı ilə tanınan mübarək mətni təsvir etməyə məcburuq. Əbülqazi Bahadur xanın "Şəcəreyi-türk" əsərində monqolların soykimliyi haqqında mübarək mətn aşağıdakı şəkildə təsvir olunur:

*Tatarların xanı Süünuç xan monqollardan intiqam almaq üçün ətraf ölkələrdən də qoşun toplayıb monqolların üzərinə hücum etdi. Monqollar öz arabalarını və mülklərini bir yerə topladılar və ətrafında səngər qazdılar. Süünuç xan 10 gün ərzində monqollara hücum etdi. Ancaq hər dəfə monqollar onların hücumlarını dəf etdilər. Bir gün Süünuç xanın rəhbərliyi ilə xanlar və bəylər yığışıb məsləhətləşdilər və dedilər: biz nə qədər monqollara hiylə işlətdiksə, uğur qazanmadıq. Növbəti gün səhər onlar fikirləşdikləri yeni bir hiyləyə əl atdılar: guya döyüşlərdən zəifləmiş qoşun özünün ağırlıqlarını və dəyərsiz mallarını buraxıb qaçmağa başlayır. Monqollar bunun onları döyüşə cəlb etmək məqsədi daşıdığını bilmədilər və onları təqib edib yaxaladılar. Monqolları görən tatarlar dərhal döyüş nizamı aldılar və onlarla döyüşüb qələ-*

*bə çaldılar. Bu zaman tatarlar monqolları qılıncdan keçirib mallarına sahib oldular. Əsir düşənlərin çoxu öldürüldü, gəncləri isə qula çevirdilər.*

*Süünuç xan monqolları qıranda İl xanın çoxsaylı uşaqları döyüşlərdə öldürüldülər. İl xanın Kıyan adlı kiçik oğlu var idi. Həmin il o, Kıyanı evləndirmişdi. İl xanın kiçik qardaşının Kıyanla yaxın olan Nüquz adlı bir oğlu var idi. O da həmin il evlənmişdi. Onların hər ikisi bir obanın adamlarının əlinə düşmüşdü. On gündən sonra onlar öz arvadları ilə ata minib qaçdılar və öz yurdlarına gəldilər. Burada onlar özlərinə məxsus müxtəlif cinsdən olan heyvanların az bir hissəsini tapdılar. Məsələhətləşib bu qərara gəldilər ki, onlar heç kimlə münasibət saxlamasınlar. Əks təqdirdə dörd tərəfdə yaşayanlar onlara düşmən olacaqlar. Əgər yurdda qalsaq, ya yaşadığımız yerdə, ya da yolda münaqişədən qaçmaq mümkün olmayacaq. Yaxşısı budur ki, dağlarda heç kimə bəlli olmayan bir yer axtaraq. Beləliklə, onlar mal-heyvanlarını götürüb dağlara getdilər. Sıldırım dağlar arasında dağ qoyununun keçə biləcəyi bir yolla dağa qalxdılar və onun qaşında dayandılar. Ətrafa baxıb gördülər ki, bura onların gəldiyi yoldan başqa yol yoxdur. Bu yol elə yol idi ki, dəvə və ya at böyük çətinliklə oradan keçə bilərdi və bir ehtiyatsız hərəkət onların yıxılıb məhv olması ilə nəticələnərdi. Dağların arasında isə çaylar və bulaqlar axan, çoxlu meyvə ağacları və müxtəlif otlar olan ucsuz-bucaqsız ərazi var idi. Onlar Tanrıya şükür edib bu ərazidə məskunlaşdılar. Qışda qoyunların əti, yazda südü ilə dolanırdılar, dərilərindən isə özlərinə paltar düzəldirdilər. Bu yerə onlar Erkeneqon adı verdilər. Erkene dağ silsiləsi, kon isə iti deməkdir. Dağlarda qar var idi.*

*Hər ikisinin çoxlu uşaqları və böyük ailələri var idi. Kıyanın uşaqları Nüquzun uşaqlarından çox idi. Kıyanın nəsli Kıyatdı aldı. Nüquzun nəslinin iki adı var idi: onlardan bəziləri*

*Nüquz, bəziləri Durlaqin adlandılar. Kıyan dağlardan aşağı can atan sel deməkdir. İl xanın uşaqları güclü, cəld adamlar idi. Ona görə də ona Kıyan adı vermişdilər. Kıyat Kıyan sözünün cəmidir. Bu iki adamın uşaqları uzun illər Erkeneqonda yaşadılar. Onlar çoxalıb artdılar. Hər bir ailə bir oymaq oldu. Onlar 400 ildən artıq Erkeneqonda yaşadılar. Kıyanın sürüləri o qədər çoxalmışdı ki, artıq sıxlıq yaranmışdı. Ona görə də bir yerə toplaşıb oturdular və öz aralarında məsləhətləşdilər. Burada onlar dedilər: atalarımızdan eşitmişik ki, Erkeneqondan kənarda əvvəllər bizə məxsus olan yaxşı otlaqlar və yaşayış yerləri var. Tatarlar və başqa qəbilələr bizim qəbilələri qırıb yurdlarımıza sahib olublar. Tanrıya şükür ki, biz indi o halda deyilik ki, düşməndən qorxub dağlarda gizlənək. Dağların arasından bir yol tapıb buradan çıxaq, kim bizimlə dost olarsa, biz də onunla yaxşı dolanarıq, düşmənlərimizlə isə mübarizə apararıq. Onların hamısı bu ağıllı sözləri qəbul edib, çıxış üçün yol axtarmağa başladılar, ancaq yol tapa bilmədilər. Bu zaman bir dəmirçi dedi: hansısa yerdə dəmir mədəni var. Əgər dəmiri əritsək, onda dağ dərəyə çevriləcək. Onlar gedib o yerə baxdılar və dəmirçinin ağıllı fikri ilə razılaşdılar. Çiyinlərində odun və kömür gətirdilər və dağın səthini – zirvəsini, yamaclarını, döşünü odun və kömür layı ilə örtdülər. Dəridən 70 körük düzəldib 70 yerdən körükləməyə başladılar. Onda Tanrının köməyi ilə od alovlandı, dağ əriyib axdı və bir yüklü dəvənin keçə biləcəyi qədər yol açıldı. Neçə günə və neçə gecəyə onlar dağdan çıxdılar. O vaxtdan monqollar bu günü bayram edirlər. Bu zaman dəmir parçasını oda qoyurlar və onu döyürlər. Əvvəl xan maqqacla dəmir parçasını götürüb zindana qoyur və onu çəkiclə döyür. Ardınca isə bəyləri onu təqib edir. Bu günü onlar darısqallıqdan çıxdıqları və baba yurduna qayıtdıqları gün kimi əziz sayırlar. Bu dövrdə Kıyan soyunun Kurlas nəslindən olan Burte-çino monqolların hakimi idi. O, hər tərəfə elçi*

*göndərib Erkeneqondan çıxdığını elan etdi. Onlardan bəziləri gəlib dostluğunu bildirdi, bəziləri isə düşmənçilik etdilər. Tatarlar və monqollar ordu düzəldib döyüşdülər. Monqollar tatarlara qələbə çaldı və onların böyüklərini qılıncdan keçirdi, kiçiklərini isə qula çevirdi. Beləliklə, 450 ildən sonra monqollar qisas alıb baba yurduna sahib oldular* (57, 28-31).

Bizə məlum olduğu dərəcədə bu mətn ilk dəfə Mirzə Uluqbəyin "Tarixi-abira-ulusu" əsərində Oğuznaməyə calaq olunur. Bu qaynaqda epik ənənəyə uyğun şəkildə Gün xan zamanında İrkıl Xocanın Oğuzun iyirmi dörd nəvəsi arasında hakimiyyət bölgüsü aparması təsvir olunur. Gün xandan sonra hakimiyyət Ay xana verilir (51, 101-102). Bu epizoddan sonra "Erkeneqon" dastanının ənənəvi qəhrəmanı İl xanla Oğuz xan arasında qohumluq əlaqəsi qurulur. İl xan Oğuz xanın altı göbəkdən nəvəsinə çevrilir. Tatarların səkkizinci xanı Sevinc o zamanlar Mavərannəhri idarə edən Tur ibn Firidunla ittifaq bağlayaraq İl xanı məğlub edir və bütün monqol xalqını qılıncdan keçirir. Bu döyüşdə ailələri ilə birgə Kıyan (İl xanın əsl oğlu) və Nokuzdan (İl xanın mənəvi oğlu) başqa heç kim sağ qalmır. Hadisələr, əsas etibarilə, epik ənənəyə uyğun şəkildə davam edir (51, 101-102). Hafiz Tanış Buxarinin "Şərəfnameyi-şahi" əsərində "Erkeneqon" dastanının qəhrəmanı İl xan Oğuz xana Dəniz xan vasitəsilə bağlanır. Sevinc xanın üstündən sükutla keçilir və savaş Firidunla İl xan arasında baş verir: "Oğuz xan dövlətinin dağılmasından sonra, min il ərzində monqol və türk tayfaları arasında düşmənçilik və çəkişmə baş verdi. Müharibələr və döyüşlər oldu. Hakimiyyət İl xan ibn Dingiz xan Oğuz xana keçəndə o zaman Mavərannəhrdə hökmdar olan Tur ibn Firidun ona qalib gəldi. O, o qədər monqol qırdı ki, çoxminli monqollardan ikisi sağ qaldı: Kıyan və Nuquz. Ardınca "Erkeneqon" dastanının qısa məzmunu və Kıyan Nuquz törəmələri (onlardan törəyən tay-

falar) haqqında məlumat verilir (29, 64-65). Öncə, onu qeyd edək ki, hər iki qaynaqda təsvir olunan "Erkeneqon" dastanı "Şahnamə"nin müdaxiləsinə məruz qalmış şəkildədir. "Erkeneqon" dastanının ənənəvi qəhrəmanı Sevinc (tatar xanı) ya arxa plana keçirilmiş, ya da tamamilə, mətndən çıxarılmışdır. Onun yerinə "Şahnamə" qəhrəmanı Tur ibn Firidun gətirilmişdir. Bu hadisə teymurlular dövründə farslara qarşı türklük şüurunun oyanması ilə bağlı ola bilər. Bu halda mətndə monqolların Türküstana və Mavərannəhrə tarixi yürüşləri onların Firidun övladlarından qisas almaq niyyəti ilə əlaqələndirilir. "Tarixi-abira-ulusu"ndakı mətnə söykənən Ş.Ömər iki dastanın kontaminasiyasını xalqla əlaqələndirir və "Erkeneqon" dastanını "Oğuz" dastanının davamı sayır (51, 102). Qeyd edək ki, "Oğuz" dastanı ilə "Erkeneqon" dastanının qaynaqlarda qarşılaşdığımız kontaminasiyasının şifahi xalq ənənəsi ilə heç bir əlaqəsi yoxdur. Bu kontaminasiya yalnız Cığatay mədəniyyəti çevrəsində yazılmış əsərlərdə özünü göstərir və bu hadisə məlum siyasi dairələrin türkman dünyası üzərində hakimiyyət iddiaları ilə bağlı idi. Bu baxımdan Əmir Teymurun Yıldırım Bəyazidə ünvanladığı məktubda "sən bir kayıqçı türkmənin nəslindənsən" deməsi xüsusi maraq doğurur. Z.V.Toqan Əmir Teymurun bu ifadəsini osmanlıların əcdadının qayçılıq etməsi ilə bağlı bir rəvayətlə əlaqələndirir (68, 321). Ancaq müəllif həmin rəvayətin osmanlıların siyasi yüksəlişinə qısqanclıqla yanaşan Teymur sarayında onları aşağı tutmaq niyyətilə yarana biləcəyini nəzərə almır. Məsələyə münasibət bildirən E.Ezgi burada *kayı* sözünün yanlış anlaşıldığını söyləyir (32, 33). Teymurlu sarayının *kayı* kimliyindən xəbərsiz olmasının mümkün olmadığını nəzərə alıb burada *kayı* sözünü kinayə ilə *kayıkçı* şəklinə salındığını düşünmək daha doğru olardı. Bütün ciddi-cəhdə baxmayaraq, nə monqollar, nə də ondan sonra gələn teymurlular türkman-

ları nə erkeneqonluların Oğuz soyundan üstün, nə də Oğuzun Monqol adlı əcdadının olmasına inandıra bilmədilər. Maraqlıdır ki, nə Osmanlı şəcərələrində, nə də Əbubəkr Tehraniyə məxsus Ağqoyunlu şəcərəsində Tatar və ya Monqol adına təsadüf olunmur. K.Erarslan Yazıçıoğlu Əlinin Oğuzu "monqollara bağlamadan türklərin atası Yafəsə" calamasını II Murad dövründə türklük şüurunun qüvvətli olması ilə əlaqələndirir (16, 31). Əslində, bu hadisəni monqol və ardınca teymurlulara qarşı Oğuz haqqında mübarək mətnin buyruğuna uyğun olaraq türkman dünyasının hegemonluq iddiaları ilə əlaqələndirmək daha doğru olardı. Yazıçıoğlu Əlinin "Tarixi-Ali-Səlcuq" əsərində oxuduğumuz aşağıdakı sətirlər məsələnin mahiyyətini ortaya qoyur: "Padşahımız Sultan Murad ibn Mehmet xan... Oğuzun qalan xanları uruğundan, bəlkə, Çingiz xanları uruğunun dəxi məcmuundan ulu əsl və ulu sükükdür. Ş'ər ilə, örf ilə dəxi türk xanları və tatar xanları qapısına gəlib salam verməyə və xidmət etməyə layiqdir" (76, 29). Monqollara və bütün türk – tatar dünyasına qarşı irəli sürülən bu siyasi iddia Oğuz haqqında mübarək mətnə əsaslanırdı.

Oğuznamələrin bir etnosiyasi birlik olaraq Oğuz əcdadlar haqqında epik/poetik mətnlər olduğunu nəzərə almaq şərtilə L.Y.Lotmanın aşağıdakı fikri haqqında danışdığımız şifahi bədii yaradıcılıq hadisəsinin mahiyyətini ifadə edir: "Başlanğıcı olan mövcuddur. Buna görə siyasi varlar və yoxlar kimi başlanğıcı olan dövlət (banilər haqqında əfsanələr) olmayanlara qarşı dayanır. Öz əcdadının adını çəkə bilən siyasi baxımdan mövcuddur" (45, 428). Rəşidəddinin türkmanlar "onlara dildən-dilə gəlib çatmış bir neçə dastanı uşaqlarına öyrədirlər" qeydinin əsl anlamı da bu nöqtədə üzə çıxır (23, 153). Etnik kimliyin və buradan da siyasi varlığın qorunması bu "bir neçə dastanın""nəsildən nəsilə" ötürülməsindən asılı idi.

**Mübarək Oğuz tarixi və onun dövrləri**

Qədim və müasir olmasından asılı olmayaraq tarix şüuru bütün xalqlara məxsus universal hadisədir. Ancaq mənsub olduğu mədəniyyət tipindən asılı olaraq bu şüur müxtəlif xalqlarda müxtəlif şəkildə gerçəkləşir. Türkman kimliyi haqqında mətn, qədim və orta əsrin bir çox xalqlarında olduğu kimi, sadə bir əfsanə səviyyəsində qalmadı. Ümumdünya tarixində böyük hadisələrə imza atan bu xalq içərisində soy kimliyi və əcdadlar haqqında mətn sadə bir əfsanədən epik tarixə çevrildi. Bu tarix xronoloji ardıcıllığa malik olan "bir neçə dastan" şəklində ifadə olunur. "Cami ət-təvarix" və "Şəcəreyi-tərakimə"də təsviri verilən oğuz tarixi, oğuzların tarixi haqqında dastanlar əsasında yazılmışdı. Onlar günümüzə gəlib çatmadığı üçün oğuz tarixinin epik yozumunu Rəşidəddin və Əbülqazi mətni əsasında öyrənməyə məcburuq. Ancaq məsələyə toxunmazdan öncə, bu yöndə olan bəzi fikirlərə münasibət bildirmək istərdik.

Məlum olduğu kimi, Rəşidəddin Oğuznaməsi adlanan mətnin ilk araşdırıcılarından biri Z.V.Toqandır. Sözügedən mətn haqqında elmi təsəvvürün yaranmasında müəllifin rolu böyükdür. Bununla yanaşı, "Cami ət-təvarix"dəki oğuz tarixi haqqında mətn barədə yanlış və bir çox hallarda ziddiyyətli fikirlər də Z.V.Toqanın adı ilə bağlıdır. Məsələn, müəllif Rəşidəddinin məlumat verdiyi "bir neçə dastan" məsələsini bir tərəfə qoyub mətnin bir qisminin Xorasan və Sırdərya, digər qisminin isə Göyçəgöl – Van gölü bölgəsində yaşayan bayandır və salırlar ağzından qeydə alınmış rəvayətlər əsasında yazıldığını söyləyərək Rəşidəddin və Əbülqazinin mətn üzərindəki haqqını "önlərinə gətirilən rəvayətləri bir araya gətirmələri" şəklində dəyərləndirir (69, 125). Başqa sözlə, müəllifə görə, müxtəlif bölgə və ağızlardan yazılmış rəvayətlərin düzülüşü əsəri yazan müəlliflərə aiddir. Qeyd edək ki, əgər rəva-

yətlərin, eləcə də siyasi şəxsiyyət və sülalələrin ardıcıl düzülüşünün müəlliflərə aid olduğunu qəbul etsək, onda oğuz tarixinin Oğuznamə yozumundan danışmağa yer qalmır. Ancaq, irəlidə görəcəyimiz kimi, sözügedən əsərlərdə yer tutan oğuz tarixi haqqında mətn bizə, tamamilə, başqa şey deyir. Bundan başqa, nə Rəşidəddin, nə də Əbülqazi rəvayətləri toplamaq üçün göndərilən ekspedisiya barədə bir kəlmə də danışmırlar. Rəşidəddin "dildən-dilə gəlib çatmış bir neçə dastan" və onları söyləyən "türk tarixçiləri və hazırcavab söyləyicilər" (*müvərrixani-ətrak* və *raviyatni-çalak*) barədə məlumat verir (64, 6). Sonuncuların Oğuznamə söyləyən ozanlar olması istisna olunmur. Beləliklə, Rəşidəddinin verdiyi məlumata əsaslanıb mətnin ozanların yaratdığı "bir neçə dastan" əsasında yazıldığını düşünmək olar.

Haqqında danışdığımız müəllif Oğuz tarixinə emprik tarix müstəvisindən yanaşaraq "tarixi təməlləri güclü olmasına rəğmən" dastanların tarixi baxımdan doğru düzülməməsindən narazılıq edir (69, 132). Bu vəzifəni boynuna götürən müəllif mətnin epikliyinə əhəmiyyət vermədən orada adı çəkilən hakimlərin ümumtürk tarixi kontekstində prototiplərini "tapaaraq" bu müstəvidən oğuz, karluk, qaraxanlı, müxtəlif oğuz yabquları kimi dövrlər müəyyənləşdirir (69, 132-138). Z.V.Toqanın ardınca R.Şükürova da məsələyə oxşar şəkildə yanaşır (63, 72-79; 64, 14-21). Bu münasibətin nə dərəcədə doğru olduğunu Z.V.Toqanın "Oğuz xan və onun övladı tam mənası ilə hakimdirlər" deyə səciyyələndirdiyi epoxanın sərhədlərini müəyyənləşdirərkən ortaya çıxır. Müəllif bu dövrü oğuz yabquları içərisində adı çəkilən İnalsır Yavkuy xanla məhdudlaşdırır (69, 132). Halbuki mətndə İnalsır Yavkuy xan atadan oğula prinsipi ilə sıralanan Oğuz yabqularından biri kimi səciyyələnir. Araşdırıcının bu şəkildə düşünməsi adı çəkilən oğuz yabqusunun hakimiyyət illərinin Abbasilər döv-

rünə düşməsi haqqında Əbülqazinin qeydinə əsaslanır (38, 56). Abbasilərin VIII əsrdə hakimiyyətə gəldiyini əsas götürən müəllif həmin əsrdə karlukların uyğurlarla birgə göytürklərə qələbə çalaraq hakimiyyətə gəldiyini yada salır və İnalsır Yavkuy xanla başlayıb Şahməliyə qədər davam edən böyük bir dövrü karluk yabqularına verir (69, 133-134). Qeyd edək ki, "Şəcəreyi-tərakimə"də qarşılaşdığımız İnalsır Yavkuy xanın vəziri Dədə Qorqudun Abbasi xəlifələri dövründə yaşaması haqqında məlumatı Əbülqazinin haradan götürməsi haqqında bir söz söyləmək mümkün deyil. Şifahi ənənədə bu hadisə Oğuz elinin islamiyyətə girişi ilə bağlı olaraq xatırlanır və istər Rəşidəddində, istərsə də bayandırlaşmış Dədə Qorqud oğuznamələrində "Rəsuli əleyhissəlam zəmanına" aid edilir. Qeyd edək ki, mətnin poetik qanunauyğunluğunu bir kənara qoyaraq oradakı hər hansı bir ünsürə söykənib hökm vermək yanlışlığa aparır. V.N.Putilov folklorşünaslığın tarixində müşahidə olunan tarixi ünsürlərin poetik sistemdən təcrid olunaraq öyrənilməsinin acı nəticələrinə işarə edərək yazır: "Tarixizm bədii sistemdən qoparıla bilməz. O, onun üzvi keyfiyyətlərindən biridir. Əgər biz məlum janrın tarixə münasibətini anlamaq istəyiriksə, gerçəkliyi yox, hansısa tarixi və etnoqrafik substratı yox, adları və salnamə əks-sədalarını yox, xalq yaradıcılığı hadisəsi kimi, müəyyən estetik qanunauyğunluqlara və özünəməxsus bədii aləmə malik olan bütöv eposu öyrənməliyik" (54, 240). Ona görə də, öncə, şifahi epik yaradıcılığın məhsulu kimi, sözügedən qaynaqlarda verilən Oğuz və Oğuz eli haqqında təhkiyənin qanunauyğunluqları üzə çıxarılmalıdır. Oğuz tarixinin Oğuznamə yozumu bu müstəvidə aydınlaşır.

Qarşıya qoyulan məsələ daha təbii və təfərrüatlı, eləcə də müəllif müdaxiləsinə daha az məruz qalmış Rəşidəddin mətni əsasında araşdırılır. Burada Əbülqazinin "doğru və düz-

gün tarix yazmaq" cəhdi, yəni tarixçi mühakiməsi ilə mətni "səliqəyə salmaq" istəyi nəzərə alınmışdır. Bununla yanaşı, ardıcıl olaraq Əbülqazi mətni ilə müqayisələr aparılmışdır.

Öncə, Oğuz elinin tarixindən bəhs edən oğuznamələrin hansı şəkildə bir-birinə bağlanması və ya bir oğuznamədən başqasına keçidin hansı şəkildə baş verməsi üzərində dayanmaq istərdik. Bunun üçün oğuz hakimlərinin hansı prinsiplə siyasi hakimiyyətin başına gəlmələri və ya hakimiyyət varəsliyi prinsipi aydınlaşdırılmalıdır. Mətnə diqqət yetirək.

Oğuzun vəsiyyətinə görə ondan sonra hakimiyyətə böyük oğlu Gün xan gəlir. Gün xandan sonra taxta oğlu Dib Yavkuy xan oturur. Dib Yavkuy xandan Uladmur Yavkuy xana qədər davam edən doqquz sülalə üzvü (naib sifətində Tuman xanı əvəz edən Kol Erki xanı çıxmaq şərti ilə) hakimiyyətə "atadan oğula" prinsipi ilə gəlir. Uladmur Yavkuy xanı qardaşı Qara Alp əvəz edir. Oğuznamə qardaşın hakimiyyətə gəlməsini sonuncu hökmdarın oğlunun olmaması şəklində motivləşdirir. Qara Alpdan sonra oğlu Buğra xan, Buğra xandan sonra oğlu Qoru təkin gəlir. Qoru təkindən sonra "onun qohumlarından biri Oyunak padşah olur". Mətndə Oyunakın hakimiyyətə gəlməsi səbəbi izah olunmur. Oyunakı oğlu Qara Arslan xan əvəz edir. Qara Arslan xandan sonra hakimiyyətə əmisi oğlu Osman gəlir. Mətndə bu hadisə Qara Arslan xanın oğlunun kiçik yaşlı olması ilə izah olunur. Osmandan sonra hakimiyyətə Əsli xan gəlir. Əsli xanla Osmanın qohumluğu haqqında heç nə deyilmir. Əbülqazi Əsli xanı Osmanın kiçik qardaşı kimi təqdim edir (38, 65). Təsvir olunan mənzərə açıq şəkildə göstərir ki, Oğuznamə siyasi hakimiyyət vərəsəliyinin "atadan oğula" prinsipini irəli sürür. Məlumdur ki, vərəsəliyin "atadan oğula" prinsipi patriarxal ailə ilə bağlıdır (40). Türklərin də eradan çox-çox əvvəlki dövrlərdə patriarxal ailəyə keçmələrini və XX əsrin əvvəllərinə qədər bu ailə tipini sax-

lamaları bəllidir (2, 287-305; 11, 52-61; 34; 35 və s.). Bu baxımdan Oğuznamənin uyğun vərəsəlik prinsipinin tərəfində olması təsadüfi deyil.

Yuxarıdakı təsvirdən göründüyü kimi, siyasi hakimiyyətin yan xətlə (qardaşa, əmioğluya, yaxın qohuma) verilməsi halları da müşahidə olunur. Yabqu soyundan Qara xan soyuna, Qara xan soyundan Oyunak soyuna, Oyunak soyundan Osman soyuna keçid bu şəkildə baş verir. Rəşidəddinə görə, Əsli xandan sonra hakimiyyətə onun oğlu Şaban, Şabandan sonra oğlu Buran, Burandan sonra oğlu Əli gəlir.

Siyasi hakimiyyətin yan xətlə verilməsi "qardaş ailəsi" adı alan ailə tipinin ifadəsidir. "Qardaş ailəsi" matriarxal ailədən patriarxal ailəyə keçid dövrünün ailə tipi sayılır (12, 170-175; 78, 286-287). Məlum olduğu kimi, türklər də ailə tipinin bu şəklini yaşamış xalqlardandır (10, 100). Qədim türklər patriarxal ailə tipinə malik olsalar da, vərəsəlik prinsipi müəyyən hallarda "qardaş ailəsi"nin vərəsəlik prinsipinə uyğun şəkildə gedirdi. Yəni siyasi hakimiyyət qardaşdan qardaşa keçirdi (43, 11-25). Qədim və orta əsrlər türk tarixində əmilərlə qardaşoğullarının siyasi hakimiyyət uğrunda mübarizəsi "qardaş ailəsi"nə məxsus vərəsəlik sistemi ilə patriarxal ailəyə məxsus vərəsəlik sisteminin qarşıdurmasından törəyirdi. Siyasi hakimiyyətin ailənin ən böyük üzvünə verilməsi haqqında Sultan Mahmud və Nadir Şahın verdiyi fərman bu qarşıdurmanı aradan qaldırmağa xidmət edirdi (7, 532; 21, 113). Ən nəhayət, övladdan sonra qardaşın varis olması və övlad olmadığı təqdirdə qardaşın hakimiyyətə gəlməsi orta əsrlər üçün normal hal idi. Oğuznamə də bu tarixi gerçəkliyi əks etdirir. Bununla yanaşı, Oğuznamədə siyasi hakimiyyətin yan xətlə verilməsi işarəvi mahiyyət daşıyaraq oğuz tarixinin dövrlərini ifadə edir və hər dövr bir oğuznamə ilə müşayiət olunur.

Beləliklə, təsvir etdiyimiz mənzərəyə əsaslanaraq, mətndə oğuz tarixinin dövrlərini ifadə edən soylar və onlar haqqında oğuznamələri sıralamaq olar:

1. Kayı soyu və Yabquxanlar haqqında oğuznamə.
2. Qaraxan soyu və Buğra xan haqqında oğuznamə.
3. Oyunak soyu və Qara Arslan xan haqqında oğuznamə.
4. Buran soyu və Oğuz elinin süqutu haqqında oğuznamə.
5. Sərəngin hakimiyyətə gəlişi haqqında oğuznamə.

Oğuz tarixinin qədim vərəsəlik düşüncəsinə uyğun şəkildə dövrləndirilməsi ancaq və ancaq xalq təfəkkürünün məhsulu ola bilər. Bu düşüncə tipindən uzaq olan müsəlman alimi xalq vərəsəlik düşüncəsinə uyğun şəkildə oğuz tarixini dövrləşdirə bilməzdi. Ona görə də Rəşidəddin mətnində "rəvayətlərin sıralanması" birbaşa şifahi ənənədən gəlir. Onu da deyək ki, oğuznamələrin soykötüyü şəklində bir-birinə bağlanması türk epik təfəkkürünə yad deyil. Burada heç olmasa ata Manas, oğul Semetey və nəvə Seytek haqqında qırğız dastanlarını və ya ata Muradxan, oğul Sultanxan, nəvə Rustamxan haqqında özbək dastanlarını yada salmaq lazımdır. Bir bahadırlıq nağılının və ya bir qəhrəmanlıq dastanının içərisində iki-üç nəslin epik fəaliyyəti eyni hadisənin ifadə şəkillərindən biridir. Burada, sadəcə olaraq, nəsillər vəsiləsi müstəvisində "dövrilik" ideyası verilir.

Oğuznamənin tarix düşüncəsi soylar və onlar haqqında oğuznamələrin təhlilindən sonra üzə çıxacaq. Ona görə də mətndə adı keçən soylar və onlar haqqında oğuznamələr ardıcıl şəkildə təhlil olunmalıdır.

Oğuznamələrin təhlilinə keçməzdən öncə, onu deməyi lazım bilirik ki, oğuznamələrin adları şifahi ənənədən gəlmir. Onların yuxarıdakı şəkildə adlandırılması araşdırıcı şüurunun məhsuludur və adı çəkilən əsərlərdə təsviri verilən oğuznamələrin məzmununa əsaslanır.

***Kayı soyu və Yabquxanlar haqqında oğuznamə*** adı verdiyimiz hissədə Gün xandan sonra 9 oğuz hakiminin adı çəkilir. Bu hakimlərdən ikisinin adında *kayı* adının varlığı onların kayı boyundan olduğunu göstərir. Əbülqazidə də həmin hakimlərin kayı boyunun mənsubları kimi təqdim olunmasını, eləcə də siyasi hakimiyyətin atadan oğula prinsipi ilə verilməsini nəzərə alıb oğuz tarixinin bu dövrünün Kayı soyunun hakimiyyət illərindən bəhs edən oğuznamə əsasında təsvir olunduğunu söyləmək olar. Qeyd edək ki, Kayı soyunun siyasi hakimiyyəti təkcə sözügedən dövrlə məhdudlaşmır, əksinə, yaranışdan sona qədər bütün oğuz tarixi boyu siyasi hakimiyyətin başında Kayı soyunun mənsubları dayanır. Sadəcə olaraq, bir dövrün sonu, başqa dövrün başlanğıcı, deyildiyi kimi, siyasi hakimiyyətə övladın deyil, qardaşın, əmioğlunun və ya yaxın qohumun gəlişi şəklində ifadə olunur. Yəni siyasi hakimiyyət vərəsəliyi Kayı soyunun daxilində paylanır. Oğuznaməyə görə, Oğuz elində siyasi hakimiyyət haqqı yalnız Kayı övladına məxsusdur və bu soydan olanların hakimiyyəti ilahi təqdir sayılır. Bununla yanaşı, bütün oğuz tarixinə münasibətdə haqqında danışdığımız dövr *Mübarək Nizamın* yaşadığı "qızıl dövr" kimi səciyyələnir. Tarixi baxımdan bu oğuznamədə Oğuz Yabqu dövlətinin tarixi əks olunur. Elə ona görə də bu dövrə aid oğuz hakimlərindən yeddisi *yabqu* titulu daşıyır. Rəşidəddin mətnində *yavkuy*, Əbülqazidə isə *bakuy* variantı ilə əks olunan ad-titul *yabqu* titulunun Oğuznamə variantıdır. Ancaq tarixi gerçəkliyin əksinə olaraq, Oğuznamədə *yavkuy* ad-titulu *xan* titulu ilə yanaşı işlənir.

Oğuznamədə doqquz oğuz yabqusunun adı çəkilir və onlardan bəzilərinin zamanında baş verən hadisələr təsvir olunur. Oğuznamə Gün xanın taxta çıxması ilə başlanır. Onun zamanında Oğuz övladlarının Bozok-Üçok sistemində yeri, yəni Oğuz elinin törəsi müəyyənləşdirilir. Gün xandan sonra

hakimiyyətə oğlu Dib Yavkuy xan gəlir. Mətndə Dib Yavkuy xanın dövlət işlərini qaydaya salınmasından və yeməklər üzərində qələbəsindən söz açılır.

Yabquxanlar haqqında oğuznamə Gurs Yavkuy, Koru Yasak Yavkuy, İnalsır Yavkuy xan, Ala Atlı Keş Dərnəklü Kayı İnal xan kimi yabqular, onların vəzirləri, naibləri, bəyləri haqqında məlumatla davam edir. Kayı İnal xanın ölümündən sonra onun oğlu Tuman xan haqqında oğuznamə başlayır və Kayı soyundan çıxan yabqular haqqında məlumat epik qəhrəmanın soykötüyünə çevrilir. Başqa sözlə, soykötüyü oğuznaməyə giriş kimi mənalanır:

Kayı İnal xan öləndə onun oğlu təzəcə doğulduğu üçün hakimiyyət naib sifətində Bayandur Dönkərin oğlu Erkiyə verilir. Epik ənənəyə uyğun şəkildə Dədə Qorqud uşağa ad verir. Yabqunun oğlu Tuman böyüyəndən sonra hakimiyyətə gəlmək istəyir. O, “sağ əldən və sol əldən 300 bəyi və ordusunu toplayıb” fikrini onlara bildirir. Kol Erki xan təlaş içində ulu toy edib “hakimiyyətin dayağı” Qorqutuköməyə çağırır. “Köpəyin payı” motivi bu epizoddan sonra gəlir. Rəmzi mahiyyət daşıyan motiv hakimiyyətin Kol Erki xanda saxlanması gərəkliyini ifadə edir. Qorqutun məsələhəti ilə Kol Erkinin qızı ilə Tuman xan evlənir. Hakimiyyət isə Kol Erki xanda qalır. Tuman xan həmin qızla evlənmək iddiasında olan Ayne xanın oğlu Uce xanın üzərinə qoşun çəkib onu cəzalandırır. Elə bu zaman onun bir oğlu olur. Uşaq böyüyəndən sonra babasından tələb edir ki, hakimiyyəti atasına versin. Tuman xan taxta oturur və yüz gündən sonra hakimiyyəti oğlu Kayı Yavkuy xana verir. Kayı Yavkuy xandan sonra hakimiyyətə onun oğlu Uladmur Yavkuy xan gəlir (69, 46-62; 24, 63-78).

Uladmur Yavkuy xan haqqında epik təhkiyə Yabquxanlar haqqında oğuznamənin sonuncu həlqəsidir. Mətndə Uladmur Yavkuy xanın taxtda oturması haqqında məlumatdan

sonra onun Qara Alp adlı daha nüfuzlu bir kiçik qardaşının olması xatırlanır. Ardınca uyğur hakimi Arıqlı Arslan xanın Oğuz elinə qarşı qiyamından bəhs olunur. Uladmur Yavkuy xan Arıqlı Arslan xanın qiyamını yatırır, onu və yaxın bəylərini öldürür. Oğuz elinə itaət etmək şərtilə hakimiyyəti Arıqlı Arslan xanın oğlu Alp Tavqac xana verir (69, 62-63; 24, 78-79). Uladmur Yavkuy xan 70 il hakimiyyət başında olur. Dünyasını dəyişərkən oğlu olmadığı üçün hakimiyyətə qardaşı Qara Alp gəlir və *Qara xan* adı ilə taxta oturur. Ardınca hakimiyyətə onun oğlu Buğra xan gəlir və Buğra xan haqqında oğuznamənin təsviri verilir.

Oğuznamədə yabquxanlardan xanlara, başqa sözlə, Oğuz yabqularından Qaraxanlı xanlarına keçid yuxarıda təsvir olunan şəkildə baş verir. Z.V.Toqan bu məsələyə diqqət yetirərək yazır: "Dastanda yabğu sülaləsinin sona çatıb buğraxanların başladığı açıqca ifadə edilmişdir... tarixi baxımdan bu zamanlar qaraxanlıların quruluşu illərinə IX əsrə təsadüf edir". Rəşidəddinin "böyük qaraxanlılardan" xəbəri olmadığını əsas gətirən müəllif onların böyük qaraxanlılar deyil, "şimaldakı buğraxanlar" olmasını söyləyir (69, 135). Qeyd edək ki, burada məsələ Rəşidəddinin deyil, Oğuznamənin bilib-bilməməsi şəklində qoyulmalıdır. Bununla yanaşı, müəllif "şimaldakı buğraxanlar" deyərkən, ehtimal ki, ilk qaraxanlıları nəzərdə tutur. Bu halda Oğuznamənin siyasi hakimiyyəti yabqu soyundan *buğra xan* titulu daşıyan müsəlman qaraxanlılara verməsini düşünmək olar.

Beləliklə, oğuzların siyasi müstəqilliyini itirərək Qaraxanlı dövlətinin siyasi hakimiyyəti altına girməsi hakimiyyətə qardaşın gəlməsi şəklində ifadə olunur. Bununla da Oğuzna-mə qaraxanlılara özünəməxsus şəkildə ögey münasibət bildirir. Əbülqazi variantında Qara xana ögey münasibət bir az da tündləşdirilir. Burada Qara xan Mur Yavı xanın kənizdən

doğulan uşağı kimi verilir (38, 61). Deyildiyi kimi, türkman törəsinə görə, kənizdən doğulan uşaqlar siyasi hakimiyyətin başında otura bilməzdilər. Onlar *iq* və *qul* kateqoriyasına ayrılan övladlar içərisində sonuncu yerdə dayanırdılar. Bununla yanaşı, Oğuznamə qaraxanlıları yabqu soyu ilə bağlamaqla onları oğuzlaşdırır və oğuz tarixində yeni epoxanın başlandığını xəbər verir.

***Qara xan soyu və Buğra xan haqqında oğuznamə.*** Onun süjeti dünya xalqlarının folkloru üçün səciyyəvi olan ögey ana və oğul konflikti üzərində qurulub:

Buğra xanın üç oğlu olur: İl təkin, Qoru təkin, Bek təkin. Arvadı Bayır xatunun (Əbülqazidə Baber) ölməsi xanı sarsıdır. O, qocalıb əldən düşdüyü üçün dövlət işlərini görməyə gücü çatmır. Bəylər işə qarışır. Buğra xan hakimiyyəti oğlu Qoru təkinə verməli olur.

Qoru təkin atasını Güncəbək adlı bəylərbəyinin qızı (Əbülqazidə avşar elindən olan Egrencenin qızı Görgeli Yaxşı) ilə evləndirir. Ögey ana oğulluğu ilə "başbir etmək" fikrinə düşür. Qoru təkin imtina edir. Sirrin açılacağından qorxan qadın yubanmadan oğulluğuna böhtan atır. Bəylər Qoru təkini yaxalayırlar. O, hadisənin necə baş verdiyini bəylərə danışır. Bəylər onun ağzından eşitdiklərini Buğra xana söyləyirlər. Buğra xan oğlunun günahının aşkarlanması üçün gözlərinin çıxardılıb əjdahanın məkanına göndərilməsini istəyir. Qoru təkini əjdahanın məkanına göndərirlər. Əjdaha nəinki günahsız oğlana toxunmur, hətta onu sağaldır. Həqiqət üzə çıxır. Qadının əl-ayağını atların quyruğuna bağlayıb parçalayırlar (69, 63-68; 24, 80-85). Buğra xan haqqında oğuznamə bu şəkildə tamamlanır.

***Oyunak soyu və Qara Arslan xan haqqında oğuznamə.*** Qoru xandan sonra siyasi hakimiyyət vərəsəliyinin "atadan oğula" prinsipi yenidən pozulur; taxtda "onun qohumlarından biri olan Oyunak" oturur. Oğuznamə yeni sülalənin əcdadına

*oyun* sözündən olan *Oyunak* adı verməklə hakimiyyətin qeyri-legitimliyinə işarə edir. Ayrıca araşdırma tələb edən bu məsələnin Qaraxanlı dövlətində baş verən siyasi hadisələrlə bağlı olduğunu düşünmək olar.

Oyunakdan sonra hakimiyyətə oğlu Qara Arslan xan gəlir. Ardınca Qara Arslan xan haqqında oğuznamənin təsviri verilir.

Qara Arslan xan haqqında oğuznamə süjet baxımdan Dədə Qorqud oğuznamələrindəki "Dirsə xan boyu"na bənzəyir. Rəşidəddinin təsvir etdiyi oğuznamənin süjeti aşağıdakı şəkildədir:

Qara Arslan xanın qırx hacibi və Suvar adlı bir qulamı var. Haciblər və inaqlar xanla Suvarın dostluğunu qısqanır. Bu üzdən xanı inandırırlar ki, Suvar xəyanət fikrindədir. Xan onların dediyinə inanır. O, Suvarı iş dalınca göndərib haciblərə deyir ki, geriyə dönərkən Suvarı öldürsünlər. Baş verən hadisədən kədərlənən xan hərəmxanaya gəlir. Xanın xatunları onu inandırırlar ki, hacibləri̇n dedikləri qısqanclıqdan irəli gələ bilər və məsələhət görürlər ki, səbirli olsun.

Xan hacibləri ova, səfərdən qayıdan Suvarı isə vergi toplamağa göndərir. Özü isə tabuta girir. "Xanın ölməsindən" xəbər tutan haciblər onun var-dövlətini talayırlar, Suvar isə onun qəbri üstə göz yaşı tökür. Həqiqət aşkarlanır. Xan tabutdan çıxır. Haciblər cəzalarına çatır. Suvar isə mükafatlandırılaraq subaşı vəzifəsinə qoyulur (69, 68-71; 24, 85-89).

***Baranlı soyu və Oğuz elinin süqutu haqqında oğuznamə.*** Qara Arslan xandan sonra siyasi vərəsəlik prinsipi yenidən pozulur. Hakimiyyətə onun əmisi oğlu Osman gəlir. Osmandan sonra hakimiyyətə gələn Əsli xanın Osmanla qohumluq dərəcəsi haqqında heç bir qeyd yoxdur. Ancaq Əsli xandan sonra hakimiyyət "atadan oğula" xətti ilə davam edir. Əbülqazidə başqa bir mənzərə ilə qarşılaşırıq. Burada Osman

Arslan xanın əmisi oğlu kimi təqdim olunur. Osmanı qardaşı Əsli xan əvəz edir. Əsli xandan sonra hakimiyyətə oğlu Şaban, Şabandan sonra oğlu Buran gəlir. Əbülqazi Rəşidəddindən fərqli olaraq, Əli xanı sülalə üzvü saymır (38, 65-66). Mətndəki ziddiyyətli məqamlar oğuz tarixinin son dövrünün kiminlə başladığını söyləməyə imkan vermir. Ancaq Oğuz elinin süqutu və ya *Mübarək Tarixin* sonu haqqında oğuznamədə oğuz hakimi kimi təqdim olunan Əlixanın oğlu Kılıç Arslan Şahməliyin haqqında tarixi məlumatlar Oğuz elinin sonuncu hakimlərinin hansı soydan olmasını üzə çıxartmağa şərait yaradır. İş ondadır ki, Əlixan və oğlu Şahməlik tarixi şəxsiyyətlərdir və onlar "Tarixi-Beyxaki"də *barani* nisbəsi ilə yad olunur (60, 57-58; 3, 137-138). Deyildiyi kimi, Z.V.Toqan *baraniləri* kəngərli qəbilələrindən sayır (69, 109). Rəşidəddində və Əbülqazidə Əli xanın babalarının sırasında adı çəkilən *Buranın baran* etnoniminin personifikasiyası saysaq, Oğuznamənin tarixi həqiqəti doğru əks etdirdiyini görərik. "Şəcəreyi-tərakimə"də *baranilərin* Oğuz elində hakimiyyətə gəlişi barədə maraqlı bir qeyd var. Əbülqazi *barani* boyunun mənsubları olan Əli xan və oğlu Şahməliyin hakimiyyətə gəlişini Oğuz elinin dağılması ilə əlaqələndirir. Müəllifə görə, Oğuz eli monqol təzyiqi nəticəsində dağılır. Oğuzların böyük bir hissəsi Ürgəncə gedir. Yerdə qalanlar isə "Əli adlı birisini" xan seçirlər (38, 48). Burada monqol təzyiqi məsələsi açıq-aydın anaxronizmdir. Sözügedən hadisə X əsrin sonlarında Oğuz elinin parçalanmasına işarə edir. Bununla yanaşı, oğuznamə *barani* boyunun Oğuz elində baş verən siyasi sarsıntıların nəticəsində hakimiyyətə gəldiyini yaddaşında möhkəm saxlayıb. Bu üzdən oğuznamə onları "yabquxanlar" yox, "xanlar" sırasına daxil etməklə ögey münasibət bildirir. Ardınca *barani* boyundan gələn oğuz yabqularının günahı üzündən Oğuz elinin dağılması haqqında oğuzna-

mənin təsviri verilir. Tarixi baxımdan bu oğuznamə Səlcuqlu türkmanlarla oğuz yabquları arasında hərbi-siyasi münaqişəni əks etdirir. Uzun müddət davam edən bu mübarizənin başında bir tərəfdən Şahməlik, başqa tərəfdən Toğrul və Çağrı bəy qardaşları dayanırdı. 1043-cü ildə baş verən həlledici döyüşdə türkmanlar oğuz yabqusunu məğlubiyyətə uğratdılar. Şahməliyin canını qurtarmaq cəhdi bir nəticə vermədi. Səlcuqlu Ertaş onu yaxalayıb Çağrı bəyin hüzuruna gətirdi və onun ölümünə fərman verildi (60, 94).

Tarixi gerçəkliyin əksinə olaraq, Oğuznamə bu hadisəni iki müxtəlif etnosun – türkmanlarla oğuzların hərbi-siyasi qarşıdurması kimi deyil, Oğuz elində ədalətsiz hakimə qarşı qiyam kimi təqdim edir. Rəşidəddinin təsvir etdiyi oğuznamənin əsas cizgilərinə nəzər salaq:

Oğuz hakimi Buran oğlu Əli xan Amudəryanın o tərəfindəki tayfaların idarəsini Kılıç Arslan adı alan kiçik yaşlı oğlu Şahməliyə verir və Bükdüz Kardıcını onun atabəyi vəzifəsinə təyin edir. Yetkinlik yaşına çatan Şahməlik pozğun həyat tərzi keçirir. İş o yerə çatır ki, o, bəylərin qızlarının yatdığı alaçıqlara girib onların namusuna toxunur. Oğuz bəyləri üsyan qaldırıb Şahməliyi və onun atabəyini qovurlar. Əli xan və Kardıcının üsyanı yatırmaq üçün düşündüyü hiylələr baş tutmur. Kanık boyundan olan Toğrul üsyanın rəhbərinə çevrilir. Üsyan uğurla nəticələnərək Şahməliyin öldürülməsi ilə başa çatır. İki il sonra Əli xan qüssədən ölür.

Oğuznamə oğuz tarixini başlanğıcı və sonu olan bir hadisə kimi təqdim edərək onu *Mübarək Tarix* kimi nəzmə çəkib dastanlaşdırır. Şifahi ənənənin *Oğuznamə* adı verdiyi bu tarix Oğuz haqqında dastanla başlanıb Oğuz elinin süqutu haqqında oğuznamə ilə tamamlanır. Ancaq nə Rəşidəddin, nə də Əbülqazi *Mübarək Tarixin* təsvir olunan oğuznamə ilə sona yetməsinə əhəmiyyət vermədən onu səlcuqlular haqqında

məlumatın və epik xronologiyada yeri bəlli olmayan *Sərəngin hakimiyyətə gəlişi haqqında oğuznamənin* hesabına uzadırlar.

Rəşidəddin Oğuz elinin süqutu haqqında oğuznamədə üsyanın uğurla nəticələnməsini Oğuz elinin süqutu kimi deyil, sülalə dəyişikliyi kimi dərk edir. Əli xanın ölümündən sonra "sultanlığın Toğrula keçməsi" və oğuz tarixinin davamı kimi Səlcuq soyu haqqında məlumat bu düşüncənin məhsuludur. Qeyd edək ki, təsviri verilən oğuznamədə səlcuqluların hakimiyyətə gəlişi Oğuz elinin süqutu ilə müşayiət olunur. Yəni Səlcuqlu dövlətini Oğuznamə *Mübarək Tarixin* sonu kimi dəyərləndirir. Mətndə Oğuznaməyə xas olan şəkildə Səlcuqlu soyu haqqında oğuznamə olmaması başqa cür düşünməyə imkan vermir. Elə ona görə də Rəşidəddin səlcuqlular haqqında "Oğuznamə dili ilə" söyləməyə söz tapmır. Onun Səlcuqlu fütihatı barədə qeydləri tarixi xatirələr əsasında yazılmışdır. *Mübarək Tarix* heç bir səbəb olmadan Oğuzun fəth etdiyi torpaqların yenidən fəth olunmasından danışa bilməzdi.

Əbülqazi, Rəşidəddin kimi, materialı xam şəkildə təqdim etməmiş, onu emprik tarix düşüncəsi ilə işləyərək "səliqəyə" salmışdır. Müəllif, Rəşidəddində gördüyümüz Sərəngin hakimiyyətə gəlişi haqqında oğuznamənin soykötüyü kimi təqdim olunan *yavkular* haqqında məlumatı silmiş və onu, əsas etibarilə, Səlcuqlu sülaləsi ilə bağlı adlarla əvəz etmişdir. Bununla yanaşı, müəllif onları Kınık soyunun deyil, Kayı soyunun mənsubları kimi təqdim etmiş və bunun üçün öncədən "müəyyən hazırlıqlar" görmüşdür. O, Əli xan və Şahməliyi Kayı soyundan saymır və deyildiyi kimi, Əli xanın Oğuz elinin parçalanması nəticəsində hakimiyyətə gəldiyini söyləyir. Bu halda müəllif üsyanın təşəbbüskarı və qəhrəmanı Toqurmış oğlu Toğrulu Kayı soyunun mənsubu kimi təqdim etməklə baş verən üsyana Oğuz elində legitim hakimiyyət uğrunda mübarizə rəngi verir və bu müstəvidə *Mübarək Ta-*

*rixi* davam etdirməyə çalışır. Ancaq Şahməliyin məğlubiyyəti və Əli xanın ölümündən sonra Oğuz elinin müxtəlif istiqamətdə köçündən bəhs edən müəllif *Mübarək Tarixi* Toqurmış soyunun hesabına uzatmaq naminə yazır: "Şahməliyin məğlubiyyətindən sonra Oğuz elinin köçməyən hissəsi Sırın mənbəyində və Amu çayında yerləşdilər və Toqurmış oğlu Toğrulu xan qaldırdılar" (38, 68). Ardınca müəllif soykötüyünü Sərəngə qədər uzadır. Əslində, hər iki müəllifin *Mübarək Tarixi* uzatmaq cəhdi onlara təqdim olunan və oğuz tarixi haqqında oğuznamələr silsiləsində yeri bəlli olmayan *Sərəngin hakimiyyətə gəlişi haqqında oğuznamə* olmuşdur. Fikrimizi tamamlamaq üçün bu oğuznamənin məzmununa nəzər salmaq məcburiyyətindəyik.

***Sərəngin hakimiyyətə gəlişi haqqında oğuznamə.*** Rəşidəddinin təsvirinə görə, bu oğuznamədə öncə soykötüyü şəklində bir-biri ilə qohumluq dərəcəsi bəlli olmayan Toküz Yavkuy, Saman Yavkuy, Aqım Yavkuy, Kökəm Yavkuy kimi oğuz hakimlərinin adı çəkilir. Kökəm Yavkuyun adının çəkilməsi ilə epik süjet hərəkətə gəlir. Burada Kökəm Yavkuy ilə "Oğuz" dastanından bizə bəlli olan Qara Şit arasındakı savaş təsvir olunur:

Qara Şit öncə Kökəm Yavkuya qələbə çalır, onun beşikdə olan qardaşını aparır. Kökəm Yavkuy güclənərək Qara Şiti məğlub edir. Ancaq qardaşı Qara Şitin yanında qalır. O, böyüyəndən sonra Qara Şit ordusunda xidmət edir və burada *sərhəng* rütbəsi aldığı üçün ona Sərəng adı qoyulur. Sərəng Qara Şitin əsarətindən qurtulmaq üçün qardaşı Kökəm Yavkuyu köməyə çağırır. Kökəm Yavkuy qardaşını xilas etmək üçün Qara Şitin üzərinə gedir. Bu zaman Sərəng yayınaraq oğuz ordusunun tərəfinə keçir. İki ordu arasında böyük döyüş olur. Hər iki tərəfdən çoxlu adam ölür və yaralanır. Nəhayət, hər iki

tərəf öz ordusunu geriyə çəkir. Sərəng qardaşının yanına gələrək onun qarşısında torpağı öpür və başına gələnləri danışır.

Kökəm Yavkuy qardaşına Qara Şit ordusundakı vəzifəsinə uyğun olaraq *sərhəng* vəzifəsi verir. Kökəm Yavkuy iyirmi il Oğuz elinin hakimi olandan sonra qəfildən vəfat edir. Sərəng qardaşını sərdabəyə qoyaraq ölümünü xalqdan gizlədir. O, qardaşının xəstə olduğunu söyləyərək onun əvəzindən dövləti idarə edir. Bir ildən sonra bəylər Sərəngin yanına gəlib ona söyləyirlər: "Sən bir ildir ki, eli idarə edirsən. Əgər qardaşın sağdırsa, onu bizə göstər, əgər ölübsə, onda onu gizlətməyə nə ehtiyac var? Sən özün taxta oturmalısan". Bu zaman Sərəng göz yaşları içərisində hər şeyi etiraf edir. Ölən qardaşı üzə çıxardıb dəfn edirlər. Sərəng "padşahlıq taxtında" oturur.

Oğuznamədə qardaşın hakimiyyətə gəlməsindən görünür ki, o, bir epoxanın sonu, başqa bir epoxanın başlanğıcı haqqındadır. Soykötüyündən başlayaraq oğuznamənin qəhrəmanına qədər adı çəkilən oğuz hakimlərinin *yavkuy* ünvanı daşımasına əsaslanıb onun Yabquxanlar epoxasından başqa bir epoxaya keçid oğuznaməsi saymaq olar. Ancaq, deyildiyi kimi, hər iki mətndə bu yeri Qaraxan soyu və buğraxanlar haqqında oğuznamə tutur. Maraqlıdır ki, Sərəng haqqında oğuznamə Yabquxanlar haqqında oğuznamənin sonuncu – Uladmur Yavkuy xandan bəhs edən hissəsinə bənzəyir. Hər iki oğuznamədə beşikdə ikən düşmən tərəfindən qaçırılan və böyüyəndən sonra geriyə qayıdan qardaş hakimiyyətə gəlir...

Sərəng haqqında oğuznamənin epik xronologiyada yerini müəyyən etməyin çətin olduğunu vurğulamaqla bərabər, deyilənlərə əsaslanıb Rəşidəddin və Əbülqazi mətnində *Mübarək Tarixin* bu oğuznamə ilə tamamlanmasının şifahi ənənədən gəlmədiyini qəti şəkildə söyləmək mümkündür. Bununla yanaşı, müəlliflərin sözügedən mətnə münasibətində müəyyən fərqliliklər var.

Rəşidəddinin informatorları sülalənin əcdadının Sərəng adlanmasına əsaslanıb onu qəznəlilərin əcdadı kimi təqdim edir və burada Qəznəli dövlətinin əsasını qoyan Alp təkinin və ya onun davamçısı olan Səbuk təkinin Samani dövlətinin əmiri olması müəyyən rol oynayır (47, 1-12). Elə ona görə də mətndə Sərəng soyunun mənsubu kimi Səbuk təkinin, Mahmudun, Məsudun adı çəkilir və onların Kayı soyundan olması vurğulanır. Yəni qəznəlilər oğuz hakimlərinə calanaraq oğuzlaşdırılır.

Sərəng haqqında Oğuznamədən sonra qəznəlilər, eləcə də onlarla səlcuqlular arasında gedən mübarizə barədə qeydlər epiklikdən məhrumdur. Deməli, sözügedən hissə dastan əsasında deyil, tarixi xatirələr əsasında yazılmışdır. Belə məlum olur ki, qaraxanlılardan fərqli olaraq, qəznəlilər haqqında oğuznamə olmayıb. Ona görə də oğuznaməyə söykənmədiyi üçün mətndə qəznəlilərin Sərəngə bağlanması şübhəli görünür. Bununla yanaşı, ənənənin daşıyıcıları Sərəngi qəznəlilərin əcdadı sayırsa, onda bizim buna inanmamağa haqqımız çatmır. Bu halda Sərəng haqqında oğuznaməni *qəznəlilərin hakimiyyətə gəlişi haqqında oğuznamə* saymaqdan başqa yol qalmır.

Rəşidəddindən fərqli olaraq, Əbülqazi Sərəng haqqında oğuznamə ilə qəznəlilər arasında heç bir əlaqə görmür. Müəllif qardaşın hakimiyyətə gəlməsinin işarəvi mahiyyət daşıyaraq yeni epoxanın başlanğıcını ifadə etməsinə əhəmiyyət vermədən *Mübarək Tarixi*, deyildiyi kimi, *Sərəng haqqında oğuznamə* ilə tamamlayır. O, səlcuqu hərəkatı haqqında məlumat versə də, onu haqlı olaraq *Mübarək Tarixin* içərisinə salmır. Səlcuqluların türkmənlikdən imtina etməsi, eləcə də "Kukem Bakuy və Sərəngdən sonra Oğuz elinin müstəqil hakim qaldırıb oturtmamaları" haqqında qeydlər başqa cür düşünməyə imkan vermir.

Biz yuxarıda şifahi ənənənin təqdim etdiyi oğuz tarixinin simasını göstərmək üçün Rəşidəddin və Əbülqazinin buraxdığı yanlışlıqları düzəltməyə çalışdıq. Aydın olur ki, Oğuznamə

*Mübarək Oğuz Tarixini* Oğuz elinin süqutuna həsr etdiyi xüsusi oğuznamə ilə tamamlayır. Ancaq bu oğuznamə, sadəcə, Əli xanın ölümü haqqında məlumatla tamamlamır. Burada Əli xanın ölümündən sonra Oğuz elinin süqutu da təsvir olunur. Rəşidəddin bu məsələnin üzərindən yayınaraq oğuz boylarının müxtəlif istiqamətdə köçündən bəhs etməklə kifayətlənir. Ancaq Əbülqazi ona xüsusi diqqət yetirərək Oğuz elinin süqutunu təsvir edir: "Oğuz elində hamı bir-biri ilə öclü – qanlı oldu. Hər ev başı qara xan deyilən hadisə baş verdi. Bir-birlərinə hücum çəkdilər, bir-birlərini öldürdülər" (38, 63). Oğuznamə oğuz tarixini bu şəkildə tamamlayır və bu dövrə qədərki tarixi mübarəkləşdirərək "oğuz zəmanı" kimi vəsf edir.

Rəşidəddin və Əbülqazi mətni də daxil olmaqla oğuz tayfalarının müxtəlif istiqamətdə köçü barədə qaynaqlarda yer tutan tarixi xatirələr oğuz boylarının Oğuz elinin dağılmasından, yəni *Mübarək Tarixdən* sonrakı taleyini əks etdirir. Bu xatirələrin *Mübarək Tarixdən* sonra deyilməsi türkman etnik şüurunun onları *Mübarək Tarixin* davamı kimi dərk etməsinin ifadəsidir. Sözügedən xatirələrdən ibarət olan mətnlərin *Oğuznamə* adlanması təbiidir. Türkman etnik şüuru tarixi Oğuznamə şəklində anlayır və Oğuznamə şəklində də ifadə edirdi.

## ƏDƏBİYYAT


1. Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные связи. Ленинград: Наука, 1971, 402 с.

2. Абрамзон С.М. Формы семьи у дотюркских и тюркских племен Южной Сибири, Семиречья и Тянь-Шаня у древности и средневековья // Тюркологический сборник. 1972, Москва: Наука, 1973, с.287-305.

3. Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад: Ылым, 1969, 294 с.

4. Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв.Москва: Наука,1991, 302 с.

5. Araslı H. "Kitabi-Dədə Qorqud" haqqında // Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, s. 5-13.

6. Бадалов Р. Правда и вымысел героического эпоса. Баку: Элм, 1983, 153 с.

7. "Бартольду В.В.". Туркестанские друзья, ученики и почитатели. Ташкент: 1927, с.554

8. Бартольд В.В. Турецкий эпос и Кавказ // Сочинения. Т. V, Москва: Наука, 1968, с.473-486

9. Бернштам А.Н. Историческая правда в легенде об Огуз-Кагане // Советская этнография. 1935, №6, с.33-43

10. Бикбулатов Н.В. Минорат. Проблема происхождения и исторического места в системе социальных институтов // Этнография Башкирии. Уфа: Наука, 1976, с.52-61

11. Бикбулатов Н.В. Башкирская система родства. Москва: Наука, 1981, 221 с.

12. Бромлей Ю.В. Ф.Энгельс и проблемы архаической формы семейной общины // Проблемы этнографии и антропологии в свете научного наследия Ф.Энгельса. Москва: Наука, 1972, с.162-175

13.Cəfərov N. "Kitabi-Dədə Qorqud"da İslama keçidin poetikası. Bakı: Yeni Nəşrlər Evi, 1999, 54 s.

14. Cumbur M. Dede Korkut Oğuz-Namelerinde İslami Unsurlar // Uluslararası Dede Korkut Bilgi Şöleni Bildirileri. Ankara: 1999, s.77-95

15. Çay A. Karakoyunlular // Türk Dünyası El Kitabı. C. I. Coğrafiya-Tarih. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1992, s. 344-348

16. Erarslan K. Yazıçızadenin Oğuz-Namesi // Türk Dili Araştırmaları Yıllığı. Belleten, 1992, Ankara: 1995, s.29-35

17. Ercilasun A.B. Oğuz Kağan Destanı Üzerine Bazı Düşünceler // Türk Dili Araştırmaları Yıllığı. Belleten, 1986, Ankara: 1988, s.13-16

18. Ergin M. Giriş // Dede Korkut Kitabı. C. I. Ankara: Türk Dil Kurumu Yayınları, 1997, s.1-70

19. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə / Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi R.Şükürova. Bakı: Elm, 1998, 335 s.

20. Əsgər Ə. "Qalın oğuz bəgləri toyum oldu". "Dədə Qorqud Kitabı"nda qədim bir hərbi qələbə mərasiminin izi // "Dədə Qorqud". Elmi-ədəbi toplu. № 1, Bakı, 2006, s.3-9

21. Фадаева И.Л. Официальные доктрины в идеологии и политике Османской империи (Османизм-панисламизм). Москва: Наука, 1985г, 268 с.

22. Фазлаллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини / Перевод с английского на русский Т.А. Минорской. Баку: Элм, 1987, 170 с.

23. Фазлаллах Рашид-ад-Дин. Сборник летописей. Т. I, кн. 1. / Перевод с персидского Л.А.Хетагурова. Москва-Ленинград: Издательство АНССР, 1952, 221 с.

24. Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме / Перевод с персидского, предисловие, комментарии, примечания и указатели Р.М.Шукюровой. Баку: Наука, 1987, 111 с.

25. Gökyay O.Ş. Dedem Korkudun Kitabı. İstanbul: Milli Eğitim Basımevi. 2000, 1531 s.

26. Günay Ü., Güngör H. Başlanğıctan Günümüze Türklerin Dini Tarihi. İstambul: Ocak Yayınları, 1997, 406 s.

27. Hacıyev T., Vəliyev K. Azərbaycan dili tarixi. Bakı: Maarif, 1983, 187 s.

28.Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Yeni Nəşrlər Evi, 1999, 212 s.

29. Хафиз-и Таныш Бухари. Шараф-нама-йи шахи. Ч.1. / Перевод с персидского, введение, примечания и указатели М.А.Салахетдиновой. Москва: Наука, 1983, 298 с.

30. İbn Fedlan Seyahetnamesi // Seyahetnameler. № 1. İstanbul: Bedir Yayınevi, 1975, s.19-80.

31. Kaşğarlı M. Divanü Luğat-it-Türk / Çeviren B.Atalay. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 530 s.

32. Kırzıoğlu M.F. Dede Korkut Oğuznameleri. I kitab. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, 2000, 114 s.

33. Kitabi-Dədə Qorqud / Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. Bakı: Yazıçı, 1988, 264 s.

34. Кисляков Н.А. Очерки по истории семьи и брака у народов Средней Азии и Казахстана. Ленинград: Наука, 1969, с.230

35. Кисляков Н.А. Наследование и раздел имущества у народов Средней Азии и Казахстана (XIX-начало XX в.). Ленинград: Наука, 1977, 130 с.

36. Кляшторный С.Г. Эпоха "Кутадгу Билик" // Советская тюркология. Баку: 1970, № 4, с.82-86

37. Кляшторный С.Г. Надпись уйгурского Бегю-кагана в Северо-Западной Монголии // Центральная Азия: новые памятники письменности и искусства. Сборник статей. Москва: Наука, 1987, с.19-37

38. Кононов А.Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград: Издательство АН СССР, 1958, 190 с.

39. Короглы Х. Огузский героический эпос. Москва: Наука, 1976, 238 с.

40. Косвен М.О. Семейная община и патриномия. Москва: АН СССР, 1963, 218 с.

41. Köprülü F. Kai Kabilesi Hakkında Yeni Notlar. Ankara: Türk Tarih Kurumu Basımevi, VIII c., №31, 1944, s.421-452

42. Köymen M. Büyük Selçuklu İmparatorluğu Tarihi. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 390 s.

43. Гумилев Л.Н. Удельно-лествичная система у тюрок в VI-VIII веках. Советская этнография, 1959, №3, с.11-25

44. Гумилев Л.Н. Древние тюрки. Москва: Клышников, Комаров и Ко, 1993, 526 с.

45. Лотман Ю.М. Семиосфера. Санкт-Петербург: Искусство СПб, 2001, 704 с.

46. Малиновский В. Магия, наука и религия. Москва: Рефл-бук, 1998, 288 с.

47. Mercil E. Qazneliler Devleti Tarihi. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 117 s.

48. Mervazinin Eserinin Türklerle İlgili Babının Tercümesi // Osmanlı Tarihleri. C. I. İstambul: Türkiye Yayınevi, 1949, s.95-108

49. Öcal S. Devlet Kuran Kahramanlar. İstambul: Türk Dünyası Araştırmaları Vakfı Yayını: 1987, 119 s.

50. Ögel B. Türk Mitolojisi. C. I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.

51. Ömer Ş. Oğuznameye Dair Bazı Meseller // Türk Dünyası Dil ve Edebiyyat Dergisi. № 4, 1997, s.88-106

52. Pelliot P. Uyğur Yazısıyla Yazılmış Uğuz Han Destanı Üzerine / Çeviren: Vedat Kökten. Ankara: Türk Dil Kurumu Yayınları, 1955, 103 s.

53. Потанин Т.Н. Ерке. Культ сына неба в Северной Азии. Материалы к тюрко-монгольской мифологии. Томск, 1916, 129 с.

54. Путилов Б.Н. Типология фольклорного историзма // Типология народного эпоса. Москва: Наука, 1975, с.224-240

55. Путилов Б.Н. Героический эпос и действительность. Ленинград: Наука, 1988, 224 с.

56. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 396 s.

57. Родословное древо тюрков. Сочинение Абуль-Гази Хивинского хана / Перевод и предисловие Т.С.Саблукова. С послесловием и примечаниями П.О.Катанова. Казан: Типо-литография Императорского Университета, 1866, 336 с.

58. Ru J.P. Eskiçağ ve Ortaçağda Altay Türklerinde Ölüm / Çeviren: Aykut Kazancıgil. İstambul: Kabalcı Yayınevi, 1999, 352 s.

59. Sertkaya O.F. Oğuz Kağan Destanı Üzerine Bazı Mülahazalar // Türk Dünyası Araştırmaları Yayınevi, Belleten. 1992, Ankara: 1995, s.9-27

60. Sümer F. Oğuzlar (Türkmenler). İstambul: Ana Yayınları, 1980, 701 s.

Şükrüllah. Behcətüttevarih // Osmanlı Tarihleri. İstanbul: Türkiye Yayınevi, 1949, s.51-65

61.Şükürova R. Əbubəkr Tehrani və onun “Kitabi-Diyarbəkriyyə” əsəri. Bayrak Yayınları, İstambul, 2006, 336 s.

62. Шукюрова Р. Генеалогия Огузов и связанные с ней события в “Огуз-Наме” // Изв. АН Азерб. ССР. Серия истории, философии и права. 1986, №1, с.72-79

63. Шукюрова Р. Введение // Фазлаллах Рашид-ад-Дин. Огуз-Наме. Баку: Элм, 1987, с.3-21

64. Tanyu H. İslamlıkdan Önce Türklerde Tek Tanrı İnancı. Ankara: Ankara Üniversitesi Basımevi, 1980, 216 s.

65.Təhmasib M. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 397 s.

66.Təhmasib M. Bir tarixi həqiqətin eposdakı izləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI kitab. Bakı: Elm, 1981, s.3-19

67. Togan Z.V. Umumi Türk Tarihine Giriş. İstambul: Enderun Kitabevi, 1981, 537 s.

68. Togan Z.V. Oğuz Destanı. Rəşideddin Oğuznamesi. Tercüme ve tahlili. İstambul: Enderun Kitabevi, 1982, 164 s.

69. Толстов С.П. Города гузов // Советская этнография. 1947, №3, с. 55-102

70. Топоров В.Н. Первобытные представление о мире (общий взгляд) // Очерки истории естественнонаучных знаний в древности. Москва: Наука, 1982, с.9-36

71. Торланбаева К.У. Дуальная организация и система наследования у восточных тюрок // SHYGYS, 2004, №1, с.29-40

72. Türkmen F. Kazanda Bulunan Yeni Bir Oğuzname Nüshası Üzerine. Türk Dili ve Edebiyyatı Araştırmaları, 1993, № 7, s.7-18

73. Türkmen F. Yeni Bir Oğuzname Yazmasındakı Cengiz Hanla İlgili Revayetler. İzmir, 1993, 13 s.

74. Васильева Т.П. Этнические компоненты в составе туркмен, по данным этнографии // Проблемы этногенеза туркменского народа. Ашхабад: Ылым, 1977, с.95-108

75. Yazıcızade Ali. Tevârih-i Âl-i Selçuk. [Oğuzname-Selçuklu Tarihi]. (Giriş-Metn-Dizin) / Hazırlayan: Dr. Abdullah Baki. İstambul: Camlıca Basım Yayın, 2009, 988 s.

76. Йомудский Карашхан оглы Н.Н. Из народного предания туркмен // "В.В. Бартольду". Ташкент: 1927, с.313-327.

77. Золотарев А.М. Родовой строй и первобытная мифология. Москва: Наука, 1964, с.225

# MEYDAN TAMAŞALARINDA DÖVLƏT İDARƏÇİLİK SİSTEMİ İLƏ BAĞLI MOTİV VƏ ELEMENTLƏR

**Tahirə Məmməd**
tahire.mammed@yahoo.com

## МОТИВЫ, ЕЛЕМЕНТЫ СВЯЗАННЫЕ С ГОСУДАРСТВЕННОЙ УПРАВЛЕНЧЕСКОЙ СИСТЕМОЙ В НАРОДНЫХ ПРЕДСТАВЛЕНИЯХ

РЕЗЮМЕ

Фольклор является ценнейщим источником отражающим в себе историческую судьбу, памяти и опыта народа приобретенным в прошлом. По-этому в изучении проблем государства и государственности обрашение к этому источнику имеет важное значение.

В представлениях связанных с характеристикой религии, мистики, или различных вероваий, забав всегда господствует единое управленческое система: а) способы которые подчиняет себе упрвление и организации игры; б) управление и организация массы, желание народа уравновешать отношений между властью и обществом с помощью отражения его в представлениях. В обоих случаях имеется место к элэмэнтам, призывам управленческого механизма государства и общества.

В функциях, представлении участников, в их одеждах, использованных масках всегда присутсвуют косвенные отношения к управленческому механизму общества, его равновесии, самоорганизации.

В содержаниях текстов, диалогах элэмэнты связанные с управленчеством, организованностью открыто используется, но несмотря на это, вовремя представлении игры определение, выявление их сопровождаются опре-

деленными трудностями. Чтобы выявить наружу глубины, широты, древних корней народной памяти все определенные выще тонькости, нюансы ждет своего изучения.

***Ключевые слова:*** управленчество, организованность, государство, народные преставления, память, государство, народ.

**MOTIVE AND ELEMENTS RELATED TO STATE MANAGEMENT SYSTEM IN SQUARE PERFORMANCES**

SUMMARY

Since folklore is an invaluable source of the historical fate, memory and experience of the people, it is important to refer to this source for the study of our people's views on state and statehood.

There is a system of governance in faith, entertainment, or religious-mystical scenes: a) rules to be followed in the management and organization of the game; b) the manifestation of the will of the people on the management and organization of society, the regulation of the power and society. Both managements contain elements and messages related to the state and society's governance mechanism.

The function and presentation of participants, their dresses, and the masks used by them have implications for the community's management mechanism, order, and self-organization. Although the content of the text and the elements associated with the dialogues are clearly visible, it is difficult to identify and identify them in the sketch. All the points mentioned to reveal the depth, age and breadth of the people's memory require serious research.

***Key words:*** management, organization, government, square performances, memory, power, people.

## Giriş

Xalq özü tarixən nə cür dövlət və idarəçilik arzulamışdır, cəmiyyətdaxili və cəmiyyətlə hakimiyyət münasibətlərinin tənzimlənməsində hansı prinsipləri önə çəkmişdir, – sualına etnos baxışını üzə çıxarmaq məqsədilə folklorun istər lirik, istər epik, istərsə də dramatik növə aid nümunələrindən kifayət qədər fakt əldə etmək mümkündür. Bu baxımdan meydan tamaşaları canlı, dinamik prosesləri əks etdirən xalq yaradıcılıq nümunələri kimi özündə zəngin element və motivləri, situasiyaları qoruyub saxlayır.

Meydan tamaşalarının adresat və adresant müstəvisində oyunçu və tamaşaçı sərhəddinin tamaşa prosesinin müəyyən məqamlarında aradan qalxması, tamaşaçının bir sıra hallarda oyunçu statusu qazanması, müasir teatrla müqayisədə hər nə qədər primitvlik təəssüratı oyatsa da, təsir mexanizmi, təlqin funksiyasına görə çox güclüdür. Xalq bu tamaşanın həm yaradıcısı, həm oyunçusu, həm də tamaşaçısıdır. Bu ünsiyyət dalğasında, təsirin ötürülməsində fasiləsizlik var və o ritual mexanizmi ilə tamaşaçını oyunçuya qarışdırıb hərəkətlilik yaradır. Oyunçu ilə bərabər qılıq-qiyafət təzələyən, meydana çıxan tamaşaçının alqışı təkcə oyunçuya yox, bütün xalqa, xeyirin şər üzərində qələbəsinə, güclüyə, haqlıya, sağlam həyata aiddir.

Meydan tamaşaları ənənənin yaşamasında, canlı və dinamik qalmasında rolu olan yaddaş xəzinələrindən biridir. *Ənənənin yaşadılıb ötürülməsi* isə dövlətin prioritet istiqamətləri sırasındadır. Milli-müstəqil dövlət öz dəyərlərini qoruyub saxlamağı və inkişaf etdirməyi əsas vəzifələrdən biri kimi müəyyənləşdirir.

“Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-

mənəvi dəyərlərin qorunmasına xidmət edir” (2). Bu mənada, folklor, onun ayrılmaz bir sahəsi olan meydan tamaşaları milli-mənəvi dəyərlərimizin ötürücüsü kimi də dövlətçiliyə, dövlətin qoruyub saxlamağa üstünlük verdiyi ənənələri yaşatmağa xidmət edir.

**Oyunun idarə və təşkilində riayət olunmalı qaydalar**

İdarəçilik baxımından müəyyən norma və qaydalara riayət olunması cəmiyyətin, onun mədəni qurum və hadisələrinin mövcudluğunu qorumaq üçün vacib şərtlərdən biridir. Normalar yazılı və şifahi ola bilər. Yazılı normalar adətən rəsmi xarakter daşıyır, dövlət və rəsmi təşkilatlar, idarələr tərəfindən müəyyənləşdirilir. “Fərdlər arası münasibətlərin düzənlənməsindən doğan törə, adət, ənənə, ...stereotip qaydaları yazılı olmayan normalardır” (7). Lakin yazılı olmayan normalar rəsmi, yazılı normalara ya öz təsirini göstərir, ya da əksinə, yazılı normalardan, qaydalardan təsirlənir.

Tamaşalarda hansı obrazların olması, onların əsas funksiyası xalq teatrında əsrlərcə davam edən normalar halını almışdır. Tamaşaçıların öz yürüşləri, rəqsləri və ya oyun babasının dəvəti ilə iştirakçıya çevrilməsi bu normaları pozmur, onları demokratikləşdirir.

Əksər tədqiqatçıların fikrincə, ilk meydan tamaşaları ritual səciyyəli olubdur (6, 58). Nüfuzlu folklorşünas Məmmədhüseyn Təhmasib sehr düsturları, mərasim nəğmələri, ayinlər və mərasim tamaşalarını bir sistemdə, bir-biri ilə ayrılmaz şəkildə tədqiqata cəlb edir. Ən qədim mərasimimiz kimi qiymətləndirdiyi “Ata-baba günü mərasimi”, “Qodu-qodu”, “Xıdır bayramı”, “Günəşi çağırma mərasimi” ilə bağlı meydan tamaşalarını bir ritual kimi araşdırır (4, 30-70). Novruz bayramı ilə bağlı tamaşaların da başlanğıcını ritual xarakterli “Səməni bayramı”ndan götürdüyünü izah edir (4, 85-90). Əgər rituallıq

varsa, sözsüz ki, normalar da var. İnsanların icra etdikləri oyunlarda ruhlara və səmavi qüvvələrə inam motivi onların müəyyən qılıq-qiyafət dəyişmələrinə və zikrvari hərəkət təkrarlarına əsas verir. Bunların icrası isə sözsüz ki, təyin olunmuş nizam üzrə yerinə yetirilir. Bütün bu nizam isə ierarxik idarəçilik əsasında baş verir ki, bunu da ibtidai şəkildə dövlətçilik elementləri kimi dəyərləndirmək olar.

Meydan tamaşalarında oyunu idarə edən oyunbabası (toylarda toybabası), dəstəbaşı, meydanbəyi seçilir. "... müxtəlif xarakterli mərasimlərdə, meydan oyun-tamaşalarında bütün göstərilənləri düzənləyənə oyunbabası (oyun babası) deyirmişlər" (3, 5). O, təkcə oyunu hazırlayıb, idarə etmir, eyni zamanda, tamaşaçılarla iştirakçılar arasında əlaqələndirici, tənzimləyici funksiyasını icra edir, nizam-intizam yaradır.

Meydan tamaşalarında obrazların mövcudluğu, obrazlararası münasibət xalq teatr poetikasının göstəricisi olmaqla bərabər, həm də ənənəvi inanc sistemini, dünyagörüşünü, cəmiyyət və varlıq arasındakı düzəni bəlli bir rakursdan göstərmək baxımından müəyyən funksiya icra edir. "Kosaoyunu"nun kosasının kəmərinə taxdığı maskalarla roldan-rola girməsi, "Kəndirbaz"da kəndirbaz və köməkçisi keçəpapağın bir-birini tamamlaması, "Kaftarkus"da ölü və goreşən obrazları, "Xan bəzəmə", "Padşah oyunu"nda saraydaxili və saray-xalq münasibətlərini əks etdirən oyunçular və s. xalqın düşüncə, münasibət və istəklərinin, dünyagörüşünün şəkillənmiş təzahürüdür.

Mərasim tamaşalarında obrazlar, onların qılıq-qiyafəti, meydana gəlişi və davranışı ilə bağlı prinsipial tələblər var ki, əsrlərcə davam edən normalar halını alıb. Bu normalara sərbəst münasibət ənənənin zədələnməsinə yol açır.

Şəbih tamaşaları dini-misteriya xarakteri daşıdığından və içində əski ritual rüşeymi olan tamaşalara nisbətən gənc

olduğundan ondakı qaydaların – istər obrazlar aləmi, istərsə də qılıq-qiyafət, nitqdəki ifadələrdə işlənən sözlərə qoyulan tələblərin səbəb və qaynağı daha aydın müşahidə olunur. "Şəbih tamaşalarının özünəməxsus dramaturgiya və teatr poetikası vardır" (3, 22). Bu tamaşalar Kərbəla müsibəti kimi tanınan tarixi hadisənin imitasiyası əsasında düzəldilir, obrazlar tarixi şəxsləri və əzadarları canlandırır, tamaşanın atributları gerçək baş verənlərə uyğun seçilir, əsas qəhrəmanları təmsil edən oyunçular üzü niqablı meydana çıxırlar.

Obrazların qılıq-qiyafətinin vacib elemntləri və rəngi də riayət edilməli qaydalar sırasına daxildir. Məsələn vaxtilə xalq arasında geniş yayılan "Qodu-qodu" tamaşasında əldə gəzdirilən kuklanı – Qodunu günəşin rəmzi kimi qırmızı parçaya bürüyürdülər, Kəvsəc oyununda cır-cındır geyindirilmiş, üzü un və kömürlə bəzədilmiş oyunçunu qatıra mindirib, küçələri gəzdirirdilər (5). Ümumiyyətlə, normalar daha çox iştirakçılar və qılıq-qiyafət məsələsində, eyni zamanda tamaşanın oynanılma mexanizmi ilə bağlıdır. Əgər tamaşa mövsüm-mərasim səciyyəsi daşıyırsa, artıq onun zamanı da normativləşir.

Maraqlıdır ki, meydan tamaşalarında çox vaxt meydan babası əlinə bir çubuq alır, meydanda oyunçular üçün ayrılan ərazinin ətrafına bir cızıq çəkir və kimsənin o cızıqdan içəri ayaq qoymamasını tapşırır. Bəzən meydan babasını acıtmaq üçün tamaşaçılardan biri, o, üzünü bir az yana döndərən kimi ayağını çəkilən cızıqdan içəri uzadır, meydanbabsı dərhal yaxınlaşıb onun ayağına çubuqla vurur. Heç kim meydan babasına onun ayağına vurduğu üçün etiraz etmir, çünki o vəzifəsini icra edir. Eyni zamanda, xalq ritualdan başlayan bu ənənəni pozmaqla oyunun tələblərini pozmuş olar, onun sehrini, gücünü azaldar; bu inancın şüuraltı yerləşməsi meydanbabasının cızdığı cızığın möhkəm çəpər kimi qəbuluna stimul verir və əslində, tamaşaçını oyunçuya çevirir.

**Hakimiyyət və cəmiyyət münasibətlərinin tənzimlənməsi ilə bağlı xalq istəyinin tamaşanın məzmununda təzahürü**

Meydan tamaşaları öz məzmunu ilə haqlının, ədalətlinin üstünlüyü ideyasını, paylaşmanı, birliyi təlqin edir, mübarizlik ruhu aşılayır.

Bir sıra meydan tamaşaları vardır ki, onlar *ədalətli paylaşımı* – həm əmək, həm də gəlirin bölünməsi ilə təbliğ edir, insanları bu ruhda tərbiyələndirir. Gəlirin ədalətli bölünməsi dövlətçiliyin ən mühüm vəzifələrindən biridir. “Xanbəzəmə” tamaşasında “ödənən cərimələrin”, yağış yağdırmaq üçün icra olunan ayin-tamaşalardan sonra kəsilən qurbanın ehtiyacı olanlar arasında paylanmasını, “Qodu-qodu”da toplanan nəmərin bölüşdürülməsini, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş”, “Tənbəl qardaş” tamaşalarında əmək və gəlir bölgüsü problemini bu vəzifəyə uyğun motiv kimi səciyyələndirmək olar. Bu tamaşalar xalqa ədalətli idarəçilik hissiyyatını aşılayır. Öz mənafeyini düşünmək, tənbəllik insanlararası münasibətə xələl gətirməklə bərabər, eyni zamanda dövlətçilik, cəmiyyət varlığının qorunması baxımından da zərərlidir.

*Dövlət başçısının seçilməsi* “Xanbəzəmə”, “Xan-vəzir”, “Şah bəzəmə”, “Padşah oyunu” adı ilə tanınan tamaşada əsas motivlərdən biridir. Xalq burada səs çoxluğu ilə birini seçib taxta oturdur və onun ədalətli qərarlarına tabe olur. Əgər o öz ciddiyyətini pozsa, yəni gülsə, xalq tərəfindən taxtdan endirilir və cəzalandırılır. Burada gülməmək – hər hansı bir “olmaz” magiklik elementi kimi görünsə də, xalqın tələbi kimi səslənir və xan ona əməl etməyə borcludur.

Dövlətin idarə olunması və inkişafı üçün milli birliyin əldə olunması mühüm şərtdir. Meydan tamaşalarında əksər vaxt qərarlar *tamaşaçı və oyunçu həmrəyliyi* ilə verilir. Veri-

lən qərarlardakı fikir birliyi idarəçilikdə demokratik sistemin sadə, görüntülənən, açıq nümayiş olunan modelidir. Nümunə üçün xan güldürmə və cərimələnmələrdəki səs birliyini buna misal göstərə bilərik.

Dövlət idarəsində xalq və dövlət birliyindən başqa *dövlətin vəzifələri və xalqın vəzifələri ayrı-ayrılıqda təyin olunmalı*, hər iki tərəf öz fəaliyyətini və məsuliyyətini aydın dərk etməlidir. Birbaşa hakim və xalq münasibətlərini əks etdirən "Xanbəzəmə"lərdə xanın, vəzir-vəkilin, cəlladın, eləcə də toybabasının vəzifələri aydındır. Yuxarı başda oturan, sərt, gülməyən xan əmr və göstərişlər verir, saray xadimləri, fərraşlar, cəllad əmrləri icra edir, xalq öz boynuna düşənləri yerinə yetirir, istər saraydakılar, istərsə də xalq tələb olunanı, "qanuni istəniləni" yerinə yetirməyəndə cəzalandırılır.

Dövlət idarəçiliyində *cəzasızlıq* mümkün deyil. Meydan tamaşalarındakı məcazi cəza əyləncəyə xidmət etsə də, *günahkarın cəzalandırılması motivi* kimi yaddaşlarda iz buraxır. Naxçıvan toylarında oynanan "Çöpüdü"də, Novruz bayramı "Xanbəzəmə"də, əkinçiliklə bağlı "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" tamaşasında rastlaşdığımız cəzalandırmalar buna misaldır.

Hər bir *fərdin şəxsi fəaliyyəti, cəmiyyət qarşısında məsuliyyətini anlaması* onun öz həyatını təmin etməklə bərabər, həm də dövlətin maddi-mənəvi inkişafına töhfə verir. Bu mənada, meydan tamaşalarında fəaliyyətsizlik, tənbəllərə lağeləmə, ironik münasibət, şəbədə qoşma insanlarda əməyə məhəbbət və cəmiyyət qarşısında borcunu anlamaq görüşünün formalaşmasında təsiredici rol oynayır.

Dövlət idarəçiliyində *müdafiəyə hazır olmaq və qalibiyyət iqtidarını nümayiş etdirmək* xalqa güvən verir, fərdləri, vətəndaşları qəhrəmanlığa ruhlandırır. Bu, meydan tamaşalarında xüsusən zorxana və idman oyunlarında başlıca motiv

kimi özünü göstərir. “Azərbaycanda güləş, dirədöymə, oxatma, qılıncoynatma, nizə atma, atçapma, Çovqan, Sürpapaq, Baharbənd, daşqaldırma... və sair idman oyunları geniş yayılmışdır” (1). Adı çəkilən meydan oyunları insanlara mübarizliyi və məğlubedilməzliyi təlqin edir. Müasir dünyada polo oyunları kimi məşhurlaşan Çovqan oyunu dövlətçilik və milli dəyərləri qoruma istiqamətində “Heydər Əliyev Fondunun dəstəyi ilə Qarabağ atı ilə oynanan çövkən oyunu milli Azərbaycan oyunu kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir” (1).

“Şəbih” tamaşalarının dövlət və idarəçilik *məfkurə və ideologiya, haqq uğrunda qurban getmə* ideyasını aşılamaqla ifadə olunur. “Şəbih” tamaşaları dəyərləri qanı bahasına qorumağın tarixi dərsidir.

Dövlətçilikdə insan hüquqlarının qorunması yönündə *fərdi təşəbbüsün inkişaf etdirilməsi*, insanların yaradıcı fəaliyyəti üçün şərait yaratmaq da dövlətin əsas vəzifələrindən biridir. Bu mənada ağıllı, hazırcavab, oyaq şüurlu Keçəlin davranışı, fərdi təşəbbüsləri gülüş doğurmaqla bərabər, həm də təqdir olunur.

Meydan tamaşaları *insanların bir araya gəlib həm tamaşaçı, həm də oyunçu funksiyasını yerinə yetirməklə sosiallaşmasında, cəmiyyət münasibətlərinin tənzimlənməsində, dostluq, sevgi münasibətlərinin yaranmasında* əhəmiyyətli təsir gücünə malikdir.

**Nəticə**

Qədim rituallardan başlanğıc götürən meydan tamaşaları hər bir xalqın mədəni-genetik kodlarını, arzu və istəklərini, həyata baxışını öyrənmək, tədqiq edib üzə çıxarmaq baxımından qiymətli mənbədir. Xalqın, millətin özünütəşkil və idarəçilik prinsipləri, iradə gücü ilə qurduğu dövlət onun

əsas göstəricisi və nailiyyətidir. Dövlət və dövlətçilik şüurunun formalaşmasında folklor, eləcə də onun bir sahəsi olan meydan tamaşaları, xalq münasibətinin ifadəsi kimi təsiredici rol oynamışdır. Xalq və dövlət münasibətlərinin ilkin modelini meydan tamaşalarının motiv və elementlər sistemində müşahidə etmək mümkündür.

## QAYNAQLAR


1. Çovqan və ya çövkən - Azərbaycanda milli atüstü oyun növlərindən biri portal.azertag.az/node/1217
2. Dövlətçilik hissi və milli-mənəvi dəyərlər sistemi - Publika - Xəbərlər ...www.azadinform.az › Xəbərlər › Publika
3. İlham Rəhimli. Azərbaycan teatr tarixi. Bakı, Çaşıoğlu, 2005
4. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri I c., Bakı, "Mütərcim", 2010
5. Mərasim və mövsümi oyun tamaşalarının spesifik xüsusiyyətləri. Teatr təhsili - Musiqi Dünyası azteatr.musigi-dunya.az/file?id=143&dt=1153
6. Tahir Nəsib. Türk epik ənənəsi və "Qeser" dastanı. Fil.ü.f.dr elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, Folklor İnstitutu, 2015
7. Toplumsal Norm Nedir. Toplumsal-norm.nedir.org/

# FOLKLOR VƏ MİLLİ DÖVLƏTÇİLİK TƏFƏKKÜRÜ

**Almaz Həsənqızı**
gunsel_gunsel@yahoo.co.uk

## ФОЛЬКЛОР И МЫШЛЕНИЕ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ

РЕЗЮМЕ

Фольклорные тексты предоставляют незаменимый материал с точки зрения изучения представлений народов мира о демократии, государственности, выборах – словом, правовых представлений. В том числе, представления Азербайджанских тюрков о праве и государственности отражаются в различных жанрах народной литературы – баяты, пословицах, анекдотах, сказках, эпосах и т.д. Данный вопрос отражается в фольклорных текстах по-разному, в зависимости от своеобразного свойства каждого жанра. Так, представления о поисках справедливого правителя в сказках, жалоба и протест против несправедливости и притеснений в пословицах, колыбельных и баяты, горький смех, исходящий из критики в адрес жестоких правителей, кадиев-взяточников, некомпетентных судей в политических анекдотах отчётливо виден благодаря возможностям жанра.

Наиболее полноценные представления об управленческой системе тюркских народов встречаются в нашей главной книге – эпосе «Деде Горгуд». Наряду с этим, в других героических и любовных эпосах имеются моменты, связанные с правами человека, управлением и государственностью.

В докладе к анализу привлечены мысли Азербайджанских тюрков, связанные с правом, управленчеством, демократией, выборами и государственностью.

***Ключевые слова:*** право, государственность, Азербайджан, народ, национальный, справедливость, борьба, фольклор.

## FOLKLORE AND THOUGHT OF NATIONAL STATE SYSTEM

SUMMARY

The folklore texts submit indispensable material from the point of view of researching the imaginations of the world nations regarding democracy, state system, elections – generally, the legal imaginations. Besides, the imaginations of the Azeri Turkic people regarding the law and state system are expressed in various genres of the national literature i.e. bayaties, proverbs, anecdotes, tales, eposes, etc. This issue is variously expressed in the folklore texts depending on the specific feature of each genre. Thus, imaginations regarding search of fair ruler in tales; the complaints and protest against injustice and pressures in the proverbs, lullabies and bayaties; the bitter laugh coming from critics addressed to cruel rulers, grafters, incompetent judges in the political anecdotes is evidently seen owing to the opportunities of the genres.

The most complete imaginations regarding the supervisory system of the Turkic nations are met in our main book – "Dede Gorgud" epos. Besides, other heroic and love eposes contain moments connected to human rights, management and state system.

The thoughts of the Azeri Turkic people connected to law, management, democracy, elections and state system will be attracted to analysis in the report.

***Key words:*** law, state system, Azerbaijan, nation, national, justice, fight, folklore.

## Giriş

Dünya alimlərinin hələ də uzun illərdən bəri diqqətini miladdan öncə, təxminən beş min il bundan əvvəl Şumerlərdə mövcud olan hüquq, idarəetmə sistemilə bağlı gil lövhələrdə yazılan məlumatlar cəlb etməkdədir. Məşhur türk şumeroloqu Müəzziz İlmiyə Çığın "Ortadoğu uyğarlıq mirası-1" kitabında "ilk nigah müqaviləsi, ilk rüşvət hadisəsi, şumer məhkəmələri, ilk gömrük qaçaqçılığı" (4, 77; 83) haqqında çox maraqlı məlumatlar yer almışdır.

Təəssüf ki, Azərbaycan hüquq sisteminin tarixilə bağlı bu cür çox qədim zamanlara aid yazılı mənbələr günümüzə qədər qoruna bilməmişdir. Belə olan halda ən inandırıcı mənbə yenə xalqın yaratdığı söz sərvəti hesab oluna bilər.

Folklorun müxtəlif janrlarında hüquqla bağlı bir sıra təsəvvürlər yer almaqdadır. Daha dəqiq desək, bayatı, layla, nağıl, atalar sözləri, dastan, rəvayət və s. bu cəhətdən maraqlı mənbə kimi diqqəti cəlb edir.

Hər hansı bir xalqın hüquqla bağlı ən qədim təsəvvürlərinin bərpası üçün, təbii ki, ilk müraciət oluna biləcək qaynaq xalqın yaddaşı hesab edilir. Amerika alimi Alan Dandesin (1934-2005) sözləri ilə desək: "Şifahi folklora bəzi siyasi mövzular daxil olmaqla bir sıra məsələlərlə bağlı ictimai rəyin daha dəqiq barometri kimi yanaşmaq mümkündür" (6, 190).

Belə demək mümkünsə, folklor mətni bu halda sanki xalq səsverməsinin – "referendum"unun yekunu kimi diqqəti cəlb etməkdədir.

## Demokratik seçki və nağıllardakı "dövlət quşu"

Şifahi xalq ədəbiyyatının ən qədim janrlarından olan nağıllarda hüquq və idarəçilik müxtəlif vasitələrlə öz əksini tapmışdır. Məlumdur ki, nağıllarımızın əsas ideyası ədalətli hökmdar və firavan həyat haqqında xalq düşüncələridir. Yəni

hər zaman haqqın qələbəsinə inanan insanlar bu dünyagörüşlərini müxtəlif vasitələrlə ifadə etməyə çalışmışlar. Nağıllarımızda tez-tez qarşılaşılan dövlət quşu ilə bağlı xalq düşüncəsi bu cəhətdən diqqəti cəlb edir. Əslində demokratik seçkinin rəmzi ifadəsi olan bu quş bir çox hallarda hökmdarı ölmüş bir məmləkətə gəlib çıxan cır-cındır geyinmiş bir qəhrəmanın başına qonar. Ən ağıllı, xalqını hər çür bəladan (dəhşətli əjdəhadan, yeddibaşlı divdən) qoruya bilən bir igidi hakim seçən quşa bəzən inam olmaz. Seçimin doğruluğu şübhə altına alınarsa, quş yenidən uçurular. Lakin əgər xalqın seçiminə layiq qəhrəmandırsa, neçə dəfə təkrar edilsə də, quş yalnız həmin adamın başına qonar.

Dövlət quşunun həqiqi və rəmzi mənaları, hansı quşların bu ad altında nağıllarda işlənməsilə bağlı maraqlı fikirlər vardır. Onların bəzilərinə qısa nəzər salmaq yerinə düşər.

Belə tədqiqatlardan biri Almaniyanın Berlin şəhərində nəşr edilən "Qurtuluş" dərgisinin 1936-cı il 19-cu sayında verilmişdir. "Nuhoğlu V." imzası ilə verilən həmin məqalə "Dövlət quşu" adlanır.

Hər şeydən əvvəl qeyd etməliyik ki, bu əslində Azərbaycanın tanınmış ziyalılarından siyasi mühacir Mirzə Bala Məmmədzadənin (1898-1959) imzalarından biridir (2, 1034) və həmin məqalə də rus-sovet müstəmləkəçi idarəçiliyinin tənqidi münasibətilə qələmə alındığından siyasi mahiyyət daşımaqdadır. Müəllif vətəninin var-dövlətini talan, ruhunu məhv etməkdə olan imperialist qüvvələrə etirazını bildirmək üçün cox maraqlı bir vasitədən – folklordan məharətlə istifadə etməklə nail olmuşdur. Beləliklə, nağıl elementləri müəllifə, bir tərəfdən, öz düşüncələrinin ifadəsi üçün yardım etmişdirsə, digər tərəfdən, xalq müdrikliyinin, milli fəlsəfənin təbliği, tanıtdırılması diləklərindən irəli gəlmişdir. Məqalənin adından da göründüyü kimi, Nuhoğlu məşhur bir nağıl fiqu-

rundan – dövlət quşu və onun xalq təfəkküründəki yerini aydınlaşdırmaqla siyasi düşüncələrini ifadə etmişdir: "İnadın, ehtirasın, ötkəmliyin qüvvəti "dövlət quşu"nun qarşısında bir heçdir. "Dövlət quşu"nun iltifatına nail olmaq üçün ağlından başqanlıq və vəzifə fikirləri keçirmədən, böyük milli mənfəətlər uğrunda fədakarlıqlarda bulunmaq, təhlükələrlə qucaqlaşmaq, xalqı ən qorxunc fəlakətlərdən qurtarmış olmaq, mərdliyin, qəhrəmanlığın yüksək həmlələrini göstərmək kimi yüksək insani xarakter sahibi olmaq gərəkdir" (11, 536).

Beləliklə, ilk növbədə xalqa başçılıq edən şəxsin hansı keyfiyyətlərə malik olması aydınlaşdırılmışdır. Ən maraqlısı odur ki, nağıllardakı təsəvvürlərdə sabitləşən, vətənini fəlakətlərdən xilas etməyə çalışan, torpağın bütövlüyünü qoruyan insanları xalq qəhrəman kimi bağrına basır, lakin bəzən onları liderliyə qədər yüksəldə bilmir. Yaxın keçmişdəki rus-sovet idarəçilik sisteminin başında duranların xalqlara gətirdiyi fəlakətlər bu fikrin doğruluğunu göstərməkdədir.

Məlumdur ki, qanlar bahasına qurulan, lakin, çox təəssüf ki, cəmi iyirmi üç ay siyasi güclərə davam gətirən Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin aprelində süqutu və rus-bolşevik hakimiyyətinin qələbəsi bir çox insanların taleyinin əsaslı şəkildə dəyişilməsilə nəticələndi. Başqa cür desək, rus müstəmləkəçiliyinin yenidən Azərbaycanı öz caynağına keçirməsi artıq "azadlığın şirinliyini dadmış" ziyalılar üçün daha böyük fəlakətlər gətirdi. Xalqın ən ağıllı, ziyalı övladları əsir olmağı qətiyyətlə qəbul etmədiyi üçün müstəmləkəçinin qəzəbinə tuş gəldi, öldürüldü – susduruldu, sürgünə (gedər-gəlməzə!) qovuldu – susduruldu, yalnız çox az insan zalımın nəfəsini kəsmək üçün digər məmləkətlərə üz tutmağa məcbur oldu.

Sovet dövlətçiliyinin qurulması Azərbaycan xalqının onsuz da çətin olan həyatının ağırlaşmasına, fürsət gözləyən erməni quldurlarının daha da fəallaşmasına, azğınlaşmasına

gətirib çıxardı. Azərbaycanın bir çox şəhər və kəndlərində dəhşətli qətliamlar həyata keçirildi, lakin bu qanlı tarixi hadisələr sovet senzurasının çox ciddi basqısı nəticəsində ört-basdır edilməyə başladı, bir çox hallarda isə öz araşdırıcılarımız tərəfindən hakimiyyətin siyasətinə müvafiq, yanlış, təhriflərlə, qeyri-obyektiv təhlil olundu.

Dünya dövlətlərinin inkişaf tarixini izləyib Azərbaycanın keçmişi və müasir dövrü ilə müqayisəsi zamanı ziyalılar bir həqiqəti – milli dövlətin qurulmasının xalqın rifahı, yaşaması üçün ən vacib şərt olduğunu qeyd edir, millətlərin birliyinin, qürurunun qorunması üçün folklora xüsusi əhəmiyyət verirdilər. Belə ki, M.B.Məmmədzadə "Millətlərin oyanmasında dastanlar" məqaləsində (6 aprel 1928-ci ildə Azəri Türk Gənclər Birliyindəki M.B.Məmmədzadənin eyniadlı məruzəsi öz aktuallığını qoruduğu üçün 52 il sonra – 1970-ci ildə Ankarada "Azərbaycan" dərgisində çap edilmişdir) Avropada hələ XIX yüzildə milli intibah dövrünü yaşayan almanların inkişaf yolunu nəzərdən keçirərək çox maraqlı nəticəyə gəlmişdir: "Öz milli şəxsiyyətlərinə təmas etdikləri zaman almanlar məfkurələrini, əfsanəvi dastanların ehtiva etdiyi milli məhsullar ətrafında qurdular. O zaman Almaniyada iki cərəyan müşahidə olunurdu: biri, eynilə Azərbaycanın rus müstəmləçiliyindən və rus mədəniyyətindən ruh almaq istəyənləri kimi, tamamilə Fransa inqilabının təsirinə düşən, doğrudan doğruya Qərbdən, Fransadan və fransız mədəniyyətindən məlhəm arayırdı. Digəri isə tarixin ən uzaq və qaranlıq dövrlərindəki ictimai yaşayışı və milli müəssisələri aramaqla məşğul idi. İştə, alman millətinin birləşdirici müştərək ruhunu alman millətini oyandırıcı və yüksəldici daxili atəşini bu insanlar buldular. On doqquzuncu yüzilin millətpərvərləri həmişə bu tərzdə düşündülər. Hər yerdə milliyyət fikri, tarixi mənşələri, həyatı və ictimai müəssisələri tədqiq etmək vasitəsiylə inkişaf etmiş oldu" (8, 11).

Beləliklə, bütün açıqfikirli ziyalılar kimi, M.B.Məmmədzadə də xalq yaradıcılığının milli şüurun oyanışı, millətlərin azadlığı, birliyi üçün əvəzsiz rolu olduğunu düşünür və rus köləliyində yaşayan Azərbaycanın da əsarətdən qurtarma yolunda folklora vacib şərtlərdən biri kimi baxırdı. Bunu təkcə M.B.Məmmədzadənin məqaləsinin adına ("Millətlərin oyanmasında dastanlar") diqqət yetirməklə də müəyyənləşdirmək mümkündür.

Bir neçə il sonra, yəni 1936-cı ilin 31 may – 1 iyun tarixində M.B.Məmmədzadə Polşanın paytaxtı Varşavada rus əsarətindəki millətlərinin yaratdığı Prometey təşkilatının qurultayında məruzə ilə çıxış etmiş, burada müstəmləkə xalqlarının kültürləri ilə bağlı bu gün də aktuallığını qoruyan çox dəyərli mülahizələr irəli sürmüşdür: "Millətlərin oyanış, yüksəliş və düşüş tarixləri göstərir ki, milli xüsusiyyətlərini və milli kültürlərini qoruyub yaşatmağa müvəffəq olan hər millət, gec-tez milli bir dövlət qurmağa namizəddir. Milli xüsusiyyətlərini və milli kültürlərini itirmiş olan millətlər, milli mənliklərini və ilham alacaq milli qaynaqlarını da itirmişlər deməkdir. Bu kimi millətlərin gələcəyi yoxdur. Onlara ölmüş nəzərilə baxmaq lazımdır" (7, 572).

Qayıdaq nağıllardakı "dövlət quşu" fiquruna. "... Azərbaycan dövlət quşu yalnız Azərbaycan türkünün başına qona bilər" – yazaraq, əsl məqsədini bildirən Nuhoğlu "Dövlət quşu" məqaləsində nağıllarımıza xas olan fiqurları təhlilə cəlb etməklə əcnəbi oxucuda Azərbaycan xalqının milli düşüncə tərzi, demokratik idarəçilik əxlaqı haqqında təsəvvür yaratmağa çalışmış və buna nail olmuşdur.

Dövlət quşu ilə bağlı məlumatlara Azərbaycanın mühacir ziyalılarından Səlim Rəfiq Rəfioğlunun 1933-1934-cü illərdə yazdığı "Azərbaycan və Anadolu xalq hekayələrinin təhlili və müqayisəsi" əsərində təsadüf edilməkdədir. Müəllif

bu barədə yazır: “Hekayələrdə dövlət quşuna əhəmiyyət verildiyi nəzəri-diqqəti cəlb etməkdədir. Ancaq padşah oğlunun başına qonar. Bir məmləkətin padşahı öldükdən sonra xalq toplanaraq yeni padşahı intixab etmək üçün dövlət quşu uçururlar. Quş kimin başına qonarsa, o, padşah olurdu... Dövlət quşu sadəcə xalq ədəbiyyatında deyil, yazılı ədəbiyyata da girmişdir”, – yazan tədqiqatçı “Şahzadə İbrahim”, “Ayğır Həsən”, “Məlikməmməd” və başqa nağıllarla yanaşı, M.F.Axundzadənin yaradıcılığını xatırlatmışdır (12, 72).

Ümumiyyətlə, dövlət quşu ilə bağlı tədqiqat aparan alimlərin bəziləri onun nağıllarımızda rastlaşdığımız əfsanəvi Simurğ olduğunu qeyd etməkdədirlər. Yuxarıda bəhs olunan tədqiqatında Simurğla bağlı ayrıca təhlillər aparan S.Rəfiq yazmışdır: “Simurğ iranlıların əfsanəvi bir quşudur ki, “sək” – “köpək” və “mürğ” – “quş” kəlmələrinin birləşməsindən hasilə gəlmişdir. Köpəyin quşla olan bu münasibəti İran əsatirinə “Simurğ” şəklində keçmişdir” (12,91).

Xatırladaq ki, on bir il sonra “Vətən uğrunda” dərgisində çap olunan (1945, sayı 5, s. 93-101) “Əfsanəvi quşlar” adlı məqaləsində Simurğla (Səməndər, Zümrüd) bağlı M.Təhmasibin şərhində yuxarıda S.Rəfiqin verdiyi İran mənşəli səg+murğ birləşməsi ilə yanaşı, Midiya dini əfsanələri və “Avesta”ya əsaslanan məlumatlar da öz əksini tapmışdır. Lakin tədqiqatçı dövlət quşu ilə bağlı qənaətlərini Şəmsəddin Sami lüğətinə əsaslanaraq irəli sürmüş, onun Humay (Umay) olduğunu bildirmiş, bu kəlmənin etimologiyasını isə M.Kaşğarlıya istinadən müəyyənləşdirmişdir. Geniş şərhlər verən alim dövlət quşunu xalq ədəbiyyatında əsatiri surətlərindən biri adlandırmış, eyni zamanda onun iki xüsusiyyətini – səadət, var-dövlət və hakimiyyət rəmzi olduğunu qeyd etmişdir (13, 152-163).

Fikrimizcə, etimoloji cəhətdən dövlət quşu ilə bağlı

M.Təhmasibin M.Kaşğarlıya istinadən verdiyi şərh ağlabatandır, lakin bu əsatiri obrazın nağıllardakı rolu və onun xalq diplomatiyasının – demokratik hakim seçiminin simvolu olması barədə mühacirətdə M.B.Məmmədzadənin verdiyi izahat daha aydındır, daha düzgündür.

Bundan başqa, Azərbaycan nağıllarının mühüm bir qismində hadisələrin cərəyan etdiyi məmləkətin padşahı təğyiri-libas olub öz təbəələrinin arasına gedir. Onun məqsədi çox vaxt hökmdarı olduğu əhalinin hansı şəraitdə yaşamasını öyrənmək olur. Padşah öz vəzir, vəkil və ya əyanlarının ölkəni nə şəkildə idarə etdiyini birbaşa yerində öyrənir və bir sıra hallarda ədalətsizliklər padşahın təğyiri-libas olub getdiyi yerlərdə üzə çıxır. Beləliklə, düzgün idarəçiliklə bağlı ilkin təsəvvürlərdə ədalətli hökmdarın məhz təbəələrinin fikrini öyrənən, onlarla hesablaşanlar olduğu aşkar görünür.

## “Kitabi-Dədə Qorqud” və Türk-Oğuz dövlətçilik tarixi

Türk-Oğuz dövlətçilik tarixi, onun hüquqi əsaslarını öyrənmək baxımından xalqın epos yaddaşı mühüm əhəmiyyətə malikdir və möhtəşəm abidə “Kitabi-Dədə Qorqud” ən dəyərli mənbələrdən hesab edilə bilər. Oğuz elinin hansı qanunlarla idarə edilməsi, qadın-kişi hüquqları ilə bağlı təsəvvürlər eposda bədii şəkildə ifadə olunmuşdur. Bu baxışlara diqqət yetirdikdə qədim türklərin, müasir dillə desək, necə bir demokratik üsulu-idarə ilə məmləkətini yönəltməsi hətta təəccüb doğurur. Əslində hakimiyyət Bayındır xana aid olsa da, Qazan xan daha öndə görünür və adət-ənənə əsasında idarəçilik əsas prinsip kimi təs-vir edilir. Hər hansı bir məsələnin həllində Qazan xan təklikdə deyil, oğuz bəylərilə məsləhətlərdən sonra qərar verir. “Qalın Oğuz dövlətçiliyində quruluş belə təyin olunub: İç Oğuzun bəyləri sağ bəyləridir. – divanda bunlar

Bayındır xanın sağında otururlar; Daş Oğuz bəyləri sol bəyləridir – bunlar Bayındır xanın solunda otururlar. Dövlətçilik normasına görə hakimiyyətə ancaq sağ bəylərin keçmək ixtiyarı var” (3, 449).

Göründüyü kimi, dastanda idarəetmə mexanizmi tam əksini tapmışdır. Oğuz elinin əsas vəzifəsi vətəni düşməndən – basqınlardan qorumaqdır. Dastanda cinayət, onun cəzalandırılması və ya əfv olunması, qəhrəmanlığın qiymətləndirilməsi, sərhədlərin qorunma səviyyəsi, ticarət əlaqələri və s. haqqında da təsəvvürlər verilmişdir.

Yeri gəlmişkən, bir fakta diqqət yetirək. “Dədə Qorqud” kitabının on ikinci – “İç Oğuza Daş Oğuza asi olub Beyrəyin öldüyü boy”da qeyri-adi bir məqamla qarşılaşırıq. Hər il Qazan xan öz evini – var-dövlətini öz bəylərinə “yağmalatdırır”. Professor Tofiq Hacıyev bu boydakı hadisələrlə bağlı maraqlı təhlillər apararaq yazır: “Bu hadisə prinsipcə bəyliyini müvəqqəti bağışlamaq kimi bir demokratiyadır – xəzinəsini xalqın ixtiyarına verir. Əyani göstərir ki, o biri bəylərdən artıq heç nə qazanmır, şəxsi yatır yığmır, xalqla bir süfrədə, eyni səviyyədə iştirak edir. Bu özünəməxsus bir bərabərlikdir. Bu bərabərliyi Qazan (Oğuz dövlətçiliyi) ideya kimi irəli sürmür, bir iş kimi əyani icra edir” (3, 448).

Eposdan çıxan nəticə göz qabağındadır. Burada əksini tapan xalq demokratiyası bu gün də öz xələflərinə ibrət dərsi verir.

Qeyd etmək lazımdır ki, digər qəhrəmanlıq dastanlarında, xüsusən qaçaqçılıqla bağlı yaranan mətnlərdə haqqı tapdalanan insanlar və onların mübarizəsi geniş ifadəsini tapır. Məhəbbət mövzusunda yaranan dastanlarda xalq təfəkküründəki ədalət təsvirini tapmaqdadır. Bu çox geniş bir tədqiqatın mövzusudur, biz yalnız görkəmli Azərbaycan alimi Əhməd Cəfəroğlunun bir mülahizəsini verməklə kifayətlənəcəyik. Avropa oxucuları

üçün almanca yazılmış və Visbadendə nəşr edilmiş "Azərbaycan ədəbiyyatı" adlı tədqiqatında Əhməd Cəfəroğlu Azərbaycan xalq ədəbiyyatında qəhrəmanlıq və eşq dastanlarının qoşa xətt kimi inkişaf etdiyinə diqqəti yönəltmiş, onların hər birinin xüsusiyyətlərindən bəhs etmişdir. Müəllifin fikrincə, istər qəhrəmanlıq, istərsə də eşq dastanlarının qəhrəmanları ədalət uğrunda mübarizə aparırlar. Eşq dastanlarının daha çox romantik səciyyə daşıdığını qeyd edən Əhməd Cəfəroğlu "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl", "Abbas və Gülgəz" kimi xalq ədəbiyyatı nümunələrində qəhrəmanların tərənnüm edilməsinin səbəbini onların "ədalətə aşırı dərəcədə heyranlığı" və "həqiqət üçün mücadilə etməsi" ilə izah edir (5, 154). Tədqiqatçının qənaətincə, eşq dastanlarında tərənnüm edilən qəhrəmanların "ilhamı da Allahın inayəti ilə olur və qəhrəmanlar həqiqət və ədalət düşüncəsinin adil savaşçıları olduqları üçün bir zamanlar eşq şərabını birlikdə içdikləri sevgiliyi təkrar görməyə daima müvəffəq olurlar" (5,155).

## Zalım hökmdarlar, rüşvətxor qazılar və lətifələrdəki acı gülüş. Siyasi lətifələr

Hüquqla bağlı xalq təsəvvürləri şifahi ədəbiyyatın digər janrlarında, o cümlədən lətifələrdə də öz əksini tapmışdır. Molla Nəsrəddin ləifələrinin mühüm bir qismi zalım hökmdarların idarə üsulları, rüşvətxor qazıların tənqidinə həsr edilmişdir.

Belə ki, böyük fateh Teymurləng ilə bağlı yaranan lətifələrdə xalqın sevimlisi Molla Nəsrəddin hər zaman iti ağlı və acı dili ilə qalib gəlir. Bu belə də olmalıdır, çünki o, xalqın təmsilçisidir. Örnək olaraq Teymurlənglə bağlı bir lətifəyə diqqət yetirək: "Günlərin birində Teymurləng böyük bir qonaqlıq verir. Molla da bu qonaqlıqda iştirak edir. Teymur görür ki, Molla bir

nəfərlə çox şirin söhbətə məşğuldur. Onu utandırmaq məqsədilə yanına gələrək deyir:

– Yenə kim bilir, yalandan nə basıb-bağlayırsan?..

Molla heç özünü sındırmadan baş əyib deyir:

– Nə eləyim, qibleyi-aləm sağ olsun. Yalansız keçinmək olmur. Sizin ədalətinizdən danışıram" (9, 135).

Bundan başqa, "Qələt yağ küpəsindədir", "Kitabdan kitaba salar", "Qurban olsun hakimə" və s. lətifələrdə ədalətsiz, zalım hakimlər, rüşvətxor, cahil qazılar gülüş hədəfinə çevrilmişlər.

Siyasi lətifələr bu janrın digər örnəklərindən özünəməxsusluğu ilə seçilir. Xüsusən keçmiş sovet respublikaları kimi avtoritar rejimli ölkələrdə bu lətifələr həqiqəti daha çox əks etdirməsinə görə böyük əhəmiyyət daşıyır. Həmin dövrün ağır repressiyalarına, ölüm və sürgünlərə baxmayaraq, siyasi lətifələr yaranmış, onlarda hüquq pozuntuları, yanlış dövlət idarəçiliyi ilə bağlı məqamlar əks olunmuşdur. Maraqlıdır ki, bəzən texnikanın sürətlə inkişaf etdiyi, kompüter, video və s. imkanlarının geniş yayıldığı zamanlarda belə xalq bu lətifələri yazının olmadığı qədim zamanlardakı kimi gizli olaraq, yalnız inandığı mühitdə ağızdan-ağıza söyləyərək yaşatmışdır. Məhz buna görə də sovet hüquq sisteminin əsl simasını təssəvvür etmək üçün belə lətifələrə ayrıca diqqət yetirilməsi vacibdir. Demək olar ki, öyrənilmədiyi və toplanıb tam şəkildə nəşr edilmədiyi üçün siyasi lətifələrin çoxu yaddaşlardan silinmişdir. Əyanilik üçün onlardan birinə nəzər salaq. "Mən Karl Radekəm" adlı lətifədə sovet istintaq orqanları və ümumiyyətlə, hüquq sistemi gülüş hədəfinə çevrilmişdir.

"Bir gün üç məhbus sürgün edilmək üçün gətirildikləri mərkəzi həbsxanada qarşılaşırlar. Birincisi:

– Mən 1929-cu ildən bəri "Karl Radek müxalif inqilabçıdır", – dediyim üçün həbsdəyəm, – deyir.

İkincisi:

– Mən də: "Karl Radek müxalif inqilabçı deyil", – dediyim üçün 1937-ci ildən həbsdəyəm, – deyir.

Üçüncü söhbətə qarışmağa ehtiyac duyaraq:

– Üzr istəyirəm, amma Karl Radek mənəm, – deyir" (10, 31).

Bu lətifə iyirminci əsrin otuzuncu illərinin əzablı repressiya ab-havasını çox incəliklə, acı gülüşlə oxucusuna çatdırmaqdadır. Lətifədə məhbuslardan birinin 1929-cu ildən, ikincinin isə 1937-ci ildən məhkum olunduğunu qeyd etmələrinə əsasən günahsız insanların ən az on ildən çox həbslərdə əzab çəkməsini təsəvvür etmək mümkündür. Bu da Sovet İttifaqında ən adi insani hüquqların tapdalanmasının, dövlətin öz təbəələrinə olan kəskin ağalıq münasibətinin göstəricilərindən biridir.

Ayrıca, qeyd etməliyik ki, Karl Radek – Karol Bernqardoviç Sobelson (1885-1939) bolşeviklərin Oktyabr inqilabını hazırlayan əsas simalardan və Vladimir İliç Leninin (1870-1924) ən yaxın silahdaşlarından olmuş tarixi şəxsiyyətdir. O, 1937-ci ildə Trotski tərəfdarı kimi həbs edilərək sürgün olunmuş və orada İosif Vissarionoviç Stalin (1878-1953) repressiyasını həyata keçirən əsas fiqurlardan biri, Lavrenti Pavloviç Beriyanın (1899-1953) birbaşa göstərişi ilə həbsxana yoldaşı tərəfindən öldürülmüşdür. Karl Radek çox ağıllı və hazırcavab bir adam kimi məşhur olmuşdur və o, Stalinlə bağlı bir sıra lətifələrin müəllifi kimi tanınmaqdadır. Həmin lətifələrin bir qismi internet saytlarında verilmişdir (1). Onların içərisində yuxarıdakı lətifə də vardır. Bu lətifənin mühacirətdə nəşr edilməsi həm də sovetlər ölkəsindəki açıq və gizli – bütün məqamların qürbətdəki həmvətənlərimiz tərəfindən diqqətlə izlənildiyini sübut etməkdədir.

Sovet "haqq-ədalət"ini dünyada rüsvay edən lətifələrdən

biri də "Mücahid" dərgisində verilmişdir:

"Stalin bir gün Politbüro (Bu söz lətifədə tərcümə edilmədən rusca səsləndiyi kimi verilmişdir. Biz də koloriti qorumaq üçün olduğu kimi saxlayırıq – *A.H.*) üzvləri ilə keçirdiyi bir toplantıdan dönərkən, qərarlarını ehtiva edən gizli vəsiqələri tapa bilmir. Dərhal həmin dövrün gizli polis təşkilatının rəhbəri Beriyaya telefon edərək, bütün Politbüro üzvlərinin həbs edilməsini əmr edir.

Ertəsi gün aradığı vəsiqələri otağında tapan Stalin Beriyanı çağıraraq, həbs edilənlərin dərhal sərbəst buraxılmasını istəyir. Beriya:

– İş işdən keçdi, – deyə cavab verir, – dünən hamısına günahlarını etiraf etdirdim" (10, 31).

Lətifədə Beriyanın "etiraf etdirmə" üsulları haqqında üstüörtülü işarə ilə yanaşı, Kommunist Partiyasının Siyasi Büro üzvləri kimi nüfuzlu dövlət adamlarına olan münasibət açıq şəkildə görünməkdədir. Xatırladaq ki, 1953-cü ildə Stalinin ölümündən sonra Beriya törətdiyi cinayətlərə görə məhkum olunmuş və güllələnmişdir.

Təəssüf ki, siyasi lətifələri toplamaq, nəşr etdirmək hər zaman böyük bir risq, hətta bir çox hallarda həyati təhlükə deməkdir. Belə lətifələr əsasən avtoritar rejimlərdə yarandığı üçün vaxtında toplanıb təhlilə cəlb edilmir, yalnız yaddaşlarda və gizli şəkildə yaşayır, təbii ki, bu da əksəriyyətinin unudulması ilə nəticələnir. Alan Dandes bu faktı belə izah edir: "... siyasi lətifələr folklorun elə spesifik formasıdır ki, yer kürəsinin harasında totalitar rejim və ciddi senzura mövcud olursa, orada daha qabarıq üzə çıxır. Bu iki fenomen arasında əlaqə, görünür, tərs mütənasibdir: hakimiyyətin repressiyası nə qədər sərt olarsa, o qədər çox siyasi lətifə yaranır. Əlavə olaraq xatırlatmaq lazımdır ki, bu və ya başqa cəmiyyətin tabu kimi qəbul etdiyi mövzular, çox vaxt elə həmin cə-

miyyətlərin folklorunda ön plana çıxır" (6, 191).

Yeri gəlmişkən, qeyd olunmalıdır ki, siyasi lətifələr təhlilə cəlb edilərkən, həmçinin toplanarkən, mətn daxilində adları çəkilən insanlar haqqında bilgi verilməlidir. Bu həmin lətifələrin yarandığı şəraiti, tarixi dövrü təsəvvür etmək və adı çəkilən insanları tanımaq üçün ən əlverişli vasitədir.

**Atalar sözü, bayatılar, laylalar, oxşamalar və xalq tamaşalarında hüquqi təsəvvürlər**

Yuxarıda qeyd edildiyi kimi, folklorun digər janrlarında – atalar sözləri və məsəllərdə, bayatılarda, laylalarda hüquq və dövlətçiliklə bağlı məqamlar vardır. Ümumiyyətlə, tədqiqatçılar atalar sözlərini millətin "əxlaq kodeks"i kimi dəyərləndirirlər. Təkzibedilməz bir məsələdir ki, "Haqq nazilər üzülməz", "Nahaq qan yerdə qalmaz", "Haqqı nahaqqa vermə", "Haqlı var, haqsız çıxar, haqsız var, haqlı çıxar", "Hökmün qılıncı kəskin olar" və s. kimi əsrlərin sınağından çıxan paremik ifadələrdə yaşanmışlığın nəticəsi əksini tapmışdır.

Bayatı, layla, oxşama və sairədə daha çox ədalətsizlik, haqsızlıqdan şikayətlərə geniş yer verilir, bu da həmin nəğmələrin əsasən bu gün də haqqı daha çox tapdanan qadınlar tərəfindən ifası ilə bağlıdır:

Gedirəm bu dağilən,
Əlimdə çırağ ilən.
Yarı eldən sürdülər,
Əllərdə yaraq ilən.

Əziziyəm, tən dura.
Odun qala təndura.
Dədəsizin nə haqqı,
Dədəliyə tən dura?

Mən aşiq şəkər canım,
Hər dərdi çəkər canım.
Nə haqqım var, nə muzdum,
Bəylərə nökər canım.

bayatıları Azərbaycan insanının mənəvi dünyasını, haqq-ədalət arzularını göstərməkdədir.

Bu problemin dərindən araşdırılması Azərbaycan xalqının hüquq anlayışı ilə bağlı ən qədim təsəvvürlərinin aydınlaşmasına səbəb olacaqdır.

Qeyd etmək lazımdır ki, idarəçilik sistemi və hüquqla bağlı Azərbaycan türklərinin ilkin baxışları hələ də keçirilməkdə olan oyun və tamaşalarda da təsvirini tapmaqdadır. Novruz bayramı günlərində böyük bir coşqu ilə keçirilən "Xan bəzəmə" tamaşası belə örnəklərdən biridir. Bu tamaşanın əsas qəhrəmanı "Xan" bütün tamaşaçılar tərəfindən seçilir və çox vaxt həmin yaşayış yerinin ən kasıb, amma bacarıqlı bir nümayəndəsi olur. Yəni xalqın demokratik seçki ilə bağlı düşüncələri əyani şəkildə bir toplum tərəfindən gerçəkləşdirilir, təbii ki, yalnız tamaşa səviyyəsində (14).

Qadınlar tərəfindən keçirilən oyun və tamaşalar isə xüsusilə diqqəti cəlb edir. Belə tamaşalarda qadın hüquqsuzluğu, çoxarvadlılıq, kişi zorakılığı, şiddət və s. kimi bir çox problemlər öz əksini tapır.

**Nəticə**

Digər xalqlarda olduğu kimi, türk hüquq, dövlətçilik təfəkkürünün ən ilkin örnəkləri folklorda təcəssüm edilir. Bu mətnlər ən demokratik idarəçilik sistemi, ədalətli hökmdar, azad və xoşbəxt həyat haqqında xalq düşüncəsinin yekunu kimi dəyərləndirilə bilər. Texnikanın sürətlə inkişaf etdiyi müasir dövrümüzdə belə xalq düşüncəsində daim var olan, yaşayan və nağıl, dastan, bayatı, layla, atalar sözü, lətifə və başqa mətnlərdə bədii şəkildə əksini tapan düşüncələrin öyrənilməsi aktuallığını itirmir. Folklor daim canlı olduğu üçün bu zəngin sərvət öz nurunu yaymaqda davam edir.

## QAYNAQLAR


1. Анектоды от Радека. http:// www.1917. com/ Gallery/ Jokes/ Radek. html

2. Arat R.R. Makaleler, I c.,Yayına hazırlayan: O.F.Sertkaya, Ankara: 1987, s.1034

3. Azərbaycan ədəbiyyatı tarixi. 6 clddə, I c., Bakı: Elm, 2004, s. 448

4. Çığ M.İ. Ortadoğu uyğarlıq mirası-1. İstanbul: Kaynak yayınları, 2009

5. Caferoğlu A. Azerbaycan Edebiyatı, Türk Dünyası Edebiyatı, I, İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1991, s. 140-217.

6. Дандес А. Фольклор: семиотика и/или психоанализ (Сборник статьей), Москва: Восточная литература РАН, 2003.

7. Mehmetzade M. Sovyet Azərbaycanda türk dilinin ruslaştırma ve imha siyaseti hakkında, "Kurtuluş", Berlin: 1936, yıl 3, haziran, sayı 20, s.572-576.

8. Mehmetzade M. Milletlerin uyanmasında destanlar, "Azerbaycan", Ankara: 1970, yıl 18, sayı 191-196, s.10-12

9. Molla Nəsrəddin lətifələri (tərtib edən: M.H.Təhmasib), Bakı, Öndər, 2004.

10. "Mücahid" dergisi, Ankara: 1955, sayı 4, s.31.

11. Nuhoğlu V. Devlet kuşu, "Kurtuluş" dergisi, Berlin: 1936, mayıs, sayı 19, s.536.

12. Refik S.R. Azerbaycan ve Anadolu Halk hikayelerinin tahlili ve mukayesesi, İstanbul: 1933-1934, Bayazit Devlet Kütüphanesi, 894.35-09 (0.201694) şifreli elyazma, s.91.

13. Təhmasib M. Seçilmiş əsərləri, 2 clddə, I cild, Bakı: Mütərcim, 2010

14. Şəxsi arxiv.

# AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATINDA FOLKORA DÖNÜŞ

**Cavanşir Yusifli**
jyusifli@mail.ru

## ВОЗВРАЩЕНИЕ К ФОЛЬКЛОРУ В АЗЕРБАЙДЖАНСКОЙ ЭМИГРАЦИОННОЙ ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

Из-за политической ситуации основатели первого демократического государства на Востоке были вынуждены эмигрировать. Возвращение к родине в их текстах было вызвано ссылкой на слои фольклора в разных текстах. Известно, что каждое выражение и образец жанра в тексте фольклора включают метафорическую модель реальных чувств. Чтобы доказать эту идею, вы можете просмотреть обычную пословицу или образцы байати. Указанная метафорическая модель в литературных текстах, написанных эмигрантами в зарубежной стране, была связана со страстью к увековечению родных земель в этой чужой стране и осуществлялась на основе принципов двойного метафорического моделирования стремления к родным землям. В этот момент можно выделить два аспекта: 1. Приближение литературных текстов к фольклорной структуре и 2. Обращение к фольклорным образцам в исследованиях, сделанных этими эмигрантами. В этом последнем случае специалист литературы обратил особое внимание на модель выражения идей и чувств, являющихся самой сущностью утраченного государства. Самый яркий образец для него – это исследования Ахмада Джафароглу. Или литературные тексты Джейхун Гаджибейли.

***Ключевые слова:*** демократическое государство, эмиграция, литературный текст, фольклор, Джейхун Гаджибейли, байаты.

## RETURN TO FOLKLORE IN AZERBAIJAN EMIGRATION LITERATURE

SUMMARY

Because of the political situation the founders of the first democratic state in the Orient were obliged to emigrate. Return to the native lands in their texts has been arisen by referring to the folklore stratum in various texts. It is known that each expression and the genre sample in the folklore text include the metaphoric model of the real feelings. To prove this idea, you can look through an ordinary proverb or the samples of bayati. The said metaphoric model in the literary texts written by emigrants in the foreign country was related to the passion to immortalize the native lands in this foreign country and was carried out based on principles of double metaphoric modelling the longing for native lands. In this moment, two aspects may be emphasized: 1. Approaching the literary texts to the folklore structure and 2. Addressing to the folklore samples in researches made by these emigrants. In this latter case, the specialist of literary paid special attention to the model of expression of ideas and feelings being the very essence of the lost state. The brightest sample for it are researches of Ahmad Jafaroglu. Or, literary texts of Jeyhun Hajibayli.

***Key words:*** democratic state, emigration, literary text, folklore, JeyhunHajibayli, bayati.

Ceyhun Hacıbəylinin "Bir il xəyallarda... və bütöv bir ömür" povestində memuar (yuxu) janrı folklora daxildən istinad vasitəsi ilə əyaniləşir. Bu halda bədii mətnlə münasibətdə folklor qatı – folklor nümunələri virtual gerçəklik rolu oynayır. Virtual gerçəklik söz olaraq görünməsə də janrın öz qəlibinə oturmasında daxili təkan-güc kimi iştirak edir.

Ceyhun Hacıbəylinin “Bir il xəyallarda... və bütöv bir ömür” adlı əsərinin janr xüsusiyyətlərini müəyyənləşdirmək üçün müasir dövr ədəbiyyatşünaslığında geniş yayılmış “nitq janrı” anlayışına istina etmək laızmdır. Funksional stilistikanın bir sıra tədqiqatçıları nitq janrı haqqında mətnin tipi kimi bəhs edirlər (E.U.Qrosse, V.Şmidt, B.Zandit, M.P.Brandes və sair). Memuarlar “nitq janrıdır”, memuar janrında nitq funksionallığı var; mətnin subyekt təşkili üzərində müşahidələr bir sıra mülahizələrə yol açır.

Ədəbiyyatşünaslıqda müxtəlif tip bədii mətnlərin analitik və eyni zamanda şərhə əsaslanan təhlilinin zəngin və misilsiz təcrübəsi mövcuddur ki, bu da həmin əsərlərin mənəvi, kulturoloji və estetik aspektlər baxımından dərkini zaman keçdikcə dərinləşdirmişdir. “Yaddaş mədəniyyətin əsasıdır. Memuarlar isə yaddaşın sözdə və sözlə əşyalaşmasıdır” (L.Qinzburq); tədqiqatçıların fikrincə, o, (memuarlar...-), “nəsillərin mənəvi varisliyinin vasitələrindən və cəmiyyətin mədəni səviyyəsinin, onun öz keçmişinə şüurlu və analitik yanaşmasının göstəricilərindən biridir” (3, 14).

Başqa bir tədqiqatçıya görə isə, “memuar, mənəvi həyatın xüsusi hadisəsi kimi həmişə intibah xarakterlidir” (4, 91). Çünki memuarlarda şəxsiyyətin əqli inkişafının dönüş mərhələləri, onun “özünü dünyada” və “dünyanı özündə” (A.Tartakovski) dərki əksini tapır. Memuar janrına aid edilən “intibah xarakteri” nə deməkdir? Fikrimizcə, memuarların yazılması və oxunmasına şiddətli marağın səbəblərindən biri tarixin dəyişməsidir. Bu amil, hadisələrin radikal şəkildə inkişafı və bunun nəticəsində tarixin büsbütün dəyişməsi yazıçını, hətta yazıçı olmayan şəxsləri zamanı sürəklə qeydə almağa məcbur edir. Tarix dəyişir, bəndindən qopub gələn hadisə seli insanların üstündən adlayıb keçir və keçmiş həyatın “süjetinin dəyişməsi” geri dönməyi, daha doğrusu becid baxışla keçmiş və gələcəyi

bir nöqtədə, bəzənsə eyni anda fərqli kontekstlərdə mənalandırmağı tələb edir. Həyatın axarının, bəzən dini görüşlərin, yaxud siyasi quruluşun dəyişməsi, insanların nəfəs alıb yaşadıqları dəyərlərdən zorla qopardılması obyektiv tarixi faktın subyektiv özünüifadəsinə gətirib çıxarır. Burada həm də, hadisələrin sürətlə cərəyan etməsi səbəbindən "tarixin unudulması vahiməsi" də əsaslı rol oynayır. Çünki istənilən siyasi rejimin və ideologiyanın tərkibində özünü hər şeyin, bütün dəyərlərin üstünə qoymaq cəhdi var və bu, keçmişə memuar janrıyla (nitq janrı-!) qayıdışı labüd edir. Kommunikativ aktda (Rus dilçiliyindən fərqli olaraq, Avropa funksional stilistikasında "akt janrı") baş verən "kataklizm", bir qayda olaraq subyektin həmin vahiməni yenib tarixin bədii şərhini ortaya qoymaq ehtirasıyla bağlı olur.

Beləliklə, memuarların qələmə alınmasında həm də yazıçının keçmişə qayıtmaqla öz taleyinin, yaşadığı ömrün vacibliyini dərk etməsi mühüm rol oynayır. Gerçəkliyin estetik qavrayışı yazıçını sətir-sətir zaman vadisindən keçirir, iştirakçısı olduğu hadisələrdən uzaqlaşdıqca zamanın dərki, onu qeydə almaq ehtirası daha da dərinləşir və nəticədə Ceyhun Hacıbəylinin əsərində şəxsi-subyektiv, xronoloji və estetik qavramlar üzvi əlaqə və mürəkkəb qovşaq yaradır. Bütün bu deyilənlər həm də adı çəkilən əsərin təhkiyə strategiyasını şərtləndirir, irəli-geri hərəkətlərlə müşayiət olunan "dolanbac" təhkiyə quruluşunda bir yay (yaxud bumeranq...) effekti var; hekayətlər, hadisələr bitmir, əksinə, "qövr edir", ayrı-ayrı təhkiyə müstəvilərinə paylanır, sıxılmış yay "oturacağına" çatdıqda geriyə dönüş yuxunun dərinliklərində itir və beləcə, yuxuyla reallığın bir-birini tamamlaması zahiri məsələyə çevrilir. Əslində burada uyuşmaq və tamamlamaqdan çox bir-birini dəf etmək gücü daha çox hiss edilir və bu stixiya təhkiyənin məğzini təşkil edir. Beləliklə, nə yuxu reallığa çevrilir, nə də reallıq yuxudan sıyrıla bilir. Bunların iç-içə olması, qonşuluğu elə bir gərginlik sahəsi yaradır ki,

bəzən təhkiyəçinin də səsi batır, öləziyir, yuxu özü danışır, hər şey təkrar olunur, təkrir səviyyəsinə gəlir.Ceyhun Hacıbəylinin adı çəkilən memuarında təkrarlanan detallar və əşyalar var: şar, qızılgül, minarə, günbəz və sair. Mətndə onların işlənilmə kontekstləri ən müxtəlif estetik anımların üzə çıxmasına şərait yaradır. Bu əşyalardan hər birinin mətndə hərəkəti zahirən və məntiqi cəhətdən anlaşıqlıdır. Yəni, həmin hərəkəti (deyək ki, müxtəlif məqamlarda şarın partlaması...) müəllifin taleyi, təsvir etdiyi keçmişin xarakteri ilə azacıq müqayisə etdikdə nəyə işarə edildiyini anlayırsan. Ancaq burada ayrıca götürülən sözün (detalın, onun hərəkətinin) "mənası bütöv mətnin mənasından asılıdır" (A.Potebnya), yəni, bədii əsərin şərhedici komponentlərini aşkara çıxarmaq üçün qoyulan vəzifədən asılı olaraq onun müxtəlif səviyyələrinə nəzər salmaq lazımdır. Bu halda kontekst anlayışının dövriyyəyə daxil edilməsi qanunauyğunluq təşkil edir. Çünki mətnlərin istənilən şərhi, onların elmi dərki bu termini qaçılmaz edir. Kontesktin öyrənilməsi əsərin məna dərinliyinə nüfuz etmənin şərtidir. Bədii əsərin kontekstinin konkret sərhədləri olmur, onlar çox geniş və bəzən intəhasız olur. Məntiqi şəkildə düşünmək olar ki, bir müəllifin qələmə aldığı bədii əsərlərin kontekstləri (daha doğrusu bir müəllifdə kontekstlərin məcmusu) "böyük tarixi zamanla axaraq" (M.Baxtin) yazıçının bədii yaradıcılığının vahid kontekstini formalaşdırır.

Ceyhun Hacıbəylinin əsərinin janr xüsusiyyətləri, bu özəlliklərin əsasında dayanan bəzi psixoloji-fəlsəfi anımlar onun adekvat şəkildə şərhinə yol aça bilər. Memuar kimi təqdim edilən mətn deyir ki, "bu günün yuxusu dünənin reallığıdır. Çünki yuxu canlı və hiss edilən bir dünyadan gəlir. Məhdud şüur bu faktı bizim üçün aça bilməsə də, meditasiya vasitəsi ilə şüurlu şəkildə bu və ya digər üstün dünyalara "sızmaq" mümkündür. Bu dünyaların gerçəkliyini bizə arzularımız təlqin edir". Yəni, burada bizim yu-

xu adlandırdığımız nəsnə başqa bir dünyanın gerçəkliyidir. Başqa sözlə desək, insanın gözlərinin görmədiyi, əllə toxuna bilmədiyi çox sayda dünya mövcuddur. Yuxu da bu dünyalardan axıb gəlir. Fransız tədqiqatçısı belə yazır: "...Bəzi yuxular canlı sahədə baş verir: onlar tez-tez qarışır, çünki burada sevincin payı az olduğundan həmin yerə düşən işıq da öləziyir. İşıqlı olsa da hissiyyatdan məhrum olan yuxuların əksinə olaraq hiss və həyəcanın daşdandığı yuxular da var. Hissi və canlı dünyanın yuxusunda arasıkəsilməz hərəkət müşahidə olunur. Bu elə bir döyüş səhnəsidir ki, hər şey qırılıb-tökülür, canlı varlıqlar öldürülür...." (1, 67)

Bir hekayədə təsadüfən qətl hadisəsinin şahidi olduğu üçün adam vurulur, güllə yarası alır. Gözünü açanda başının üstündə ixtiyar, saç-saqqalı dümağ bir kişini görür. Bir uşaq da var bu hekayədə, arlıda, əlində mis cam, içində məlhəm. Kişi deyir: yuxun səndən qabaq gəlmişdi. Sən onun surətisən. Çox əzab çəkəcəksən.

Ömür bu sözdən başlamış, həyatsa artıq bitmişdi. Həyatın harda tükənib, tale və qədərin harda itdiyini, itkin düşdüyünü bilmək və kəsdirmək bəzən çox çətin olur. Həyatını vətəndə qoyub gözünü qürbətdə açan mühacirlər kimi. Ceyhun Hacıbəyli kimi. Onun Fransada mühacir həyatı yaşadığı müddətdə başına gələnlər, olmazın məhrumiyyət çəkməsi, qürbətin güzəştsiz və amansız şərtləri altında əzildiyini bildirməmək üçün susması, oğlunun həlak olması... bütün bunlar içindəki çırpıntıların yuxu gerçəkliyinə qarışmasına gətirib çıxarırdı. Yuxularını necə var, yəni yadında qaldığı kimi yazırdı.

Ceyhun Hacıbəylinin "Bir il xəyallarda... və bütöv bir ömür" memuarları janrı etibarıyla orijinal və mürəkkəbdir. Şərhlər üçün qəliz sayıla biləcək mətndir, hətta mətnlərin bir-birinə qarışdığı ərazidir.

Mühacirətdə, sürgündə olan adam, hər gün iclas və konfranslarda qızğın, hər şeyin puç olduğu ortamda ümidli gün

keçirən adam əsl həqiqəti yuxu və ilğımlara bükərək yazmaq məcburiyyətində qalır. Dünyada bundan da ağır və çəkilməz bir dərd olmaz ki... Bu qeydlərdə arada yuxu dumanı çəkilir, araya qızıl-qırmızı yalanlar girir, vətəni yağmalanmış mühacirləri bağrına basan siyasət dəllallarının saymazyana, adamın gözünən içinə söylədikləri yalanlar... Ümidsə çox zaman insanı ölümə aparır, aldadaraq...

Yadıma bir nəzəri müddəa düşür: mənanın formaya çatması, daha doğrusu çevrilməsi. Bir də qoca Borxesin essesi. Borxes deyir: yuxu janrdır, qorxu-tema. Ceyhun Hacıbəyli oğlunun ölümünü bir ay əvvəl yuxuda görür, mövzu-temanın janrın sərhədləri daxilində kilidləndiyi (yuxudakı adam, ya başqa bir adamın çöhrəsində peyda olur, ya da çöhrəsi gizlədilmiş halda "səhnəyə çıxır") bir ortamda gecə impressariosu oyunu gedir"... (1, 105) Yuxu sizin həyatınızı gah epizodik, qarmaqarışıq, bəzən fiqurlar formasında, alleqorik tərzdə, bəzən eyhamlarla, üstüörtülü, bəzən təhrif olunmuş, üz-gözünü əymiş halda, lakin bəzən də ən silkjələyici bir reallıqla təqdim edir". (1, 99)

İnsanlar Freydin nəzəriyyəsindən də qabaq çəkilməz məşəqqətlərə tuş gəlir, real yaşamla müqayisədə yuxu gerçəkliyinin parlaqlığı həqiqətin taxtında oturur və bu gerçəkdən gerçək anımları yazırdılar. O həyat, o məşəqqət hər hansı nəzəriyyədən daha güclü və daha hissiyyatlı idi.

Ceyhun Hacıbəylidən yuxarıda verilən sitatın davamı: "... Bir binanın pilləkənləri ilə qalxıram. İkinci mərtəbədə erməni çay salonu var; yuxarıda bir tamaşamı, yoxsa bir iclas zalımı var. Elə bu zalda baş tutacaq maraqlı bir konfransda iştirak etmək üçün gəlmişəm. Gecikməyim məni o qədər də narahat etmir, çünki ikinci iclasda iştirak etmək fikrindəyəm. Bununla belə, birinci seansın tam başa çatmasını istəmədiyimdən, qapını açıram; qapı cırıldayır və iştirakçıların narazılığına səbəb olur. Nifrət dolu baxışlar mənə tərəf yönəlir. Oturmağa yer tapmayan

dinləyicilərin arxasındakı birinci arakəsməyə yaxınlaşıram, heç nə görmürəm; çıxış edənlərin səsini isə eşidirəm.

... Divara söykənib musiqi alətində çalıb-oxuyan iki kişi görürəm. Bunlar məruzəçilərdir. Konfransın mövzusu bundan ibarətdir: bir çıxış edən digərinin oxuduğu notları açıqlamalıdır. O, qaraçı romansı janrında nostalji bir mahnı oxumağa başlayır, ancaq davamını Duck Ellingtonsayağı caz təqlidi ilə başa vurur. Bu, hardasa gördüyüm qarsaç cavan oğlandır. O, rəqsəbənzər bir hərəkətlə şlyapasını havaya atır, şlyapa qayıdıb adamların içində dayanan qardaşının başına düşür və şar kimi partlayır...” (1, 100)

Yuxarıda əşyalar dayanıqlı deyillər, sürüşür, ölçülərini itirir, qeyb olub və başqa əşyalara çevrilirlər, çünki yuxuda gördüyün aləm bir maketdir, köçəri çadırı kimidir, burada dünyanın faniliyi əlbəəl hiss ediləndir. Bu həm də son nəticədə ruhun qərarsızlığını, narahatlıq çəmbərinə düşdüyünü bildirir. Yuxular insanın vəziyyətini içdən, əşya və hadisələrin mürəkkəb kombinasiyaları çərçivəsində ifadə edir və buna görə də onların şifrəsini yalnız müəyyən dərəcədə açmaq mümkündür. Keçmişin içindən gələcəyi göstərmək cəhdi fantastik, bəlkə də fantasmaqorik şərhlərə yol açır, insanın bəzən özünə də etiraf etmədiyi nəsnələri güzgü qarşısına gətirir, güzgüyə dönür, səni güzgüyə çevirir, ortasından çat xətti keçən ayna effekti yaradır, sən tam fərqli aləmə düşdüyün üçün kosmonavt kimi çəkisizlik şəraitindəsən, həm nəsə edirsən, həm də buna tamaşa edə bilirsən, belə bir ortam, belə bir ikiləşmə fasiləsiz dönüşlərə şərait yaradır, gerçək aləmdə xəyal etdiklərin burda, həmin çəkisiz fəzada gerçəyə çevrilir.

Ceyhun Hacıbəyli yuxularını deyil, real həyat olaylarını yazsaydı, bu, adi bir publisistik yazı olardı və məhz Ceyhun bəy qələmə alıb deyə, mühacirət tarixi kitabında bir önəmli sətrin yerini tutardı. Ancaq yuxu janrında yazılan bu əsər həm onun ağrı və məşəqqətini, vətənin istiqlalı uğrunda aparılan savaşa inancını, həm də reallığın özünü yeganə mümkün for-

mada əks etdirmək baxımından çox maraqlıdır və zənnimizcə, mühacirət ədəbiyyatı tarixində bunun analoqu yoxdur. Ceyhun bəyin əsəri "susmuş forma" baxımından da unikaldır; bədii əsərdə bir qayda olaraq, forma "danışır", yəni mənaya yiyələndikdən sonra bu mənanın bitib-tükənməyən şaxələri kimi ərzi, dünyanı tutur, dünyanı öz dil rakursuna salır, hər şey bir əsərin süzgəcindən keçir, ordakı macəralara bələnib, onları dəyişdirir. Yuxu janrında isə forma məhz "susur" (başqasının bizə gəlib çatmayan səsi kimi...), içində, içinin dərin laylarında danışır, real olan nə varsa, bu gözişləməz dərinliklərə batıb ordan qəlpələr şəklində üzə çıxır, reallığın ən müxtəlif mövqelərdən şərhi üçün tükənməz imkanlar açılır, bir fakt, yaxud hadisə irrealla kəsişmədə dəyərləndirilir. Və beləliklə, dövlət devrilib quruluş dəyişdikdən sonra tarix dünyada baş verən olaylar çərçivəsində göstərilir. Diqqət edin: "Kübar bir yığıncaqda xanımlara ingilissayağı "aradan çıxmaq" ifadəsini izah etməklə məşğulam. Dinləyicilərim mənanı çox ləng başa düşən kimi görünürlər. Nəhayət, xeyli vaxtdan sonra onlara başa sala biləndə, ifadə inanılmaz bir uğur qazanır...

Oğlumla bir yerdəyik, ona maraqlı bir şey göstərməliyəm. Kilsə qülləsindən gələn musiqi səsi eşidilir. İki alətin ifa etdiyi musiqidir, alətin biri çox səs-küylüdür. Birdən atəş açılır və səsli alət dərhal susur. Belə qənaətə gəlirəm ki, onu çalan yerindəcə həlak oldu. Atəş minarədən gəlir, çünki oradan spiralvari pilləkənlə düşən bir kişini görürəm. Bunu oğluma işarə edirəm, ancaq başa düşürəm ki, o da artıq görüb, çünki o, durbinlə həmin kişini izləyirdi.

Atəş açılan minarənin görünüşü..." (1, 111)

Yuxuda adi bir əşya neçə-neçə yaranın qaysağını qoparır, keçmiş indiki zaman kimi cilvələnib şüurda ən müxtəlif, həm də aralarında məntiqi bağ olmayan hadisələri bir məcraya gətirir, bu "kombinasiyalardan" məqsəd ömrünün, taleyinin yad şəhə-

rindən qaçmaq, yaxa qurtarmaq, millətinin alnına yazılan qədərə düzəliş etmək, cumhuriyyəti davam edir kimi hiss etmək və yaşatmaqdır. Həm də: minarədən açılan atəşin keçmişə proyeksiyası, insanların fitnəyə qurban getməsi, kütləvi şəkildə qırılması, öz yurd-yuvalarından didərgin düşmələri... baş verib bitmiş hadisələrin real şəkildə dəyərləndirilməsinə imkan yaradır.

Ancaq yuxu janrı insanı aldadır, tərs bir yolun çəmbərinə salıb məhv edir. Vaxtilə Kamil müəllimin (Kamil Vəli Nərimanoğlu) kitabından oxumuşdum ki, məşhur ədəbiyyatşünas Şklovskinin yeganə oğlu müharibədə həlak olur. Döyüş yoldaşı ona oğlunun hansı şəraitdə öldüyünü danışmışdı. Şklovski zaman-zaman yuxuda oğlunu, onun vurulduğu səhnəni görür və onu xilas etmək istəyir, ancaq hər dəfə sarsılır, bacarmır. Və yuxular ümidləri puç olmuş insanların məskəni və məzarına çevrilir. Şeirimzidən keçən "bir deyil, on deyil məzarım mənim..." ifadəsi bütün bu söyləm-diskursları içinə alıb onları keçmişdən gələcəyə və yenidən keçmişə daşıyır, bəlli şərtlər daxilində başdan ayağa həsrət və nisgilə dönmüş insanın külünü göyə sovurur, küləklərə tapşırır, onlarsa bu külü vətən torpağına səpdikdə otların yaşılı, gül-çiçəklərin al-qırmızısı solur.

## QAYNAQLAR

1. Ceyhun Hacıbəyli. Seçilmiş əsərləri. Bakı, Elm, 2017.

2. Lydia Ginzburg's Alternative Literary Identities / Ed. by Emily Van Buskirk and Andrei Zorin. Oxford: PeterLang, 2012.

3. Лидия Яковлевна Гинзбург // Новое литературное обозрение. — 2001. — № 3 (49)

4. Тартаковский А. Г. Русская мемуаристика и историческое сознание XIX века: мемуары. — М.: Археографический центр, 199

# “KİTABİ-DƏDƏ QORQUD”DA DÖVLƏTÇİLİK ƏNƏNƏSİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BAXIŞLARI KONTEKSTİNDƏ

**Nizami Muradoğlu**
nizamimurad@gmail.com

## ТРАДИЦИЯ ГОСУДАРСТВЕННОСТИ В «КИТАБИ-ДЕДЕ-КОРКУД» («КНИГА ДЕДА МОЕГО КОРКУТА») В КОНТЕКСТЕ ВЗГЛЯДОВ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

РЕЗЮМЕ

20-го апреля 1997-го года Президент Азербайджанской Республики Гейдар Алиев подписал указ о 1300-летии эпоса «Китаби-Деде Коркуд» и сам стал председателем Государственной юбилейной Комиссии. Мероприятия, проведенные после этого указа, расцениваются как события возрождения в мировом издании и обретении вечности эпоса «Китаби-Деде Коркуд», в полном смысле слова. 21-го февраля 1999-года Президент Азербайджанской Республики Гейдар Алиев подписал распоряжение «О плане мероприятий Государственной юбилейной Комиссии 1300-летия эпоса «Китаби-Деде Коркуд»». Под председательством Гейдара Алиева, 16 февраля 1999 года, 8 апреля 1999 года и 11 марта 2000 года, состоялись три заседания Государственной комиссии. На этих заседаниях Президент Гейдар Алиев произнес вступительное слово и выступил с заключительной речью. Что связывало Гейдара Алиева с эпосом «Китаби-Деде Коркуд»? Следует отметить, что Великий лидер, в первую очередь, называл эпос «Китаби-Деде Коркуд» самым великолепным и ярким памятником, который наряду с историей, культурой и литературой азербайджанского наро-

да сохранил в себе также традиции государственности. «Китаби-Деде Коркуд» была книгой великой династии, страны, которую охватывала империя Баяндур хана Ханов. Здесь полностью отражена реальность нашего исторического прошлого, государственности, национальной принадлежности. Эта книга, будучи нашей главной книгой, является нашим национальным показателем, представленным миру.

***Ключевые слова:*** Алиев Гейдар, епос «Китаби-Деде Коркуд», Государство, император, хан, Баяндур хан, бек.

## STATEHOOD TRADITION IN THE CONTEXT OF THE NATIONAL LEADER HAYDAR ALIYEV'S OPINION IN THE EPOS "KITABI – DADA GORGUD"

SUMMARY

Azerbaijan Republic president Haydar Aliyev issued a decree about 1300 annual jubilee of the eposes "Kitabi-Dede Gorgud" and he became the leader of the state committee on 20 April 1997. Measures organized after this decree considered as a restore and immortality event of the eposes "Kitabi-Dede Gorgud" on a world scale. Azerbaijan Republic president Haydar Aliyev signed order about the plan of actions of the State Comission according to the 1300 annual jubilee of the epos "Kitabi-Dede Gorgud" on 21 February 1999. Under the chairmanship of Haydar Aliyev three meetings of State Committee held on 16 February 1999, 08 April 1999 and on 11 March 2000. President Haydar Aliyev took part with introductory remarks and total speech in these meetings. What was the reason connected him to the eposes "Kitabi- Dede Gorgud"? Its necessary to note that President called the epos "Kitabi- Dede Gorgud" not only the literary, culture and history of Azerbaijan but also called it an immence and bright monument that guarded the statehood

traditions. The epos "Kitabi-Dede Gorgud" was the book of the great dynasty, country that surrounded by the emperorship of Bayandur Khan. In the article it is said about our historical past,statehood and national relation. This book is our national personality that showing to the world as our native book.
***Key Words:*** Haydar Aliyev, the epos "Kitabi- Dede Gorgud", state, emperor, Khan, Bayandur khan, bey.

Sovet dövründə xalq yaradıcılığına münasibət birmənalı deyildi. Dildə xalq hakimiyyəti deyilsə də, xalqın yaratdıqları bəzən zərərli, mürtəce, xalqın yox, kimlərinsə uydurması hesab edilirdi. Belə bir münasibət "Kitabi-Dədə Qorqud" dastanlarından da yan keçməmişdi. Hətta, "Moskvanın göstərişinə əsasən respublika başçıları səviyyəsində tənqid atəşinə tutulan 1300 yaşlı "Dədə Qorqud" "zərərli" və "mürtəce" bir əsər kimi 1951-ci ildə yasaq edildi" (11, 47).

Azərbaycanın o zamankı rəhbərliyi tərəfindən tənqid atəşinə tutulan "Kitabi- Dədə Qorqud" xalq eposu, dastanı deyil, sadəcə köçəri oğuz tayfalarının hakim yuxarı təbəqəsini tərifləyən, "millətçilik zəhəri ilə dolu", "qardaş gürcü və erməni xalqlarına qarşı yazılmış" kitab kimi səciyyələndirilirdi.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının XVIII qurultayında Azərbaycan K(b)P MK-nın işi haqqında Mir Cəfər Bağırovun hesabat məruzəsində deyilirdi ki, "bu kitabın ("Kitabi-Dədə Qorqud" – N.M.) nəşr olunması Azərbaycan SSR Elmlər Akademiyasının rəhbərlərinin və Ədəbiyyat İnstitutunun kobud bir siyasi səhvi hesab edilməlidir.

Yoldaşlar, ideoloji təhriflərə və burjua millətçiliyi təzahürlərinə qəti son qoymaq və marksizm-leninizmə zidd ideologiya yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq lazımdır" ("Kommunist" qəzeti, 26.05.1951).

Diqqət edilərsə, M.C.Bağırovun nitqində "ifşa etmək", "divan tutmaq" ifadələrinin arxasında 37-ci illərin küləklərinin əsdiyi açıq-aşikar görünməkdədir. Yenidən ziyalıları üz-üzə qoymaq, xalqın milli sərvətini, milli ideologiyasını talamaq, məhv etmək kimi zərərli tendensiyaların alovlanmasına şərait yaradılırdı. Təsadüfi deyildir ki, bu çıxışdan sonra bir qrup "ziyalılar" qollarını çırmalayıb "Dədə Qorqud"çulara "divan tutmağa" başladılar.

Mikayıl Rəfili "Ədəbiyyat qəzeti"nin 5 iyun 1951-ci il tarixli nömrəsində yazırdı: "Kitabi-Dədə Qorqud" bizə, epoxamıza, xalqlar qardaşlığına yad bir əsərdir. Bu əsəri idealizə etməklə, biz burjua millətçiliyinin mənfur təsirlərindən yaxamızı qurtara bilməmişik. Hamımızın borcumuz "Kitabi-Dədə Qorqud"un ideya yabançılığını dərindən anlayaraq onun Azərbaycan xalqının böyük və zəngin klassik ədəbiyyatının patriotik və humanist ənənələrinə yad olduğunu başa düşməkdir".

Aydın görünür ki, Mikayıl Rəfili 37-ci ilin repressiya qurbanlarının taleyini yaşamamaq üçün "səhvini" etiraf edir, canını qurtarmağa çalışırdı. Necə deyərlər, "ilan vuran ala çatıdan qorxar" (2, 358). Otuzuncu illərdə baş verən qanlı olaylar, söz adamlarının nahaqdan həbs edilməsi, işgəncələrə məruz qalması, sorğu-sualsız güllələnməsi, sürgünlərdə çürüdülməsi istər-istəməz ziyalıları qorxu içində saxlayırdı.

O illərin acı bir təcrübəsi də vardı. Danos yazanlar, üzə dirənənlər sağ qalır, "hökumət adamı" olur, vəzifə qazanırdılar. Belə adamlardan bir qismi xüsusi idarə tərəfindən bu işlərə cəlb edilirdisə, könüllü olaraq qoşulanlar da vardı. Onlar açıq-aşkar böhtan xarakterli məktublar yazır, sadə, təmiz, layiqli ziyalıları ləkələyirdilər. Filologiya elmlər doktoru C.Hacıyev və filologiya elmlər namizədi M.Quluzadə tamamilə Dədə Qorqudçulara qarşı qərəzli mövqedə durur, böhtan yazmaqdan da çəkinmirdilər: "Azərbaycan mədəniyyətini bu

xalqa zidd zərərli əsərlə “zənginləşdirmək” üçün H.Araslı və Ə.Dəmirçizadə kitabın dilini saxtalaşdırmış, oğuz dilinin qrammatika xüsusiyyətlərini Azərbaycan qrammatikası ilə əvəz etməyə çalışaraq, onu süni surətdə “azərbaycanlılaşdırmışlar” (Ədəbiyyat qəzeti, 17 iyul 1951).

Ədəbiyyat qəzetinin həmin günkü sayında “Kitabi-Dədə Qorqud”la bağlı Azərbaycan K(b)P MK katibi H.Həsənovun mövqeyi də verilmişdi: “Dədə Qorqud” kitabı ilə əlaqədar olaraq SSRİ Sovet Yazıçıları İttifaqı rəhbərliyinin yanlış mövqe tutduğunu qeyd etmək lazımdır. SSRİ Sovet Yazıçıları İttifaqının rəhbərliyi, bu kitabın zərərli mahiyyətini ifşa etməkdə Respublika Yazıçılar İttifaqına kömək etmək əvəzinə 1948-ci ildə xüsusi müşavirə çağırmaq və “Kitabi-Dədə Qorqud”un hansı millətə məxsus olduğu barədə mübahisələr təşkil etmək istəyirdi. Azərbaycan K(b)P MK qəti surətdə belə bir cəhdə qarşı çıxdı” (Ədəbiyyat qəzeti, 17 iyul 1951).

Belə demək caizsə, yerli hakimiyyət “Kitabi-Dədə Qorqud”-a qarşı ən qatı düşmən mövqeyi sərgiləməklə ermənilərlə bir platformada dayandığını nümayiş etdirirdi. “Ermənilərin “Kitabi-Dədə Qorqud”u məhv etmə cəhdlərinin əsas səbəbi də “Dədə Qorqud”un coğrafiyası ilə bağlı idi. Vaxtı ilə V.V.Bartold yazırdı ki,”Kitabi-Dədə Qorqud” çox çətin ki, Qafqaz mühitindən kənarda yaranmış olsun” (18, 17). Görkəmli şərqşünas alim V.V.Bartoldun dediyi Qafqaz mühitində ermənilər nə etnos, nə xalq, nə də dövlət kimi görünmür. Dastanda Oğuzların Gürcüstanla həmsərhəd olduğu göstərildiyi halda, bu gün ermənilərin məkunlaşdığı Azərbaycan ərazilərində onların yaşamadığı göstərilir. Bu da ermənilərin həyata keçirmək istədikləri uydurma “Böyük Ermənistan” ideyasının reallaşmasına mane olurdu. Ona görə də onlar türk xalqlarının tarix, coğrafiya, fəlsəfə, psixologiya, ədəbiyyat, dövlətçilik, əxlaq, hüquq... dərsliyi və himni olan bu mənəvi

sərvəti hər vəchlə ədəbi-bədii, elmi səhnədən çıxarmağa çalışırdılar" (11, 50).

Professor Cəlal Qasımov bu məsələyə münasibət bildirərək yazır ki, "ilk növbədə, "Dədə Qorqud"un Azərbaycan dastanı olmaması haqqında tezis ciddi narahatlığa əsas verir. Bu, bütövlükdə yalan bir yanaşma olub, Azərbaycan dastançılıq təfəkkürünün, milli düşüncəsinin inkişaf dialektikasına tamamilə ziddir. Orijinalında "Kitabi-Dədəm Qorqud əla-lisani-taifeyi-oğuzan" ("Oğuz tayfalarının dilində Kitabi-Dədəm Qorqud") adlandırılan bu abidə bütün cəhətləri ilə, o cümlədən dilinə, dininə, coğrafiyasına, ekologiyasına və nəhayət, ruhuna qədər oğuz türklərinin dastanıdır və oğuzların azərbaycanlıların ulu babası olması gün kimi məlum həqiqətdir" (10, 58). Beləliklə, deyə bilərik ki, "Kitabi-Dədə Qorqud"un yasaq edilməsi Azərbaycan xalqının kürəyindən vurulan bıçağa bənzəyirdi. Çox təəssüf ki, bu bıçağı saplayan Azərbaycanın o vaxtkı rəhbərliyi və "üzdəniraq ziyalılar" idi. Halbuki "Kitabi-Dədə Qorqud" eposu türk təfəkkürünün dünya mədəniyyətinə bəxş etdiyi ən böyük, ən şərəfli, ən qədim abidədir.

Deyirlər "ən böyük loğman zamandır" (13). Zaman keçdi, dövran dəyişməsə də hakimiyyətdə dəyişikliklər oldu. Bu dövrü səciyyələndirən Muxtar Kazımoğlu yazır: "Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlardan etibarən folklora və folklorşünaslığa münasibət müsbət mənada dəyişmişdir. Azərbaycan Elmlər Akademiyası əməkdaşları 1970-80-ci illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarını, eləcə də Azərbaycan məhəbbət dastanları, nağıllar, qaravəllilər, lətifələr, atalar sözləri, bayatılar, əfsanə və rəvayətlərdən ibarət topluları təkrar-təkrar nəşr etdirmişlər" (8, 12).

O illərdə "Kitabi-Dədə Qorqud" dastanlarının sistemli şəkildə tədqiqi və təbliği sahəsində mühim işlər görüldü. 1975-ci ildə "Kitabi-Dədə Qorqud" dastanlarının əsasında

yazıçı Anarın ssenarisi ilə çəkilən "Dədə Qorqud" filminin ərsəyə gəlməsi də bilavasitə ulu öndərin təşəbbüsü və qayğısının nəticəsi idi.

Azərbaycan Respublikasının (1991) dövlət müstəqilliyinin elan edilməsi və xalqın tələbi ilə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı "Kitabi-Dədə Qorqud"un da həyatında əsaslı surətdə dəyişikliklərə səbəb oldu. Xüsusilə də "Kitabi-Dədə Qorqud" dastanlarının tarixi, tədqiqi və təbliği ilə bağlı çox böyük layihələrə start verildi. 1997-ci ilin aprel ayının 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında" fərman verdi və özü də yubiley üzrə Dövlət Komissiyasının sədri oldu. Bu fərmandan sonra həyata keçirilən tədbirlər sözün həqiqi mənasında "Kitabi-Dədə Qorqud" dastanlarının dünya çapında yenidən doğuşu və əbədiyyət qazanması hadisəsi kimi dəyərləndirilir. 1998-ci ildə YUNESKO tərəfindən "Kitabi-Dədə Qorqud" ilə bağlı simpoziumun təşkil edilməsi eposun beynəlxalq miqyasda təbliği işinə böyük töhfə oldu. 1999-cu il fevralın 21-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" sərəncam imzaladı. Heydə Əliyevin sədrliyi ilə Dövlət Komissiyasının 1999-cu il16 fevral, 1999-cu il 8 aprel və 2000-ci il 11 mart tarixli üç iclası keçirilmişdir. Bu iclaslarda Prezident Heydər Əliyev giriş sözü söyləmiş və yekun nitqi ilə çıxış etmişdi. Ulu öndər "Kitabi-Dədə Qorqud" dastanını Azərbaycan xalqının tarixi, mədəniyyəti, ədəbiyyatının ən möhtəşəm və parlaq abidəsi adlandırırdı.

Heydər Əliyev 1999-cu il fevralın 21-də "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında", 2000-ci ildə isə "Bakıda Dədə Qorqudun heykəlinin qoyulması və "Dədə Qorqud dün-

yası" tarixi-etnoqrafik kompleksinin yaradılması haqqında" sərəncam verdi.

2000-ci ilin aprel ayında Azərbaycanın Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və iştirakı ilə Bakıda zirvə tədbiri – "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi keçirildi. Heydər Əliyev çıxışlarında Azərbaycan xalqının qabaqcıl dünyagörüşünün formalaşmasında "Kitabi-Dədə Qorqud" rolunu, "Kitabi-Dədə Qorqud"un yubiley tədbirinin əhəmiyyətini xüsusi olaraq qeyd edirdi: "Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır. Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır".

"Kitabi-Dədə Qorqud"un qadağan edildiyi dövrün ictimai-siyasi xarakteristikasına tam aydınlığı ilə bələd olan və müstəqillik illərində respublika hakimiyyətinin yenidən "Kitabi-Dədə Qorqud"a müraciətinin tarixi əhəmiyyətini diqqətə alan akademik İsa Həbibbəyli yazır: ..."Dədə Qorqud" kimi şah əsər hələ də lazımınca öyrənilməmiş, Avropa dillərinə mükəmməl tərcümə olunmamışdır. "Dədə Qorqud" dastanlarının tam mətnini ingilis, fransız, alman, ərəb, fars dillərində nəşr etdirmək, dastan haqqında ən mühüm araşdırmaları dünya xalqlarına çatdırmaq sadəcə Dədə Qorqudu tanıtdırmaq olmayıb, bu nadir bəşəri sənət əsərini ərsəyə gətirən, yaradan oğuz türklərini, ən azı Azərbaycan və Anadolu türklərinin soykökünü, qədimliyini və böyüklüyünü, dilimizin qüdrətini sübut etmək deməkdir (5; 14; 15; 16; 17). Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında imzaladığı fərman ulu Ata kitabımızın yenidən araşdırılması, beynəlxalq səviyyədə məqsədyönlü şəkildə təbliği, dünya dillərinə tərcümə olunması, yeni nəşrlərin meydana çıxması baxımından geniş imkanlar açır (7, 9).

Ulu Öndər çıxışlarında "Kitabi-Dədə Qorqud"un Azərbaycanın mənəvi sərvətləri içərisindəki yerinin indiyə qədər lazımi səviyyədə qiymətləndirilmədiyini də qeyd etmişdi. Ümumilli lider Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının tədqiqi sahəsində gördükləri çox böyük işlərə görə vaxtı ilə hakimiyyət tərəfindən təhdid edilmiş ziyalılarımız Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Əbdüləzəl Dəmirçizadə və b. alimlərin əməyinə yüksək qiymət vermişdir. Heydər Əliyev türk xalqlarının soykökünün Dədə Qorqudla bağlılığına aydınlıq gətirərək dastanın bütün türk dünyasına məxsusluğunu qeyd etməklə yanaşı, ancaq onun vətəninin Azərbaycan, sahibinin Azərbaycan xalqı olduğunu xüsusilə vurğulamışdı.

Akademik Tofiq Hacıyev "DQK-1300" – tarixi dövlət tədbiri" məqaləsində Prezident Heydər Əliyevin fərmanına obrazlı şəkildə münasibət bildirmişdi: "Fərman böyük Dədə Qorqud toyu yaratdı. Bütün dünya, birinci növbədə Türk dünyası bu toyda iştirak etdi. Dostlar ortaq məxrəcə gəldilər. Buranı – bizim Azərbaycan Vətənimizi Dədə Qorqud toyunun bəy evi kimi tanıdılar. Bu bəy türk dövlətləri ailələrinin hamısının qohumu idi, ancaq bəy evinin bizim ölkəmiz olması təsdiqləndi. Hətta dost olmayanlar da çarəsiz qalıb bu evi etiraf etməli oldular. Çünki YUNESKO - nun möhürü ilə bu həqiqəti hamı – bütün dünya qəbul etmişdi" (6, 9).

Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının hazırkı mərhələdə respublikamız üçün çox böyük əhəmiyyət daşıdığını, buradakı qəhrəmanlıq ənənələrinin təbliğinin vacib-

liyini nəzərə çatdırırdı: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir" (3, 6).

Ulu Öndərin bu fikrində onun təkcə "Kitabi-Dədə Qorqud"a deyil, bütövlükdə milli mədniyyət və ədəbiyyat tariximizə baxışları öz əksini tapmışdır. Heydər Əliyevə görə:

**1. "Kitabi-Dədə Qorqud", sadəcə, bir dastan, adi bir epos yox, milli tarix və mədəniyyətimizin ensiklopediyasıdır** ("*Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır"*).

**2. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının bütün tarixi-mədəni təcrübəsini özündə inikas edən ümummilli dəyərdir (***"Bu epos bizim ümumi sərvətimizdir"*).

**3. "Kitabi-Dədə Qorqud" xalqımızın ümummilli enerji qaynağıdır** ("*Hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər*").

**4. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının dünəni, bügünü və gələcəyinin milli proqramıdır** (*"Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir"*).

Yubiley tədbiri öncəsi "Kitabi-Dədə Qorqud" və müasir Azərbaycan ədəbiyyatı" münasibətləri nə qədər dərindən öyrənilsə də, sonradan bu işin davam etdirilməsi zərurəti özünü bir daha göstərdi. Qeyd etməliyik ki, "gerçəklikdə "Kitabi-Dədə Qorqud"

dastanları və müasir Azərbaycan ədəbiyyatı" bir elmi problem kimi zaman və məkan sərhədləri təkcə XX əsrin birinci yarısından günümüzə qədərki dövrü (ədəbi zamanı) və onun ədəbiyyatını (ədəbi məkanı) yox, Azərbaycan ədəbi düşüncəsinin bütün tarixini əhatə edən qlobal konturlara malik məsələdir" (4, 125).

Doğrudan da, çox keçmədən zaman özünü bu aspektdən göstərdi. 2004-cü ildə Heydər Əliyev irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Belçikanın paytaxtı Brüsseldə "Dədə Qorqud" abidəsinin açılışı oldu. Bu abidənin açılışı Azərbaycan milli düşüncəsinin bəşəriliyi və ululuğunun göstəricisi olaraq Dədə Qorqud ruhuna dünya mədəniyyətinin ehtiramı kimi qiymətləndirilməlidir. Bu abidənin açılışı həm də "Kitabi-Dədə Qorqud" eposunun böyüklüyünün, əvəzsiz abidə olduğunun dünya elmi tərəfindən səmimi etirafı idi.

2013-cü ildə Bakıda Azərbaycan xalqının milli kimliyi olan" (247) "Dədə Qorqud" abidəsi və parkı açıldı. Respublika Prezidenti İlham Əliyev açılış mərasimindəki çıxışında dedi: "Son Zirvə görüşündə mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır. Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir. Bizim ölkələrimizi əlbəttə ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanı burada çox böyük rol oynayır. Ona görə, mən hesab edirəm ki, bugünkü mərasim bütün türk dünyasında gözəl əks-səda verəcəkdir. Eyni zamanda, bu gün biz gözəl parkın - Dədə Qorqud parkının açılışını qeyd edirik". (Azərbaycan qəzeti, 14 dekabr 2013-cü il)

Nəhayət, 2015-ci ilin fevral ayının 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və 200 illiyinin qeyd edilməsi haqqında sərəncamı oldu (9). Kamal Abdullanın təbirincə desək, "bu sərəncam görkəmli şərqşünas alim, XIX əsr alman filologiyasının romantizm cərəyanının ən tanınmış nümayəndələrindən biri olan fon Ditsin ruhuna Dədə Qorqudun xələfləri tərəfindən hörmət və minnətdarlığın siyasi ifadəsi idi. Beləliklə, 2015-ci il təkcə Azərbaycan üçün yox, dünya filologiyası, qorqudşünaslığı üçün bir bayrama çevrildi" (1,7).

"Kitabi-Dədə Qorqud" bütün türk dünyasını öz ətrafında birləşdirən əvəzsiz bir eposdur. Eposa ev sahibliyi edərək Azərbaycan dövləti xarici siyasətinin prioritetlərindən biri kimi dastan ətrafında türk dilli xalqların sıx birliyinə nail olmağa çalışır. Respublika Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi türkdilli ölkələrin dövlət başçılarının Bakı, Naxçıvan, Qəbələ şəhərlərində keçirilmiş zirvə görüşləri bunun əyani sübutudur. Bizim ölkələrimizi birləşdirən dil, din, ümumi mədəniyyət, ədəbiyyat və folklordur. Qardaşlıq və əməkdaşlığımızın təməlində "Kitabi-Dədə Qorqud" eposunun müstəsna rolunun prezident tərəfindən qiymətləndirilməsi dastana verilən ən yüksək dəyərdir. Respublika Prezidenti İlham Əliyevin "Dədə Qorqud"a bəslədiyi dərin ehtiramın kökündə milli-mənəvi dəyərlərimizə olan böyük məhəbbəti dayanır. "Kitabi-Dədə Qorqud" azərbaycanlıların ana kitabıdır və bu kitaba sevgimiz daimi və əbədidir. Ulu öndərin Dədə Qorquda olan sonsuz sevgisi, təbliği və tanıtma siyasətinin hazırda İlham Əliyev tərəfindən davam etdirilməsi təqdirəlayiq hadisədir. Heç şübhəsiz ki, Ulu Öndərin siyasi və mədəni kursunu ləyaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düzgün siyasi və mədəni fəa-

liyyəti Dədə Qorqud sevgisi kimi əbədi olacaqdır. Azərbaycan var olduqca Dədə Qorqud yaşayacaqdır. Dədə Qorqud var olduqca Ulu Öndər Heydər Əliyev xatırlanacaq və yaşayacaqdır.

**QAYNAQLAR**


1. Abdulla K. Fon Ditsə məhəbbətlə / "Epos və etnos" Beynəlxalq Elmi Konfransın Materialları. Bakı, Elm və təhsil, 2016, 432 s.
2. Atalar sözü / Toplayanı Ə.Hüseynzadə, tərtib edəni H.Qasımzadə, Bakı: Yazıçı, 1985, 690 s.
3. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı / "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I c. Bakı: Yeni Nəşrlər evi, 2000, s. 6.
4. Əliyeva T. Türk eposu və yazılı ədəbiyyatı / "Türk epos düşüncəsi yazılı abidələrdə" elmi konfransının materialları, 19-20 noyabr 2015. ADPU-nun mətbəəsi, 2015, s. 124-127.
5. Əsgər Ə. "Kitabi-Dədə Qorqud"un yazıya alınması və nüsxələri // "Azərbaycan" jur., Bakı, 2006/12, s. 167-181.
6. Hacıyev T. Heydər Əliyev və mənəvi dəyərlər / "DQK - 1300" – Tarixi Dövlət Tədbiri. Bakı: Səda, 2003, s. 8-11
7. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan. 2007. 696 s.
8. Kazımoğlu M. Elmimizin ideya mənbəyinə çevrilən irs / Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, s. 11-26.
9. "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 20 fevral 2015-ci il // "Azərbaycan" qəz., 2015, 21 fevral, s. 1.

10. Qasımov C. Heydər Əliyev və “Kitabi-Dədə Qorqud” / Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, s. 57-87.

11. Qasımov C. “Kitabi-Dədə Qorqud”un yasaqlanması. Bakı: Nurlan, 2013, 180 s.

12. Muradoğlu N. “Kitabi-Dədə Qorqud” abidəsi Azərbaycanın milli kimliyidir, Xalq qəz., 2 fevral 2014-cü il, s. 7.

13. Naxçıvan folklor nümunələri (arxiv özümüzdədir).

14. Rzasoy S. Oğuz mifi və ata sözləri. “Dədə Qorqud” jur., 2005/1. s. 66-72.

15. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Nurlan, 2007, 182 s.

16. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.

17. Sümer F. Öğuzlar. İstanbul: 1992, 384 s.

18. Бартольд В.В. Турецкий эпос и Кавказ / «Книга моего Деда Коркута». Огузский героический эпос. М.-Л.: Наука, 1962, с. 109-120.

# FOLKLORDA DÖVLƏTÇİLİK DÜŞÜNCƏSİ VƏ ARXAİK RİTUAL

**Ağaverdi Xəlil**
aqaverdi@yandex.ru

## КОНЦЕПТ ГОСУДАРСТВЕННОСТИ В ФОЛЬКЛОРЕ И АРХАИЧЕСКИЙ РИТУАЛ

РЕЗЮМЕ

В статье исследовались концепт государственности и были анализированы его связи с архаическим ритуалом. Исследование было проведено на материале фольклора. Были определены элементы исходящие из архаического ритуала, которые отразились в фольклоре. Выяснились ритуальные основы концепта государственности.

***Ключевые слова:*** Азербайджан, фольклор, государственности, трансформация, ритуал, семантика.

## THE CONCEPT OF STATEHOOD IN FOLKLORE AND ARCHAIC RITUAL

SUMMARY

The article explored the concept of statehood and analyzed its connection with the archaic ritual. The study was conducted on the material of folklore. The elements outgoing from the archaic ritual, which are reflected in folklore, were identified. The ritual foundations of the concept of statehood were clarified.

***Key words:*** Azerbaijan, folklore, statehood, transformation, ritual, semantics.

Azərbaycan dövlətçiliyinin tarixi çox qədim zamanlardan başlanır. Dövlətçilik ənənəsi qədim olduğundan xalq ya-

radıcılığında, xalq düşüncə və davranışında, ictimai-siyasi əxlaqda sabit mənəvi dəyərlər yaranmış, müxtəlif folklor janrlarında ifadə olunmuşdur. Folklor bir tərəfdən dövlətçiliyin mənəvi əsaslarını möhkəmləndirməyə xidmət etmiş, onu müxtəlif obraz, süjet və motivlərdə xalq yaddaşına köçürmüş, digər tərəfdən onun fəlsəfəsini və estetikasını hazırlamışdır. Dövlət gerçək olmazdan öncə o, xalqın arzu və istəklərində, düşüncə və xəyallarında yaranır və uyğun tarixi şəraitdə geçəkləşir. İcma, ailə və tayfa mədəniyyətinin və bu mədəniyyəti xalq hafizəsində yaşadan folklorun dövlətçilikdə xüsusi rolu olur. Çünki etnik-milli özünütəşkilin ən nikbin yolu folklorda mövcud olan mənəvi dəyərlərdən keçir. Başqa sözlə, folklorunda dövlətçilik ideyası olan xalqın dövlət qurması da asanlıqla baş verir. Çünki folklor dövlətçiliyin mənəvi əsasıdır. Folklor irsini yaddaşında və davranışında yaşadan xalq dövlətçilik təcrübəsində sosial harmoniyanı təmin etmək üçün çətinlik çəkmir. Onu da qeyd edək ki, folklor ayrı-ayrı janrlarda gerçəkləşən mətnlər olmaqla yanaşı xalq düşüncəsinin və həyatının bütün sahələrini əhatə edən sabit mənəvi dəyərlər sistemidir. Milli folklor milli düşüncənin və davranışın təkcə təzahür forması deyil, həm də onun modelləşdirici sistemi, başqa sözlə, düşüncə və davranış tərzidir. Dövlətçilik də bu düşüncə və davranış çərçivəsində gerçəkləşir. "Xalqın dövlətçilik ənənəsi dedikdə onun dövləti idarəçilikdə iştirakı nəzərdə tutulur. Bu o deməkdir ki, dövlət başçısına hakimiyyəti xalq həvalə edir. Hakimiyyəti idarəçiliyə xəyanət etdikdə və ya bunu bacarmadıqda xalq həmin hökmdarı (iqtidarı) dəyişmək hüququna malikdir" (1, 5).

Dövlətçilik tarixi-ictimai mədəniyyətin ən yüksək formasıdır. Bu mədəniyyətə sahib olmayan xalqlar milli varlıqlarını qoruya bilməmişlər. Bu mədəniyyətin və ənənənin qorunmasını isə folklor, yaddaş, xalqın mənəvi bütövlüyünü təş-

kil edən ehtiyatlar təmin edir. Bu mənada folklor və dövlətçilik bir-birinə sıx surətdə bağlı, üzvi vəhdət təşkil edən məsələlərdir. Əgər məsələyə geniş prizmadan baxılsa dövlətçilik də xalq yaradıcılığının bir forması götürülə bilər. Cəmiyyət dünyəvi qanunlara zaman-zaman uyğunlaşır, amma milli əxlaqa, milli ənənəyə və milli davranışa zidd olmayan qanunlar ictimai münasibətlərdə dərhal öz təsdiqini tapır. Bəzən "yazılmamış qanunlar" ifadəsi işlədilir. Bu əslində etnik ictimai davranış və milli əxlaq normasının müasir qanunlarda öz əksini tapmayan hissəsidir. Bu həm də ənənədə formalaşmış xalq demokratiyasının müasir hüquqdan və qanundan genişliyi və üstünlüyüdür.

Xalqımız milli müstəqil, hüquqi, demokratik dövlət quruculuğu prosesini yaşayır. Dövlətimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi üçün milli dövlətçilik ənənəmizin tarixinə və onun folklorda gerçəkləşən mənəvi məsələlərinin təsvirinə və təhlilinə də diqqət artırılmalıdır. Bizim araşdırmaya cəlb etdiyimiz qaynaqların hər biri məhz bu problem üzrə müstəqil bir tədqiqatın mövzusu ola bilər və olmalıdır. Gələcək tədqiqatlarda bu problemlərin daha geniş araşdırmalara cəlb edilməsi də nəzərdən qaçırılmamalıdır.

Tarixdən türklərin qurduğu böyük Hun imperatorluğu, Xəzər xaqanlığı, Göytürk imperatorluğu, Oğuz-Səlcuq imperatorluğu, Osmanlı imperatorluğu, Qaraxanlı dövləti, Bulqar dövləti, Uyğur dövləti və b. məlumdur. Türk xalqlarından biri kimi, biz bu dövlətlərin, onların yaratdığı zəngin dövlətçilik mədəniyyətinin varisləriyik. Bununla yanaşı Şirvanşahlar dövləti, Ağqoyunlu dövləti, Qaraqoyunlu dövləti, Səfəvi dövləti kimi Azərbaycan dövlətləri mövcud olub. Bunların hər birinin milli dövlətçilik tariximizdə xüsusi xidmətləri olub.

Mütərəqqi dövlətçilik ənənələri sonrakı dövrlərdə də davam və inkişaf etdirilmişdir. "Azərbaycan dövlət qurumu-

nun təxminən üç minillik tarixi vardır. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi daha rəngarəng olmuş və dövlətçiliyə dair müəyyən qanunlar yazılmışdır” (1, 5).

Cəmiyyət həmişə sosial rifah və ədalətli idarəçilik haqqında düşünmüşdür. Xalqın düşüncə və arzuları ədalətli hökmdar ideyasını doğurmuşdur. Hər şeyi rəhbərindən gözləyən xalq bir çox hallarda onu müqəddəsləşdirmiş və mütləqləşdirmişdir. Bu düşüncələr də folklorda ifadə olunmuş, xalq içində də, saraylarda da dövlətçiliyin mənəvi məlumat dəstəyi, onu kamilləşdirən əsas faktor kimi çıxış etmişdir. Xalqın sonsuz sevgisi olduğu kimi, nifrəti də kükrəyəndə hüdudsuz olur. Bu özünü hakimiyyətlə xalq, elita ilə kütlə arasındakı sosial məsafənin çoxalıb maksimum səviyyəyə çatdığı məqamlarda daha çox təzahür etdirir. Dövlətçiliyin sarsılması da məhz bu zaman başlanır. İdarəçiliyi mükəmməl olmayan hökmdarlar xalq yaradıcılığında “zalım padşah” kateqoriyasına aid edilir. Məsələn, Sultan Səncər “zülümkar”, Şah Abbas “cənnətməkan” epitetləri ilə yaddaşlarda qalıb.

Dövlətçilik mədəniyyətimizi əks etdirən folklor qarışıq yazılı abidələr və ya xalis folklor nümunələri digər istiqamətlər ilə yanaşı həm də bu yönümdə məhz dövlətçiliyimizin monolitliyi naminə öyrənilməlidir.

Arxaik ritualın izlərinin qorunduğu ərazilər içərisində Qafqazın və Azərbaycanın da xüsusi yeri vardır. Ən qədim ritual təsvirlərinin qorunduğu qaya rəsmlərindən biri Qobustan qoruğundadır. Burada “Yallı”ya bənzər kollektiv rəqs təsvir edilmiş qədim ritual nümunəsinə rast gəlirik. Bu təsvirlərin yaşı 5-10 min illə ölçülür. Belə qədim təsvirlərin arxaik ritualla, məsələn, ov ritualı, günəşi çağırma, yağış diləmə və ya təbiət kultları ilə bağlı qurban verme ilə əlaqəli olması mümkündür. Təsvir edilmiş ritual elementləri arxaik ritual kompleksini tam şəkildə təqdim etməsə də, onun əski inanc-

larla bağlı olduğunu və ritualın mahiyyətini müəyyənləşdirmək mümkündür.

İndiki İran ərazisindəki Bisütun yazılarının da arxaik ritualı öyrənmək baxımından əhəmiyyəti vardır. Azərbaycanın digər yerlərindəki qaya üzərindəki təsvirlər, o cümlədən Gəmiqaya rəsmləri də əski mərasimi müəyyənləşdirmək baxımından öyrənilməlidir.

Qarabağın işğala məruz qalmış rayonlarından biri olan Kəlbəcər özündə ən qədim insan məskənlərindən birini qoruyub saxlamışdır.Burada 30 min ildən çox tarixi olan yaşayış yerləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim runik yazı nümunələri aşkarlanmışdır. Bu rayonun ərazisində zəngin qəbirüstü yazı və təsvirlər (at, qoç) qeydə alınmışdır.Buradakı təsvirlərin birində Günəşə at qurbanı verilməsi ritualı əks olunmuşdur.Təsvirdə yuxarıda parlayan Günəş, atı günəşə doğru aparan bir adam və atın ardınca əlində qılınc gələn bir nəfər görünür.Hələ eramızdan əvvəl 490-480-ci illərdə Herdot belə bir ritual haqqında məlumat verib:"Onların sitayiş etdikləri yeganə Allah Günəşdir.Onlar Günəşə atdan qurban verirlər".

Folklorda dövlətçilik düşüncəsi və arxaik ritual mövzusunu araşdırarkən ilk öncə ritual resursları və mərasim-etnoqrafik komplekslərinin cəmiyyətin təşkilindəki rolunu və əhəmiyyətini aydınlaşdırmaq lazımdır.İlk növbədə məsələyə arxaik ritualdan başlayan və orta əsrlər dövrünün mərasimlərinə qədər gələn xalq törənləri, toyları, yasları, şölənləri, oyun, ayin, tamaşa, şənlik və bayramlarının dövlətçilik düşüncəsinin ilkin qaynaqları kimi baxmaq və mədəniyyəti bu yöndən tədqiqata cəlb etmək lazımdır. Qaynaqlardan da məlum olur ki, türk xalqlarının mərasim folkloru qədim köklərə malikdir və olduqca zəngin və rəngarəngdir. Ənənəvi mədəniy-

yətdə mövcud olan dövlətçilik düşüncəsi mərasim folklorunda öz dərin izlərini saxlamışdır.

Arxaik ritualın oyuna və mərasimə transformasiyası prosesi zamanı müxtəlif dəyişikliklər baş verir və əskidən gələn məlumat və sxem parçalanır. Belə parçalanma ilk növbədə funksional bir üzvlənmə şəklində özünü göstərir. Məsələn, magik funksiyalı ritual əyləncə və ya öyrətmə funksiyalı oyunlara, kutlama, uğurlama kimi mərasimlərə çevrilir. Türk xalqlarının mərasim folklorunu bütövlükdə araşdırdığımız zaman biz onda saxlanan düşüncə və davranış modellərini daha dəqiq və doğru öyrənə bilərik.

Arxaik ritual cəmiyyətin ilkin və həm də təbii şəkildə özünü təşkil etdiyi modellərdən biridir. Bu təbii təşkil modeli tədricən sonrakı dövrlərin mədəniyyətinə də ötürülür. Başlanğıcda kollektiv magik təsir imkanlarıbı gerçəkləşdirən rituallar zaman keçdikcə öz magik funksiyasını itirir, sakrallaşdırma vasitəsinə çevrilir. Dinlərin meydana gəlməsi ilə belə sakrlallaşdırma funksiyaları da öz funksiyasını zəiflətməyə başlayır. Orta əsrlər dövründə mərasimlər artıq sosial funksiya daşımağa başlayır. Bir çox ritallar ayin olmaqdan çıxır, karnavallaşır, şölənlərə, bayramlara çevrilir. Beləkilə, orta əsrlər dövrünün mərasimləri sosial harmoniyanı gücləndirən bir mədəni fenomen kimi formalaşır. Amerika etnoqrafı Luis Morqanın "İbtidai cəmiyyət" əsərində irəli sürdüyü dövlətin mənşəyinin ailədən və qohumluq münasibətlərindən başlaması konsepsiyasına Fridrix Engels xüsusi mülkiyyəti də əlavə edir. Lakin burada cəmiyyətin öz təbiətində yaradılışdan mövcud olan idarəetmə stereotipləri nəzərə alınmamışdır. Belə stereotiplər ritual davranışlarında ibtidai cəmiyyət dövründə də mövcud olmuşdur. İbtidai cəmiyyət tamamilə rituallaşmış bir həyat tərzi şəklində təsəvvür edilir. Bu cəmiyyətdə təbiətlə iç içə yaşayan insanların magik funksiyalı rituallarla

təbiətə təsir etməyə çalışdıqları ümumi bir yanaşma kimi qəbul edilir.Orta çağ oğuz təcrübəsində olduğu kimi, əvvəlcə güc (hünər), tədricən isə güc və ağıl (ərdəm) idarəetmənin əsas amilləri kimi diqqəti çəkir.

Ritual bir tərəfdən ilkin təşkilatlanmanın və idarəetmənin mənəvi əsaslarını möhkəmləndirməyə xidmət etmiş, onu müxtəlif obraz, süjet və motivlərdə xalq yaddaşına köçürmüş, digər tərəfdən onun xalq fəlsəfəsini hazırlamışdır. İcma, ailə və tayfa mədəniyyətinin və bu mədəniyyəti xalq hafizəsində yaşadan folklorun dövlətçilikdə xüsusi rolu olur. Çünki etnik-milli özünütəşkilin ən nikbin yolu folklorda mövcud olan mənəvi dəyərlərdən keçir. Bu anlamda folklor dövlətçiliyin mənəvi əsasıarını gücləndirən amilllər sırasına daxil olur. Onu da qeyd edək ki, ritualın davamı olan mərasim folkloru ayrı-ayrı janrlarda gerçəkləşən verbal və qeyri verbal mətnlər olmaqla yanaşı xalq düşüncəsinin və həyatının bütün sahələrini əhatə edən sabit mənəvi dəyərlər sistemidir. Mərasim folkloru milli düşüncənin və davranışın təkcə təzahür forması deyil, həm də onun modelləşdirici sistemi, başqa sözlə, düşüncə və davranış tərzidir. Dövlətçilik də bu düşüncə və davranış çərçivəsində gerçəkləşir.

Müasir cəmiyyət dünyəvi qanunlara zaman-zaman uyğunlaşır, amma milli əxlaqa, milli ənənəyə və milli davranışa zidd olmayan qanunlar ictimai münasibətlərdə dərhal öz təsdiqini tapır. Bəzən "yazılmamış qanunlar" ifadəsi işlədilir. Bu əslində etnik ictimai davranış və milli əxlaq normasının müasir qanunlarda öz əksini tapmayan hissəsidir. Bu həm də ənənədə formalaşmış xalq düşüncəsinin müasir hüquqdan və qanundan genişliyi və üstünlüyüdür.

Ritual etnik-mədəni davranışın mühüm bir tərkib hissəsi olaraq milli mədəniyyətin təməllərindən birini təşkil edir. Çünki mərasim davranışı fərqli bir davranışdır və bu davra-

nışda millət rəsmən özünü mikro dövlətçilik modelində təsdiq etmiş olur. Ona görə də mərasim mədəniyyəti dövlət anlayışı və millət davranışı üçün mühüm əhəmiyyət daşıyır. Çünki dövlət təşkil olunmuş idarəçilik, millət təşkil olunmuş xalqdır; hər ikisində mütəşəkillik mühüm prinsipdir. Mərasim insanları mütəşəkkillik mədəniyyətinə alışdırır və ictimai mədəniyyətin əsaslarını möhkəmləndirir.

Xüsusilə, polietnik və polikonfessional cəmiyyətlərdə mərasim ictimai birliyin, milli həmrəyləyin və sosial harmoniyanın mənəvi əsaslarının möhkəmləndirilməsində aktiv iştirak edir. Çünki sosial davranışın məzmununa mərasim mənəvi dəyər konsepti kimi daxil olur və onu daxildən zənginləşdirir, eyni zamanda tolerantlığın güclənməsini də təmin edir. Burada müxtəliflik bütün formaları ilə vahid məcraya gəlir və ümumi bir axara çevrilir. Müxtəlif etnik qruplar, müxtəlif dini görüşlər vahid mərasim mədəniyyəti içində birləşir və eyni davranışın daşıyıcısına çevrilir.

İctimai davranış mərasimdən kənarda adiləşir və onu bir bütövə çevirən mənəvi nüvənin cazibəsindən uzaqlaşır. Ona görə də intensiv olaraq cəmiyyətin mərasimdən keçməsi, cəmiyyətdəki müxtəlif qrupları birləşdirən sakral dəyərlərlə zənginləşməsi vacib sayılır. Burada sakrallaşma arxaik ritualın tam eynisi olmasa da, müasir dövrün mərasim mədəniyyəti də mənəvi dəyər konseptlərinin aktivləşdirilməsi ilə birləşdirici və ümumiləşdirici rol oynamaqdadır. Bu baxımdan müasir dövrün mərasimləri də sosiallaşma və ya sosiallaşdırma prosesində aktiv iştirak edir və cəmiyyətdəki müxtəlif qrupları vahid mənəvi dəyərlər ətrafında birləşdirmək üçün mühüm vəzifələri yerinə yetirir.

Mərasim başçısı, əski cəmiyyətdə ata instututu ilə öz ifadəsini tapır. Dövlət quruluşunda bu institut dövlət başçısında reallaşır. Məsələn, Alp Ər Tonqa haqqında ağıdan məlum

olur ki, türklər dövlət başçısının ölümünə böyük bir faciə kimi baxmış və ona ağır yas saxlamışlar. Digər tərəfdən isə bu mətn qədim yas mərasimi və ağı janrı haqqında təsəvvürləri genişləndirir. Abidədə türklərin qurban mərasimləri haqqında da məlumat verilir. Sonralar bu mərasim islami xarakter qazanmış və İsmayıl qurbanı şəklində davam etmişdir.

Qurbanvermə mərasimini keçirmək dövlət ənənəsində kahin- hökmdar funksiyasını üzərinə alan kağanın haqqı idi. Tayfa, boy səviyyəsində Tanrıya həsr edilən qurbanları kəsən və ritualı keçirən boyun ən yaşlısı, ağsaqqalı olurdu.

Dövlətin və xalqın asayişinə, salamatlığına, "azıb gələn qəza"dan qorunmasına və rifahına xidmət edən, yəni bu kimi məqsədlər üçün keçirilən mərasimlərin türk dövlətçilik ənənəsində xüsusi rolu olub. Digər dini tərəfləri ilə yanaşı mərasimlərin insanların həyatında oynadığı mühüm rollardan biri də hakimiyyət və xalqın həmrəyliyinin təsdiqidir. Bu təsdiq ildə bir neçə dəfə keçirilən mərasimlərdə öz əksini tapır. Məsələn, Qalın Oğuz elininn dövlət törəni olan "toy"da Dirsə xan və Alp Aruzla bağlı motivlər mərasimin nə qədər mühüm funksiya daşıdığını nümayiş etdirir. Burada üzə çıxan narazılıq birincidə (Dirsə xan) ailə səviyyəsində, ikincidə (Alp Apuz) dövlət səviyyəsində problemlər yaradır. Əslində qədim mərasimlər cəmiyyətin təşkilində və idarə olunmasında xüsusi rola malik olub. Bunlar qədim yazılı abidələrimizdə, o cümlədən "Kitabi Dədə Qorqud" və başqa qaynaqlarda müşahidə olunur (4).

Arxaik ritualdan gələn inisiasiya (ölüb-dirilmə) əski türklərin Xan seçmə mərasimində müşahidə olunur. Xanın boğularaq seçilməsi onun simvolik olaraq ölməsi və o dünyaya göndərilib sakrallaşdırılmasını özündə rəmzləşdirir. Ölüb-dirilmədən keçərək sakrallaşmış xan statusunu da dəyişmiş olur. Xan bəzəmədə isə xanın güldürülüb suya atılması məh-

suldarlıq ritualı ilə bağlı olub növbəti ilin bolluq və rifah içində olmasına göstərilən sakaral ritual dəstəyini ifadə edir.

Hər bir xalqın həyatında əlamətdar günlərin qeyd olunması ənənəsi vardır. Türk xalqlarının əlamətdar günləri bildirən anlayışları vardır.Bunların içində “toy”/”tuy”/”tuyun”/”düyün”, “şölən”, “yəğma” və s. anlayışlarla yanaşı “bayram”/”bəyrəm” sözü də işlənmişdir.

Dövlətçilik düşüncəsi mərasim folklorunda və ondan ayrılmış xalq deyimlərində öz izlərini saxlayır. Belə anlayışlardan biri Qılavuzdur (başçı).” «Qalın qaz qlavuzsuz bolmas»” (2, c. I, 487) (Qaz qatarı başçısız olmaz), «Qalın qulan çuvğasız bolmas”» (2, c. I, 424) (Heyvan sürüsü başçısız olmaz) kimi deyimlərdə başçının olmasının zəruri bir hadisə olduğu bəyan edilir. Deyimlərdəki məlumat zookontekstdə verilsə də burada toplumun idarə olunmasıüçün başçının zəruri funksiya daşıması diqqətəçəkilir. «Yer basruqı tağ, budun basruqı bəq”» (Yeri dağ basar, xalqı bəy) deyiminin neqativ funksiyası ilə yanaşı, pozitiv funksiyadan da məhrum deyil. Çünki dağın kult olması məlumdur; burada bəy dağla binar münasibətə daxil olduğundan onların arasında semantik paralellik mövcuddur. Deyimlərdə dövlət başçısı bəy və xan kimi vahidlərlə işarələnmişdir.

Mərasim folklorunda yurd, vətən kimi anlayışlar öz əksini sakral məkan düşüncəsində tapır. «Kitabi- Dədə Qorqud»dakı yurd anlayışına rast gəlinir. Vətən də «el»” anlayışı ilə ifadə olunur. Amma yurdsevərlik, vətənpərvərlik duyğusu başqa şəkildə də ifadə oluna bilir: Məslən, «Tilkü öz yiniqə ürsə uzuz bolur»” (2, c. I, 54-55; c. III, 5) (Tülkü öz yuvasına hürsə, qotur olar).

“Oğuzlar işlərini məclislər quraraq məsləhət (gənəşmə) yolu ilə həll edərdilər. Oğuz sübaşısı Ətrək tarxan, yınal kimi oğuz başçılarını çağıraraq xəlifənin nümayəndə heyətinə qarşı

necə davranmaq barədə onlarla məsləhətləşmişdi. Oğuz yabqu dövləti X əsrin birinci yarısında müstəqil və qüdrətli bir dövlət idi. O heç bir zaman bu və ya digər dövlətə, qövmə tabe olmamışdır" (3, 72-73). Türk dövlətçiliyi islam dönəmində yeni keyfiyyətlər qazanır. Burada bəy, xaqan, yabqu, xan deyil, sultan və əmirlər dövləti idarə edirlər. Padşah, vəzir, vəkil idarəçiliyi isə bundan sonrakı dövrlərə aiddir. Türkiyədə sultanlıq, Azərbaycanda isə şahlıq idarə sistemləri uzun müddət saxlanmışdır. Ağqoyunlular dönəmində dövlət başçısı bəy və ya padşah, Səfəvilər dövründə isə şah adlanırdı.

Orta çağ oğuz türklərinin mərasim folkloru özündə qədim dövrün arxaik ritual rudimentlərini saxlayır. Oğuz qaynaqlarında belə nümunələrə sıx şəkildə rast gəlirik.

## QAYNAQLAR


1. Xəlil A. Folklor və dövlətçilik.Bakı, Elm və təhsil, 2014.
2. Divanü luqati it-türk. B.Atalayın nəşri. Ankara, 1992, I c., 530 s.; II c., 366 s.; III c., 462 s.
3. Sümər F. Oğuzlar. B., Yazıçı,1992, 432 s.
4. Kitabi-Dədə Qorqud. Bakı, 1988
5. Xəlil A. Türk xalqlarının yaz bayramları və Novruz.Bakı, Elm və təhsil, 2012.
6. Tokarev S.A. Rannie formı reliqii. M., 1990.
7. Kafesoğlu İ. Eski Türk Dini. Ankara, 1980.
8. Terner V. Simvol i ritual. Moskva, 1983.

# TÜRKLƏRDƏ DÖVLƏT VƏ HAKİMİYYƏT SIMVOLLARININ SEMANTİKASI: ƏNƏNƏVİ MƏDƏNİYYƏT KONTEKSTİ

**Elçin Abbasov**
elcinabbasov@yandex.ru

XÜLASƏ

Məqalədə qədim və orta əsrlərdə türklər üçün dövlət və hakimiyyət simvolu olan predmetlərin – bayraq, çətir, qızılı çadır, taxt, tac, kəmər və s. semantikası ənənəvi mədəniyyət kontekstində, türklərin əski dini və mifik təsəvvürləri ilə əlaqəli olaraq tədqiq edilir. Eləcə də türklərin inanc sistemi və magik təsəvvürləri bu predmetlər üzərindəki təsvir, işarə və ornamentlərin (solyar, həndəsi, antropomorf, zoomorf, nəbati) kəsb etdiyi ilkin mənanın ifadəsi hesab edilir.

***Açar sözlər:*** Qədim türklər, tuğ, Boz Qurd, qurd başlı bayraq, damğa, Qızılı çadır, dövlət simvolu.

## SEMANTICS OF STATE AND GOVERNMENTAL SYMBOLS OF TURKS IN THE CONTEXT OF TRADITIONAL CULTURE

SUMMARY

In the article the semantics of the subjects – flag, umbrella, golden tent, throne, crown, belt, the state and government symbols of the Turks in an ancient and middle ages is investigated in conjunction with the ancient religious and mystic imaginations of the Turks in the context of traditional culture. At the same time the belief system and magic imaginations of the Turks are considered the expression of the original meaning of expression of description, sign and ornaments (solitary, geometric, anthropomorph, zoomorph, fruity) on these subjects.

*Key words:* Ancient Turks, brick, Grey Wolf, wolf-headed flag, mark, Golden Tent, state symbol.

## 1. Qədim türklərdə bayraq

### 1.1. Bayraq zoomorfik mifoloji obrazın təcəssümü kimi



İnsanların etnik, coğrafi, siyasi və ya ideoloji vəhdətinin ifadəsi olan bayraq, eyni zamanda qarşıya qoyulan məqsəd üçün təşkilatlanmanın da simvoludur. Moyun Cür yazılı abidəsində göytürklər, digər xalq və tayfalardan fərqli olaraq "üç tuğlu türk xalqı" adlanır. Bu göytürklərin özlərini "xaqana sahib xalq" – *kağanlık budun* adlandırması ilə eyni mahiyyətlidir və onların xaqanlığa – dövlətə sahib olduqlarına işarədir. Hakimiyyətə yiyələnmək taxt-tacla yanaşı, xanlıq bayrağına sahiblənməni tələb edirdi. Fəzlullah Rəşidəddin "Tarix"ində deyilir ki, Qara Arslan xanın ölüm xəbəri yayıldığında *"xəciblər"* xəzinəni, xan təbilini, kosunu və bayrağını mənimsədilər (Rəşidəddin 1992: 54).

Daha əski çağlarda bayraq, daha doğrusu onun ilkin formaları sakral qüvvələrin (totemin, tanrının) simgəsi yox, bir parçası və ya təzahür forması idi. Bu baxımdan qədim türklərin xaqan soyunun bayrağının qurd başı formasında olması və ya tuğa, bayraq ağaçına, nizəyə magik qüvvəyə malik sakral heyvan tükünün və ya quyruğunun bərkidilməsi izah olunandır.

Hökmdar, xaqanlıq bayrağının qədim türklərdə “tuğ” adlandırıldığı məlumdur. Bir sıra alimlər, o cümlədən Mərkəzi Asiya xalqlarının orta əsrlər hərbi-siyasi mədəniyyətində bayrağın semantikasını öyrənən S.V.Dmitriev türklər və monqollarda tuğun yalnız bayraq şəklində anlaşılmasını düzgün hesab etmir və məsələn, dəbilgəyə sancılan tükü nümunə göstərir. Həqiqətən, indi Azərbaycan dilində “dəbilqə” şəklində işlənən sözün əski forması “tuğulğa” bu baxımdan maraqlı faktdır. Bura “tuğra/tuğraq” – hökdar möhürünü də əlavə etmək olar. Görünür, tuğ dedikdə, ilk əvvəllər sakral heyvan tükünün (və ya quyruğunun) bərkidildiyi və ya təsvirinin əks olunduğu ali hakimiyyət nişanı olan predmetlər nəzərdə tutulurdu. Mahmud Kaşğarlı da qeyd edir ki, “Tuğ kös və davuldur, xaqanın önündə çalınır. Bundan başqa, xan tuğ vurdu, xan davulu vurdu (deməkdir). Tuğ ələm, yəni sancaqdır” (Kaşğarlı 1992: 127).

Bəzi alimlər tuğ sözünü Sibir şamanizmindəki dünya ağacının simvolu olan dirək – *turu* ilə əlaqələndirirlər (Vasileviç 1957: 155-156). E.R.Tenişev Uyğurustanda olarkən, bir kamlaniya mərasimini təsvir edir və yazırdı: “Geniş bir otağın ortasında qara və boz zolaqları olan, qaba yundan toxunmuş palaz sərdilər. Onun ortasından torpaq döşəməyə bir ucuna qara yun kəndir bağlanmış paya çaldıları. Kəndirin digər ucu tavanın yoğun tirinə bağlanmışdı. İnsan boyu hündürlüyündə məsafədə kəndirə ağ yaylıq bağladılar. Ondan yuxarıya *baxşı* rəngarəng nazik lent dəstəsi (*xelem*) bərkitdi. Bütün bu konstruksiya *tuğ* adlanırdı. Xəstəni sağaltma mərasimi onun ətrafında keçirilmişdi” (Tenişev 1995: 62).

Türk xalqlarında bayraq anlamında *tuğ*dan başqa tarixən *bayraq, sancak, buncuk, orğa, ələm* və s. ifadələrinin işləndiyini bilirik.



**Elxanilərin Bağdadı zəbt etməsini təsvir edən XVI əsr miniatüründə tuğlar**

Alimlərə görə, təkcə başlıqdan ibarət ştandartlar ən qədim bayraq forması hesab edilir (Okladnikov 1951: 148, Dmitriev 2001: 5). Osmanlılar dönəmində "tuğ" mənasında "buncuk" daha aktiv işlədilmişdir: baş hissəsinə at quyruğu və ya bir əlçim at tükü (qotaz) bərkidilmiş nizə buncuk adlanırdı. Düşünmək olar ki, bu nizələrə buncuk adı verilməsi baş hissədə tüklərin bərkidildiyi yerin iri muncuq formasında olmasından qaynaqlanırdı. Osmanlı dönəmində buncukların baş hissəsi – ucu yumru formada olurdu. Paşaların dövlət idarəçiliyində tutduğu yerə uyğun olaraq bir, iki, üç qotazlı buncukları olurdu. Sultan buncukunda – tuğunda 7 qotaz vardı.

Qaraxanlı dövlətinin (840-1212) al bayraqlarında xaqanlara xas olan "doqquz tuğ" təsvir edildiyi göstərilir. Çingiz xanın bayrağı da 9 tuğlu idi. XVII əsr monqol yazılı abidəsi "Altan Tobçi"də Çingiz xanın bayrağına işarə vurularaq "kəhər atın yalından sənin tuğun" deyilir.



**Çingiz xanın doqquz tuğlu bayrağı. Rekonstruksiya.**

Rəşidəddin "Tarix"inə və digər tarixi əsərlərdəki miniatür və qravürlərə baxsaq, deyə bilərik ki, Elxanlıların, elcə də digər orta əsr türk-monqol dövlətlərinin döyüş bayrağı – tuğu bir tərəfi nizəyə bərkidilmiş, ona əks tərəfinə isə bir uzun və ya iki-üç nisbətən qısa üçkünc parca tikilmiş dördkünc lövhə şəklində idi. Nizənin lövhədən yuxarı hissəsinə bir topa tük – "quyruq", ucuna isə üzü yuxarı aypara bənd edilirdi. Adətən qırmızı rəngdə olan lövhədə müxtəlif təsvirlər və ya naxışlar olurdu.

Qədim türklərdə, monqollarda, bəzi Tibet tayfalarında tuğ, buncuk (əsasən hərb buncuku) savaş ruhunun, savaş dühasının yaşayış yeri sayılırdı. Bu səbəbdən tuğa qurbanlar verilirdi. Tuğ açmaq – savaş bayrağı qaldırmaq türk və monqollarda xüsusi törən idi.





**Mərkəzində ərəbcə “Allah” kəlməsi yazılmış səkkizguşəli ulduz təsvirli orta əsr qalxanı. Gəncə. Azərbaycan Respublikasının Dövlət gerbi orta əsr Azərbaycan qalxanı modelində yaradılmışdır.**

**Lənkəran ərazisindən tapılmış ucu üçdiş formalı bayraq başlığı – ələm Səfəvilər dönəmindən qalma hesab olunur.**

Zəhirəddin Babur 1501-1502-ci ildə Orta Asiyada cərəyan edən hadisələri təsvir edərkən yazırdı: “Bir neçə gündən sonra [Sultan Əhməd] Tənbəl Ura-Təpəyə gəldi. Bu xəbəri alınca [Sultan Mahmud] xan Daşkənddən qoşun yeritdi. Beşkənd ilə Sam-Sirək arasında sağ və sol səflərini nizamlayıb, parad keçirtdi. Moğol adəti üzrə tuğ açdılar. Xan atdan endi. Bir moğol doqquz tuğu xanın önündə sancıb, bir öküzün qabaq ayaq sümüyünə uzun bir ağ bez bağlayaraq əlində tutdu və üç parça uzun bezi üç tuğun quyruğundan az aşağı bağlayıb tuğ dirəyinin altından keçirdi. Bir bezin ucuna xan, bir tuğa bağlanan bezin ucuna mən, bir bezin ucuna da [xanın oğlu] Sultan Məhəmməd Xanikə basdı. O moğol öküzün bez bağlanan qabaq ayaq sümüyünü əlinə alıb moğolca nəsə dedi və tuğa baxıb işarə verdi. Xan və ətrafdakılar hamısı tuğa qımız səpməyə başladılar. Bütün nəfirlər və davullar eyni anda birdən çaldı,

səfdə düzülən əsgərlər hamısı birdən savaş nərəsi çəkdilər. Bunu üç dəfə təkrar elədilər, sonra atlarına minib nərə çəkə-çəkə düşərgənin ətrafında çapdılar (Baburnamə 2011: 117).



**Orta Asiya döyüşçüsü və döyüş bayrağı.**
**Caminin əsərinə çəkilmiş miniatürdən, XV əsr.**

Bilirik ki, türklərdə savaş nərəsi "uran/ura", monqollarda "suran" idi. Ə.Əsgər qədim türk və monqolların tuğla bağlı mərasimləri və inamlarından bəhs edən yazısında Baburun əsərindəki tuğ açma mərasiminə belə bir şərh vermişdir: "Burada üç tuğ, üç xanı təmsil edir. Öküz onların adından tuğa verilən qurbandır. Tuğun, öküzün və xanların bez vasitəsi ilə biri-birinə bağlanması, fikrimizcə, bu düşüncəni ifadə edir. Ətrafda dayanan əyanların tuğa qımız səpməsi həm türklər, həm də moğallar arasında geniş yayılmış qədim adətdir: insanlar yemək yeyərkən və ya qımız içərkən öncə ruhların payını verirlər. Bu məqsədlə ətrafa qımız və ya şərab səpirlər. Qarşılaşdığımız halda tuğ "qonaq edilir". Çalınan nəfirlər və davullar, səslənən nərələr tuğun təmsil etdiyi ruhu çağırış kimi yozulur (Əsgər 2016: 114-115).

Türk alimi M.E.Soysalın tədqiqatında qeyd olunur ki, Osmanlı dövlətində *sancaq* kəlməsi çox vaxt bayraq anla-

mında işlədilirdi. Bu sancaqların ən başında *Sancak-i Şerif* gəlirdi. *Sancak-i Şerif* Hz. Məhəmmədin və İslamın əlamətlərindən qara rəngli və adı "*Ukab*" olan kvadrat şəklində bayraq idi. *Sancak-i Şerif*, ilk olaraq Sultan III Mehmedin 1596 ildə gerçəkləşdirdiyi Eğri səfərində, son olaraq da 24 noyabr 1914 tarixində I Dünya müharibəsi əsnasında *Cihad-i Əkbər* üçün çıxarılmışdı. Ordunun savaşa çıxmasından qırx gün öncə *Sancak-i Şerif*in padşah tərəfindən sandığından dua və təkbirlərlə *Has Oda*dan çıxardılıb göndərinə taxılması qanun idi" (Soysal 2010: 220).

Maraq üçün qeyd edək ki, əskilərdə Azərbaycanın bəzi yerlərində İslam peyğəmbərinin məhərrəm ayının 10-da şəhid edilmiş nəvələrinin xatirəsinə keçirilən Aşura ayinlərində ələm gəzdiridilər ki, həmin gün günorta (İmam Hüseynin düşmənlə döyüşdüyü zamanda) bu ələmin canlanıb bir neçə saat "cuşə gəldiyinə" inanırdılar. Şiələr üçün əl formalı ələm *əhli-beyt*in simgəsi idi və onun beş barmağı Məhəmməd peyğəmbər, onun qızı Xanım Fatimeyi-Zəhra, kürəkəni Həzrət Əli, nəvələri Həsən və Hüseyni ifadə edirdi. Əl formalı ələm təsvirinə dini və siyası mənsubluğun simvolu kimi Qaraqoyunlulara aid məzar daşları üzərində rast gəlirik.

Bayraq ruh yüksəkliyini artırmaq, düşmənə psixoloji təsir göstərməkdə də önəm daşıyırdı. Bayraq özünü daha layiqli və daha qüdrətli görməkdə mənəvi-psixoloji amil idi.

Çoxsaylı ordularda döyüş zamanı gəranayların, təbillərin, zənglərin səsi, atılanda fit səsi çıxaran oxlar, baş örtüyü, geyimin tipi, rəngi və s.-lə yanaşı bayraqlar da rənginə, üzərindəki təsvirə, formasına görə müxtəlif məlumatlar daşıyırdı. Ordu düzümündə hər qolun, bölüyün, qoşun növünün öz fərqli bayrağı olurdu. Bu bayraqlarda hərbi ierarxiyanı və ya funksiyanı simgələyən müxtəlif heyvanların təsviri verilə bilərdi. Türk dövlətlərində hökmdarın hərb meydanındakı bay-

rağında çox vaxt əjdaha təsviri olduğu tarixi mənbələrdə göstərilir. Azərbaycan tarixində belə fakta, məsələn, Şah İsmayılla bağlı məlumatda rast gəlirik: “Adı Bahadır” kimi tanınan və bozculu qazilərindən olan Əzizağa adlı bir döyüşçü Şahi bəy xanı bir neçə meyidin altından çıxardı, qüruru üzündən heç bir sərvərin başını taca layiq bilməyən Şahi bəy xanın başını bədənindən ayırdı, kəlləni üzərində əjdaha rəsmi çəkilmiş bayrağın kölgəsində dayanan [şahın] (Şah İsmayılın – E.A.) dünyagəzən atının (səmənd) ayağı altına tulladı” (Münşi 2010: 100). Əjdahayabənzər və ya əjdaha təsvir edilmiş bayraqlara skiflərdə, sonralar turk və monqollarda geniş rast gəlindiyi haqda ayrıca məqaləmizdə bəhs etmişik (Abbasov 2017: 153-181).

\




**Özbəkistan Respublikasının dövlət gerbi.**



**Elxani hokmdarı Qazan xanın çadırı üzərində Huma quşu təsviri. Miniatür, XV əsr.**

Orta əsrlər türk və monqolları təsvir edən rəsmlərdə dövlət rəmzləri üzərində quş təsvirlərinə də rast gəlirik. Xüsusən mifik Huma quşu hakimiyyət, uğur və səadət simvolu

kimi Qaraxanilərdə, Səlcuqluda, Elxanilərdə, Qızıl Ordada dövlət atributları (xan çadırı, taxt, bayraqlar və b) üzərində təsvir edilirdi. Hazırda doğan Günəş fonunda qanadlarını açmış Huma quşu Özbəkistanın dövlət gerbində yer alır.

Bəzi alimlərə görə, Huma quşu haqqında inamların kökü İran və ya ərəb mifologiyasına bağlıdır. Bununla yanaşı onun türk mifologiyasında Humay ana obrazı ilə əlaqələndirənlər də var. Bəzi türk xalqlarında *qumay* yırtıcı quş növünün (qrif) adıdır. Burada hələ e.ə. V əsrdə Herodotun "Tarix"ində Asiyanın içərilərində "issedonlardan yuxarıda qızıl keşiyi çəkən qriflər" barədə (Herodot 2005: 46) məlumat verildiyini xatırlada bilərik.

Bayraqda heyvan təsvirlərindən bəhs edərkən qeyd edək ki, Qaraqoyunlu dövlət bayrağında qara qoç, Ağqoyunlu dövlət bayrağında ağ qöç təsvir edilməsi iddasını təsdiq edən faktlar yoxdur. T.Nəcəfli Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə həsr olunmuş əsərində yazır: "Hökmdarın maddi hakimiyyət əlamətlərindən biri də bayraq və sancaqdır. Müharibələrdə bayraqların tutduğu yer çox böyükdür. Çünki ordu müharibə zamanı ancaq bayraqların altında toplanırdı. Qaraqoyunlular döyüşlərdə bayraqlarını dövlətin başlıca atributlarından biri kimi daşıyırdılar. Əbubəkr Tehrani bayrağı döyüş vasitəsi və qələbə nişanəsi kimi təsvir etmişdir. Digər dövlətlərdə olduğu kimi, Qaraqoyunlularda da bayraq güc və qələbə rəmzi olmuşdu. Həsən bəy Rumlu yazır ki, türkmanlar döyüşə gedərkən rəngli bayraqlardan istifadə edirdilər. "Türklər təxminən 5000 süvari ilə əyri gedən fələyin çarxına oxşayan arabalar ilə dağlıq bölgədən çıxdılar. Rəngarəng bayraqların parlaqlığından ətraf ərazi gül və lalə bağçasına dönmüşdü". İ.H.Uzunçarşılının qənaətinə görə, Topqapı Sarayında xəzinə kitabxanasında 2756 nömrədə saxlanılan və 1428-ci ildə ispan J.Villadestesin perqament üzərində çəkilmiş xərită-

sində Qaraqoyunluların bayrağı sarı fonun ortasında qırmızı dördkünc formada təsvir edilmişdir” (Nəcəfli 2012: 71-72).



Bununla belə, Bayandurların damğasının bir qoç simgəsi olması mümkündür. Oğuz-türkmanlar qoç başı (və ya qoç buynuzu) taxılmış dirəklərdən şərdən qoruyan magik vasitə kimi də istifadə etmişlər (indi də Azərbaycanın bəzi

yerlərində qoç başı bağ-bağçanı bəd nəzərdən qoruyan həmail kimi istifadə olunur). Oğuzların mifologiyasında qoçla (qoyunla) bağlı təsəvvürlər geniş yer tuturdu.

Qeyd edək ki, T.Nəcəfli Qaraqoyunlulardan bəhs edərkən tuğu bayraqdan fərqləndirir: "Hökmdarlıq əlamətləri arasında tuğ mühüm yer tutur. Həm hökmdarın, həm də tanınmış əmirlərin tuğları olurdu. Divan əmirləri tuğ və nağara sahibi idilər. Döyüşlərdə şücaət göstərən əmirlərə qələbə ödülü kimi tuğ verilirdi. Əbubəkr Tehrani yazır ki, Cahanşahın ölümündən sonra Maku qalasından azad olaraq taxt-taca yiyələnməyə çalışan Həsənəli Pir Hacı bəy Qavrudinin oğlu Şah Hacı bəyi bütün İraq vilayətinin başçısı təyin etdi, ona tuğ, nağara, layiqli hədiyyələr və iri həcmdə məvacib verərək təntənə ilə bir neçə əmirlə İraqa tərəf göndərdi" (Nəcəfli 2012: 72).

Beləliklə, qədim türklərdə bayraq, daha doğrusu onun ilkin şəkilləri yaranışda zoomorfik mifik obrazlarla bağlı olmuşdur və bu bağlılıq dövr dəyişdikcə bayrağın semantik məna çalarlarının genişlənməsinə baxmayaraq, müəyyən detallarda qorunub saxlanmışdır.

### 1.2. Qurd başlı bayraq və Boz Qurd mifinin mənşəyi

Qurd təsvirli və ya qurd başlı bayrağın Türk xaqanlığında təkcə hərbi məna daşımayıb, həm də xanlıq simgəsi olduğunu qədim Çin mənbələrindən öyrənə bilirik. O dövr zirehli türk süvariləri də Xudyakova görə "*börü*" adlandırılırdılar (Xudyakov 2003: 98).

Boz qurdla bağlı türk miflərinin araşdırıcıları bu obrazı totem, Göy Tanrının bir təzahürü, Tanrı elçisi – "xilaskar", "müjdəçi" və s. kimi xarakterizə etmişlər. Bundan əlavə, bir çox türk xalqlarının, o cümlədən Azərbaycan folklorunda qurdun demonik təzhürü (məsələn, "Qurd Zalxa" obrazı) fakt-

larından da danışmaq olar. Qurd maldar təsərrüfatı üçün daimi təhlükə mənbəyi olduğundan, onun eyni zamanda, türk xalqları folklorunda "düşmən" və ya "ziyankar" funksiyalı bir obrazı ilə də rastlaşırıq. Görünür, "Xilaskar Qurd" haqqında təsəvvürlər maldarlıqdan çox-çox əvvəlki tarixi dövrlərə aiddir. Yəni heyvanların böyük ölçüdə əhliləşdirilmədiyi dönəmlərdən danışa bilərik.



**Kosmik maral. Cənubi Sibir, qayaüstü təsvir**.

Enolit və erkən tunc dövrünə aid Altay – Minusinsk petroqliflərində nəhəng maral (və ya sığın) və maral ovu təsvirlərinə geniş yer verilmişdir.

Eyni zamanda biz bu təsvirlərdə maralı təqib edən qurdabənzər demon təsvirləri ilə qarşılaşırıq. Bəzi rəsmlərdə maralın üzərində doğan Günəş şüalarının təsviri diqqət çəkir. E.ə. II minilliyə aid Karakol qayaüstü təsvirlərində qurd və ya itəbənzər heyvanın ulduzlara doğru hücum çəkdiyi təsvir edilir.

Öncül və Xilaskar qurd barədə təsəvvürlər bu tarixlərdən də əvvəl Sibirin maral sürülərinin ardınca daim hərəkət etməli olan ovçu tayfaları arasında yarana bilərdi. Maralların mövsümi olaraq qışlamaq üçün köçü həm insanları, həm də qurdları onların ardınca köcməyə məcbur edirdi. Ovcu insanların onlara öncüllük edən və ovun yaxında olmasını nişan verən qurd sürüsü və ya itlərlə bağlı miflərə malik olması təbiidir.





Bununla yanaşı, təxmin etmək olar ki, qurdun ölümlə, dünyanın sonu ilə əlaqəli obraz çizgiləri də formalaşmışdı. Bir çox türk xalqlarının folklorunda, o cümlədən Azərbaycan xalqı arasında “Yeddi qardaş ulduz” deyilən Böyük Ayı bürcü (başqa türk xalqlarında “Yeti karakşı” (yeddi qarovulçu), “Yeti urı” (yeddi oğru), əski türklərdə “Yedigen” (yeddi it) ulduz topası qurdla bağlanır. Mifə görə, iblis qurd cildinə girib onların qoruduğu (başqa varianta gərə təqib etdiyi) səmavi atları yedikdə dünyanın sonu yetəcək. Altay nağılına görə “Yeddi qardaşlar” Ülkər xanın (Ülkər ulduz topası) qızını alıb qaçır, qəzəbli Ülkər xan qızını geri almaq üçün onları təqib edir. Azərbaycan mifinə görə “Yeddilər yeddi ulduzdu. Oların yeddisi də, deməli, həmişə topa çalıllar, zəyif olur oların işığı. Amma oların içində bir dənə qüvvəli işığı gələn ulduz var. Bu qüvvəli bir dənə ulduz Tərəzilərdən gedəndi.

Deməli, arada münaqişə olub, keçmiş kişilər deyərmiş, bir dənə ulduzu bılar burdan guya girov götürüblər. Biyənkinin içində də bir dənə zəyifi görürsən var, qalanı işıxlıdı. Guya olar da onu götürüflər” (Qarabağ 2012: III, 25).




**Okunev mədəniyyətinə aid stellalarda demonik görkəmli səmavi qurd təsvirləri.**

Azərbaycan toy alqışı “Yeddi oğul istərəm, bircə dənə qız, gəlin!” ifadəsində də qaynananın dilindən həmin kosmik nizamın evə, ocağa gətirilməsi dilənir.

Qazax və qırğız əfsanəslərinə görə Yeddilər – yeddi oğru dünya gəzəli Suluv Sarını qaçırmaq üçün Ülkər topasını təqib edir. Ülkərlər onlardan qorxaraq yerin altına enib gizlənir, 40 gün orada qalırlar. Bu əbədi təqib mifinin izlərini “Kuzu Köprəş və Bayan Sulu” və onun Azərbaycan aşıq ədəbiyyatındakı təzahürü olan “Əsli və Kərəm” dastanında görə bilərik (Əsli/Sulu – gözəl, qəd-qamətli, sulu mənasındadır).



Azərbaycan folklorunda həmin mif “Nardan xatun” (“Yeddi qardaşın nağılı”) nağılında da təzahür edir.

Sakral şəcərədə göytürklərin (Aşina soyunun), qırğızların, uyğurların, monqolların (Çingiz xan soyunun) boz qurddan və ya ala (qırmızı) itdən törəməsində çox qədim kosmik

miflə əlaqəni görmək olar. Çingiz xan sülaləsinin maral və boz qurddan törəməsi mifi bizə haqqında danışdığımız kosmik təsəvvürləri yada salır. Qurdun eyni zamanda bütün canlıların məhv olacağı qiyamət günü öz gücünü dərk edərək qüvvətlənib tək qalacaq yeganə varlıq olması ilə bağlı inamlar, insanı (hunları və ya türkləri) məhv olmaqdan xilas etməsi ilə bağlı əfsanələr çox qədim vahid mifin qalıntılarıdır.

Etnoqrafik məlumatlardan bilirik ki, Ülkər ulduz topasının səmadakı vəziyyəti türklər üçün zamanın, mövsumlərin, təsərrüfatla bağlı işlərin vaxtının müəyyənləşməsində mühüm rol oynayırdı. Ülkərin iyunda üfüqdən itməsi ilə bərk istilər düşər, qoyun qırxımı başlardı. Qazaxlarda, Orta Asiya türklərində 40 günlük bu isti dövrə *Şilde* deyilir. Şilde, azərbaycanlıların "*çilə/çillə*"si kimi fars mənşəli *çihil* sözündən olub 40 deməkdir, məcazi mənada əzab, əziyyət, sıxıntılı dövr anlamında işlənir. Yenə, qazaxlara görə Ülkər geçə yurtanın ortasındakı bacadan görünəndə (yəni zenitdə olanda) qış başlayır. Azərbaycanlılara, qazaxlara, eləcə də Orta Asiya türk xalqlarına görə martın ortaları Ülkərin gecə yarısı üfüqə tərəf əyilməsi artıq yazın gəlişindən xəbər verir. Ülkərin üfüqə tərəf əyilməsinin yazın gəlişindən xəbər verməsi Azərbaycan əfsanələrində də rastlanılır: "Yaz qəhət gəlif. Allah nəhlət eləmiş gavırda ot varmış. Bir müsurman çobanın da otu qutarmışmış. Çoban gedif ot isdiyif. Deyif:

– Qızıı ver maa, saa ot verim.

Deyif:

– Yaxşı.

Axşam gəlif bını qızına deyif. Qızı da bına qəmgin oluf. Götürüf çobanın çomağını atıf əynə. Axşam duruf çölə çıxıf, görüf ki, Ülkər ildızı çıxıf. Deyif:

Aşıx, yaza nə qaldı?
Sındı saza nə qaldı?
Ülkər yana sallandı,
Görün yaza nə qaldı?

İndi obaşdan qız duruf görüf Dan ulduzu doğuf. Deyif:

Mən aşığam, ay haray!
Ülkər batdı, ay haray!
Dan ildızı baş verdi,
Ayrılıxdı, ay haray!

Qız axşam bı sadanı çəkir, obaşdan da bı sadanı çəkir. Qız gedif yatır. Obaşdan duruf görüflər ki, ot qalxıf ağılın başına. Çoban da axtarıf, ağacı düşmüşmüş otun içinə, tapmıyıf. Allah-tala bir bar töküf, bir ot töküf, qızın o iki nalasıynan. Allaha üz tutuf dayna, Allahı çağırıf. O qız gavıra qismət olmuyuf. Qoyun gedif otduyuf, qız da qalıf dədəsinin əvində" (Qarabağ 2012: I, 18).

Və yaxud:

"Novruz bayramında – yaz gələndə o ulduz batır, əyilir. Belə bir söz var. Deyir ki, o dövürdə heyvan qıtdığı olan vaxtda, bı örüş-zad qutarır, qoyunnarın ajdığı başdıyan vaxtda bir tərəkəmə bir imkannı tərəkəmədən örüş isdiyir qoyun otarmağa. Bı da vermir, onun qabağına ağır şərt qoyur. Bına da evdə razı olmullar. Kişi də varı qırılmasın deyə, məcburiyyət qarşısındadı, durub qızına bu fikri deyir. Deyir ki, mən o qonşıdan örüş isdiyirəm qoyun ottasın. O da deyir ki, qızı mənə ver, mən də örüşi verim. Qız deyir ki, ata, olmaz da bı iş. Qız durub qapıdan çıxanda, kişi də bının arxasıncan ağacını atır – çomağını atır. Gejə qarannıxda çomağı da tapmıllar. Qız gejə durub göyə baxır, görür Ülkər sallanıb. Deyir ki:

Ülkər yana sallandı,
Doğdu yana sallandı.
Dur bir gör, ay ata,
Daha yaza nə qaldı?

Yəni yaz çatıf da, bir-iki gün qalıf. Yatıllar, səhər duruf görüllər ki, ot bitif. Amma ağac da tapılmır" (Qarabağ 2012: III, 24).

Anadolu türkmənləri arasında bu motivi, dəyişmiş şəkildə də olsa, Sarı qız əfsanəsində görürük: "dəliqanlılar" atasının (çobanın) evdə olmamasından istifadə edib, Sarı qızla evlənmək istəyirlər. Sarı qız onlara rədd cavabı verdikdə, qıza iftira atırlar və ata ilə qızının bir müddən ayrılmasına səbəb olurlar. Anadolu türkmənlərinin Fatma ananın qızı saydıqları Sarı qıza qurban vermə ayini Ülkər doğandan sonra avqustun ikinci yarısı keçirilərmiş.

Hesab etmək olar ki, min illər Sibirdə, Altayda, Monqolustanda türklər və onların əcdadları olan tayfalar arasında yayğın olmuş mövsümi (ildə iki dəfə: yazda və payızda) dəfn adəti də Ülkər ulduz topasının səmadakı hərəkəti ilə əlaqəli olmuşdur. Cənubi Sibirin Okunev arxeoloji mədəniyyət abidələrində (e.ə. II minillik) kosmik ananı təsvir edən bir ritual stellada qurdun hansısa səma obyektinə doğru yönəldiyi verilib. Monqolustan



Altayında rastlanan bir qayaüstü təsvirdə qurd yanaşı dayanmış iki insandan birini dişlərinə keçirmişdir. İnsanlardan birinin ağ, digərinin – qurdun parçaladığının qara verilməsi, yəqin diri insanla, ölü – "boş" insanı fərqləndirməyə xidmət

edir. Buna ehtimal verən digər faktlardan biri də demonik qurd təsvirlərinə qəbirüstü plitələrdə rastlanmasıdır.

Kidanlar və digər bir-çox qədim monqol və mancur tayfaları ölülərini itlə barabər dəfn edirdilər ki, bu da onların təsəvvüründə itin axirətlə, ölülər aləmi ilə bağlı olmasından qaynaqlanırdı. Amur hövzəsi xalqlarda, digər bir çox tunqus və monqol mənşəli xalqlarda vəfat etmiş sıradan insanların cəsədini qurd-quş parçalasın deyə, çölün, meşənin ortasına buraxıb getmək adəti XX əsrin ortalarınadək yaşamışdı.

Min illər sonra həyat tərzinin dəyişməsi, hərbi axınların yaşam təminatında rolunun ön plana çıxması ilə ovculara öncüllük edən xilaskar qurd ordunun önündə gedən və qələbəni simgələyən obraza çevrilmişdir. Yəqin ki, bu zamandan qədim türklərin təsəvvürlərində Boz qurd obrazı semantik dəyişikliyə məruz qalmış, mübarək "Tanrı itinə" çevrilmiş və daha çox Günəş elementləri daşımağa başlamışdır.

Mübarək qurd və ya it obrazına yönəlik ifadələr oğuznamə epik mətnlərində də yer almışdır. "Kitabi-Dədə Qorqud"-da "Qurd üzü mübarəkdir" deyimi, "Oğuznamə"lərdə Tuman xanın dilindən "Birinə sədəqə verəcəksənsə, əvvəlcə itə vermək lazımdır", "İt qəmsiz olarsa, biz də qəmsiz olarıq" kimi ifadələrdə (Rəşidəddin 1999: 45) oğuzların sakral qurd və itlə bağlı inamları əks olunmuşdur. "Dirsə xan oğlu Buğac xan" boyunda atası tərəfindən oxla vurulub salınmış, ağır yaralı Buğacı iki ov iti qarğa-quzğuna yem olmaqdan qoruyur. Orta əsr tarixi yazılı mənbələrindən peçeneq və qıpçaq xanlarının Kurt (qurd), Kutuz (quduz), Bonyak (boynuağ), Kuçuk (küçük), Kobyak (Köpək), Konçak (Qancıq) kimi adlar və ya ləqəblər daşıdığını da bilirik.

Türklərdəki "Boz qurd"la bağlı əfsanə barədə məlumat verən qədim mənbələrdən biri Suriya (Antioxiya) pravoslav kilsəsinin patriarxı Suriyalı Mixailin (1126-1199) suryani di-

lində yazılmış "Xronika"sıdır. Səlcuqların Kiçik Asiyaya yerləşməsi dönəmində yazılmış əsərdə türklərin keçmişi barədə danışılarkən böyük ölçüdə oğuzların şifahi tarixinə əsaslanılır, onların ənənəvi mədəniyyəti, dini və folkloru haqqında bilgi verir. İlk əvvəl qeyd edək ki, M.Suriyalı türklərin ana vətəni, ilk yurdu haqda danışarkən "türklərin torpağı yerin döşləri adlandırılan dağların arasında yerləşir" yazır ki (Mixail Suriyalı 1960: 48), bu məlumatda, şübhəsiz, epik Ərgənəkon təsvir olunur. Sonrakı məlumatlarda türklərin Boz qurd haqqında əfsanələrinə geniş müraciət olunduğunu görürük: "Onlar haqqında belə məlumat verirlər ki, türklər hərəkətə başlayıb şərqdən qərbə doğru irəliləyəndə itə bənzər bir heyvan görürlər. Bu heyvan türklərin önündə gedirmiş. Onlar bu heyvanın haradan peyda olduğunu bilmirlər. Bu heyvana yaxınlaşmaq belə mümkün deyilmiş. Getmək vaxtı gələndə həmin heyvan onları öz dillərində sələyərək "Qalxın!" deyərmiş. Onlar da qalxıb onun ardınca gedərmişlər. Bu heyvan hansı tərəfə nə qədər getsə, onlar da onun ardınca o tərəfə, o qədər irəliləyərmişlər. O harada dayansa, türklər ora yerləşərmiş. Beləcə, nəhayət gəlib səltənət qurduqları yerlərə çatmışlar və həmin yolgöstərən daha bir də ortaya çıxmadığından onlar da bu torpaqlardan bir yerə getməmişlər ..." (Mixail Suriyalı 1960: 49).

" ... Türk xalqı qurtulub ətrafa yayılanda [onlar o qədər çox idilər ki] yer üzünə sığmadılar və bu səbəbdən hətta həmin [əvvəlki] türkləri də qərbə qovdular. Onlar hərəkətə başlayanda əvvəlki türklərin bələdçisi olmuş həmin itə bənzər heyvanı gördülər. Bu heyvan öndə gedirdi və heç kim ona yaxınlaşa bilmirdi. Həmin heyvan getmək istəyəndə uca səslə "Tərpən!", yəni "Qalxın!" deyər və türklər də qalxıb onun onun ardınca gedərmişlər. Bu heyvan nə vaxt dayansa, onlar da o zaman dayanarmışlar. Bu heyvan yalnız günlərlə yol get-

dikdən sonra yoxa çıxmışdır və biz [onun haqqında] bir daha bir şey nə oxumuşuq, nə də eşitmişik…

...Türklərin bu yol göstərəni yoxa çıxdıqdan sonra onlar bir-neçə çarlığın arasında (sərhəddində – E.A.) qaldılar, bu yer onlar üçün darlıq etdiyindən üç yerə bölündülər ki, hərəsi bir tərəfə – cənuba, şimala və mərkəzə getsin. Yç çubuq götürüb işarələdilər və onlara görə Allahın olduğu göyə atdılar. Çubuqlar yerə düşəndə kiminki cənuba tərəf düşdüsə, onlar yuxarı (şimali – E.A.) Hindistana getdi. Bundan əvvəl isə onlar and içmişdilər ki, hansı hissə hara getsə həmin ölkənin əhalisinin tapındığı allaha tapınacaq və həmin ölkənin insanlarının dinini qəbul edəcək" (Mixail Suriyalı 1960: 50-51).

M.Suriyalının nəql etdiyi rəvayət, bizim digər mənbələrdə haqqında məlumat aldığımız, vahid qədim türk eposunun törəmə-variantları olan "Ərgənəkon", "Boz qurd", "Köç" və s. kimi adlandırdığımız məntlərlə eynitiplidir. Qeyd etmək lazımdır ki, azərbaycanlıların "Ala itdən məşhurdur" – xalq deyimi bu əfsanənin soluq qalıntılarındandır.

M.Suriyalının məlumatında diqqəti çəkən başqa detal da Boz qurd obrazının solyar kultlara xas cizgiləridir: Boz Qurd göylərdən enir, Günəş kimi həmişə şərqdən qərbə hərəkət edir. Türkləri səsləyib yuxudan oyadır (səhərin açılmasını müjdələyən xoruzla müqayisə edin) və s. Xatırladaq ki, qurdun Günəşlə ilgisi "Oğuz kağan" dastanında da diqqət çəkir:

"*Çanq ertə boldukta* Oğuz kağannunq kurıkanığa *kün dəq bir jaruk* kirdi. Ol jaruktın kök tülüklüq kök jalluğ bedük bir böri çıktı. Oşul börü Oğuz kağanğa söz berib turur erdi. Takı dedi kim ay ay Oğuz Urum üstiqə sen atlar bolasan. Ay ay Oğuz tapuğunqlarğa men yürür bolaman deb dedi. Kenə andan sonq Oğuz kağan kurıkannı türtürdi ketti kördi kim çeriqninq tapuklarıda kök tülüklüq kök jalluğ bedük bir erkək börü yürüqdə turur. Ol börininq artların katağlab yürüqüdə

turur erdilər erdi. Bir neçə künlərdən sonq kök tülüklüq kök jalluğ bu bedük erkək börü turub turdı. Oğuz takı çeriq birlə turub turdı“ (Oğuznamələr 1993: 16-18).

"Oğuz kağan" dastanında Boz qurdun "*çanq ertə bolduk-ta*" (dan ağaranda) çadıra "*kün dəq*" (günəş tək) "*yaruk*" (günəş şüası) kimi göydən düşməsi, əslində onun Günəşin simgəsi olduğunu göstərir. Dr. F.Bayatın qeyd etdiyi kimi, qurdun göy işığın içində sübh tezdən ("Oğuz kağan" dastanında qurd dan söküləndə, Çingiz əfsanələrində qurd Alan Qoanın çadırına səhərə yaxın enir) yerə enməsi, Duyun Bayanan (Çingiz xanın atası – E.A.) ölərkən Günəş kimi yanıb qurda çevrilməsi bu mifoloji obrazı işıqla (həm də Günəşlə) bağlayır (Bayat 1993: 46).

Boz qurdun  və Oğuz kağanın hərəkəti Günəşin hərəkətini təkrarlayır. Eyni kosmik marşrut türk-oğuz eposunda Boz qurdun transformativ törəməsi sayılan Koroğlunun hərəkət traektoriyasında da təkrarlanır (Abbasov 2008: 113-118). Bu baxımdan, Boz qurd, Oğuz xan, Koroğlu və Xızırla bağlı mətnlərin əski Günəş mifinin paradiqmaları olması aşkara çıxır.

Maraq üçün qeyd edək ki, Sirius ulduzu da əski mədəniyyətlərdə (şumerlər, qədim yununlar, latınlar, çinlilər və s.) İt / Köpək və ya Qurd ulduzu adlanır. Onun səmada müəyyən dövrlərə təsadüf edən heliakik doğuşu (çox yerlərdə müəyyən müddət sübh vaxtı şərqdə görünür) qədim xalqlar üçün əlamətdar hadisə sayılırdı. Cənub yarımkürəsinin "Böyük köpək" bürcünün ən parlaq ulduzu olan Siriusun səmada görünməsi – heliakik doğuşu Qədim Misirdə yay gün dönümünə təsadüf edirdi və yeni ilin başlangıcı hesab olunurdu. Xüsusi vurğulamaq istərdik ki, Çin astrologiyasında Siriusa verilən Lan və ya Tyanlan adları türkcədə "Qurd", "Göy qurdu" deməkdir. Hun dövründən və daha qədimdən türklərin əcdadlarının Çinlə sıx tarixi-siyasi və mədəni əlaqələri olduğunu nəzərə alsaq, bu ulduzun adının türklərlə bağlantısı haqda düşünmək olar.



**Kuban kazaklarının qurd başı təsvirli bayrağı.**
**XX əsrin başlanğıcı.**

## 2. Türk dövlət simvollarında astral işarələrin semantikası

Azərbaycan tarixində dövlət və ya hakimiyyət atributikası kimi astral simvollara ilk olaraq Lulubuma hökmdarı Anubanininin Padir dağındakı e.ə. III minilliyə (e.ə. XXII əsrə) aid stellasında rast gəlirik: tam şumer-akkad üslubunda hazırlanmış stellada Venera ulduzu altında ilahə İştar əli bağlı, boynuna kəndir keçirilmiş məğlub düşmənləri Anubaniniyə təslim edir.

Azərbaycanın cənub hüdudlarına yaxın Mərliktəpə arxeoloji tapıntıları (e.ə. X - e.ə.IX əsrlər) üzərində çoxguşəli ulduzla yanaşı, svastika işarələri Günəşin simvolu kimi çıxış edir.



Çəlilabad rayonu Ləkin kəndi ərazisində “Pir” deyilən yerdə üzərində tarixi dəqiq bilinməyən naməlum yazılar olan daşın yanında da Mesopotamiya üslubunda çoxguşəli iki ulduz təsvirli stella vardır.

Asiya hunlarının dövlət simvolları arasında, sonrakı dövr türk-monqol dövlətlərinin və ya sülalələrinin bayraqlarında Ay, ulduz və Günəş təsvirlərinə rast gəlirik. Günəş Osmanlı və Səfəvi imperiyalarının (sonra Əfşarlar, Qacarlar və Pəhləvilər Səfəvi gerbini saxlamışdılar) gerbində əks olunub. Səfəvilərin ilk dövlət bayrağında da təkcə qızılı Günəş təsvir olunmuşdu. Özbəkistanın və Qırğız Respublikasının dövlət gerbində, Qazaxıstan və Qırğızıstan respublikalarının dövlət bayrağında təsvir olunub. Bunlardan başqa Günəş təsviri Moldovanın Qaqauz avtonomiyasının gerbində, Rusiya Federasiyasında Tatarıstan, Saxa (Yakutiya) və Tuva Respublikaslarının gerblərində də yer alır. Azərbaycan Respublikasın gerbinin mərkəzindəki səkkizguşəli



ulduz da Günəşi simgələyir. Səkkizguşəli ulduz Türkmənistanın gerbində "Oğuz xanın ulduzu" kimi yer alır.

Səkkizguşəli ulduz həm də harmoniya, kosmos və dünyanın simgəsi kimi universal məna kəsb edir. İslam simvolikasındakı səkkizguşəli ulduz – *Rub-əl hizb* bəzilərinə görə cənnətin simgəsidir. A.Qurbanov Azərbaycan xalça ornamentlərini semantikasını incələyərək yazır: "Digər yozuma əsasən isə, səkkizguşəli həndəsi fiqur əməli-saleh müsəlmanın Cənnətdə üzünə açılacaq səkkiz qapını - Dari-cəlal, Dari-qərar, Dari-salam, Cənnətül huld, Cənnətül meva, Cənnətül adn, Cənnətül firdevs, Cənnətü naim ifadə edir. Beləliklə, islam incəsənətində "rüb əl-hizb" və ya "Qüds ulduzu" adlandırılan rəmz polietnik mənşəli olsa da, daha çox dini mahiyyət daşıyır və əsasən müsəlmanların müqəddəs kitabı, islam təsəvvürləri ilə bağlıdır. Məsələn, Azərbaycanın unikal şəbəkə sənətində geniş yayılmış həmin işarə – Rüb əl-hizblərin birliyi, əslində, "Qurani-Kərim" kitabını simvolizə edir" (Qurbanov 2016: 127).

Tarixən və müasir dövrdə bir çox türk dövlətlərinin bayraqlarında aypara təsvirləri də geniş yer almışdır.



**Buxara əmirliyinin bayrağı**

Osmanlı bayraqlarında aypara təsvir edilməsi bəzi türk alimlərinə görə Orxan Qazi dövründən başlayır və Sultan Məhəmməd Fateh dövründən yaşıl bayraqların üzərində artıq üç aypara təsviri yer alır. "Sultan III Səlim (1789–1807) zamanına qədər Osmanlı dövlətində əksəriyyətində ulduz təsviri olmayan və daha çox da yaşıl və ağ rəngdə olan bayraqlardan istifadə olunmuşdur. Bayraq və

sancaqlara xüsusi bir önəm verən, yenilikçi və sanatkar bir dövlət adamı olan III Səlim qırmızı rəngli bayraqların səkkizgüşıli Zöhrə ulduzunu ayparanın yanına əlavə edərək bundan sonra davamlı olaraq belə şəklildə istifadəsini əmr etmişdir" (Soysal 2010: 224).

### 3. Ox və yay

Sak (və ya massaget) şəhzadəsinin qızıl ox-yayla dəfn edilməsi Mərkəzi Asiyada ən azı 2500 il öncə ox-yayın hakimiyyət simvollarından olmasını təsdiqləyir.

Oruc Əliyev yazır: "Bütün türk xalqlarında hökmdarın simvolları – xaqanın çadırı, taxt, tuq, davul və surğuçdur (möhür). Yay hakimiyyəti və tanrı iradəsini təmsil edən xaqanı, ox isə xalqı simvolizə edir. Ox yaya bağlı olduğundan tabeliliyi və bütünlüyü ifadə edir. Ox və yayın birləşməsi cahan hakimiyyətinin gerçəkləşdiriləcəyi anlamına gəlir. Otaq hakimiyyəti (xaqanlığı) təmsil edən və güvənlik baxımdan önəm daşıyan simvoldur, otağın (çadır) yıxılması hökmdarlığa son verildiyi anlamına gəlir. İslam dininin qəbulundan sonra hökmdarın taxta keçməsinin xəlifə tərəfindən təsdiqlənməsi, ölkədə hökmdarın adına xütbə oxudulması, sikkə kəsilməsi, döyüş, ov və ya mərasimlər zamanı hökmdarın başına kölgəlik məqsədi ilə çətir tutulması hakimiyyətin simvolları sayılmışdır" (Əliyev 2016: 302).

Ox-yayın qədim türklərdə dövlət və hakimiyyət simvollarından biri olması barədə Mirəli Seyidov yazır: "Ox əski çağlarda, hətta eranın X-XIII yüzilliklərinə kimi türk xalqlarının, o sıradan azərbaycanlıların dövlət quruluşunda müəyyən fikri, ideyanı ifadə etmişdir, hərdən elə bil dövlət emblemi rolunda olmuşdur" (Seyidov 1990: 52-53).

Hafizi Taniş Buxari „Şərəfnameyi-şahi" əsərində türklərin ox və yaya belə hərbi-siyasi və inzibati məna verdiyini

göstərir: "Oğuz xaqan ovda olarkən "ayparaya bənzər" qızıl yay və üç qızıl ox tapır. Yayı böyük oğullarına verir: "Yayın da hökm etməkdən savayı bir xüsusiyyəti olmadığından, o öz üç böyük oğluna padşahlıq simvolu kimi yay bağışlayıb" (Taniş Buxari 1983: 63).

Yay və oxun türklərdə hakimiyyət simvolu olması, hərbi və inzibati bölgüdə xüsusi məna daşıması çoxsaylı mənbələrdə təsdiq olunur. Məsələn, Əbülqazi oğuznaməsində deyilir: "Tapıb gətirdiyiniz yay və ox insanlardan deyil, Allahdan idi. Bizdən öncəki insanlar yayı hökmdar, oxu elçi sayıblar. Bu ona görədir ki, yay oxu hansı tərəfə istiqamətləndirsə, ox ora da gedir" (Kononov 1958: 49). Əfzələddin Əsgər bu ox-yayın hərbi-idari simvola çevrilməzdən əvvəl, türk mifologiyasında Umay Ana ilə bağlı semantikasından bəhs etmiş, xüsusən törəyişi simgələdiyini tutarlı şəkildə əsaslandırmışdır (Əsgər 2017: 132-152).

Azərbaycanın yerləşdiyi Yaxın Şərqdə ox-yayın hakimiyyət simvolu kimi qəbul edilməsi daha qədim tarixə malikdir. Akkad və Assuriyanın baş tanrısı Aşşur, eləcə də ayrı-ayrı hökmdarları çox zaman əllərində ox-yay tutmuş təsvir olunurdular.

Səlcuqlu dövlətinin möhürü, Türkeşlərin və Anuştəkinlərin (Xarəzmşahların) bizə gəlib çatmış metal pulları üzərindəki əks edilmiş damğaları ox-yayın təsvirindən ibarət idi.

Adətən hakim soyun və ya tayfanın damğası bir növ dövlət gerbinə çevrilir, daha doğrusu soyun hakim olduğu dövlətin gerbi funksiyasını daşıyırdı və beləcə təkcə tayfa əmlakının deyil, dövlət atributlarının – bayraqların, pulların, möhürlərin və s. üzərində əks olunurdu.

Damğa gerbdən fərqli olaraq, təsviri olduğu obyektin şəklini deyil, yalnız onun əsas konturlarını təqdim edirdi. Ona görə də damğa başqa bir şeyin təsviri olduğu halda, konturlarının bənzədiyi bir başqa əşya ilə adlandırıla bilirdi. Məsələn, Krım

xanlarının damğası yabaya, darağa bənzədiyinə görə "Tarak-tamğa" adlanırdı, amma hansısa yırtıcı quş təsviri ola bilərdi. Burada qeyd edək ki, Cuci ulusunun (Qızıl Orda) damğası da, çox güman ki, ikibaşlı qartalın konturlarından ibarət idi.

Türklər bir çox hallarda hakim olduqları ölkələrin dövlət simvolikasını (titulları, gerbi, bayrağı, taxt-tacı və s.) da öz dövlət atributları sırasına daxil edirdilər.

Başqa hökmdarlar tərəfindən hədiyyə edilən, və ya qənimət kimi ələ keçirilən düşmən bayrağı da, nə qədər qəribə olsa da, xanın bayrağları sırasına daxil edilə bilərdi.

Oxşar vəziyyətə başqa xalqların da tarixində rast gəlmək olar. Məsələn Rusiyanın ikibaşlı qartal gerbi bəzilərinə görə çar sülaləsinin ana tərəfdən qohum saydığı Bizans imperatorluğundan, digərlərinə görə Qızıl Ordadan alınmışdı. Plantagenet sülaləsini gerbi (üzərində altı qızılı şir təsviri olan qalxan şəklindədir) sülalənin banisi V Joffuruaya başqa ingilis kral sülaləsi tərəfindən hədiyyə edilmişdi.

## 4. Taxt, tac və çətir

Başqa xalqlarda olduğu kimi türklərdə də dövlət və hakimiyyət simvollarından biri də taxt-tac idi. Əski türklərdə hökmdar məqamı taxtdan daha çox ağ keçə sayılırdı. Türkütlər xaqan olacaq adamı taxta çıxmazdan əvvəl keçə üzərinə oturdub, doqquz dəfə Günəşin hərəkəti istiqamətində dövr etdirir, hər dövrə tamamlananda qarşısında diz çökürdülər. Sonra onu şahlıq atına mindirir, boğazına ip salıb dartaraq nə qədər xan ola biləcəyini soruşurdular.

Bu rituala diqqət yetirən Muxtar Kazımoğlu yazır: "Bu adətin mifoloji mənasını doğru-dürüst başa düşmək üçün nəzərə almaq lazımdır ki, həmin adət şaman mərasimləri ilə yaxından səsləşir. Səsləşmənin əsas məqamı ondan ibarətdir ki, göyə yüksəlmə ritualından qabaq şamanlar da keçə üstündə

oturdulur və göyə qaldırılırdı. Həm şaman rituallarında, həm də hökmdar seçmə mərasimlərində adamın keçə və ya xalı üzərində yuxarı qaldırılması qədim türklərin göyə və Günəşə tapınmalarından irəli gəlirdi. Hökmdar seçilmə mərasimlərində Günəşə tapınmanı təsdiq edən başqa səciyyəvi adətlə də qarşılaşırıq: hökmdar seçilən adam Günəşə tərəf dörd dəfə ox atır. Bütün bunlar taxta çıxmanın Tanrı iradəsi ilə bağlı olması inamını əks etdirən faktlardır" (Kazımoğlu 2016: 29).

Eyni mərasim Osmanlı bəyliyinin yaranması zamanı, yəni Osmanın bəy elan edilməsi ayinində görünmüşdür. Anadoluda ələvi dədələrin ağ keçə üzərində oturduqları, ələvi tahtacıların "*mürəbbi*" seçərkən "*mürəbbi*"ni ağ keçə üstünə oturdub "Ya Allah, Ya Məhəmməd, Ya Əli" deyərək üç dəfə havaya qaldırdıqları məlumdur.

Bu adətin son orta əsrlərədək türk və monqollar arasında yaşadığını Mir Mühəmməd Amini Buxarinin "Ubaydullanamə" əsərindən görə bilirik: "Adın çəkdiyimiz ayın [cəmadiyüləvvəl] 25-də Çingiz xanın qoyduğu qanuna, [eynən] Oğuz xanın qoyduğu qaydaya və adətə uyğun olaraq, dörd ən məşhur [özbək] tayfasının dörd əmiri aləmin padişahını ağ keçə üzərində yuxarı qaldırıb xöşbəxt varislik taxtına oturtdular. Sonrakı əmirlər, ruhanilər, tanınmış adamlar, şeyxlər, ali təbəqə və sadə xalq həmd-səna ilə bəşərin ümüdünü alihəzrət taxtına çıxması münasibəti ilə təbrik etdilər" (Amini-Buxari 1957: 24-25).

Bununla yanaşı, qədim türk dövlətlərində xaqanlıq taxtı vardı. Türk xaqanının qəbulunda olmuş Bizans elçısi Zemarkın məlumatlarını yazıya almış Menandr xaqanın dörd tovuz quşu heykəli üzərində dayanan qızıl taxtından bəhs edir. Onun başqa məlumatına görə, xaqanın iki təkərli, lazım gəldikdə atlara qoşulub aparıla bilən başqa taxtı da vardı (Jdanoviç 2014: 12-14).





Ağqoyunlu və Qaraqoyunlu tarixinin araşdırıcısı Tofiq Nəcəfli yazır: "Azərbaycan Qaraqoyunlu dövlətində hökmdarın hökmran olduğunu göstərən mühüm əlamətlər mövcud idi. Türkiyə tarixçilərinin qeyd etdikləri kimi, taxt hökmdarlığın ən önəmli simvolu kimi başda dururdu. Qaraqoyunlu hökmdarları çox zaman elçiləri taxtına oturaraq qəbul edirdilər. A.A.Arayancanın fikrincə, sarayda görülən bütün işlərdə, sultanın hüzurunda kimin harda duracağı taxtın yerinə görə müəyyən edilirdi. Qara Yusif oğlu Pirbudağı sultan elan edərək qızıl taxtda oturtmuş, başına qızıl tac, belinə qızıl kəmər bağlatmışdı. Həsən bəy Rumlu yazır ki, Qara Yusif Pirbudağı səltənətə çıxardı. Onun adından sikkə kəsdirdi və xütbə oxutdurdu. Hökmlərdə belə yazılmasını buyurdu: "Pirbudaq xan yarlığından Əbu Nəsr Yusif Bahadur sözümüz". Bundan sonra Pirbudaq atasının yanına gəldiyi zaman Qara Yusif onun əlindən tutaraq taxtını ona verdi, özü isə taxtın aşağısında hörmət əlaməti olaraq iki dizinin üstündə oturdu. Bu, hökmdar taxtının protokol qaydası üçün mühüm önəm daşıdığını bir daha təsdiq edir"

(Nəcəfli 2012: 70-71).

Eynilə, Ağqoyunlu Uzun Həsən də mənbələrin verdiyi məlumata görə təəbələr arasında mübahisələri qızıl taxtda oturaraq həll edirdi (Nəcəfli 2012: 232).

Hakimiyyət və ilahi mənşənin simvolu olaraq tac da ilk əvvəl tanrıların, ruhların və ya tanrı oğullarının atributları idi. Tacın primitiv forması bir-çox alimlərə görə "buynuz" olub, ilk hökmdarların totemlər və ya heyvan kultları ilə bağlantısını ifadə etmişdir. Ə.Əsgər, bir çox rus tədqiqatçıların türklərdə üçbuynuzlu mifik obrazlar barədə qeydlərini dəyərləndirərək yazır: "Üçbuynuzlu totem personaj şaman inanclarında da özünü göstərir. A.V.Anoxin Altay şamanının davulunda *pura* adı ilə verilən qoçun üçbuynuzlu təsvir olunduğunu göstərir. Müəllif qeyd edir ki, şaman davulunda həmişə üçbuynuzlu qoç təsvirinin sayı üçdür, yəni üç pura təsviri verilir. L.P.Potapov üç buynuzun işarəviliyini başa düşə bilmir. Ona görə də o təsvirin buynuzu şivli olan maral ola biləcəyini söyləyir. Ancaq Altay şamanı ruhlara müraciət edən zaman açıq-aydın şəkildə *Üç buynuzlu qara bura*nın adını çəkir" (Əsgər 2017: 144-145).



Lakin, türklər üçün tacın həm də Günəş şüalarını simgələdiyi düşünülə bilər. Biz Cənubi Sibirin Okunev mədəniyyətindən (e.ə. II minillik) qalan daş heykəllərdə təcəssümünü tapmış mifik obrazın başındakı buynuzvarı çıxıntıların odun, alovun dillərini ifadə edə biləcəyi barədə başqa yazımızda bəhs etmişik.



Рис 3. Солнечные идолы. Хакасия

Əski türk daş abidələrində, eləcə də qədim türk tayfalarına aid edilən qədim metal işləmələr üzərində üç buynuz formalı taç qoymuş ana ilahə təsvirinə rastlaşırıq. Bu təsvirlər Umay ana obrazını əks etdirir. Bizim eradan əvvəl I əsrə aid hun sarayının qapısında da qoruyucu funksiyalı ikibuynuzlu div başı təsvir edilib.

Səfəvilərə gəldikdə, ilk öncə qeyd etmək istərdik ki, Səfəvilər dönəmində şahın tacqoyma mərasimini sufilər həyata keçirirdilər. Bu ənənə Şah Sultan Hüseyn taxta çıxanadək qəti şəkildə gözlənilmişdi. R.Dadaşova məxəzlərə əsaslanaraq, Sultan Hüseynin Şeyxülislam Məhəmməd Bağır əl-Məslisinin təsiri ilə bu qaydanı ləğv etdiyini göstərir: „Qeyd etmək lazımdır ki, Sultan Hüseyn hələ hərəmxanada olarkən, yəni şahlıq taxtına əyləşməmişdən əvvəl, böyük şiə teoloqu Şeyxülislam Məhəmməd Bağır əl-Məclisinin güclü təsiri altında idi. Deyilənlərə görə, tacqoyma mərasimi zamanı adətən sufilər tərəfindən həyata keçirilən ənənəvi ritualı – qılınclı kəmərin taxılmasını Şeyxülislamın həyata keçirməsində təkid edir.

Mərasim başa çatandan sonra şah Məhəmməd Bağırdan bu xidməti müqabilində nə dilədiyini soruşduqda, sonuncu, şərab içməyin, əlbəyaxa vuruşun və ilk baxışdan çox günahsız görünən göyərçin uçurtmaq adətinin qadağan olunmasını xahiş edir. Şah məmnuniyyətlə bu xahişi qəbul edir və elə o an müvafiq qərar verir Sultan Hüseyn həmçinin sufilərin şəhərdən qovulması barədə qərar qəbul edir. Maraqlıdır ki, şahın 200 nəfər şəxsi cangüdənlərinin hamısı məhz sufi idi. Lakin həmin qərarın bu mühafizəçilərə şamil edilib-edilməməsi barədə qərarda heç nə deyilmir“ (Dadaşova 2003: 84).

Türk imperatorluqları tarixində ən məşhur və bir o qədər də taleyi müəmmalı taxt Böyük Moğolların, çətiri üstündə iki tovuz quşu fiquru olduğundan „Taxti-tavus“ adlanan taxtı sayıla bilər. Bu taxt barədə maraqlı rəvayətlər mövcuddur. Şah Cahandan başlayarq Böyük Monqol sülaləsi hökmdarlarının əyləşdiyi „Taxti-tavus“ 1739-cu ildə Nadir şah Əfşarın Hindistana yürüşü zamanı qənimət olaraq ələ keçirilmişdi.



**İstanbul “Topkapı Sarayı” Muzeyində saxlanan taxt.**



**Nadir şahın Məhəmməd şahı məğlub etdikdən sonra „Taxti-tavus“da oturması. Hind miniatürü, 1850-ci il.**

Taxt Nadir şahın ölümündən sonra yoxa çıxmışdı. Lakin sonralar onun taleyi ilə bağlı müftəlif fərziyyələr irəli sürüldü. Ən inandırıcı fərziyyə 1746-cı ildə Osmanlı ilə sülh müqaviləsindən sonra qarşılıqlı hədiyyə təqdimi kimi Nadirin onu Osmanlı padşahı Sultan I Mahmuda göndərməsidir. Deyilənlərə görə, Afşar elçiləri hələ sultan sarayına yoldaykən Nadir öldürülmüş, şahın elçiləri vətənə dönməkdən qorxaraq sultandan sığınacaq istəmişdilər. Görünür, bu vəziyyətdə hədiyyələrin təntənəli təqdimatı olmamışdı. İndi İstanbul "Topkapı Sarayı" muzeyində saxlanan bu taxtın Şah İsmayıl Səfəviyə aid olduğu və Çaldıran döyüşündən sonra Sultan Səlimin əlinə keçdiyi də düşünülürdü. Digər rəvayətə görə, İranda itbat olmuş həmin taxtın hissələrini guya Məhəmməd şah Qacar tapmış və "əsl" taxtın hissələri əsasında 1836-cı ildə yeni taxt düzəltdirmişdi.

Çətirə gəldikdə, xanın başı üzərində çadır tutulması adi etiket qaydası idi. Hökmdar səfərdə, açıq yerdə olarkən başı üzərində çətir açılması ənənəsi ən azı qədim Mesopotamiya mədəniyyətlərindən başlayaraq Şərqdə min illər mövcud olmuşdur. Çətirin qədim hunlardan başlayaraq türklərdə hakimiyyət simvolu olduğu məlumdur.



**Nizami əsərinə çəkilmiş miniatürdə (XVI əsr) Sultan Səncərin başı üzərində təpəsi quş fiqurlu çətir açılıb.**

İslam Ensiklopediyasına görə, Misirdə Məmlüklər dönəmində hökmdarın "yaşıl ipəkdən hazırlanan çətiri qızıl ulduzlarla bəzədilir, təpəsində gümüşdən bir quş fiquru qoyulurdu. Bu səbəbdən həmin çətir "*el-kubbe ve't-tayr*" adıyla məşhur idi. Dini bayramlarda yüksək rütbəli bir əmir tərəfindən daşınırdı" (İslam Ensiklopediyası: VIII, 293). Ensiklopediyadakı həmin oçerkdə türklərdə xan çətirinin mifoloji quşlarla bağlantısı barədə maraqlı qeyd diqqət çəkir: "İbn Bibinin "Hökümdar çətrinin qartalı sultanların günəşinə tale qanadını ve tüklərini gərdi və qüdrət kölgəsini yaydı" cümləsindən, eyni çağda Anadolu Səlçuqlu sultanlarının çətir ələmlərinin qartal şəklində olduğu və ayrıca müsəlman türklərin mifoloji heyvanları çətir və çadır ələmi kimi istifadə etdikləri anlaşılmaqdadır" (İslam Ensiklopediyası: VIII, 293).

### 6. Xan cadırı və ya „Qızıl“ çadır

Qədim türklərdə xanlığın əsas simvollarından biri qızılı (və ya ağ) hökmdar çadırı və ya yurta idi. Yurtanın karkası dörd, altı, bəzən səkkiz, on tərəfli (künclü) qurulurdu. Tərəflərin – “qanad”ların çoxluğu var-dövləti, imkanlılıq dərəcəsini göstərirdi. Əksər xalqlarda olduğu kimi, qədim türklər üçün də evin – yurtanın modeli Dünya modelinin ifadəsi idi.



**Monqol xanının daşına bilən yurtası. Rekonstruksiya.**

Rəşidəddin “Tarix”ində deyilir ki, Oğuz atası Qara xan və əmilərinə qalib gəldikdən sonra “atdan düşən kimi qızıl çadır qurdurdu, burada öz silahdaşları və dostları ilə birlikdə toy qurdu” (Rəşidəddin, 1999: 13). Bu, dövlətə – *il*ə hakim olmanın bəyanı idi. Rəşidəddinin əsərindən belə anlaşılır ki, xan çadırı və taxtı irsi idi. Məsələn, Tuman xanın taxta çıxması ilə bağlı danışılaırkən deyilir ki, “Göl Erki xan böyük bir toy (məclis) qurdu: Tuman xanın atalarından qalan qızıl evini (çadırını) başqa evlərlə birlikdə qurdular” (Rəşidəddin 1999:





47). Və ya Utemiş Hacı ibn Mövlanə Muhəmməd Dostinin “Çingiznamə”sində deyilir ki, İcan və Sain atalarından qalma xanlıq taxtına kimin oturacağına qərar verə bilmədikdə babaları Çingiz xanın hüzuruna gedirlər ki, bu məsələni həll etsin. Əsərdə deyilir ki, onlar Çingiz xanın ordasına gəldikdə xanın əmri ilə üç çadır qurulur: qapısının kandarı qızıldan olan ağ yurta (Sain üçün), qapısının kandarı gümüşdən olan göy (mavi) yurta (İcan üçün) və qapısının kandarı poladdan olan böz yurta (Şeyban xan üçün) (Dosti 1992: 93).

1736-cı il Muğan qurultayında “Nadirin əmrinə əsasən 12 dirək üstündə çadır qurulur, hər dirəyin üstünə qızıl günbəz başlıq taxılır, çadırın üstünə 7 rəngli ipək salınır, yerinə xalça, palazlar döşənir, daşqaşla bəzənmiş qızıl taxt mərkəzdə yerləşdirilir. Nadirin bu çadırda dörd gün dalbadal nümayəndələrlə görüşüb, şərab paylatdırıb, hamı sərxoş olduqdan sonra onlarla monarxiyanın taleyi məsələsini müzakirə etməsini şərh edən Məhəmməd Kazım bunun, iştirakçıların sərxoş vəziyyətdə Səfəvilərə loyallıq bildirib bildirməyəcəyini aşkarlamaq məqsədilə edildiyini göstərir” (Dadaşova 2003: 155).



Diqqət edilsə, Nadirin çadırı tam bir kosmik model təqdim edir: dirəklər – 12 bürcü, qızıl günbəzlər bürclər üzrə hərəkət edən Günəşi, çadırın üstünə sərilən 7 rəngdə ipəklər yeddi iqlimi (və ya yeddi planeti), mərkəzdəki qızıl taxt Yer üzərində hakimiyyəti simgələyir.

Qızıl çadır xan hakimiyyətinin, yəni dövlətin simvolu kimi əzəmətli idi. Mənbələrin yazdığına görə, Uyğur xaqanının "şəhərə beş fərsəh qalmış uzaqdan görünən, içərisinə yüz adamın yerləşə biləcəyi qızıl çadırı" paytaxtın ən yüksək yerində qurulmuşdu (Əsədov 1993: 47).

T.Nəcəflinin tədqiqatında qeyd olunur ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətinlərində hökmdarlıq əlamətlərindən biri səltənət çadırı sayılırdı (Humayun otağı). Hökmdar səfərə çıxdıqda, döyüşə getdikdə səltənət çadırı hökmdarın gedəcəyi yerə öncədən göndərilirdi (Nəcəfli 2012: 233).

Osmanlıda da hərbi səfər qərarı alındıqda ilk öncə padşah çadırı qurulurdu. Padşah çadırı (*Otaği-Humayun*) səfərin istiqamətindən aslı olaraq ölkənin həmin istiqamətdə yerləşən iri şəhərlərindən birində qurulurdu. Otağın yeri xususi olaraq müəyyənləşdirilir, hündür və gözəl yer seçilirdi. Ordu burada toplanır, tuğlar çıxarılırdı. Həzrəti Məhəmmədin də sancağının (*Sancaki-Şerif*) gətirildiyi bu tədbir xüsusi təm-tarağı ilə seçilərdi (Dündar 2004: 92).

Hazırda yurta Qırğızıstanın dövlət bayrağında və Qazaxıstanın dövlət gerbində əks olunmuşdur. Gerbdə mərkəzdə *şınırak* (sağanaq, yurtanın çənbərəsi) və ondan Günəş şüaları kimi çıxan çubuqlar təsvir olunub.






M.Seyidovun yazdığı kimi „Türkdilli xalqlar göyə – yüksəkliyə, eləcə də genişliyə (kainata) tapınmış və ayinlər keçirmişlər. Beləliklə, eninə – genişliyə, ətraf mühitə, təbiətə, yüksəkliyə (göyə) inam oğuzların ailə və dövlət mənsəb düzümündə başlıca rol oynamışdır. Elə buna görə də xaqan – Oğuz (sonralar böyük oğul Gün xan) ortada oturur (ona hakimiyyət göydən – yüksəklikdən gəlir), sağ və solunda uzununa və eninə hakimiyyət yayılır. Xaqanın ortada oturması, bizcə iki baxımdan edilmişdir: biri – Günəşlə bağlı şəkildə düşünülməsi ilə. Günəş göyün lap ortasında zenitdə, lap yüksəkdə olur. Elə buna görə də onun çadırı bütün versiyalarda əbədiyyət – Günəş bəlgəsi olan qızıl – qırmızıdır (hətta onun atlılarının da bayrağı qırmızıdır). Diqqət yetirsək görərik ki, Günortac yer adının qoyulmasında məhz bu mifoloji inam nəzərə alınmışdır“ (Seyidov 1989: 420-421).

### 7. Pul. Möhür

Tarixçi alimlərin yazdığı kimi, müstəqil dövlətə və “hökmdarlara məxsus əlamətlərdən biri də zərb edilən sikkədir. Taxta çıxan hökmdar müstəqilliklərini elan etmək üçün

üzərində adının, ləqəbinin olduğu sikkələr zərb edirdilər" (Nəcəfli 2012: 232). Türk dövlətlərindən hansında ilk sikkələrin zəbt olunduğunu qəti söyləmək çətindir. Ən azından Kəngər (Kanqyuy), Eftalit, Göytürk, Xəzər dövlətlərində sikkələr zəbt olunduğu faktlarla məlumdur. Sikkələr üzərində adətən hakim sülalənin damğası da vurulurdu.

Hesab edilir ki, Qaraqoyunlularda öz adına ilk dəfə sikkə zərb etdirən Bayram Xoca olmuşdur. Onun zərb etdirdiyi sikkələr üzərində "Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir" ifadəsi ilə yanaşı xəlifələrdən Əbubəkr, Ömər, Osman və Əlinin adları yazılmışdır (Nəcəfli 2012: 232).

Qaraqoyunlu dövlətində hakimiyyət simvollarından biri də xütbə idi. Hökmdarın adına xütbə oxunması onun gücünü göstərdiyi kimi, xütbənin oxunduğu ölkələrin vassallığını və ya tabeciliyini ifadə edirdi. Şübhəsiz ki, tabe hökmdarlar oxunan xütbələrdə vassal asılılığına düşdüyü hökmdarın adını öz adından öncə çəkmək məcburiyyətində idilər. Cahanşah 1458-ci ildə böyük təmtəraqla Herat şəhərinə girdikdən dərhal sonra öz adından sikkə zərb etdirmiş və xütbə oxutdurmuşdu.

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində hökmdarlıq əlamətlərindən biri də tuğra idi. "Hökmdarın Münşi divanında hazırlanan fərman, hökm, məktub, fəthnamə və sülh müqaviləsinin mətnlərinin üst tərəfinə hökmdarlıq əlaməti kimi içərisində sultanın adı, ləqəbi, Quran ayələri, möhür və imzasından ibarət tuğrası vurulurdu" (Nəcəfli 2012: 233).

T.Nəcəfli A.A.Arayancana əsaslanıb yazır ki, Cahanşah dövründə bəzi fərmanların üzərindəki tuğralar qızıl su ilə yazılmışdır. 1462-ci ildə Qumda olan Hz. Fatimənin vəqflərinin Nizaməddin Əhməd Rezəviyə verilməsini nəzərdə tutan, üzərində Cahanşahın imzası olan fərmanda başlıq və tuğra qızıl su ilə yazılmışdır.

“Azərbaycan Qaraqoyunlu dövlətində dövlətin mühüm atributlarından biri də möhürlər idi. Qaraqoyunlu hökmdarı Cahanşahın 1458-ci ildə verdiyi bir hökmün sərlövhəsində “Məğlubedilməz Cahanşah hökmümüz” sözləri yazılmış möhür vardır. İ.H.Uzunçarşılının fikrincə, hökmdarın möhürü fərmanın sonunda vurulur, onun arxasına divanın və vəzirlərin möhürünün vurulması fərmanın divanın nəzarəti və məsuliyyəti altında olduğunu göstərir. Divan möhürünün yuxarıda, vəzirlərin möhürünün aşağıda olması sübut edir ki, vəzirlər divan rəisinə tabe olmuşlar. Bu məsələyə biz “Tuzukati-Teymuri” də rast gəlirik. Orada göstərilir: “Əmr etdim vəzirlər Divanbəyiyə tabe olsunlar ki, mühüm maliyyə işlərini onlarla birlikdə həll etsinlər” (Nəcəfli 2012: 72-73).





**Solda ılay xan dönəmi dövlət möhürü. Orta Cüz (Qazax xanlığı). Sağda Toxtamış xanın verdiyi yarlıkın möhürü. Qızıl Orda.**



**Osmanlı padşahı I Sultan Süleymanın tuğrası.**



**Krım xanı Sultan Murad Gərayın (hakimiyyət illəri: 1678-1683) möhürü.**



**Teymurilər dövrü Azərbaycan hökmdarının möhürü – üzərində "Azərbaycanın əmir-əl-umərası Mirzə Miran Şah – Əmir Sahib-Qran Əmir Teymur Gürəkanın oğlu, 802 (h.)" yazılmışdır.**

## Pul üzərində həkk olunmuş türk damğaları

1. 
2. 
3. 
4. 
5. 
6. 
7. 
8. 
9. 
10. 
11. 
12. 
13. 
14. 

15.  16.  17.  18. 

19.  20.  21.  

**1. Kanqlı (Qədim Xarəzm); 2-3. Eftalit (Ağ hun dövləti). 4-5. Türk xaqanlığı; 6. Qərbi Turk xaqanlığı. 7. Karluk; 8. Yağlakar; 9. Xəzər xaqanlığı; 10. Türkeş xaqanlığı; 11.Anuştəkinlər (Xarəzm-şahlar). 12. Elxanilər; 13. Artukoğulları bəyliyi; 14. Teymurilər; 15. Ağqoyunlular (Bayandır); 16-17. Cağatay ulusu; 18. Osmanlı bəyliyi (Qayı). 19-20. Qızıl Orda (Cuci ulusu); 21. Krım xanlığı.**

Orta əsr türk dövlətlərinə aid pullar üzərində heyvan təsvirlərinə də geniş rast gəlinir. Məsələn, Monqol uluslarının pulları üzərində qoyun (qoç), it, dovşan, quş, meymun, balıq, Günəş fonunda şir (və ya pələng) və b. heyvan təsvirləri vardır. Bunların içərisində ikibaşlı qartal istisna olmaqla qalan heyvan təsvirləri güman ki, zodiak bürclərlə bağlı idi. Ola bilsin, sikkənin zəbt edildiyi, ya xanın doğulduğu, ya da taxta çıxdığı illərin türk təqvimi ilə uyğun adlarını da bildirə bilər. Bu heyvanların yanında ulduz təsvirlərinin yer alması da deyilənlərə daha bir sübutdur . Bir tərəfdən də Qızıl Ordanın, Cuci Ulusunun xanlarının gerbi – damğası bəllidir və çoxsaylı pullarda da həkk olunub.

## ƏDƏBİYYAT

Abbasov 2008 – E.Abbasov. “Koroğlu”: poetik sistemi və strukturu. Bakı: Nurlan, 2008.

Abbasov 2009 – E.Abbasov. Orta əsr mənbələrində türklərin ənənəvi mədəniyyəti, dini və folkloru (M.Suriyalının

«Xronika»sı) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXX kitab. Bakı: Nurlan, 2009, s.39-46.

Abbasov 2017 – E.Abbasov. Türk dövlətçilik ənənəsində əjdaha və aslan (bars) simvolları və onların dini-mifoloji kökləri / Folklor və dövlətçilik, II kitab. Bakı: Elm və təhsil, 2017, s.153-181.

Amini-Buxari 1957 – Мир Мухаммед Амини-Бухари. Убайдалла-наме. Ташкент: Изд. АН Уз.ССР, 1957.

Baburnamə 2011 – Baburnamə. Çevirən,ön sözün, qeydlərin və izahların müəllifi R.Əskər. Bakı: BXQR, 2011.

Bayat 1993 – F.Bayat. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 1993.

Dadaşova 2003 – R.İ.Dadaşova. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003.

Dmitriev 2001 – С.В.Дмитриев. Знамённый комплекс в военно-политической культуре средневековых кочевников Центральной Азии // Para Bellum, № 14, 2001.

Dosti 1992 – Утемиш-Хаджи ибн Маулана Мухаммад Дости. Чингиз-наме. Факсимиле, перевод, транскрипция, примечания, исследования В. П. Юдина, комментарии и указатели М.Х.Абусеитовой. Алма-Ата: Гылым, 1992.

Dündar 2004 – A.K.Dündar. Osmanlı saray törenlerinin Üsküdara yansıması / Üsküdar Sempozyumu I (Bildiriler) - Cilt 1, Üsküdar: Seçil ofset, 2004. s.90-96

Əliyev 2016 – O.Əliyev. Azərbaycan nağıl və dastanlarında dövlətçiliklə bağlı mərasimlərin izləri / Folklor və dövlətçilik, I kitab. Bakı: Elm və təhsil, 2016, s. 269-306.

Əsədov 1993 – Ф.М. Асадов. Арабские источники о тюрках в раннее средневековье. Баку: Элм, 1993.

Əsgər 2016 – Ə.Əsgər. Tuğa (bayrağa) qurban mərasimi / Folklor və dövlətçilik, I kitab. Bakı: Elm və təhsil, 2016, s. 109-122.

Əsgər 2017 – Ə.Əsgər. Oğuznamədə “üçox” və onun arxaik semantikası / Folklor və dövlətçilik, II kitab. Bakı: Elm və təhsil, 2017, s. 132-152.

Herodot 2005 – Геродот. История / Великая Степ в античных и византийских источниках. Алматы: Баур, 2005.

Xudyakov 1986 – Ю.С.Худяков. Вооружение седневековых кочевников Южной Сибири и Центральной Азии. Новосибирск: Наука, 1986, 268 с.

İslam Ensiklopediyası 1993 – İslam Ansiklopedisi, cild: 8. İstanbul: Diyanet Vakfı Neşr., 1993.

Jdanoviç 2014 – О.П.Жданович. Посолство Земарха в ставку Тюркского кагана (перевод и комментарии фрагментов труда Менандра Протектора) // Золотоордынское обозрение, № 2 (4), Казан: АН ТР, 2014, с.6-20.

Kaşğarlı 1992 – Kaşğarlı M. Divanü Luğat-it-Türk. I c., Ankara: 1992.

Kazımoğlu 2016 – M.Kazımoğlu. Dövlətçilik düşüncəsininn əsas istiqamətləri və folklor / Folklor və dövlətçilik, I kitab. Bakı: Elm və təhsil, 2016, s. 7-46.

Kononov 1958 – А.Н.Кононов. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва - Ленинград: Издательство АН СССР, 1958.

Qarabağ 2012, I – Qarabağ: folklor da bir tarixdir, I kitab. Bakı: Elm və təhsil, 2012.

Qarabağ 2012, III – Qarabağ: folklor da bir tarixdir, III kitab. Bakı: Elm və təhsil, 2012.

Qurbanov 2016 – A.Qurbanov. Rəmzlər nədən danışır // “Azərbaycan xalçaları”, cild 6, № 18, 2016, s. 122-144.

Mixail Suriyalı 1960 – Михаил Сириец. Хроника / Р.Гусейнов. Сирийские источники XII-XIII вв. об Азербайджане. Баку: Изд. Академии Наук, 1960.

Münşi 2010 – İsgəndər bəy Münşi Türkman. Tarixe-aləmaraye-Abbasi. Bakı: Şərq-Qərb, 2010.

Nəcəfli 2012 – T.H.Nəcəfli. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı: Çaşıoğlu, 2012.

Oğuznamələr 1993 – Oğuznamələr. Tərtibçilər və ön sözün müəllifləri: K.Vəli, F.Uğurlu. Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı,1993.

Okladnikov 1951 – А.П.Окладников. Конь и знамя на Ленских писаницах // Тюркологический сборник. Т. I. М-Л.: 1951, с. 143-154.

Rəşidəddin 1992 – Rəşidəddin F. Oğuznamə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi R.M.Şükürova. Bakı: Azərbaycan Dövlət NPB, 1992, 72 s.

Seyidov 1989 – M.Seyidov. Azərbaycan xalqının soy-kökünü düşünərkən. Bakı: Yazıcı, 1989.

Seyidov 1990 – M.Seyidov. Yaz bayramı. Bakı: Gənc-lik, 1990.

Soysal 2010 – M.E.Soysal. Tarihsel süreçte bayrak ve sancaklarimiz (our flag during the historical process) // A.Ü. Türkiyat Araştırmaları Enstitüsü dergisi [taed] 42, Erzurum: 2010, s.209-239.

Taniş Buxari 1983 – Хафиз-и Таныш ибн Мир Мухаммад Бухари. Шараф-нама-йи шахи (Книга шахской славы). Ч. 1. М.: Наука, 1983.

Tenişev 1995 – Э.Р.Тенишев. У тюркских народов Китая (дневники 1956-1958). М.: 1995.

The Peacock Throne - Takht-i-Tā'ūs - As Described by Tavernier http://www.internetstones.com/takht-e-taus-the-peacock-throne-as-described-by-tavernier.html

Vasilyeviç 1957 – Г.М.Василевич. Древние охот-ничьи и оленеводческие обряды эвенков // Собрание Музея антропологии и этнографии АН СССР. Т. XVII. М.-Л.: 1957, с. 155-156).

# “DƏDƏ QORQUD KİTABI”NDA DÖVLƏTÇİLİK ANLAYIŞININ OBRAZ TƏCƏSSÜMÜ

**Atif İslamzadə**
atif.islamzade@mail.ru

## ОБРАЗНОЕ ВОПЛОЩЕНИЕ ПОНЯТИЯ ГОСУДАРСТВЕННОСТИ В «КИТАБИ-ДЕДЕ КОРКУД»

РЕЗЮМЕ

В этой статье выяснились государственные основания назначения Газан хана, нашедшего свое место и наиболее развернуто обобщенного чем два основных образа в «Китаби-Деде Коркуд». И в то же время по всему исследованию преследовалось место и влияние этого назначения в огузской эпической системе. Наиболее целесообразно исследование образа Газан, в контексте анализа мифологической семантики как знак иерархии «Государства Галын огуза». Потому, что это назначение принадлежит именно Газан хану. Анализ модели «Государства Галын огуза» указывает на знак иерархии. Обозначает высшее управление этноса и пространства огуза. И в то же время анализируясь представился к научно-массовой общественности существующий в огузской эпической системе, в понятии «Государство Галын огуза» на подтекстовом уровне, но не очевидный широкий «мотив».

***Ключевые слова:*** Огузская эпическая традиция, «Китаби-Деде Коркуд», Галын огуз, Учог, Бозог, Газан хан, мотив

## THE CHARACTER EMBODIMENT OF THE STATEHOOD CONCEPTION IN THE "BOOK OF DEDE GORGUD"

SUMMARY

In this article the state basis of Gazan khan generalized in details more than two main characters in the epos “Dede Gorgud” are cleared up. At the same time the place and attitude of this appointment in the Oghuz epic system have been studied in the whole investigation. Of course, to investigate “Galin Oguzun dovleti” (“Galin Oghuz’s state”) as the hierarchy sign of the character Gazan in the mythological semantics analysis context is very advisable. Because such appointment belongs only to Gazan khan. The analysis of module “Galin Oguzun dovleti” shows that it is the sign of the hierarchy. It mentions the only high administration of the Oghuz ethnos and Oghuz place. At the same time in the conception “Galin Oguzun dovleti” the “motif” existing in the Oghuz epic system, but unseen obviously has been introduced to the scientific-mass public.

***Key words:*** Oghuz epic tradition, the book “Dede Gorgud”, Galin oghuz, Uchog, Bozog, Gazan khan, motif

“Dədə Qorqud kitabı”nda dövlətçilk səciyyəsi kimi əsas diqqət çəkən Qazan xan obrazıdır. Təbiidir ki, Bayındır xaqan da müqayisəli şəkildə Qazan kontekstində araşdırıla bilir. Qazan obrazının mifoloji semantikasının təhlili kontekstində **“Qalın Oğuzun dövləti”** qəlibinin təhlili göstərir ki, bu, iyerarxiya işarəsidir. Oğuz etnosunun və Oğuz məkanının vahid ali idarəçiliyini işarələyir. Oğuz epik ənənəsində yer alan “Qalın oğuzun dövləti”nin iyerarxiya işarəsi kimi Qazan obrazının mifoloji semantikasının təhlili kontekstində araşdırılması daha məqsədəuyğundur. Çünki bu təyin yalnız Qazan

xana məxsusdur. Lakin assosiativ şəkildə Bayındır xaqanı da simvollaşdırır.

Bu təyinin oxunuşunda tədqiqatçı alimlər arasında mübahisə yoxdur. Eyni oxunuş kütləvi auditoriyaya təqdim olunmuşdur (9; 10; 11; 12; 7; 4).

Əlyazma nüsxəsində "ı" yaxud "u" səsini bildirən hərf, hərəkə işarəsi olmadığı üçün "Qalın Oğuzun dövləti" və yaxud "Qalın Oğuzun dövləti" kimi oxunuşu sərbəstdir (4, 585 (36). Qalın Oğuzun dövləti birləşməsinə aid olan dövlət sözünün bir şəxsə aidliyi şübhə yaratdığından bu sözün başqa məna çalarlarına diqqət verilmiş, əsasən uğur, səadət mənasında Qazan xanın Qalın Oğuzun uğuru kimi oxunulmasına çalışılmışdır (8, 17, 20, 69, 71).

Dövlət sözünün lüğəvi izahı hökumət, var, sərvət, varlılıq, səadət, xoşbəxtlik və s.dir (6, 156).

Gördüyümüz kimi, dövlət sözünün həm ali qanunverici orqan, həm də uğur, səadət, xoşbəxtlik anlamlarında işlənməsi mümkündür. Onu da qeyd edək ki, dövlət sözü yalnız hökumət anlamında işlənə bilməz. Çünki hökumət demokratik dövləti-idarəçilikdə yalnız dövləti orqanlardan biri, totalitar-avtoritar idarəçilikdə isə hakimiyyət mənasında işləkdir. Lakin dövlət yalnız bu anlayışla məhdudlaşa bilməz. Dövlət bir ölkənin bütün ali siyasi hakimiyyətini özündə cəmləməklə eyni zamanda maddi, iqtisadi və mənəvi dəyərlərin təmsilçisi kimi çıxış etməklə ölkə sinonimi kimi lüğəvi funksionallıq qazanır. Dövlət ərazisi, dövlət atributları, dövlət bayrağı, dövlətçilik, Azərbaycan dövləti və s. Elə bu baxımdan da Qazan xanın "Qalın Oğuzun dövləti" olması Oğuz məkanının dövlət qismində nümayiş olunan Oğuz dövləti anlayışı ilə fərdi dövlət anlayışının ziddiyyət təşkil etməsi bu ifadənin müxtəlif cür izah edilməsinə gətirib çıxarır. Lakin Qazan xanın "Qalın Oğuzun dövləti" olması kontekst məzmununa tam uyğundur. Qazan iki əsas şəxsdən biri kimi,

xüsusilə də daha fəal şəxs olaraq Oğuz dövlətçiliyinin təmsilçisi, dövlətin simasıdır. Qalın Oğuzun iki dövlət siması vardır. Bayındır və Qazan xan. Bayındır xan "Qaba aləm götürən Bayındır xan" olaraq anılmaqla dövlətin modeli olmasına diqqət çəkilirsə, Qazan xan "Qalın Oğuzun dövləti" olmaqla bu səviyyədə aşkarlanır. Bəs nə üçün bu ifadə yalnız Qazan xana aid edilir? Çünki oğuz epik ənənəsinin ən möhtəşəm abidəsi olan "Dədə Qorqud kiabı"nda Bozoq-Uçoq qarşıdurmasının ən potensial tərəfi Qazan xan hesab olunur. Bayındır xan da Uçoqlardan olmasına baxmayaraq bu qarşıdurmada fəal tərəf kimi görünmür. Bu eyni zamanda Bayındır xanın xaqan statusundan irəli gəlir. Onun fəal tərəfi Qazan xan olduğu üçün aqressiv münasibət də məhz Qazan xana yüklənir. Qalın Oğuz Uçoq-Bozoq tayfalarının ümumi adı olmaqla Qazan xanın "Qalın Oğuzun dövləti" adlanması onun yalnız Uçoqların deyil, Bozoqların da başçısı olduğunu səciyyələndirir, bütün Oğuz elinin ali idarəçilik statusunun Qazan xana məxsusluğunu diqqətə çatdırır. Özü də bu təsadüfi anlam səviyyəsində yox, mətndə təsdiqlənən ideya qaynağı kimi özünü göstərir. Qazan Aruz, Uçoq-Bozoq qarşıdurmasının sözsüz reaksiyası kimi Qazanın bütün Oğuzun başçısı olması və bunun təbii hal olaraq qəbul olunmasına çalışılması əvvəldə də qeyd etdiyimiz kimi müxtəlif söz və təyinlərdə əks olunur. Təsadüfi deyil ki, Bayındır xanın kölgə hakimiyyətini çıxmaqla bütün Qalın Oğuzun yalnız iki təmsilçisi var – Qazan və Beyrək. Qazan "Qalın Oğuzun dövləti", Beyrək isə "Qalın Oğuzun imrəncisi"dir. Qazanın təyini məlumdur. Beyrəyin təmsilçiliyi isə bu şəkildə tanıdılır: "Parasarın Bayburd hasarından parlıyıb uçan, at alaca gərdəginə qarşu gələn, Qalın Oğuz imrəncisi, Qazan bəgin yınağı, Bozayğırlu Beyrək" (11, 42, 77).

Beyrəyin "Qalın Oğuzun imrəncisi" olması onun da yüksək statusunu göstərir. İmrənci sözü arzu olunan şəxs kimi izah olunur (12, 167). Eyni zamanda DQK lüğəti bu sözün

daha geniş çalarını diqqətə çatdırır. Belə ki, Beyrək Qazan xanın inağıdır, lakin Bozoqlardan qız alımışdır. Elə buna görə də o, hər iki tərəfin birləşdiyi bütün Qalın Oğuzun sözçüsü qismində çıxış edir. Beyrəyin ölümünün müxtəlif struktur səviyyələri ilə bərabər həmçinin əsas səbəblərindən biri kimi onun Qalın Oğuzun imrəncisi olması ciddi rol oynayır. Aruz Qalın Oğuzun təmsilçisi olan Qazana qarşı Qalın Oğuzun təmsilçisi Beyrəyi çıxarmağa can atır. Çünki o, aqressiv mövqeyini qanuniləşdirməyə çalışır. Bu səbəbdən də əgər Beyrək Qazana qarşı çıxarsa, bu Aruzun bütün Oğuzu səciyyələndirən Qalın Oğuza qarşı çıxmağının hüquqi-siyasi bəraəti ola bilər. Aruz bu taktiki addımı üçün həm də Beyrəyə ona görə söykənmək istəyir ki, Qazan "Qalın Oğuzun dövləti" olduğu üçün Qazana qarşı çıxış etmək, Oğuzun bütövlüyünə qarşı çıxış etməkdir. Aruz Beyrəyin Qazanın inağı olduğu üçün bu addımı atmayacağını bilsə də, onun Bozoqlardan qız aldığı üçün buna məcbur qalacağına ümid edir. Çünki Bozoqlardan Uçoqların qız alma gələnəyinin Qazan xan tərəfindən pozulması (Qazan xan Uçoqlardan qız alıb) bu gələnəyin daşıyıcısı olan Beyrək üçün törə qanunlarının, şəxsi münasibətlərdən (inaqlıq titulundan) daha üstün ola biləcəyinə edilən güman Beyrəyin Qazana qarşı çıxa bilmək ehtimalını Aruz nəzərində gücləndirir. Məhz Qazanın "Qalın Oğuzun dövləti" olduğuna görə Beyrəyin ona qarşı qoyulmasını Beyrək özü yaxşı başa düşür. Bu səbəbdən də Qazana qarşı onu çağıran Beyrəklə Aruz arasında gərgin qarşıdurma nəticəsində Beyrək canından keçərək deyir: "Vallah, mən Qazan Oğuzına başım qomuşam. Qazandan dönməzəm, gərəksə yüz parə eylə!" (11, 125).

Məhz "Qazan Oğuzu" ifadəsi Qazanın Uçoqların deyil, bütün Oğuzun təmsilçisi kimi "Qalın Oğuzun dövləti" statusunda olduğunun Beyrək dilində bir daha təsdiqidir. Bu ifadənin Uçoqları bildirməsi ehtimalına gəlincə onu deyək ki, Beyrək

situasiya gərəyincə bu sözü söylədiyi üçün aydın olur ki, o, Qazan Oğuzu deyərkən Uçoqları deyil, Qalın Oğuzu nəzərdə tutur, Aruzun onların tərəfinə keçmək təklifinə qarşı mövqe nümayiş etdirərək yeni Oğuz eli (Aruz Oğuzu, yaxud Bozoq) formalaşdırmaya qarşı çıxır, Qazanın başçılığı altında olan Qalın Oğuzu tanıdığını bəyan edir. Bunun təsadüfi sözlük deyil, Oğuz kompleksini ifadə edən anlayış olması təəssüf ki, bəzi tədqiqatçıların diqqətindən qaçdığı üçün Qazan Oğuzu birləşməsi Qazan uğuruna (uğruna) kimi kontekst daxili ifadə kimi də oxunmuşdur (9, 156, 10, 147). Lakin əlyazma nüsxəsində bu ifadə aşkar şəkildə Qazan Oğuzu kimi yazılmışdır (12, 324/297) F.Zeynalov, S.Əlizadə bu ismi söz birləşməsini məhz əlyazma nüsxəsinə uyğun şəkildə oxumuşlar (11, 124; 99, 110).

Ümumiyyətlə, əlyazma oxunuşuna tam sərbəst yanaşma eyni məntiqi münasibətin ziddini ortaya çıxarıb, mətnin bütünlüklə təhrif olunmasına da gətirə bilər. Məhz Qazan Oğuzı birləşməsinin Qazan uğruna kimi oxunması "Qalın Oğuzun dövləti" təyininin anlamı üzərinə kölgə sala bilər. Elə "Qalın Oğuzun dövləti" anlamının oxunuş qaydasına, transliterasiya və qiraət üsuluna aidiyyəti olmasa da, uğur mənasında oxunuşu da Qazan statusunu təhrif edir. Çünki Qazandan əlavə Qalın Oğuzun uğuru olan digər şəxslər də Oğuz elində mövcuddur. Qarıcıq Çoban, Basat, Uruz və s. Basatın Qalın Oğuzu qurtarması, onun uğuru olması Dədə Qorqud dilində alqış səviyyəsində də əks olunur. "Qalın Oğuz bəglərini bundan qurtardın. Qadir Allah yüzün ağ etsün, Basat!" (11, 103). "Qalın Oğuzun dövləti" isə yalnız Qazan xandır. Hər halda DQK mətni də bunu təsdiqləyir. Bu mətnin spesifikası aşkar göstərir ki, mətndə təsadüfi anlam, rabitəsiz bəsit təkrar bircə ifadə səviyyəsində də özünü göstərmir.

Qalın Oğuz söz birləşməsinin soy, tayfa, millət (etnos) və yer, yurd, ölkə (topos) adı kimi işlənməsi "Qalın Oğuzun dövləti" birləşməsinin struktur və şəxs (antropos) adlarını bildirməsi

ilə heç bir ziddiyyət təşkil etmir. Çünki dövlət xalqın varlığını təmsil edir. Xalq imtiyazsız olsa belə, yenə də xalq yoxdursa, dövlət yoxdur. Buna görə də anlamlar çarpazlaşıb bir anlam səviyyəsində anlaşılır (etnotoponimika). Struktur adının şəxsi ifadə etməsi də eyni funksiyada mənalanır. Şəxsin aid olduğu strukturda əsas təmsil sifəti olduğu üçün eyni strukturun (burada ali idarəçiliyin) adı ilə adlanır. "Makedoniyalı İsgəndərin imperiyası" adlı böyük ərazidə yerləşən dövlətin İsgəndərin (Aleksandrın) adı ilə adlanması buna misaldır (3, 394). Tarixdə buna aid misallar az deyildir. Fransa kralı XIV Lüdovikin (1643-1715) özünü dövlət adlandırması tarixdə məşhurdur (1, 159, 60). İngiltərə kraliçası I Yelizaveta (1558-1603) da təkrar fikir söyləmişdir. Hətta bu ifadəni ilk dəfə onun işlətməsi də güman edilir (1, 160). Elə xalq deyimləri (paremi) arasında geniş imkanlı şəxslər haqqında "dövlət içində dövlət" kəlamının işlənilməsi də dövlət quruluşunun şəxslərin adı ilə əlaqələnməsinə dair örnəklərdəndir. Belə görünür ki, Qalın Oğuzun dövləti birləşməsinin arxaik lüğətə aid olmasını və çağdaş formada işlənməsindən bir qədər fərqli anlayışda qəbul olunmasını da ehtimal etmək olar. Lakin sözün funksionallşması da diqqətçəkici məsələlərdəndir. Belə ki qalın sözü DQK mətnində müasir anlamıyla birgə fərqli anlam kəsb edir, iki böyük tayfanın birləşib el yaratması, qalın olması, əks törənən anlayışda isə tək olarsa, nazik olması ilə eyni sözün şaxələnməsindən, funksionallaşmasından ortaya çıxır. Bizə məlumdur ki, Oğuz sözünün X əsrdən sonra türkmənlə əvəz edilməsinə dair fikirlər vardır (2, 5). Lakin Oğuz adının elə Rəşiddədində, Əbülqazidə, Yazıçıoğlu Əlidə və s. də sonrakı əsrlərdə işlənməsi bu sözün arxaizminin müasir anlamla heç bir ziddiyyət təşkil etmədən işlək olduğunu göstərir ( 15; 16; 5; 13) . Elə bu istiqamətdə də dövlət sözü də dövləti təmsil edən şəxs mənasında kontekst məzmununa uyğun olaraq insana da aid edilmişdir ki, bu təyin məhz bu anlayışın ifadəsi olaraq ortaya

çıxır. Qazan xanın eyni boy daxilində ikinci dəfə ov məkanında “Qalın Oğuzun dövləti” adlandırılması da bu sözün təsadüfi söz kimi işlənmədiyini göstərir (3, 44).

“Qalın Oğuzun dövləti”nin xan statusunu ifadə etməsi məhz bu təyinin dövlət anlamında işləndiyini göstərir. Elə bu status göstəricisinin real təzahürü olaraq III boyda Qazan xanın təkrar səviyyədə “Qalın Oğuzun arqası” adlanması da sinonim sözlük olaraq eyni status və funksiyanı diqqətə çatdırmaq üçündür (11, 52).

Biz Qalın Oğuzun dövləti birləşməsinin başlanğıc sözlüyünə diqqət çəkərək yuxarıda bildirmişdik ki, “qalın” sözü əski düşüncə ilə çağdaş təfəkkürün işlək sözlüyü kimi DQK-də anlam səviyyəsini nümayiş etdirir. Elə bu səbəbdən də bu sözün araşdırılması vacib struktur komponentləri aşkarlayır. Bu baxımdan qalın sözü üç səviyyəni işarələyir:

1. İki tayfa birləşməsi işarələnir.

2. Oğuz kosmoloji strukturunun işarəsi kimi Oğuz mifoloji dünya modelini proyeksiyalandırır.

3. Motiv səviyyəsi aşkarlanır.

Qalın sözünün Oğuz sözünə qoşularaq Uçoq-Bozoq tayfa birliyini ifadə etməsini bir az qabaq qeyd etmişdik. Bu sözün tayfa birliyini əks etdirməsi ən əhəmiyyətli izahlı lüğət qaynağı olan DQK mətnində aşkarlanır. DQK-də Uçoq-Bozoq tayfası İç Oğuz və Dış Oğuz deyə iki siyasi-inzibati əraziyə bölünür və Uçoqun İç Oğuz, Bozoqun isə Dış Oğuz olduğu açıqlanır. “Uçoq Bozoq yıqnaq olsa, Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş Oğuz bilə bulınmadı. Həmin İç Oğuz yağmaladı” (11, 123).

Uçoqun və Bozoqun Qalın Oğuz olması isə bu şəkildə aydın olur: “Bu məhəldə Qalın Oğuz bəgləri yetdi, xanım, görəlim, kimlər yetdi” (11, 49). Məhz bu məlumatdan sonra Qalın Oğuz bəylərinin adı bir-bir sadalanır, məlum olur ki, bu

bəy ərənlər Uçoq (İç Oğuz) və Bozoq (Taş Oğuz-Dış Oğuz) bəyləridir (11, 49, 50, 66, 67, 77, 78).

Qalın Oğuzun Oğuz mifoloji dünya modelinin etnoqonik-kosmoqonik invariant strukturunu təşkil etməsi diqqətçəkici hadisədir. Məlumdur ki, Oğuz mifoloji strukturu Oğuz soyunu modelləşdirir və bu kosmoloji struktur təşkil edib yuxarıda qeyd etdiyimiz kimi Oğuz, onun iki xatunu, altı oğlu üzərində proyeksiyalanır. Toy ritualı da Oğuz mifoloji dünya modelini səciyyələndirir. Uç oğulun yay, üç oğulun isə ox tapması iyerarxik strukturu müəyyən edir. F.Rəşidəddin yay və ox nişanəsi ilə işarələnən gələcək Oğuz elinin, Qalın Oğuzun (onların övladları Uçoq, Bozoq tayfalarını təşkil edir) Qalın Oğuz olaraq qalmasının və öz yerlərini bilmələri məcburiyyətinin Oğuz xan tərəfindən müəyyənləşdirildiyini qətiyyətlə yazır: "Oğuz yayı üç hissəyə bölüb üç böyük oğluna, üç oxu isə üç kiçik oğluna verdi. Belə buyurdu: yay payladığım üç oğlumdan törəyən qəbilələr Bozok adlanacaqlar...ox payladığım digər üç oğlumun nəslindən törəyən qəbilələrin adı Uçok olsun... Buyurdu ki, bundan sonra oğullarımdan hər hansı gəlirsə, birlikdə (təmağamişi) çalışmalı və "biz hamımız bir kökdənik" deyib orduda da öz yerlərini və rütbələrini bilməlidirlər" (15, 37, 38).

Gördüyümüz kimi, Oğuz xaqan Bozoqların və Uçoqların bir kökdən olduğu üçün öz yerləri ilə qane olaraq həmişə bir yerdə olmalarını, yəni Qalın Oğuz olmalarını buyurur. DQK-də XII boya doğru gələn ziddiyyət iki Oğuz tayfasının bir kökdən olmasına baxmayaraq bir-biriylə çarpışmasıyla sonuclanır. Qalın Oğuz ayrılır, Oğuz parçlanır, Oğuz yasası pozulur. Qazan xanın evini yağmalatması prosesində (ritual ərəfədə) Qalın Oğuz ikiyə ayrılırsa, Aruzun evinin yağmalanmasından sonra Qalın Oğuz yenə də birləşir. Bu barədə XII boyda oxuyuruq: "Qazan suçların bağışladı, Beyrəgin qanın tayısından aldı. Aruzın evini çapdırdı. Elini-günini yəğmalatdı" (11, 126).

Qazanın evini yağmalatmasında Qalın Oğuz birliyinin pozulması etiket xarakteri daşıdığı üçün Aruzun Beyrəyi öldürməsi paraçalanmaya Oğuz qanı, qardaş qanı qarışdırması baxımından bir kökdən olanların qan yaddaşına təcavüz aktı kimi qiymətləndirilib Qalın Oğuzun parçalanmasında Aruz aqressiv tərəf kimi qəbul olunur. Ona görə də onun evi yağmalanıb Qalın Oğuz birliyi saxlanır. Çünki bu il yağmaya çağrılmayan Dış Oğuz gələn il çağrıla bilər. Öldürülən Oğuz ərəni isə geri qaytarıla bilməz. Qazanın evinin özü tərəfindən yağmaya verilməsi Qalın Oğuzun birləşməsi aktıdır. Məhz Dış Oğuzun yağmaya çağrılmaması bu aktın pozulmasına qarşı iğtişaş kimi ortaya çıxır. Lakin Aruzun evinin yağmalanması Qalın Oğuzun birləşməsini Qazan xan tərəfindən təmin edir. Bu Qazan xanın "Qalın Oğuzun dövləti" statusunu bir daha təsdiq edir. Elə Qazan xanın evinin yağmalanması gələnəyi də onun "Qalın Oğuzun dövləti" olmasını göstərir.

Qalın sözünün motiv səviyyəsi də Oğuz mifoloji dünya modelinin inikası olan yuxarıda diqqət çəkdiyimiz yay və ox örnəyində görünür. Oğuz xaqan yayı üç yerə parçalamaqla və hər birini bir oğluna verməklə bu parçaların ayrı-ayrılıqda yay parçası olması, yay funksiyasını yerinə yetirə bilməməsi, birləşdikdə isə bütöv yay ola biləcəyi, nazik olmanın ayrı-ayrılıqda sınacağı, bir yerdə qalın olmanın isə qalacağı tövsiyyəsini nümayiş etdirir. Üç oxun da ayrı-ayrılıqda deyil, bir yerdə güclü olmasını onun adının Uçoq qoyulması göstərir. Elə Uçoq adının assosiasiyası olaraq yay parçalarına bir yerdə Bozoq deyilməsi də böyük ox anlamı verməklə eyni mahiyyəti daşıyır. Sözün arxaik şəkli əlimizdə olmadığı üçün ifrat etimoloji araşdırmaya ehtiyac görmədən onu qeyd edək ki, dastan və nağıllarda bu iyerarxik strukturun motiv səviyyəsi daşınmaqdadır. Belə ki, üç, yaxud yeddi çubuğun (əsasən çubuq olur ki, bu da yay parçaları, yaxud ox arxetipindən qaynaqlanır) ayrı-ayrılıqda asanlıqla sın-

dırılması bir yerə bağlananda isə ən qüvvətli pəhləvanların da onu sındıra bilməməsi, qalın olduqda bütövlüyün və qüvvənin, nazik olduqda isə parçanın və zəifliyin işarəsi olaraq anlam qazanır. Bu baxımdan bu ifadə Oğuz mifinin paradiqması kimi motiv səviyyəsində müxtəlif örnəklərdə funksionallaşmış şəkildə diqqət çəkir. Hətta Yazıçıoğlu Əlinin "Təvarixi-ali Səlcuq" adlı Oğuznaməsində bu motiv qaynağının təsviri Oğuz mifində Qalın Oğuz dövlətinin nə demək olduğundan xəbər verir. Elə X.Koroğlu da bu barədə söhbət açarkən fikrimizcə, bu əhvalatı (bir oxun sınması, altı oxun isə sınmaması) verdikdən sonra "çox güman ki, bu əfsanə etimoloji baxımdan Oğuzların Bozok etnonimi ilə bağlıdır" (14, 54) qənaətinə təsadüfən gəlməmişdir.

Beləliklə, "Qalın Oğuzun dövləti" anlayışı Oğuz mifinin bütövlükdə paradiqması kimi proyeksiyalanmaqla bərabər Qalın Oğuz Bozoq-Uçoq birləşməsində şəxslərin təmsilçiliyinin (altı oğul nəzərdə tutulur) dövlət anlayışı ifadə etməsi göz qabağındadır. Məhz Oğuz xaqan yayları parçalamaqla, oxları bölüşdür-məklə bu oğulların Oğuz səltənətinin (xanədanının) dövləti olmasını modelləşdirir. Qazan xanın Oğuz mifinin paradiqması kimi "Qalın Oğuzun dövləti" olması eyni invariant strukturun DQK-də xan öyüncləri arasında obraz klişesi olaraq sabitləşməsi Oğuz ali idarəçiliyinin əsas şəxsi olmasından meydana gəlir.

## QAYNAQLAR


1. Adilov M. Niyə belə deyirik? Bakı: Azərnəşr, 1982, 238 s.

2. Агаджанов С.Г. Государство сельджукидов и Средняя Азия в XI-XII в.в., Москва: Наука 1991, 241с.

3. Azərbaycan Sovet Ensiklopediyası. 10 clddə. IX cild. Bakı: 1986, 624 s.

4. Ergin M. Dede Korkut Kitabı. Ankara: 1958, 251 s.

5. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2002, 146 s.

6. Ərəb və fars sözləri lüğəti. Tərtibçilər: Zərinəzadə H.H, Abdullayev B.T. Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı: 1966, 1036 s.

7. Gökyay O.Ş. Dedem Korkutun Kitabı. İstanbul: 2000, 3589 s.

8. Hacıyev A. "Dədə Qorqud kitabı": oxunuşlar, açımlar. Bakı: Elm, 2007, 215 s.

9. Kitabi-Dədə Qorqud / Tərtib edən H.Araslı. Bakı: Gənclik, 1977, 184 s.

10. Kitabi-Dədəm Qorqud (əla lisane-taifeyi-Oğuzan) / Tərtib edən Ş.Cəmşidov. Bakı: 1995, 174 s.

11. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

12. Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə. I c. Bakı: Yeni Nəşrlər Evi, 2000, 624 s.

13. Kitabi Dədə Qorqud Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Yeni Nəşrlər Evi, 2000, 567 s.

14. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 244 s.

15. Rəşidəddin F. Oğuznamə / Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R.M.Şükürova. Bakı: Azərbaycan Dövlət NPB, 1992, 72 s.

16. Rəşidəddin. Oğuznamə / Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003, 108 s.

# NOVRUZ BAYRAMININ QƏDİM AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ YERİ

**Sevinc Qasımova**
sevinc-qasimova@list.ru

## МЕСТО ПРАЗДНИКА НОВРУЗ В ИСТОРИИ ДРЕВНЕГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

РЕЗЮМЕ

История праздника Новруз всегда была тесно связано с национальными обычаями Азербайджана. В мифах и легендах показывается его принадлежность к азербайджанской земле. Согласно источникам средних веков, в последующие века праздник Новруз еще больше усилил свою связь с национальными традициями. До XX века в Азербайджане этот праздник отмечали с большим торжеством. В XVIII-XIX веках, когда Азербайджан был в составе России, царская власть не отмечала этот праздник на государственном уровне. Но несмотря на это, народ продолжал отмечать свой праздник. В результате революций, произошедших в начале 20 века, царская власть распалась. В Северном Азербайджане была основана Азербайджанская Демократическая Республика. Празднику Новруз уделялось большое внимание, и он считался одним из национальных источников. В период СССР праздник Новруз запрещалось проводить. В конце XX в. Северный Азербайджан вернул свою независимость, и праздник Новруз был освобожден от национальной агрессии. Это стало большим ДОСтижением Азербайджана, когда 30 сентября 2009 года ЮНЕСКО включил праздник Новруз в список праздников народов мира. Великая роль этого праздника в раз-

витии государственных традиций Азербайджана является его провозглашение как “Международный День Новруза“ 21 марта во всем мире на 64-ой сессии ООН.

***Ключевые слова:*** Новруз, праздник, фольклор, национальность, государственность, традиция

**THE PLACE OF THE HOLIDAY NOVRUZ IN THE HISTORY OF ANCIENT AZERBAIJAN STATEHOOD**

SUMMARY

The history of Novruz holiday was always connected with the national traditions of Azerbaijan. In myths and legends the connection of this holiday with Azerbaijan land is showed. According to the sources of the middle ages Novruz holiday improved its connection with national traditions in the following centuries even more. Till XX c. in Azerbaijan this holiday was celebrated with great intention. In XVIII-XIX c Azerbaijan was occupied by Russia and royalty didn`t celebrate this holiday. As a result of revolutions which took place in the beginning of XX c the royalty collapsed and the Azerbaijan Democratic Republic was established in Northern Azerbaijan. The government paid a great attention to the celebration of this holiday and considered it one of the sources of national ideology. During USSR the celebration of this holiday was forbidden. At the end of the XX c Northern Azerbaijan regained its independence and Novruz holiday was freed from the national oppression. It became the greatest achievement of Azerbaijan people when Novruz holiday was included into the list of the holidays of world peoples by UNESCO on the 30th of September, 2009. The greatest role of this holiday in the development of governing traditions of Azerbaijan is of its being declared at the 64th sessions of UNO as “International Novruz Day”.

***Key words:*** Novruz, holiday, folklore, ceremony, nationalism, government, tradition.

“Mərkəzi Asiyadan Balkanlara qədər uzanan böyük bir ərazidə məskunlaşan bütün türk xalqları tərəfindən sevinclə qarşılanan Yeni il – Novruz bayramının (1, 51) tarixinə nəzər salınarsa, onun milli dövlətçilik ənənələri ilə sıx bağlı olduğu üzə çıxar. Ən qədim dövrlərdən xalqımızın həyatında, adət-ənənələr dünyasında özünə möhkəm yer tutmuş bu bayram təkcə xalq kütlələrinə məxsus məişət bayramı olaraq qalmamış, dövlət səviyyəsində qeyd olunmuş, xalqımızın həyatını bütöv şəkildə əhatə etmişdir. Varlılar da, kasıblar da Novruzu qeyd etmiş, xalqın bütün təbəqələri Novruz bayramında bir araya gəlmiş, bayramı birgə qeyd etmiş, bayram sevinci ümummilli dəyər halına gəlmişdir. Bu da öz növbəsində xalqımızı birləşdirmiş, bütövləşdirmiş, dövlətçilik tariximizin milli əsaslarını möhkəmləndirmişdir.

Novruzun tarixi çox qədimdir. Tədqiqatçılar bu tarixi nə qədər dərinə aparırlarsa, Novruz bayramının tarixi sanki tükənmir. Çünki bu, bir ilbaşı bayramıdır. İnsanlar ilin dəyişməsini ibtidai icma dövründən qeyd etmiş, soyuq, ərzaq qıtlığı, səfalətlə dolu qışdan sonra yazın gəlişini böyük bir sevinc hissi ilə qarşılamış və bunu müxtəlif mərasimlərlə qeyd etmişlər. İctimai-iqtisadi formasiyalar dəyişdikcə təqvim düşüncəsi daha da inkişaf etmiş, bu əsasda Novruz bayramı xalqların və onların dövlətlərinin həyatında öz yerini daha da möhkəmlətmiş, yeni-yeni adət və ənənələrlə zənginləşmiş, məzmun və formaca əlvanlaşmışdır. Bu tarixi-mədəni prosesdə Novruz hər bir xalqın öz milli həyat tərzinə, milli dünyagörüşünə, adət-ənənələrinə uyğun şəkillər almışdır. Elə bu səbəbdən də orta əsrlər tarixi mənbələrində Novruz bayramı hər xalqın öz milli ənənələri, o cümlədən hər xalqın öz dövlətçilik ənənəsi

ilə bağlı bayram kimi təqdim edilməkdədir. Məsələnin bu tərəfinə hələ 1927-ci ildə "Maarif və mədəniyyət" jurnalında çap etdirdiyi "Azərbaycanda zərdüşti adətləri" adlanan məqaləsində diqqət verən Yusif Vəzir Çəmənzəminli yazırdı ki, bu günə qədər adət və ayinlərimiz tədqiq sahəsindən uzaqda qalmışdır. Az-çox Novruz haqqında fikir yürüdülmüşsə də, tarix nəzərə alınmamış və məsələ mücərrəd mülahizələr şəklində durub qalmışdır. Şərq müəlliflərinin bu barədə verdiyi məlumat qarışıqdır və çox zaman məsələyə sami etiqadları qarışdırdıqlarından tarixi həqiqət ortada itib gedir. Məsələn, "Bürhani-qate"nin: "Cənab haq aləmi və Adəmi ol gündə (Novruz günü) xəlq elədi" deməsi bizə Tövratı andırır. Halbuki, qədim Azərbaycan və İran Tövrat fəlsəfəsinə yabançıdır (2, 83).

Bu fikirdən məlum olur ki, şərq müəlliflərinin Novruz bayramı haqqında verdiyi məlumatlar qarışıq və ziddiyyətlidir. Yəni bir-birinə düz gəlmir, tarixlər, müxtəlif dünyagörüşləri bir-birinə qarışdırılmışdır. Müəllifə görə, Novruz bayramının tarixi, mənşəyi ilə bağlı məlumatlar sami xalqlarının inanclarına, xüsusilə yəhudilərini müqəddəs kitabı «Tövrat»dakı məlumatlara qarışmışdır.

Y.V.Çəmənzəminlinin "Bürhani-qate" adlanan fars mənbəsinə əsasən verdiyi başqa bir məlumat bilavasitə Azərbaycanla bağlıdır. Müəllif yazır: "Bürhani-qate" ikinci bir rəvayətdə nağıl eləyir: "Cəmşid şah ki ərəblər Mətuşələh deyirlər, səlatini-Pişdadiyandan bir padşahi-məşhurdur, nami-əslisi Cəmdir, əqtabi-ərzi geşt eləyərək Azərbaycan vilayətinə gəlib, ol mövzeyi estehsan etməklə əmr elədi. Bir mürtəfe məhəldə Şərq canibinə doğru bir mürəssə təxti-ali qurdular, kəndisi dəxi əlbisəyi-şahanə geyib və başında mücövhər və müşşə tac ol təxt üzrə mülukanə keçib qərar elədi. Vəqta ki, günəş tülu edib, şəşəəsi ol tac-təxtə toxunduqda bütün ol həvalini qərğeyi-nur və ziya etməklə hər kəs bu keyfiyyəti təyəmmün və istisad

edib, ziyadəsilə fərəhnak oldular və bu gün də bir yovmi-mümtazdır deyə o günə "Novruz" ilə təsmiyə elədilər və pəhləvi lisanında şüa – pörtövə "şid" itlaq olunmaqla cəm ləfzinə izafə ilə ol padşaha Cəmşid dedilər və ol gün cəşni-əzim edib ondan sonra və hər sənə rəsmi-mərqumu icra elədilər" (2, 83).

Müəllifin fikrindən məlum olur ki, pişdadiyan (pişdadilər) sülaləsindən olan məşhur Cəmşid şah "əqtabi-ərzi" (dünyanın qütbləri arasındakı əraziləri) gəzib Azərbaycana gəlir. Burada hündür bir yerdə şah taxtı qurdurur, əyninə şahlara məxsus geyim geyir, başına şah tacı qoyaraq həmin taxtda əyləşir. Sübh tezdən günəş qalxır və onun şüaları şahın tacına və taxtına düşərək ətrafı parlaq işığa qərq edir. Hamı sevinir və həmin gün bir "yovmi-mümtaz", yəni "seçilmiş, fərqli, məşhur bir gün" olduğuna görə onu Novruz adlandırıb, bundan sonra hər il böyük bayram, rəsmi dövlət bayramı kimi qeyd etməyə başlayırlar.

Bu təsvirdə, əslində, biri-biri ilə qovuşmuş iki mərasimin təsviri var:

Birincisi, Cəmşidin taxta çıxması (tacqoyma) mərasimi;

İkincisi, Novruz mərasimi.

Təsvirdən aydın olur ki, yeni şahın taxta çıxması mərasimi sübh tezdən icra olunurmuş. Əgər günəş çıxıb öz şüalarını taxt-tacın üzərinə salarmışsa, bunu xoş əlamət kimi qəbul edərmişlər. Yəni insanlar sübh tezdən günəşin çıxmasını gözləyərmişlər. Əgər günəş doğarmışsa, onda onlar bunu yeni şahın göylər tərəfindən razılıqla qarşılanması kimi qəbul edərmişlər. Yox, əgər günəş doğmayıb, buludların arxasında gizlənərmişsə, onda insanlar bunu göylərin taxta oturmaq istəyən şaha etirazı kimi başa düşərmişlər.

Digər tərəfdən, Cəmşidin taxta oturması gününün Novruz bayramı kimi qəbul olunmasına gəlincə, bu da yeni ilin başlanmağı ilə yeni şahlığın başlanmağının üst-üstə düşməsi deməkdir. Bunu nəzərə almaq lazımdır ki, Novruz bayramı

əsasında qışın yazla əvəzlənməsi duran mövsüm bayramıdır. O, dövri-qədimdən həmişə qışın sonunda – yazın başlanğıcında qeyd olunmuşdur. Yəni insanlar Novruz bayramı ilə qışı (köhnə ili) yola salmış, yazı (təzə ili) qarşılamışlar. Demək, belə güman etmək olar ki, Cəmşidin taxta çıxması mərasimi də məhz bu zamanda – qışın sonu ilə yazın başlanğıcının bir-birinə qovuşduğu vaxtda icra olunmuşdur.

Ümumiyyətlə, tacqoyma mərasimi ilə yeni ilin üst-üstə düşməsi, daha doğrusu, tacqoyma mərasiminin yeni ilin ilk günündə icra olunması qədim tarixi ənənədir və dünyanın əksər xalqlarında buna dair çoxlu nümunələr var. Belə tarixi-etnoqrafik nümunələri nəzərdən keçirmiş Mirça Eliade yazır: "Çox asanlıqla başa düşmək olar ki, nəyə görə tacqoyma mərasimi kosmoqoniyanı (dünyanın yaradılışını – S.Q.) təkrarlayır, yaxud Yeni ildə bayram edilir. Belə hesab edilir ki, şah bütün kosmosu (dünyanı – S.Q.) təzələyir. Təzələnmə, əsasən, yeni mövsüm dövrəsinin gəlməsi ilə Yeni ildə həyata keçirilir. Lakin bu zaman ritualla həyata keçirilən yenilənmə, mahiyyətcə, dünyanın yaradılışının təkrarıdır. O, hər yeni ildə takrarlanır" (3, 67).

Bu ümumiləşdirmədən o nəticəni çıxarmaq olar ki, Cəmşidin tacqoyma mərasiminin yeni ildə keçirilməsi təsadüf deyildir. Yeni ildə hər şey təzələnməli, yenidən doğulmalı, o cümlədən hakimiyyət də təzələnməlidir. Ona görə də belə güman etmək olar ki, yeni ildə Cəmşidin ya ilk dəfə tacqoyma mərasimi keçirilir, ya da bu, Cəmşidin hakimiyyətinin hər il Novruzda təkrarlanan yenilənmə, təzələnmə mərasimidir.

Bu mərasimdə iki cəhəti mühüm hesab edirik. Bunun birincisi Novruz bayramının dövlətçilik ənənəsi ilə, ikincisi isə Azərbaycanla bağlanmasıdır. "Bürhani-qate"dəki rəvayətdə Novruz bayramının Cəmşidin taxta çıxması ilə bağlanması bu bayramın bilavasitə dövlətçilik bayramı olduğunun sübutudur. Yada salmaq olar ki, müxtəlif rəvayətlərdə Novruz bayramı

dördüncü islam xəlifəsi Həzrət Əlinin də taxta çıxması ilə əlaqələndirilmişdir. Tədqiqatçı Ramin Allahverdiyev yazır ki: “Bayramın keçdiyi mürəkkəb tarix yolu göstərir ki, müəyyən dövrlərdə Novruz mərasimi ilə müqəddəs sayılan şəxslərin əlaqələndirilməsi meylləri olmuşdur. Bu cür vəziyyətlərdə tarixdə böyük hörmət və ehtiram qazanmış şəxsiyyətlərin real tarixi simaları tədricən rəvayətləşdirilmiş (əfsanələşdirilmiş) cizgilərlə əvəzlənilmiş olur. Sonrakı dönəmdə İslamın təsiri ilə Novruz mərasiminin müsəlmanların müqəddəs şəxslərindən sayılan Həzrət Əlinin taxta çıxarılması, həmçinin, xəlifələrin taxta çıxarılması ilə əlaqələndirilməsi də bu cür əfsanələşdirilmənin nəticəsi kimi izah edilməlidir” (4, 77).

Cəlal Qasımov da yazır ki, bir çox mənbələrdə “Novruz”un “Adəmin yaradıldığı gün”, “Nuhun gəmisinin torpağa oturduğu gün”, “Türklərin Ergenekondan çıxdıqları gün”, “Dünyada ilk hökmdar hesab edilən Kəyumərsin adı ilə bağlı gün”, “Cəmşidin Azərbaycana səyahəti ilə bağlı gün”, “Atəşpərəstliklikdən qalan bir bayram”, “Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün”, “Həzrəti Məhəmmədin peyğəmbərlik xələtini geydiyi gün”, “İmam Əlinin xilafətə gəldiyi gün”, “İmam Əlinin doğum günü”, “Küsülülərin barışması üçün imam Əli tərəfindən elan edilən bayram”, “İmam Əli ilə Fatimatüz-Zəhranın evləndikləri gün” və sair göstərilir (10, 15).

İkinci mühüm cəhət budur ki, Cəmşidlə bağlı əfsanənin bir mifoloji rəvayət olmasına baxmaraq, biz yenə də onun taxta çıxmasının məhz Azərbaycanla bağlanmasını təsadüf hesab etmirik. Güman edirik ki, burada məsələnin kökləri dərindədir və Azərbaycanla bağlanma təsadüfi deyildir. Əvvəlcə bu məsələyə Y.V.Çəmənzəminlinin öz münasibətini öyrənək. O yazır ki, “Bürhane-qate” və bütün İran müəlliflərinin “Novruz”u Cəmşidə mənsub elədikləri tarixi həqiqətdən uzaq görünür. Bir kərə Cəm və mənsub olduğu Pişdadiyan sülaləsi və Firdovsinin

qeyd etdiyi əksər adlar tarixi adlar gərək olmasınlar: Yanani-qədim müvərrixlərində başqa-başqa adlar göstərilir və İran abidə və kitabələrinin son tədqiqi yunanların haqlı olduqlarını meydana çıxartdı. Ola bilər ki, sasanilər təşviq etdiyi kimi, onlardan əvvəlki sülalələrdən bir padşah "Novruz"a artıq əhəmiyyət verirmiş, lakin bu adətin bir şəxsə isnad edilməsi, məncə, doğru deyil. Lakin "Novruz"un Azərbaycan mədəniyyəti məhsulu olduğuna qaneyəm. Buna zatən "Bürhane-qate" də işarə eləyir. İran mədəniyyətini Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti münqəriz olduqda bu mədəniyyət zərdüştiliklə bərabər İrana keçmiş və əsrlərcə pars səltənəti ilə yan-yana azərilər (muğlar) məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər. "Novruz" və başqa adətlərimiz də o zamanlardan qalmışdır (2, 83-84).

Yer düşmüşkən qeyd edək ki, Cəmşid şah haqqında bu məlumat bir qədər fərqli şəkildə Əbu Reyhan Əl-Birunidə belə təqdim olunur: "Bəziləri deyir ki, Cəmşid müxtəlif yerləri səyahət etməyi sevərmiş və Azərbaycanda olmaq istədiyi vaxt o, qızıl taxt-tacında oturmuş, insanlar çiynində onu daşımışlar. Günəşin şəfəqləri Cəmşidin üzərinə düşən zaman insanlar onu görmüş, heyran olmuş və sevinmişlər və bu günü bayram elan etmişlər" (5, 226).

Görünən budur ki, Novruz bayramının Azərbaycan mədəniyyətinin məhsulu olduğunu qəbul edən Y.V.Çəmənzəminli həmin bayramın Cəmşid şahla əlaqələndirilməsini qəbul etmir və göstərir ki, Cəmşid şah və onun mənsub olduğu pişdadilər sülaləsi tarixi şəxsiyyət və sülalə deyildir. Bu, doğrudan da, belədir. Belə ki, Cəmşid şah "Dünya xalqlarının mifləri" ensiklopediyasında da İran mifologiyası və eposunda pişdadilər süla-ləsindən olan əfsanəvi-mifoloji obraz kimi təqdim olunur. İ.Braginski yazır ki, "Avesta"da Cəmşidin adı Yima kimi keçir. Onun yeddi yüzillik hakimiyyəti "Şahna-

mə"də "qızıl əsr" kimi təsvir olunur. Cəmşid insanlara heyvan dərisindən olan paltar əvəzinə, parçadan olan paltar geyməyi öyrədir, dövlətçilik və insanların təbəqələrə bölünməsi ənənələrini yaradır (6, 372).

XI əsr fars-tacik şairi, riyaziyyatçı, astronom, filosof Ömər Xəyyamın "Novruznamə" əsərində Cəmşid haqqında verilmiş məlumatlar da onun əfsanəvi-mifoloji obraz olduğunu göstərir: "Cəmşid iblisi özünə tabe edir və bina və zərxara inşa etməyi əmr edir. Ondan əvvəl zərxaranı "iblis toxunuşu" adlandırırmışlar. Lakin insanlar tədriclə indi gördüyümüz vəziyyətə gəlib çatırlar. Daha sonra Cəmşid uzunqulaqla atı cütləşdirmiş, qatır əldə etmişdir. O, qiymətli daşların surətlərini əldə etmiş, bütün silah və bər-bəzək növlərini düzəltmişdir. O, mədənlərdən qızıl, gümüş, mis, qalay, qurğuşun əldə etmişdir: tac, taxt-tac, bilərzik, boyunbağı və üzüklər düzəltmişdir. O, müşk, ənbər, kamfara, zəfaran, aloya və digər ətirli maddələr əldə etmişdir. O, bizim qeyd etdiyimiz bayram gününə Novruz adını verdi və insanlara hər il yeni fərvərdinin hadisəsinin qeyd etməyi, bunu dönüm (Günəş) baş verməyənədək yeni gün (il) hesab etməyi əmr etdi" (7, 190-191).

Cəmşid şah haqqında Ömər Xəyyamın verdiyi bu məlumatı təhlil edən R.Allahverdiyev də yazır ki, buradakı Cəmşid obrazı heç də tarixi şəxs kimi özünü təqdim etməyir. Burada bu obraz daha çox əfsanələşmiş, yaxud başqa cür desək. mifləşdirilmiş şəxs kimi nəzərə çarpır. Onun icra etdiyi funksiyalar da, əslində, mədəni qəhrəmanın (demurqun) yerinə yetirdiyi funksiyalarla eyniyyət təşkil edir. Cəmşid obrazı bir sıra şərq xalqlarında olduğu kimi, farsların da ilkin mədəni qəhrəmanıdır. Şərq xalqlarının belə bir mühüm hadisəni öz demurqi ilə bağlaması tam mifoloji təfəkkürün daxili məntiqi qanunauyğunluğuna cavab verir (4, 76).

Beləliklə, verilmiş bu məlumatlar Cəmşidin bir mifoloji obraz olduğunu, onunla bağlı ənənələrin, o cümlədən Novruz ənənəsinin əfsanəvi tarix olmasını göstərir. Lakin bu əfsanəvilikdə diqqətçəkici məsələ həmin əfsanəvi, mifoloji tarixin məhz Azərbaycanla bağlanmasıdır. Bunu təsadüf saymırıq. Çünki digər mifoloji ənənələr də məhz Azərbaycana işarə edir. Biz Cəmşidin taxta çıxmaq – tac qoymaq niyyəti ilə Azərbaycana gəlməsi ilə "Oğuznamə" dastanında Oğuz kağanın Azərbaycana gəlməsi arasında da bir bağlılıq, oxşarlıq, əlaqə görürük.

XIV əsr müsəlman tarixçisi Fəzlullah Rəşidəddinin Oğuz Kağanın dünya ölkələrini fəth etməsindən bəhs edən "Oğuznamə" əsərinin "Oğuzun Arran və Muğan tərəfə hərəkəti" hissəsində deyilir ki, Oğuz Şirvan tərəfindən qalxıb Arran və Muğana gəldiyi zaman yay mövsümü idi. Hava son dərəcə isti və bu istidən orada qalmaq mümkün olmadığından məsləhətləşərək yaylaq olan dağlara tərəf getdilər. Qış gələndə təkrar enərək bu vilayətləri alar və yağma edərik dedilər. Yay aylarında bu vilayətlərin bütün yaylaqlarını və Sabalan dağlarına, Alataq və Ağdıböri dağlarına qədər yerlərini tamam işğal etdilər (Rəvayətlərə görə, Alataq adını onlar qoymuşdular və Sabalan adını da onlar vermişdilər. Türkcə «ortaya çıxıb dik duran nəsnəyə ***sabalan*** deyirlər). Yaylaqda qaldıqları zaman bu tərəflərdə olan bütün ölkələri ələ keçirib zəbt etdilər. Azərbaycan vilayətini də aldılar. Özünün xas atlarını otlaqları çox geniş və gözəl olan Ucan səhrasının otlaqlarında bəslədi. Orada olduğu vaxt bir gün hər kəsin toplanıb, bir ətək torpaq gətirərək burada bir təpə düzəltmələrini əmr etdi. Öncə özü bir ətək torpaq gətirib tökdü. Şəxsən özü torpaq tökdüyü üçün bütün əsgərlər də bir ətək torpaq gətirib tökdülər. Böyük bir təpə oldu. Bu təpənin adına Azərbaycan dedilər. (***"Azər"*** türkcə ***"yüksək"*** deməkdir, ***"baycan"*** da ***"zənginlərin, ulularm"*** yeri anlamındadır. Bu ölkə bu şəkildə məşhur oldu. Bu gün də Azərbaycan demələrinin səbəbi budur) (8, 31).

Burada Oğuz kağan haqqında rəvayətlə Cəmşid haqqındakı rəvayət arasında düşündürücü oxşarlıqlar var. Hər ikisi dünyanı gəzir, hər ikisi Azərbaycana gəlir və hər ikisi burada dövlətçiliklə bağlı mərasim icra edir. Cəmşid burada taxta çıxır, taxta çıxdığı gün Novruz adlanır. Maraqlıdır ki, "Oğuznamə"də Cəmşidin taxta çıxmaq – tac qoymaq üçün gəldiyi Azərbaycanın əsasını Oğuz kağan qoyur. O, burada mənası məlum olmayan bir mərasim icra edir, tökmə təpə düzəldir. Belə tökmə təpələrin kurqan adlandığı məlumdur və kurqanlar türk dünyasının hər yerində türklərə məxsus abidələrdir. Lakin burada düşündürücü məqam Oğuzun bu tökmə təpəni nə səbəbdən ucaltması və ona Azərbaycan adını verməsidir. Oğuz kağanın həmin təpədə hansı mərasimi icra etməsi barədə "Oğuznamə" dastanında heç nə deyilmir. Azərbaycana tac qoyma mərasimi üçün gələn Cəmşid məhz uca bir təpədə taxt qurdurur və mərasimi burada icra etdirir. O, mərasimi sanki Oğuzun ucaltdığı və Azərbaycan adını verdiyi təpədə həyata keçirir. Bu cəhətlərinə görə hər iki rəvayət bir-biri ilə bağlanır. Hər iki mərasim Azərbaycanda icra olunur. Oğuz burada təpə ucaltdırır və adını Azərbaycan qoyur. Cəmşid isə Azərbaycandakı uca bir təpədə tacqoyma mərasimini həyata keçirtdirir. Burada əsas olan cəhətlərdən biri budur ki, istər Cəmşidin, istərsə də Oğuzun icra etdirdiyi mərasimlə "Yeni gün" – Novruz başlanır. "Novruz" sözünün mənası hərfi mənada "yeni gün" deməkdir. Cəmşidin taxta çıxması ilə Novruz – Yeni gün adlanan bayramın əsası qoyulur. Oğuzun ucatdığı təpə ilə də bu vilayətin yeni adı – Azərbaycan adı qoyulur. Yeni adın qoyulması isə elə yeni həyatın, yeni zamanın, yeni günün – Novruzun başlanması deməkdir.

Bütün bu oxşarlıqları nəzərə alaraq güman etmək olar ki, Oğuzun tikdirdiyi uca təpə onun hakimiyyətinin rəmzidir. Təpəninin tikilməsi ilə o, sanki Cəmşid kimi öz hakimiyyətini təsdiq edir, təzələyir. M.Eliadenin bir qədər əvvəl nümunə

verdiyimiz fikrindən məlum olduğu kimi, şahlar hər yeni ildə öz hakimiyyətlərini və dünyanı təzələyirdilər (3, 67). Oğuz da bu təpəni tikməklə öz hakimiyyətini təzələyir. Yəni o, "Oğuznamə" dastanında bilavasitə təsvir olunmasa da, elə Cəmşid şah kimi sanki tacqoyma mərasimini həyata keçirir. Cəmşidin tacqoyma mərasimi "Yeni gün" – "Novruz" olduğu kimi, Oğuzun da öz hakimiyyətinin təzələnməsinin rəmzi olan təpə tikdirməsi Yeni gün – Novruzdur.

Əlavə etmək olar ki, Oğuz və Cəmşid haqqındakı bu rəvayətlərlə "Ərkənəqon" əfsanəsi arasında da bağlılıq görünür. Əfsanədə deyilir ki, göytürklər tatarlarla müharibədə məğlub oldular. Hamısı qırıldı, yalnız Elxanın övladlarından Qıyan və Nogüz sağ qaldı. Müharibədən on gün sonra gecə uşaqlarını alıb at belində qaçdılar. Savaşdan qabaq ordugah qurduqları yerə gəldilər. Burada dəvə, at, öküz və qoyunları qalmışdı. Onları da götürdülər. Biri o birinə dedi: "Əgər burada qalsaq, düşmənlər bir gün bizi tapacaqlar. Başqa boylara da getmək olmaz, hər tərəf düşməndir. Ən yaxşısı əldən-ayaqdan uzaq bir yerə qaçmaqdır". Bunlar belə deyib sürülərini qabaqlarına qataraq dağlara üz tutdular. Yolda bir dişi Keyik (maral) gördülər. Dalınca getdilər. Keyik dağların üstündən düz bir yerə keçdi. Hər yeri yaxşıca yoxlayıb gördülər ki, gəldikləri yoldan başqa bir yol yoxdur. Bir az da getdilər. Geniş çəmənlik bir ölkə gördülər. Burada axar sular, bulaqlar, meyvə ağacları, heyvanlar var idi. Sevindilər, burada məskən saldılar. Qışda heyvanların ətini yeyir, dərisini geyinir, yazda südünü içirdilər. Burada 400 il qaldılar, o qədər artıb çoxaldılar ki, daha oraya sığmadılar. Başbuğlar məşvərət elədilər, qərara aldılar ki, buradan çıxsınlar. Yol axitardılar, tapmadılar. Dəmirçi Burteçine dedi ki, dağı əridərək çıxmaq lazımdır. Sonra öyrəndilər ki, buraya gəlmiş bir qurdu qovarkən dəmir, kömür yatağı tapılıb. Qurd isə yatağın yanındakı balaca deşikdən qaçıb. Hamıya vergi qoyuldu:

hər kəs bir sıra odun, bir sıra kömür daşıyıb oraya yığdı. Od vurdular. Dağ əridi, yüklü dəvənin keçə biləcəyi qədər yer (oyuq) açıldı. Martın 9-u günü Ərkənəqondan çıxdılar. Burteçine əlinə qurd başlı bir bayraq aldı. Tatarlarla yenə savaşdılar, bu dəfə zəfər çalıb qisaslarını aldılar. *Ə r k ə n* – sarp, çılpaq, sərt, yalçın, *k o n* – keçid deməkdir (9, 44-45).

Rəvayətdən görünür ki, göytürklərin martın 9-da icra etdikləri bayram milli qurtuluş, yenidən doğuluş, yenidən yaranma, təzələnmə, yeni gün bayramıdır. Yəni maprtın 9-u göytürklərin Novruz – Yeni gün bayramıdır və onlar bu bayramı hər il qeyd edirdilər. "Ərkənəqon" rəvayəti ilə Oğuz və Cəmşid haqqındakı rəvayətləri birləşdirən cəhətlər bunlardır:

1. Cəmşidin Azərbaycanda bir uca təpədə taxta çıxması həm də Yeni gün – Novruz bayramıdır.

2. Oğuz Azərbaycanda öz hakimiyyətinin rəmzi olan bir uca təpə tikdirir. Bu təpənin adını Azərbaycan qoyan Oğuz həm də bu vilayətin Azərbaycan adı ilə başlanan Yeni gününün başlanğıcını qoyur.

3. Oğuz və Cəmşidlə bağlı rəvayətlərdə təpə hakimiyyətlə, dövlətçilik ənənəsi ilə bağlıdır. Çox güman ki, "Oğuznamə" dastanında deyilməsə də, Oğuz da öz himiyyətinin rəmzi olan həmin təpədə taxtaotruma mərasimini icra etdirir. Çünki o, təpəyə yeni ad verir. Yeni ad vermək yeni həyatın, yeni dövrün, yeni zamanın, yeni günün (Novruzun) başlanması deməkdir.

4. Arxaik-mifoloji ənənədə tacqoyma yeni illə bağlıdır. Cəmşid yeni ildə – Novaruzda tac qoyur. Oğuz hakimiyyət, taxt-tac simvolu olan təpəni tikdirməklə yeni zamanın – Novruzun əsasını qoyur. "Ərkənəqon" əfsanəsində də yeni həyata, yeni günə, yeni zamana, yeni hakimiyyətə qədəm qoyan türklər onu bayram kimi qeyd edirlər.

Göründüyü kimi, Azərbaycan xalqının ən əziz milli bayramı olan Novruzun milli varlığımızın əsası olan milli

dövlətçilik ənənələrimizin inikşafına həmişə xidmət etmiş və bundan sonra da əbədi ideoloji dəyər kimi öz tarixi missiyasını yerinə yetirərək, milli varlığımızın inkişafına daim öz töhfəsini verəcəkdir.

## QAYNAQLAR


1. İmanquliyeva A. Novruz Şərq ölkələrində / Azərbaycanda Novruz (toplu). Toplayanı, nəşrə hazırlayanı və elmi redaktoru Azad Nəbiyev. Bakı: Çıraq, 2012, s. 51-57

2. Çəmənzəminli Y.V. Azərbaycanda zərdüşti adətləri / Y.V.Çəmənzəminli. Əsərləri. 3 cilddə, III cild. Məqalə, oçerk və xatirələr. Bakı: Elm, 1977, s. 82-89

3. Элиаде М. Аспекты мифа. Москва, «Академический проект», 2001, 240 s.

4. Allahverdiyev R. Azərbaycan təqvim miflərinin semantikası: Fil. üzrə fəl. dok. ...dissertasiyası. Bakı, 2011, 158 s.

5. Бируни А. Избранные произведения. Том 1. Ташкент, 1957, 485 с.

6. Брагинский И.С. Очерк «Джамшид» / Мифы народов мира. В 2-х томах. Том 1. Москва, 1980, 372 с.

7. Хаййам О. Трактаты. Москва, 1961, 339 с.

8. Rəşidəddin. Oğuznamə. Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2003, 108 s.

9. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1987, 280 s.

10. Qasımov C. Novruz bayramı milli-mənəvi dəyərlərin repressiyası kontekstində / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 14-23

# URAL-ALTAYLARIN QƏDİM DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNƏ MİFOLOJİ GÖRÜŞLƏRİN, İNANCLARIN TƏSİRİ

**Tahir Nəsib**
nesiblitahir@yahoo.com

## ВЛИЯНИЕ МИФОЛОГИЧЕСКИХ МИРОВОЗРЕНИЙ, ВЕРОВАНИЙ НАГОСУДАРСТВЕННЫЫЕ ТРАДИЦИИ УРАЛО-АЛТАЙСКИХ НАРОДОВ

РЕЗЮМЕ

В научной среде мировой фольклористикитакое мнение широко распространено, что в древний период мифологические мировозрения, верования и государственные традиции урало-алтайских народов были тесно взаимосвязаны. Традиционное тюркское общество было построено позаконам гармонии природы. Между космической моделью мира, мировой гармонией и тюркской государственной организацией имелось единство. Чтобы вообразить мировозрение, духовное состояние того периода, достаточно взглянут на общественно-политическую атмосферу в современном мире, где господствует религиозные законы.

Типологическивлияние мифологических мировозрений, верований на государственные традициив древности было в истории всех народов. Но в сравнении сдругими народами в общественно-политической жизни урало-алтайских народов это явлениеимело ещебольщое значение. Потому что материально-духовная жизнь общества полностью подчинялась господствущему шаманизму, древних верований, различным культам. По-этому в отличии от эпических традиций других народов некоторые героические

сказания («Гэсэр», «Деде-Коркуд») урало-алтайских народов имели духовно-религиозные основы, значения.

***Ключевые слова:*** космический модел мира, урало-алтай, мифологический, государственность, традиции

**INFLUENCE OF MYTHOLOGICAL MEETINGS, BELIEFS IN ANCIENT STATEHOOD TRADITIONS OF THE PEOPLE OF URAL-ALTAI**

SUMMARY

In modern folklore studies such thoughts are widespread that in ancient times the mythological views, beliefs and socio-political life of the people of Ural-Altai originally developed from one another. Traditional Turkish society was built in accordance with the order in nature. “There was a connection between the cosmic world model and the world order and the Turkish state organization” (1,30). In order to understand the morale of the world of that time, it would be enough to look at the thinking and lifestyle of societies in which religious ideas dominate. At the same time this approach should be applied to the cultural and political past of all peoples of the world as a characteristic feature. After the emergence of "secular religions", society, state, faith and religious relations gradually changed to a different level, without essentially changing, all spheres of life were subject to the violent laws of dominant religions. This interaction has continued for centuries, the mood of the ancient and Middle Ages are observed in the states where religions are now leading. The dominant position of the mythological meetings and beliefs in the ancient times was essentially the same with the influence of dominant religions in the Vatican, Saudi Arabia, Iran (Christianity's Catholic, Shiite, Sunni sects).

***Key words:*** space world, Ural-Altay, mythology, statehood, tradition

**Giriş**

Müasir folklorşünaslıqda belə bir düşüncə geniş yayılmışdır ki, qədim dövrdə ural-altay mənşəli xalqların mifoloji baxışları, inancları ilə ictimai-siyasi həyatları bir-birindən ayrılmaz şəkildə inkişaf edirdi. "Ənənəvi türk cəmiyyəti təbiətdəki nizama uyğun qurulmuşdu. Kosmik dünya modeli ilə dünya nizamı və türk dövlət təşkilatı arasında bağlılıq vardı" (1,30). Həmin dövrün dünyasının mənəvi-ruh halını dərk etmək üçün çağdaş zamanda dini ideyaların hakim olduğu cəmiyyətlərin düşüncə və həyat tərzlərinə nəzər salmaq yetərli olardı. Belə yanaşma, eyni zamanda səciyyəvi xüsusiyyət kimi bütün dünya xalqlarının mədəni-siyasi keçmişlərinə tədbiq edilməldir. "Dünyəvi dinlər" yarandıqdan sonra cəmiyyət, dövlət və inanc, din münasibətləri mahiyyətcə dəyişilmədən tədricən başqa səviyyəyə keçmişdir, həyatın bütün sahələri hakim dinlərin pozulmaz qanunlarına tabe olmuşdur. Bu qarşılıqlı əlaqə əsrlərcə davam etmiş, indiki zamanda dinlərin aparıcı funksiyaya malik olduğu dövlətlərdə qədim dövrə, orta əsrlərə yaxın ruh halında müşahidə olunur. Vatikan, Səudiyyə Ərəbistan, İranda hakim dinlərin (xristianlığın katolik, islamın şiə, sünni məzhəbləri) cəmiyyəti idarə etmədə təsiri nədirsə, qədim dövrdə mifoloji görüşlərin, inancların kütləyə nüfuzu mahiyyətcə eyni səviyyədə dururdu.

"Dünyəvi dinlər"lə xalqların ictimai-siyasi həyatlarının bağlılıqları nisbətən yaxın keçmişdə (m.s. IV-XXI əsr) baş verdiyi üçün və həmin dövr haqda saysız-hesabsız dini, dünyəvi ədəbiyyat mövcud olduğuna görə əlaqələrin səviyyəsini, keyfiyyətini müəyyənləşdirmək asandır. Dinlərin müqəddəs kitablarının (Tövrat, İncil, Quran) mətnləri, ayrı-ayrılıqda "əxlaq kodeksləri" (allah-insan, allah-cəmiyyət münasibətləri, halal-haram, qadağalar, cəzalar və s.) siyasi həyatın dinə bağlılığının necə getdiyini hər bir incəliyinədək açıq göstərib izah edir.

Lakin "dünyəvi dinlər" öncəsi mifoloji şüur dövründə hakim olmuş, xalqın həyatını idarə edən "müqəddəs toxunulmaz qanunları" daşıdıqları xüsusiyyətlərinə görə əlaqələndirmək çətindir. Bunun əsas səbəbi, birincisi, çox uzun tarixi zamanın keçməsidir. İkincisi, yetərincə maddi-mənəvi mənbələrin (çoxsaylı yazılı mətnlərin, mədəni-inanc abidələrinin) olmamasıdır. Üçüncüsü "dünyəvi dinlərin" yad mədəniyyətlərə, inanclara qarşı həddən artıq "qısqanclığı, dözümsüzlüyü" nəticəsində xalqların öz köklü dəyərlərini unutmaq məcburiyyətində qalmalarıdır. Yenə də qədim Çin, Hindistan, Elam (Hammurapinin qanunları yazılmış daş abidələr), Şumer, Babil, Yunanıstan, Roma və s. mədəniyyətlərində "dünyəvi dinlər" öncəsi hakim inancların dövlətçiliyə təsirini əsaslandıracaq yazılı, arxeoloji mənbələr müasir dövrədək gəlib çatmışdır. Həmin cəhətdən Göy Türk tarixində inancların, dünya baxışların siyasi həyatda daşıdığı əhəmiyyəti də mifologiyaya, epik janrlara aid mətnlərdən, yüzlərlə yazılı daş abidələrdən aydınlaşdırmaq mümkündür.

Başqa dil birliklərinə daxil olan xalqlardan fərqli olaraq ural-altayların mənəvi-ruh dünyasında, buna bağlı olaraq maddi-mədəni həyatlarında epik yaradıcılıq daha köklü əhəmiyyət daşımışdır (ayrılıqda türklərin, monqolların hər birinin yüzlərlə qəhrəmanlıq dastanı mövcuddur). Buna görə də araşdırılan mövzunun əsaslarını qəhrəmanlıq dastanlarından da müəyyənləşdirmək olar.

**Dövrlərə görə tayfa, xalq və inanc, din münasibətləri**

Ural-altay xalqlarının, tipoloji olaraq bütün dünya xalqlarının dövlətçilik ənənələri tarixi-qəbilə, tayfa, cəmiyyət və mifoloji baxışlar, inanclar arası əlaqələr cəhətdən, eyni zamanda xalq, din münasibətləri baxımından fərqli dövrlərə bölünür. Şübhəsiz ki, birinci mərhələ qədim dövrdən başlayaraq "dünyəvi dinlərin" qəbul olunduğu tarixədək davam

etmişdr. İkinci mərhələ ayrı-ayrı türksoylu xalqların fərqli zamanlarda müxtəlif dinlərin təsirinə düşdüyü dövrü əhatəyə alır. Üçüncü mərhələ XX əsrin başlanğıcından sonunadək davam edərək həmin xalqların Leninin sosializm, mahiyyətcə oxşar olan Atatürkün laiqlik ideologiyalarına qulluq etdikləri "dinsizlik dövrü" ilə sərhədlənir. Dördüncüsü müasir dövrdə (XX əsrin sonu – XXI əsrin başlanğıcı) yeni başlayıb davam edən,məqsədi hələ aydın olmayan "ideloji, dini cəhətdən xaos" deyiləcək son mərhələdir.

Hər bir xalqın maddi-mənəvi varlığının təməlini (genetik kodlarını) təşkil edən mifoloji görüşlərin, inancların, örf-adətlərin, törələrin hakim olduğu tarixi birinci mərhələ həmin xalqın dövlətçilik ənənələrinin başlanğıcıdır. Ural-altay xalqlarının tarixinin bu dövrü haqda İ.N.Potanin, V.V.Radlov, A.D.Neel, L.N.Qumilyov və b. öz tədqiqatlarında dövlətçiliklə mifologiyanı əlaqəli araşdırmasalar da, qoyulan problemə aydınlıq gətirə biləcək bəzi mülahizələrlə çıxış etmişlər. Qeyd olunan xalqların folkloruna aid çoxsaylı mifoloji mətnlər, epik xalq yaradıcılığı nümunələri bu baxımdan zəngin qaynaq kimi dəyərləndirilə bilər və geniş elmi araşdırmalara tələbat var.

## Qəhrəmanlıq dastanının ictimai-siyasi əhəmiyyəti

Mövzu ilə əlaqəli xüsusilə vurğulanmalıdır ki, başqa dil ailələrinə daxil olan xalqlardan fərqli olaraq qəhrəmanlıq dastanları monqollarda, tibetlərdə həm dünyəvi ədəbiyyat əsərləri sayılırdı, həm də dini-müqəddəs mətnlər səviyyəsində tuturdu. "Qeser" digər dastanlarla müqayisədə monqol, tibet xalqları arasında daha müqəddəs sayılırdı. 1772-ci ildə Qeser haqda avropalılara ilk məlumat verən məşhur səyyah, tədqiqatçı, təbiətşünas və tarixçi Pyotr Simon Pallas Şərqi Sibirə səyahəti zamanı Monqolustanın Maymaçon (Altan - Bulak)

şəhərində Qeserin şərəfinə ucaldılmış məbədin mövcud olduğunu qeyd etmişdir (2, 313).

Qeseri Y.Klaprot öz əsərlərində Çində hakim mancur sülaləsinin qoruyucu ruhu, Huan Şendi-hun kimi göstərmişdir (2,14).

“Qeser” dastanının dini-müqəddəs mətn olması haqda A.David-Neel də yazmışdır: “Tibetdə, lamalar ölkəsində, eləcə də digər ölkələrdə xalq əsərləri mövcuddur, bunlar dini hisslərlə doludur – ona görə ki, dini ideyalar Tibetdə həmişə hakimdir, həm də bu əsərlər Tibetin dünyəvi ədəbiyyatı sayılır.., bunlar içərisində ən məşhuru tibetlərin milli epik poeması Linqli Qeser haqda qəhrəmanlıq dastanları silsi-ləsidir” (2, 20; 4, 474).

Tibet mənbələrinə görə türk əsilli tarixi şəxsiyyyət Qeser (4, 474) Orta Asiya mənşəli bon dinini (4, 404) buddaçılığa qar-şı qoruyur. Lakin qalib gələcəyi halda məğlub olur, buna bax-mayaraq onun fəaliyyəti tərəfdarları tərəfindən əfsanələşdirilir, haqqında qoşulan dastan da tədricən müqəddəs mətn sə-viyyəsinə çatır. Tarixi cəhətdən də həmin hadisələr VIII əsrin əvvəllərində Çin (Tan imperiyası) – Tibet müharibələri ilə uy-ğunlaşdırılmışdır (4, 404). Çünki həmin yüzillikdə Çinin siyasi-dini təsiri nəticəsindəi buddaçılıq Tibetdə kökləşir və bon dinini sıxışdırıb çıxarır. Burada bəzi incəliklər xüsusi ilə vurğulanıb qeyd edilməlidir. Birincisi, türklərin kyan tayfasından olan tarixi şəxsiyyət kimi Qeser III-IV əsrlər arasında yaşamışdır. Bu o deməkdir ki, “Qeser”dastanı həm çox qədimdən məlum idi, həm də VIII əsrdə buddaçılıq onu xalqın yaddaşından çıxarma-mışdı. İkincisi, qədim monqol, türk dastanlarını şamançılıq mi-fologiyasız təsəvvür etmək qeyri-mümkündür. Türk şamançılığı sufilik cərəyanı adı altında qərbdə orta əsrlər islam dünyasının ictimai-siyasi, mədəni həyatına nə dərəcədə dərin təsir etmiş-disə, eyni zamanda türk-monqol şamançılıq mifologiyası da

şərqdə birbaşa buddaçılığa bir o qədər nüfuz göstərmişdir. Buna görə də buddaçılığın tərəfdarları siyasi-dini, mədəni cəhətdən düşmən saydıqları Qeseri xalqın yaddaşından çıxara bilməyəcəklərini dərk etdikləri üçün məcburən onu öz qoruyucu ruhları kimi təbliğ etməyə başlayırlar. Artıq "Qeser" dastanı siyasi məqsədlər üçün təbliğ olunur. Üçüncüsü, tarixi şəxsiyyət olan Qeser surətinin dastanlar silsiləsində həm mifik, həm də gerçəkçi vəziyyətdə tərənnüm edilməsinin özü qədim türk, monqol cəmiyyətlərində ictimai-siyasi həyatla şamançılıq inanclarının ayrılmaz birliyini təsdiqləyir. Bu cəhətdən haqlı olaraq Jamsarano şaman ayinlərinin monqol xalqlarının ictimai-siyasi, mənəvi-dini həyatında böyük təsirə malik olmasını qeyd edir. Monqol dövlətçiliyinin qurucusu Çingiz xana həsr edilmiş Ecen Xoroda keçirilən ənənəvi mərasimlərə əcdad, od kultu və tenqriyə sitayiş inancının birbaşa davamı kimi baxır (3).

Dünya folklorşünaslığında ural-altay xalqlarının şifahi xalq yaradıcılığını araşdıran tədqiqtçıların böyük əksəriyyəti genetik-tipoloji cəhətdən onlar arasında çox yaxınlıqların oduğunu təsdiqləyirlər. Əgər islam, buddaçılıq dinləri ilə türk-monqol şamançılığının qarşılıqlı təsirləri nəzərə alınmasa, ancaq şamançılıq mifologiyası hesabda tutulsa, onda belə düşünmək olar ki, "dünyəvi dinlər" öncəsi dövrə aid türk cəmiyyətində dastanlar monqollarda, tibetlərdə olduğu kimi müqəddəs mətnlər səviyyəsində tutulurdu. Həmin cəhəti, ruh halını daha çox "Dədə Qorqud" dastanında aydın görmək olar. Dədə Qorqudun müstəqil oğuznamələrdə qəfildən peyda olub cəmiyyətə öyüd-nəsihət verməsi, baş şaman (peyğəmbər) xüsusiyyətlərinə malik olması, ovsunlu (qarğış) söz deyib Dəli Qarcarın qolunu qurutması, ümumiyyətlə, dastanda istifadə olunan şamançılıq mifologiyasına aid çoxsaylı elementlər, motivlər, kultlar buna əsas verir.

**Şamanşılıq mifologiyasının, şamanların cəmiyyətə siyasi-mənəvi təsiri**

Buryat folklorunda şamanlara aid mətnlərdə əsas yeri tarixi şəxsiyyətlər olmuş böyük şamanlar haqda məlumatlar tutur. Nəsr şəkilli folklor əsərlərində həmin şaman surətləri elə təsvir olunur ki, onlar həm nağıletmənin əsas qəhrəmanları olurlar, həm dəmifoloji qəhrəmanlarla gerçək tarixi şəxsiyyətləri birləşdirib əks edirlər (5). Şamanlar haqda miflərin, əfsanələrin, rəvayətlərin yaranmasında əsas olan səbəblər gerçək tarixi şəxsiyyətlərin həyatlarıdır. Sonralar bunların adları ətrafında gerçəkçi olmayan, uydurma mövzular yaranmışdır (5).

Gerçək həyatda "ağ", xeyirxah ruhlu böyük şamanlarda xalq içərisində dastan qəhrəmanları qədər alturizmçilikləri ilə seçilirlər, yüksək ideallar uğrunda özlərini qurban verəcək səviyyədə fədakarlıqlar edib əfsanələşirlər (5). Yuxarıda vurğulandığı kimi qeyd olunan xüsusiyyətlərə Dədə Qorqud da malikdir. İstinasız olaraq ural-altay xalqlarının epik yaradıcılığında qəhrəmanlar həmin yüksək xüsusiyyətləri daşıyırlar. Bu halın özü də bir daha ural-altay xalqlarının mifoloji görüşləri, dastançılıq ənənələri ilə gerçək həyatlarının sıx bağlılığını göstərir.

Maraqlıdır ki, gerçək həyatda (dialektik qanunlara görə) ancaq üstün keyfiyyətlərə malik olan şəxsiyyətlər önə çıxıb cəmiyyəti idarə edə bilərlər. Bunlardan məhrum olanlar kütlə tərəfindən tədricən mütləq kənarlaşdırılırlar. Mətə xan, Atilla, Bumın xaqan, İstəmi xaqan, Tonyukuk, Bilgə xan, Kün-Təkin, Çingiz xan, Sultan Alparslan və s. həmin keyfiyyətlərinə görə öz dövrlərində və sonralar tarixi yarı mifik şəxsiyyətlərə çevriliblər, qəhrəmanlar kimi ideallaşıblar. Bunların hər biri həm də şaman xüsusiyyətlərinə sahib idilər. Mənbələr Sultan Alparslanın şamançılıqla yağış yağdırma məharəti haqda məlumat verir.

Ural-altay xalqlarının dünyagörüşlərində, epik yaradıcılıqlarında, ictimai-siyasi həyatlarında xeyirxah (ağ) şamanların, qəhrəmanların, tarixi böyük şəxsiyyətlərin müqəddəsləşməsi, ideallaşması, üstün səviyyədə tutulması halı tanrıdan sonra əcdad ruhunun toxunulmaz qəbul edilməsi baxışı ilə əlaqəlidir.

Buna görə də monqol xalqlarının epik yaradıcılığında qəhrəmanların tanrılaşması və dastanların "xalq dini" (şamançılıq) ilə uyğunlaşdırılması bunlara dini mahiyyətli xüsusiyyət verir. Eyni zamanda, belə münasibət nəticəsində dastan söyləyicisi şamana tay tutulur, ona şair kimi baxılır, "göy" (tanrı) tərəfindən seçilmiş kimi qəbul edilir (3).

Q.D.Sanjeev də buryat epik ənənəsində dastanların dini məqsədli oxunmasını bunlarda şaman mifologiyasının üstünlüyü ilə, tanrıların çoxsaylı qəhrəmanlara çevrilmələri ilə əlaqələndirir (3).

Qədim mifoloji baxışlara görə istisnasız olaraq çinli imperatorlar (vanlar), tibetli senpolar (xanlar), türk, monqol xaqanları Göyün (tanrının) qoruması altında sayılırdılar. Həmin təsəvvürə uyğun olaraq kiçik dövlətlərin tabe olduqları mərkəzi imperiya (el) da Göy tərəfindən seçilmiş hesab olunurdu. Bu görüşlər öz başlanğıcını mifologiyada göydən enmiş ruh (işıq) qavrayışından alır. Həmin xalqların epik yaradıcılığında geniş yayılmış "göyün oğlu" motivi də buradan qaynaqlanır.

Mifoloji baxışların, şamançılğın qədim türk dövlətçiliyində tutduğu böyük əhəmiyyəti tarixi hadisə də təsdiqləyir. I Göy Türk xaqanlığının qurucusu Bumın xanın dəfn mərasiminə gələn çoxsaylı xalqların elçiləri sırasından xristian ərəblər İstəmi xana"nə üçün sizin dövlət, xalq çox zəngindir, güclüdür" sualı verirlər. Cavabında xan "ona görə ki, biz şamanlarımızın qeybdən verdikləri bütün göstərişləri olduğu

kimi yerinə yetiririk” deyir. Buradan da qədim türk cəmiyyətində inanclarla ictimai-siyasi həyatın nə qədər bir-birinə bağlı oduğu anlaşılır.

**Nəticə**

Mövzu üzrə aparılan araşdırma bir daha sübut edir ki, ural-altayların mifoloji görüşləri, epik yaradıcılığı və dövlətçilik ənənəsi bir-biri ilə sıx əlaqədə olmuşdur.

## QAYNAQLAR


1. Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı, Mütərcim, 2007,
2. Qumilyov L.N. Qədim türklər. Bakı, “Gənclik”, 1993,
3. Дугаров Б.С. Сакральный мир бурятской Гесериады. Небесный пантеон и генезис героя. 2005 Улан-Уде. Dissercathttp://www.dissercat.com /content/ sakralnyi-mir-buryatskoi – qeseriady – nebesnyi – panteon – i – qenezis – qeroya # ixzz 2 iqa2№4k. 27.
4. Героический эпос о Гэсэре. Иркутск. Издат. Гос. Университета. 1969.
5. Пурбуева М.В. Шаманский прозаический фолькьлор бурят: сюжети, мотивы и персонажи. Часть автореферата (введение диссертации). 2010. Улан-Уде. 14 стр. disserCat http://www.dissercat.com/content/shamanskii – prozaicheskii – folklore – buryat – syuzhety – motivy-i-personazhi# ixzz 2iqwww3wN

# “KİTABİ-DƏDƏ QORQUD”DA AT RƏNGLƏRİNİN DÖVLƏT GƏLƏNƏYİ İLƏ BAĞLILIĞI VƏ DÖVLƏT PROTOKOLUNUN GÖSTƏRİCİLƏRİ

**Seyfəddin Altaylı**
altayli_s@yahoo.com

XÜLASƏ

“Kitabi-Dədə Qorqud türk dilinin ən önəmli qaynağıdır. Orda türk xalqının ən önəmli mədəni dəyərləri əks etdirilib. Digər tərəfdən türk dövlət gələnəyi ilə bağlı bəzi ünsürlər də orda öz əksini tapıb. Dastanda dilə gətirilən at rəngləri də dövlət gələnəyi ilə bağlıdır. Biz bu məqalədə bunlardan bəhs edəcəyik.

***Açar sözlər:*** Kitabı-Dədə Qorqud, mədəni dəyərlər, türk dövlətçilik ənənəsi, döyüş atı.

## THE RELATIONS OF COLORS OF THE HORSE DEALING WITH THE GOVERMENT TRADİTİON AND THE INDICATORS OF THE STATE PROTOCOL IN “THE BOOK OF DEDE KORKUT”

SUMMARY

The most important Epics of Dede Korkut is a source of Turkish. There has been reflected most important cultural values of the Turkish people. On the other hand, some elements of the Turkish State tradition reflected there too. Horse colors is related to the Turkish State tradition. In this article, we will talk about them.

***Key words:*** Epics of Dede Korkut, cultural values, Turkish State tradition, battle horse.

“Kitabı-Dədə Qorqud” türk xalqının ən dəyərli əsərlərindən biri olmaqla yanaşı Türk dövlətçiliyinin də misilsiz zənginliyinin göstəricisidir. Bəzi tədqiqatçılar istisna olmaqla, bu abidəyə dövlətçilik gələnəyimiz yönündən yanaşan olmayıb. Araşdırmaçıların əksəriyyəti onu dil, ədəbiyyat, adət-ənənə, məişət və s. yönlərdən incələyib. Biz bu məqalədə at rəngləri ilə dövlət protokolunun “Kitabi-Dədə Qorqud”dakı göstəricilərindən bÿhs edəcəyik. Dövlət, istiqlal, ölkə və xalq” türk dövlətçilik gələnəyinin özülü anlamındadır (Kafesoğlu, 1998:232-237).

Türkün hakimiyyət anlayışına görə dövlətçiliyi ona Tanrı ərmağan edib (Giraud, 1999:108) və türk də onu layiqli şəkildə qorumalı və saxlamalıdır. Ancaq bu hakimiyyət bir bölgəyə məxsus deyil, cahanşümuldur, çünki islamdan qabaq da, islamdan sonra da türk xaqanları cahan hakimiyyətini onlara ehsan etdiyinə, dünya nizamını tənzimləmək işini özlərinə tapşırdığına inanırdı (Turan, 1995:10). Buna görə Bilgə Xaqan abidəsinin gündoğan üzündə “Türk Tanrısı (və) müqəddəs yer (və) su (iyələri) belə ediblər şübhəsiz; Türk xalqının adı-sanı yox olmasın deyə, xalq olsun deyə atam İltəriş xaqanı, anam Elbilgə xatını göyün təpəsində tutub (daha) yuxarı qaldırdılar, şübhəsiz” (Tekin, 2006:53).

Türk dövlətçiliyinin özülü Oğuz Xaqan tərəfindən qoyulub. “Şəcəreyi-Tərakimə”də deyilir ki, “Oğuz Xaqan Şam vilayətində olarkən bir quluna qızıl bir yay və üç ox verdi. Ona dedi ki, qızıl yayı gündoğanda, oxları isə günbatan tərəfdə bəşər ayağı dəyməyən bir yerdə basdır və bir ucunu da eşikdə burax”. Köləsi bu işi görüb gəldikdən bir il sonra üç böyük oğlunu gündoğan tərəfə, üç kiçik oğlunu da günbatan tərəfə ova yolladı. Böyük oğulları qızıl yayı tapıb gətirdilər və atalarının əmri ilə yayı parçalayıb bölüşdürdülər. Üç kiçik oğlu da günbatan tərəfdəki üç qızıl oxu tapıb gətirdi, Oğuz oxları

da onlara bölüşdürdü. Yurduna qayıtdıqdan sonra da böyük bir toy verdi və hamını bir yerə yığdı. Böyük oğullarını çağırıb dedi: “Siz qızıl yayı tapıb gətirdiniz adınız ‘Bozox’ olsun, kiçik oğullarım, siz də gümüş oxları tapıb gətirdiniz adınız ‘Üçox’ olsun. İndən belə Bozox nəslindən kim ola bilərsə o xaqan olsun, onlar sağda, Üçoxlar da solda əyləşsin. Dünya durduqca da əmrimə itaət etsinlər” (Ebülgazi, 1996:243-244). Türk dövləti də o gündən başlayaraq, bu şəkildə təşkilatlanıb (Kafalı, 1976:117) və hakimiyyət həmişə bu əldə olduğuna görə sağ tərəf həmişə müqəddəs sayılıb.

Qədim türklər gündoğan tərəfi müqəddəs saydığına görə Hun xaqanının otağının qapısı daim gündoğana baxırdı (Roux, 1994:87). Ulu babalarımız müqəddəs saydıqları gündoğana üzlərini tutub güneyə “sağ”, quzeyə isə “sol” deyirdi (Ögel, 1982:24-25). Göytürklər dönəmində və digər bəzi türk dövlətlərində dövlət daim sağ və sol tərəf olmaqla iki yönə ayrılıb idarə olunurdu (Arsal, 1947:209). Bu bölünmə də babalarımızın kosmoloji anlayışından irəli gəlirdi.

Bir digər məsələ isə dövlət protokolunda və ailədə kimin harda əyləşəcəyi və ya xaqanın otağında kimin harda dayanacağı mövzusudur. Oğuz dövründə bu nizamın əsasını özünün və oğlu Gün Xanın vəziri Irkıl Ata qoyub. Irkıl Ata bu nizama “orun” adını verib və bu nizam qanun halına gəlib.

Oğuzun göydən enən bir işıq içindən çıxan qızla evlənməsindən olan oğlu Gün Xan, Oğuzdan sonra xaqan olduğuna görə başda əyləşirdi. Onun sağında vəliəhd olan böyük oğlu Qayı, solunda isə Oğuzun digər yoldaşından olan oğlu, yəni Gün Xanın ögey qardaşı Göy Xan əyləşir və ya dayanırdı (Ögel, 1982:367-368).

Türk tarixi incələndiyi vaxt Oğuz Xaqanın vəsiyyətinin tarix boyu bütün türk dövlətlərində eynilə yerinə yetirildiyi aydın olur. Səlcuqlu dövləti, Anadoluda Bizans imperiyasına

qarşı daha yaxşı mübarizə aparmaq məqsədilə hakimiyyətləri altındakı torpaqların şərqində və qərbindəki ucqar yerlərdə "Uc" adını qoyduqları təşkilatlar yaratmışdılar (Köprülü, 1972:131). Bu təşkilatlar Hun və Göytürk dövründəki gələnəyin davamı anlamındadır.

Orxon abidələrində də sağ və sol anlayışının şahidi oluruq. Bilgə Xaqan abidəsinin quzey tərəfində, "Məndən sonra gələn kiçik qardaş və qardaş oğullarım, oğullarım, bütün soyum, millətim; **sağdakı** şadapıt bəylər, **soldakı** tarxanlar (Orkun, 1936:22)…ifadələri yer alır.

Türk kosmologiyasına görə xaqanın otağı, sarayı və ya yaşadığı yer dünyanın mərkəzindədir, dörd yön də onun hökmü altındadır (Esin, 1979:18). Sağ və solun müqəddəs sayılmasında (Sümer, 1992:165) türk millətinin yaradılış mifi və türkün dünyaya hökmran olmasının Tanrı tərəfindən ona bəxş edildiyi inancı hakimdir.

Ərəb səyyahı İbn Bəttutə, Qızıl Orda xaqanı Özbək Xanın təşkil etdiyi bir mərasimin şahidi olub və onu səyahətnaməsində qeyd edib. Bəttutənin dediyinə görə, mərasimdə dövlətin qabaqcıl şəxsiyyətləri "sağ" və "sol" nizama görə əyləşib. Xanımlar da öz nüfuzlarına görə sağda və solda əyləşiblər (Kafalı, 1976:119).

19-cu əsrdə İranda yaşayan Təkə türkmənləri tərəfindən təsadüfən tutulub saxlanılan və aralarında 14 ay yaşamaq məcburiyyətində qalan Henri de Couliboeuf de Blocqueville onların yaşam tərzini sonradan yazıb çap etdirdiyi əsərində olduğu kimi dilə gətirib. Blocqueville Türkmənlərin ev içində oturma nizamı haqda yazıb: "Evin yiyəsi ocağın qabağında və qapıya baxan yerdə əyləşir. Qadınlar qapının girişə görə sağında, kişilər və qonaqlar isə sol tərəfdə, yəni ailə başçısının sağ tərəfində əyləşir" (de Blocqueville, 1986:55).

Həm türk dövlət gələnəyində həm də ailə içində həyata keçirilən sağ və sol anlayışı “Kitabi-Dədə Qorqud”da da eynilə əks olunur.

Qam Bürə bəy oğlu Bamsı Beyrək boyunda: “Bayındır Xanın qarşısında oğlu Qara Budaq yayına söykənib durmuşdu. Sağ yanında Qazanın oğlu Uruz durmuşdu. Sol yanında Qazılıq Qoca oğlu bey Yegənək durmuşdu” (Ergin, 1997,117), – deyilib.

Həmin boyun ayrı bir yerində, “Xanın sağında Bayındır Xanın nəvəsi Salur Qazanın oğlu Uruz dayanırdı.

Xanın sol yanında Qazılıq Qoca oğlu bəy Yegənək dayanırdı (Gökyay, 2006:70) deyilib. Bu yeri tutduğuna görə Uruz vəliəhddir.

Qam Bürə bəy oğlu Bamsı Bəyrək boyunda, “Sağda əyləşən sağ bəylər, solda əyləşən sol bəylər” (Gökyay, 2006:99) sözləri yer tutub.

Sağ tərəfin önəmi Türk dünyasının hər tərəfində müşahidə olunur. “Manas” dastanında Manasın bir ünvanı da Sarı Noqaydır, çünki o sağ qola məxsusdu (Ögel, 2010:301). Altayda yaşayan türklərin inamına görə yerin iyəsi sağ əli döşündə, ürəyinin hizasında, sol əli belində kəmərinin üstündə olmaq şərti ilə dayanmaqdadır (Asena, 2011:128). Ələvilərdə bir qız qaçdıqdan və onların toyuna razı olunduqdan sonra qız evində təşkil onunan “xınayaxdı” mərasimində xına öncə qızın, sonra da nişanlısının müsahib qardaşının sağ əlinə yaxılır (Melikoff, 2006:92-93). Altay Türklərinin inamına görə hər insanın sağında “yayuçı” adlı yaxşılıq, solunda isə yeraltı dünyasının hakimi Ərlikin yolladığı “qara” iyə var (Kalafat, 2012:17). Altay evlərinin sağ tərəfi qadınlara məxsusdur (Asena, 2011:128). Dədə ələvilərin cəm mərasimlərində meydanın üzbəüzündə sağ tərəfdə sərilən postun üstündə əyləşir, onun solunda saz çalan ərənlər, dədənin sağında isə bacı adla-

nan qadınlar əyləşir (Yörükan, 1998:334). Trakyada Balım Sultan ocağına bağlı Bəktaşilər və Bədrəddinilərdə mürşid meydan evində küncdə, kişilər sağında, qadınlar da solunda əyləşir (Bahadır, 2005:70).

Hər bir şəxs tarix boyu Oğuz vaxtında qəbul edilən yer tutma nizamına görə öz yerində əyləşib və ya dayanıb. Uşun Qoca oğlu Səgrək boyunda Tərs Uzamış, öz yerini bilməyən və əyləşmə qaydasına uymayan Uşun Qoca oğlu Əyrəkə, "Mərə Uşun Qoca oğlu, bu əyləşən bəylərin hər biri oturduğu yeri qılıncının haqqıyla qazanıbdır. Mərə sən başmı kəsdin? Qanmı tökdün? Acmı doyurdun? Çılpaqmı geyindirdin?" (Ergin, 1997:225) deyərək ona dövlətin protokol qaydalarına görə hərəkət etmədiyini bildirərək xəbərdarlıq edib.

Türk millətinin həm özəyi, həm də mikro mənada dövləti sayılan ailə (Ögel, 1988:239), tarix boyu təbiətin və olayların hər cürə sınağından uğurla çıxıb. Türk dövlətləri tarix boyu eynilə ailədə olduğu kimi saat dəqiqliyi ilə işləyiblər. Bunun səbəbi də ailədə uşaqlara mənimsədilən nizam-intizam, onlarda bir mənada dövlətçilik şuurunun da yaranıb möhkəmlənməsinə səbəb olub. Məlumdur ki, xaqanlıq və vəliəhdlik qurultaylarda demokratik seçki ilə layiq olanlara verilirdi. Tərs Uzamış demişkən, hərə öz yerini ağlı, milləti və dövlətinə olan sədaqətlə işləməsi habelə qılıncının haqqı ilə alırdı. Türk dövlətçiliyində və "Kitabi-Dədə Qorqud"da şahidi olduğumuz sağ və sol anlayışlarının adi yerlərdən ibarət olması qələmə verilə bilinməz. Bu anlayışda cahan hakimiyyəti ideyası hakimdir. Buna görə hər bir türk oğlu bu yolda öz bacarığı ilə öz layiqli yerini tutmaq məcburiyyətindədir.

Müəyyən rənglərin də türk dövlət gələnəyi ilə bağlılığı vardır. Dədə Qorqud, Dirsə Xan oğlu Buğac boyunda meydana çıxıb alqış verərkən, "Səyirdərkən ağboz atın büdrəməsin!" (Gökyay, 2006:48), – deyir.

Ağboz rəng türk millətinin hakimiyyət anlayışı ilə bağlıdır. Dədə Qorqud da "ağboz atın büdrəməsin!", – deyərək "müqəddəs gündoğan" anlayışını dilə gətirib.

*Ağ rəng* Türk mifologiyasında saflığın, təmizliyin, sadəliyin, məsumiyyətin, aydınlığın, müqəddəsliyin rəmzidir. Ağ rəng qədim türk inamlarına görə ululuq, güclülük və ədaləti təmsil edirdi (Genç, 1997:8). Buna görə Avropa Hun imperiyası, Ağ Hun imperiyası, Qızıl Orda dövlətlərinin bayrağında zəmin ağ, Göytürk imperiyasında qurdun başı, Xəzər imperiyasında ulduzlar və qarşısındakı simvol, Qaraxanlı dövlətinin bayrağındakı simvol, Səlcuq imperiyasının bayrağındakı qartal, Xarəzmşahlar dövləti bayrağının simvolu, Qəznəvilərin bayrağındakı hilal, Böyük Teymur imperiyasının bayrağının ortasındaki üçlü simvol, Osmanlı bayrağının ay və ulduzu, çağdaş dövlətlərimizin bayraqlarındakı ay, ulduz və müəyyən simvollar ağ rənglidir, bunların heç biri də təsadüfi olaraq seçilməyib.

Altay türkcəsində "ağ" sözü cənnət anlamındadır (Ögel, 2010:571). Verbitskinin Altayda yaşayan türklərin dilindən qeydə aldığı "Yaradılış Dastanı"na görə Ülgən ucsuz-bucaqsız suların üstündə uçarkən və hələlik torpaq yoxkən dünyanı yaratmaq istədikdə ona işıq donundakı Ağ Enə adlı bir iyə köməklik edib (Radloff, 1976:238). Azərbaycan nağıllarında xeyirxah qəhrəmanın simvolik adı "Ağ atlı oğlan"dır (Axundov, 2005:286-310).

Bamsı Beyrək boyunda, Beyrək Qazan bəyin hüzuruna gəldikdə; "ala sabah sapa yerdə dikiləndə ağ ban evli" (Əlizadə, 1999:82), Qazanın evinin yağmalandığı boyda, "ağ ban evim burdan keçib gördünmü?" (Schmiede, 2009:40), yenə həmin boyda Salur Qazan qarət edilən yurduna gəldikdə "ağ ban evim dikiləndə yurdu qalıb" (Schmiede, 2009:39) ifadəsini işlədir. "Ban" köçəri həyat yaşayan türklərin barınağı olan

otağın qübbəsinin ortasındaki deşikdir (Altaylı, 1994:90). Əski Türklərdə Göytanrıya qurban edilən heyvanlar arasında ağ qoç da vardı. Altay Türklərinin mifik Tanrısı Ülgənə təqdim edilən qurbanın donu da açıq rəngliydi (İnan, 1999:19).

Türk kosmologiyasında qərb yönünü təmsil edən rəngin ağ olması səbəbi ilə Qızıl Orda dövlətinin qərb qanadına "Ağ Orda" deyilirdi (Kafalı, 1976:19). Altay türkləri şamanları "ağ şaman", "qara şaman" deyə ikiyə ayırırlar (Eliade, 1999:216-222). Uçan, yəni günahsız ruhlarla əlaqə saxlayanlar ağ şamanlar, yer altındakı günahkar ruhlarla əlaqə yaradanlar isə qara şamanlardır. Ağqoyunlu dövlətinin bayrağı ağ, dövləti yaradan Bayındır boyuna mənsub ələmlər də ağ rəngliydi (Ögel, 1991:33). Tatarlar qədim vaxtlarda hər il ağ rəngli bir atı pərpinləyərək ona müqəddəslik donunu geyindirərdi və qar yağmamış sahibi belə ona minməzdi (Roux, 1976:180-181). Nağılda qardaşları Məlikməmmədi quyudan çıxardarkən yarı yolda kəndirini kəsib onu quyuya salandan sonra divin əlindən xilas etdiyi qızın sözünə qulaq asıb döyüşə-döyüşə gələn ağ qoçla qara qoçu gördükdə ağ qoçun üstünə tullanır. Ağ qoç onu qara qoçun üstünə tullayır, qara qoç isə Məlikməmmədi qaranlıq dünyaya aparır (Zeynallı, 2005:174). Qədim vaxtlarda günbatan tərəfin rəngi ağ (Genç, 1997:8), simvolu isə qızıldı (Esin, 2004:28).

Qədim türklərdə yönləri təyin etmə iki şəkildə idi. Biri üzlərini gündoğan tərəfə döndərib sağ və sol, digəri də üzlərini günorta çağı günəşə tutaraq yönləri təyin etmələri idi (Ögel, 1982:24). Gündoğan tərəf qədim türk inamında xüsusi yer tutub. Göytürklər üzlərini günəşin doğduğu səmtə tutub bura "irəli", qərb tərəfə "geri", güneyə "gün ortası", quzeyə "gecə ortası" deyirdi (Ögel, 1982:24-25). Hun xaqanı daim üzü güney istiqamətdə oturardı. Onun sol yanı, yəni gündoğan tərəfi ən hörmətli yer idi (Asena-De Groot, 2010:88). Dünyaya

gəldiyim İğdirin Dizə kəndində meyid dəfn olunacağı məzarın başına aparıldıqda üzü gündoğan tərəfə çevrilib yerə endirilir. Həmin gələnəyə Türkiyənin Tunceli vilayətindəki ələvi inanclı kürdlərində də rast gəlinir (Kılavuz, 2005:218). Qədim Türklərin üzlərini güney tərəfə döndərib yönləri "*sağ, sol, öng, arkurı* yəni *arxa*" şəklində adlandırmaları tamamilə dini məqsədli idi. Əslində yönlərin bu şəkildə təyini xüsusi ilə Hunlar çağında olub, dövlət təşkilatı da buna görə tənzimlənib (Ögel, 1982:26). Bu nizama görə sol gündoğan tərəfdi və müqəddəs olduğuna görə vəliəhd şahzadə burada əyləşirdi. Oğuz zamanında isə dövlətin sağ tərəfi daha önəmliydi və xaqan burda əyləşirdi. Bu nizam tarix boyu davam edib və dövlət hakimiyyətini əlində saxlayanlar daim sağ tərəfdə əyləşiblər.

Türk dövlət gələnəyinin banisi olan Metə Kaqan e. q. 201-ci ildə Çin xaqanı Kao-tini Pətəng dağı hərbində mühasirəyə saldığında ordusunu dörd at rənginə görə tənzimləmişdi. Gündoğan tərəfdə "boz", qərbdə "ağ", güneydə "qonur", qüzeydə isə "qara" atlılar yerləşib mühasirəni tamamlamışdı (Ögel, 1988:99; Asena, 2010: 91; Kafesoğlu, 1998:285).

Buna görə, göy rəng, qədim türk inamında Tanrını təmsil edirdi və müqəddəsdi. Göy qədim türkcədə "yaruq" (işıq, parlaq) anlamını daşıyırdı və ən ulu məkandı. Yer-su isə Türkcədə "kararıq" deyilən məfhumun zirvəsi idi, bunun astrolojik simvolu Ay və Qara İlan adlı bürc idi (Esin, 1979:26). Qaqauzlar qədim vaxtlarda göyü şüşədən ibarət bir qübbə şəklində təsəvvür edirmiş (Zanet, 2010:60). Boz rəng də göyün rənginə yaxın olduğundan müqəddəslik mənası ilə yüklənib şərqdəki atların rəngi olub. Hun və Göytürk dönəmlərində Göytanrıya boz rəngli at qurban edilirdi. At həm dəyərli bir heyvan idi, həm də qamlar onunla göyə çıxıb, yeraltı dünyasına enə bilirdi (Çoruhlu, 2002:140-141). Anadoluda da "at, arvad, silah" üçləməsi bu üç şeyə verilən dəyəri vurğu-

layır. Xakasların "Ay Xuucın" adlı dastanında Xan Mərgən, oğurlanıb yeraltına aparılan uşaqlarını tapıb gətirmək üçün doqquz qolac boyundakı boz atıyla qaranlıq dünyaya enir (Arıkoğlu, 2007:551). Babai üsyanını başladan Baba İlyasın atı boz rənglidir. Bu məlumat onun nəvəsi Əlvan Çələbi tərəfindən yazılan "Mənaqıbnamə"də qeydə alınıb (Melikoff, 2007:205-206). Kül Tigin abidəsinin şərq üzündə, Kül Tigin Çin sərkərdəsi Çaçanın ordusu ilə döyüşərkən öncə "Tadık Çor"un boz atına, sonra İşbara Yamtarın boz atına, üçüncü olaraq da Yügən Silig Bəyin kəhər atına minib" (Tekin, 2006:33) düşmənə hücum edib.

Qədim türk inamında "qara" rəng coğrafi olaraq quzey yöndə olan yeri, şiddət və gücün böyüklüyünü göstərir, yaxşılığın qarşısında pisliyi, həyata qarşılıq ölümü və yası ifadə etmədə xüsusi bir funksiya daşıyırdı (Genç, 1997:40-42).

Qaqauzlar Böyük həftəyə "Qaranlıq Həftə" deyir, bu həftədə ölənlərin günahkar olduğuna inanırlar (Zanet, 2010:362), "Üç Pələvan" nağılında da Gürgən Qıvıran sallandığı quyunun dibindəki qaranlıq dünyaya qırxıncı gün çatır (Zanet, 2010:36). Anadoluda yaşayan ələvilərdə "qara" rəng cəhalətin, "qırmızı" isə işığın, aydınlığın rəmzidir (Melikoff, 2007:23). "Kitabi-Dədə Qorqud" dastanlarının Boğac Xan boyunda Bayandır Xan, "kimin ki oğlu-qızı yoxdu, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyunun yahnısından qabağına gətirin" (Əlizadə, 1999:39), – deyə buyuraraq "qara" rəngə qarşı münasibətini bildirir. 11-ci əsr divan ədəbiyyatının öncüllərindən biri olan Yusif Xas Hacib, "Qutadqu Bilik" adlı əsərində Qaraxanlı dövləti dövründə sıravi vətəndaşlar "qara", bəylər isə "ağ" şəklində vəsfləndirilib (Hacib, 1974:157). Türgiş dövləti Qərbi Göytürklərin on boyu tərəfindən yaradılmışdı. Onların beşi gündoğanda, digər beşi də günbatanda yaşayırdı. Onu gündoğanda məskun olanlar qurduğuna görə adı Sarı Türgiş döv-

ləti kimi səsləndirilirdi. Bu dövlət, 716-cı ildə tənəzzülə uğradıqda günbatanda yaşayanlar onu bərpa etdilər, ancaq adını türk dövlət gələnəyinə uyaraq məcburən Qara Türgiş dövləti qoydular (Ögel, 2010:275). Qaraxanlı dövlətinin vəzirləri də qara ipəkdən nişana daşıyırdılar, çünki dövləti qara xalqdan olanlar yaratmışdı (Genç, 1997:42). Azərbaycan sahəsində də əsir düşən və xidmətçilər üçün "qul-qaravaş" ifadəsi işlədilir. Mifik türk inancına görə "göy üzü" quzey yöndür və simvol rəngi olan "qara" da yaşadığımız yərdir (Esin, 1979:3-5). Qədim türk inamına görə, Tanrı insanlara ət yemələrini buyurduqdan sonra Ülgən göydən biri qara diğəri ağ rəngli iki daş gətirərək bir-birinə vuraraq çıxan qığılcımla atəş yandırıb (İnan, 1999:42). Qaqauzlar, torpağın yeraltı dünyasının üstünü örtən bir qübbə olduğuna inanır (Zanet, 2010:61), bir əfsanəyə görə də günəş axşam olanda yeraltı dünyasına enir (Zanet, 2010:62). "Kitabi-Dədə Qorqud"da Salur Qazanın evinin yağmalandığı boyda deyilir: "Salur Qazan yerindən durmuşdu. Doxsan başlı ban evlərin qara yerin üstünə tikdirmişdi" (Əlizadə, 1999:48). Qam Börənin oğlu Bamsı Beyrək boyunda da, "Qamqan oğlu Xan Bayındır yərindən durmuştu, qara yerin üstünə ağ ban evin tikdirmişdi" (Gökyay, 2006:64), — deyilir.

Türklərin quzey yönə qara deməsi, bu bölgədə iqlim şəraitinin həddən artıq ağır və ağacların, otların məhsulunun güneyə görə daha az olmasındandır. Azərbaycan və Anadolu sahəsində işlədilən "qara qış" ifadəsi də bundan yaranıb. Güney isə quzeyə nisbətən daha isti olduğuna görə "qara"ya əks rəng olaraq "ağ" rənglə təmsil edilib.

"Kitabi-Dədə Qorqud"da, Salur Qazanın evinin yağmalandığı boyda, "qonur atın yiyəsi, Uruz Xanın ağası, Bayındır Xanın kürəkəni Ulaş oğlu Salur Qazan yerindən durmuşdu"; yenə həmin boyda, "Qazan qonur atını çəkdirib mindi, Dəli Dondar təpəl qaşqa ayqırını mindi, Qazan bəyin qardaşı Qara-

günə göy bədöy atını tutdurub mindi, Bayındır xanın düşmənini məğlub edən Şir Şəmsəddin ağ atını çəkdirib mindi, Parasarın Bayburd hasarından sıçrayıb aşan Bəyrək boz ayğırına mindi, qonur atlı Qazana "keşiş" deyən Bəy Yegənək doru ayğırına mindi" (Gökyay, 2006:50); İç Oğuza Daş Oğuzun Dönük Çıxması və Beyrəyin Öldüyü boyda Qazan, Qılbaş ilə Aruza xəbər yollayıb deyir; "dəvələrimi nərildətdilər, qaracıq Qazlıq atlarımı kişnətdilər" (Əlizadə, 1988:221).

Nəticə olaraq, Oğuz xaqanın, eradan əvvəl 201-ci ildə ordusunu Pətəng dağı döyüşündə hunlardakı yön anlıyışına uyğun olaraq at rənglərinə görə, gündoğan tərəfdə "boz", qərbdə "ağ", güneydə "qonur", quzeydə isə "qara" atlılar şəklində yerləşdirməsi və ordusunu buna görə nizamlaması, Orxon abidələrində Kül Tiginin düşmənlə döyüşərkən mindiyi atların rəngi ilə "Kitabi-Dədə Qorqud"da Qazanın qonur, Bəy Yegənəkin doru, yəni qonur, Bəyrəyin boz, Şir Şəmsəddinin ağ atına minməsi, Qazanın Qazılıq atlarının qara rəngli olması, Oğuz Kaqan dövründəki dövlətçilik və yön anlayışının eynilə həm Göytürklərdə, həm də Dədə Qorqud dastanlarında digər tərəfdən dövlət protokolunun mifoloji çağlardan tutmuş Səlcuq və Osmanlı dövlətinin tənəzzülünə kimi davam etdiyini, bunların qismi olaraq bugün də yaşayaraq davam etdiyini sübut edir.

## QAYNAQLAR

Axundov, Əhliman, Ağ Atlı Oğlan, Azərbaycan Nağılları, C 4, Şərq-qərb, Bakı 2005

Altaylı, Seyfettin, Azerbaycan Türkçesi Sözlüğü, MEB yayınları, İstanbul 1994

Arıkoğlu, Ekrem, Hakas Destanları I. TDK Yay. Ankara 2007

Asena, G. A. Nikolay Şodoyevin Diliyle Altay Bilik, Pan yay. İstanbul 2011

Asena, G. A-J.M. De Groot, Hunlar ve Türkistan, Pan yay. İstanbul 2010

Bahadır, İbrahim, Alevi Tören ve Ritüelleri, Sempozyum. İmece Kültür Sanat Evi, Ankara 2005

Çoruhlu, Yaşar, Türk Mitolojisinin Anahatları, Kabalcı, İstanbul 2002

Esin, Emel, Türk Kosmolojisi, İstanbul 1979

Esin, Emel, Türk Sanatında İkonografik Motifler, Kabalcı, İstanbul 2004

Eliade, Mircea, Şamanizm, İmge yayınları, Ankara 1999

Əlizadə, Samət, Dədə Qorqud Ensiklopediyası, Kitabı Dədəm Qorqud, Yeni Nəşrlər Evi, C. I, Bakı 1999

Əlizadə, Samət, Kitabi Dədə Qorqud, Yazıçı, Bakı 1988

Genç, Reşat, Türk İnanışları ile Milli Geleneklerinde Renkler, Ankara 1997

Gökyay, Orhan Şaik, Dede Korkut Hikâyeleri, Kabalcı yayınevi, İstanbul 2006

Has Hacib, Yusuf, Kutadgu Bilig, Çeviri: Reşit Rahmeti Arat, TTK basımevi, Ankara 1974

İnan, Abdülkadir, Tarihte ve Bugün Şamanizm, Ankara 1999

Kafalı, Mustafa, Altın Orda Hanlığının Kuruluş ve Yükseliş Devirleri, Ed. Fak. Yay. İstanbul 1976

Kafesoğlu, İbrahim, Türk Milli Kültürü, Ötüken yayınları, İstanbul 1998

Kalafat, Yaşar, Renkler, Berikan yay. Ankara 2012

Kılavuz, Hasan, Alevi Töre ve Ritüelleri, Sempozyum. İmece Kültür Sanat Evi 2-3 Nisan, Ankara 2005

Melikoff, İrene, Kırklar Ceminde, Demos yay. İstanbul 2007

Melikoff, İrene, Uyur İdik Uyardılar, Demos yay. İstanbul 2006

Ögel, Bahaeddin, Türk Kültür Tarihine Giriş, KBY, Ankara 1991

Ögel, Bahaeddin, Türk Kültürünün Gelişme Çağları, TKAE Vakfı Yay. İstanbul 1988

Ögel, Bahaeddin, Türk Mitolojisi, C. I, TTK Yay. Ankara 2010

Ögel, Bahaeddin, Türklerde Devlet Anlayışı, KBY, Ankara 1999

Radloff, Wilhelm, Sibirya'dan Seçmeler, çeviri. Ahmet Temir, KBY, İstanbul 1976

Roux, Jean-Paul, Orta Asya'da Kutsal Bitki ve Hayvanlar, Kabalcı, İstanbul 2005

Schmiede, H. Ahmet, Kitabı Dedem Korkut, TDV Yay. İstanbul 2009

Tekin, Talat, Orhon Yazıtları, Türk Dil Kurumu Yayınları, Ankara 2006

Turan, Osman, Türk Cihan Hakimiyeti Mefkûresi Tarihi, Boğaziçi yayınları, İstanbul 1995

Yörükan, Yusuf Ziya, Anadolu'da Aleviler ve Tahtacılar, K.B. Yayınları, Ankara 1998

Zanet, Todur, Qaqauzluk, Kişinov 2010

Zeynallı, Henefi, Azerbaycan Nağılları, Şerq-qerb, Bakı 2005

# FOLKLOR YADDAŞIMIZDAKI İLK TÜRK-OĞUZ DÖVLƏTİ VƏ KÜR-ARAZ MƏDƏNİYYƏTİ

**Bəxtiyar TUNCAY**
notification+zj4o02cco9f6@facebookmail.com

## ПЕРВОЕ ТЮРКО-ОГУЗСКОЕ ГОСУДАРСТВО В ФОЛЬКЛОРНОЙ ПАМЯТИ И КУРО-АРАКСИНСКАЯ КУЛЬТУРА

РЕЗЮМЕ

В шумерском и тюркском фольклорах упоминется название древнего государства Маган (Махан), которое по тюркской традиции являлся древнейшим государством огузов, что полностью подтверждается археологическими и генетическими исследованиями.

Итальянские археологи, которые вели археологические расскопки в том районе, который соответствует по фольклорным традициям тюрков древнейшему огузскому государству, т. е. в Турецском Арслантепе, в слоях, относяшихся к 3300-3200 гг. до н.э. наткнулись на царьский дворец, что доказывает существование в данной территории древнего государства. Было вявлено, что государство это появилось с приходом в те края носителей куро-араксинской культуры.

У представителей куро-араксинской культуры определены Y-хромосомные гаплогруппы R1b1-M415 (xM269), R1a-Z282 и R1a-Z93, которые доминируют у турок и азербайджанцев, язык которых относится огузской подгруппе тюркских языков.

Доказано, что гаплотипы R1b демонстрируют большее разнообразие малых побочных ответвлений в Анатолии и на Кавказе.

Согласно Underhill et al. (2014/2015), R1a-M417 выделилась в Z282 и Z93 около 5800 лет назад в Анатолии и северо-западном Иране, точнее в Иранском Азербайджане. Хотя R1a встречается как наиболее частый вариант среди популяций, говорящих на тюркских языках.

***Ключевые слова:*** шумерский, турецкий, огузский, фольклор, фольклор, арслантепе, культура Кур-Араз, гаплогруппы R1b и R1a.

## THE FIRST TURKIC-OGUZ STATE IN FOLKLORE MEMORY AND THE KURO-ARAKSYN CULTURE

SUMMARY

In the Sumerian and Turkic folklore, the name of the ancient state of the Magan (Mahan) is mentioned, which according to the Turkic tradition was the most ancient state of the Oguzes, which is fully confirmed by archaeological and genetic studies.

The paper presents the main results obtained in the recent excavation of the early 3rd millennium levels at Arslantepe-Malatya, which reveal substantial changes following the collapse of the Late Chalcolithic centralised system in connection with the establishment of new groups linked to the Kura-Araxes culture. The new data show that these early 3rd millennium settlements, besides marking a break with respect to the earlier Chalcolithic period and a radically new organisation, interestingly also show more elements of continuity than previously thought in the maintenance of a central role for Arslantepe in the Malatya region and in the continuation of some traditions such as those related to metallurgy. Rather than a momentary intrusion of pastoral communities of Transcaucasian origin, the new picture suggests the temporary appropriation of the site by mobile, probably transhumant

groups moving in a wide area around the plain and already well-rooted in the region; after the destruction of the 4th millennium palace, they used Arslantepe as their power centre and landmark, probably competing with the local rural population for the control of the site and the region.

The expansion of Y-DNA subclade R-Z93 (R1a1a1b2), according to Mascarenhas et al. (2015), is compatible with the archeological records of eastward expansion of West Asian populations in the 4th millennium BCE, culminating in the socalled Kura-Araxes migrations in the post-Uruk IV period. According to Pamjav et al. (2012), Inner and Central Asia is an overlap zone for the R-Z280 and R-Z93 lineages, implying that an "early differentiation zone" of R-M198 "conceivably occurred somewhere within the Eurasian Steppes or the Middle East and Caucasus region as they lie between South Asia and Eastern Europe". According to Underhill et al. (2014/2015), R1a1a1, the most frequent subclade of R1a, split into R-Z282 (Europe) and R-Z93 (Asia) at circa 5,800 before present, in the vicinity of Iran (South Azerbaijan) and Eastern Turkey. According to Underhill et al. (2014/2015), "this suggests the possibility that R1a lineages accompanied demic expansions initiated during the Copper, Bronze, and Iron ages".

These haplogroups (R1b and R1a) dominate among Turks and Azerbaijanis.

***Key words:*** Sumerian, Turkish, Oghuz, Folklore, Folk-lore, Arslantepe, Kur-Araz culture, R1b and R1a haplogroups.

S.N.Kramer "Tarix Şumerdən başlayır" kitabının XlV fəslində 450 sətirlik "Enki və Kainat" adlı poema barədə məlumat verir. Təqribən 5000 il öncə qələmə alınmış bu poe-manı bizim üçün maraqlı edən buradakı Mahan toponimidir:

"Ölkələr... Mahan və Dilmun baxaraq mənə,
Dilmun gəmiləri şalban daşıyır.
Mahan gəmiləri göyə qədər yüklənib,
Meluhhidən "mahilum" yelkənli gəmilər
Qızıl və gümüş gətirir onlar.
Hamısı daşıyırlar Nippura" (13, s. 42-43).

Burada rast gəldiyimiz Mahan toponimini bizim üçün maraqlı edən əsas cəhət ona türk tarixi mənbələrində və folklor nümunələrində də rast gəlinməsi, bu yerlərin oğuz yurdu kimi yad edilməsidir. Belə ki, Övliya Çələbidə də eyni ölkə adını görürük. Övliya Çələbi Axlat şəhərinin təsviri zamanı bildirmişdir ki, tarixçilər bu şəhərin adını Dərmalə adlandırırlar və bu da "Oğuz şəhəri" deməkdir. O, Axlat oğuzları haqqında əfsanəni misal gətirərək yazır ki, «Qədim zamanlarda bu şəhər Mahan ölkəsinin şahına mənsub idi. Şah Samanqana gəlib, axlatlılardan yüz min yumurta tələb edir. Oğuzlar bu qədər yumurtanı toplayırlar, ancaq fikirləşirlər ki, onu göndərmək üçün at, dəvə lazımdır. Ağsaqqallar yığışıb məsləhətləşirlər. Bunu eşidən Mahan şahı öz adamını onların yanına göndərir və bildirir ki, mən gümüş yumurta nəzərdə tutmuşdum, toyuq yumurtası yox, amma onların ağır vəziyyətini nəzərə alaraq onları vergidən azad edirəm. Oğuzlar gəlib yumurtalarını geri alırlar. Amma yumurtalar nişanlanmadığından kiminə böyük, kiminə kiçik yumurta düşür. Bunu ədalətli hesab etməyən oğuzlar Allahın qəzəbini gözləməyə başladılar. Belə də oldu. taun xəstəliyi gəldi. Bir gecədə şəhəri 12 min çadır tərk etdi. Onlar Misirə gəldilər. Abbasi xəlifəsi əl-Mustakfibillah Misirin Şərqində onlara yer ayırdı. Burada onlar özlərinə kərpicdən ev tikdilər. O vaxta qədər Misirdə heç kim özünə kərpicdən ev tikməmişdi. İndi də Qahirədən şərqə xarabalıq qalır. Bu yeri "Axlat məhəlləsi" adlandırırlar» (6, s. 62-63).

Görəsən, Şumer əfsanəsindəki Mahanla haqqında Övliya Çələbinin məlumat verdiyi Mahan eyni ölkədirmi, yoxsa, bu, adların təsadüfi bir bənzəyişidir, axı, iki məlumatın qeydə alındıqları dövrlər arasında təqribən 4700-5000 illik məsafə var?! Doğrudanmı, bu böyüklükdə zaman kəsiyi ərzində yer adları dəyişmədən və ya cüzi dəyişikliklə dövrümüzədək ulaşa bilmişdir? Faktlar göstərir ki, bu suallara müsbət cavab vermək lazımdır.

Yuxarıda içərisindən sitat gətirdiyimiz Şumer dastanından belə aydın olur ki, Mahan ölkəsindən gəmilər yüklə qədim Şumerin Nippur şəhərinə gələrmişlər. Bu şəhərin yerini amerikalı alimlər 1883-cü ildə müəyyənləşdirə bilmişlər. Yerli ərəblərin "Nuffar" (Nippur adının bir qədər dəyişikliyə uğramış adı) adlandırdıqları yerdə aparılan arxeoloji qazıntılar ilk nəticəsini elə həmin il versə də bədəvilərin alimlərə hücumu onları tədqiqatları yarıda kəsməyə məcbur etmişdi. 1893-1896 və 1899-1900-cu illərdə aparılan qazıntılar Fərat çayının aşağı sahilində yerləşən qədim Şumer şəhərini gün üzünə çıxardı (18, s. 140).

Deməli, Mahan ölkəsindən gəmilər Nippura Fərat çayı vasitəsi ilə gəlirmiş. Övliya Çələbinin Mahan ölkəsinin şəhərlərindən olduğunu söylədiyi Axlat Dəclə çayının yuxarı axarında (6, s. 60), indiki Türkiyə ərazisində yerləşirdi və indi də orada yerləşir. Bu isə o deməkdir ki, Mahan ölkəsi Dəclə və Fərat çaylarının yuxarı axarında, bu iki çayın bir-birinə çox yaxınlaşdığı yerdə imiş və həm Şumer dastanında, həm də Övliya Çələbidə söhbət eyni ölkədən gedir.

Övliya Çələbinin bu ölkə ilə bağlı söylədiklərində diqqəti ən çox çəkən məqamlardan biri də Bayındır xanın həmin ölkə ilə əlaqəli yad edilməsidir. Xalıq Koroğlu yazır ki, «Axlatda ilk oğuz köçərilərinin yaşaması haqqında bütün tarixlər və əfsanələr danışırlar. Ancaq Övliya Çələbinin məlumatında ("Qorqud Kita-

bı"nda oğuzların baş hakimi) Bayandur xanın Mahandan olması çox maraq doğurur. Bu isə o deməkdir ki, "Qorqud Kitabı"ndakı Bayandur xan bir çox tədqiqatçıların fikirləşdiyi kimi (V.Bartold, V. Jirmunski və b.) etnonimin şəxsləndirilməsi deyil, tarixi şəxsiyyətdir. Bunu qəti şəkildə təsdiqləmək üçün bizdə kifayət qədər material yoxdur. Ancaq Övliya Çələbinin məlumatlarını tarixi həqiqət kimi qəbul etsək, onda məntiqi baxımdan "Qorqud Kitabı"ndakı Bayandur xanın prototipi olması ehtimalı artır. Bunu Övliya Çələbinin versiyasında Osmanlıların əcdadı Qayı Alp bəyin qardaşı olması da gücləndirir» (6, s. 63).

Maraqlıdır ki, "Kitabi-Dədəd Qorqud"da Bayındır xanın Amid (Diyarbəkr) sahillərindən olması qeyd edilir. Qazan xan da Amid (Diyarbəkr) soylu adlandırılır. Qədim Amid şəhərinin, yəni bugünkü Diyarbəkrin isə həmin bölgədə yerləşdiyi məlumdur.

İşin ən maraqlı tərəfi isə budur ki, ilk Türk-Oğuz dövləti barədə folklor yaddaşımızda yaşamaqda olan məlumatlar həm arxeoloji, həm də genetik tədqiqatların nəticələri ilə tam təsdiq olunur.

Son dövrlər bölgəmizdə dövlətçiliyin ilk rüşeymlərinin Kür-Araz mədəniyyəti dövründə yarandığı fikri elm aləmində özünə çox sayda tərəfdarlar toplamaqdadır. Belə hesab edilir ki, Tunc dövründə (e.ə. IV minilliyin ikinci yarısı – II minilliyin sonu) regionda yaşayan qədim tayfalar arasında iqtisadi-mədəni əlaqələr genişlənmiş, yüksək dağlıq zonaların əsaslı məskunlaşmasına başlanmış, istehsalın intensiv inkişafı cəmiyyətin təbəqələşmə prosesini gücləndirmiş və nəticədə erkən dövlətçilik ənənələri, şəhər tipli yaşayış mərkəzləri yaranmışdır (10).

Mütəxəssislər Eneolit dövründə Qafqaza Yaxın Şərqdən miqrasiya edən Ubeyd mədəniyyəti təmsilçilərindən söz açarkən onların gəldikləri ərazilər sırasında Türkiyədəki Arslan-

təpənin də adını xüsusi çəkirlər. Məsələn, 18 №-li Soyuqbulaq kurqanında aşkar edilmiş «Coba bowl» tipli kasadan söz açan N.Müseyibli onun paralellərinin Şərqi Anadolu - Şimali Mesopotamiyanın Uruka qədərki xalkolit abidələrindən – Arslantəpə, Oylum Höyük (4, s. 2012), Hammam at Türkman (1, s. 312-313) və s. abidələrdən məlum olduğunu diqqətə çatdırır (11, s. 45). Ümumiyyətlə, «Kür-Araz Eneoliti»nin, eləcə də Kür-Araz mədəniyyətinin etno-mədəni bağlarının dəqiqləşdirilməsində Malatyada yerləşən Arslantəpədə aparılmış qazıntılar nəticəsində aşkar edilmiş arxeoloji materialların böyük rolu olmuşdur. Bu materialların A. Palmeri tərəfindən dərcindən sonra (14) eneolit və ilk tunc dövrlərində Şərqi Anadolu-Qafqaz etno-mədəni birliyi barədə fikirlər ortaya çıxmışdır.

Qazıntılarına hələ 1933-cü ildən başlanılan Arslantəpədə öncə hetlər (hithitlər) dövrünə aid üst mədəni təbəqələrindən biri öyrənilmiş, sonrakı illərdə L. Laportyenin rəhbərlk etdiyi bir fransız heyət (7, s. 257-285) buranın e.ə. V minillikdə məskunlaşdığını, şəhərdə həyatın kəsintiyə uğramadan b.e. XI əsrinə qədər davam etdiyini təsbit etmişdir (15, s. 101-119).

1960-cı illərdən etibarən başlanılan işi italyan arxeoloqlar davam etdirmişlər. Qazıntıları bundan sonra Romanın La Sapienza Universitetindən olan arxeoloqlar qrupu aparmışdır. Qrupa 1970-ci illərə qədər A.Palmieri (15, s. 101-119), ondan sonra isə M. Frangipane başçılıq etmişlər (2, s. 311-317; 6).

Belə hesab edilir ki, son Uruk dövrü ilə eyni dövrə təsadüf edən dövrdə, yəni e.ə. 3400-3200-cü illərdə burada geniş yanğınlar olmuşdur. Həmin dövrdən etibarən yaşayış məskəni Qafqazdan gələn yarımköçəri tayfaların hakimiyyəti altına keçmiş və bura əvvəlkindən xeyli böyük bir şəhərə çevrilmişdir (15, s. 101-119). M.Frangipanenin yazdığına görə,

sözügedən yarımköçərilər Kür-Araz mədəniyyətinin daşıyıcıları idilər (3, s. 169 -182).

Şübhəsiz ki, bütün bu tapıntılar içərisində 2015-ci ildə Arslantəpə sarayından üzə çıxan, e.ə. IV minilliyin sonlarına aid edilən kərpicdən hörülmüş hökmdar taxtı daha böyük önəm daşıyır. Maraqlıdır ki, taxtın arxasında, divarda iki pəncərəyə, daha doğrusu onların qalıqlarına rast gəlinib ki, bu da çox maraqlı tapıntılardan biri hesab edilir (3, s. 169 -182).

Mövzumuz baxımından ən maraqlı tapıntı isə Sarayın yaxınlığında aşkar edilən, e.ə. 2900-cü ilə aid olan kurqandır. Alimlər onun hökmdarlardan birinin məzarı olduğu fikrindədirlər. Maraqlıdır ki, kurqanın qəbir kamerasının daş örtüyü üzərində oturdulmuş vəziyyətdə dəfn edilmiş dörd gənç yaşlarında insan skeletinə də rast gəlinmişdir ki, onların qurban edildikləri sanılır (15, s. 101-119).

Beləliklə, arxeoloji dəlillər bölgədə ilk dövlətin məhz Kür-Araz mədəniyyəti dövründə peyda olduğunu və bu dövləti yaradanların öz ölülərini kurqanlarda dəfn etdiklərini söyləməyə tam əsas verir.

Son illər aparılmış genetik tədqiqatların nəticələr göstərir ki, bu mədəniyyətin yaradıcıları Azərbaycan türklərinin genetik əcdadları olmuşlar. Söhbət Qərbi Azərbaycanda tədqiq edilən və radiokarbon analizlərinin nəticələrinə görə e.ə. 3700-cü illərə (e.ə. IV minillik) aid edilən 5 və 6 №-li Sərdarabad (Aknaliç) (8, s. 339-369), eləcə də e.ə. 2619-2465-ci illərə, yəni e.ə. III minilliyə aid olduğu radiokarbon analizləri ilə təsbit edilən Alagöz (Talin) və Əmirxeyir (1991-ci ildə adı dəyişilərək Kalavan qoyulub) kurqanlarından tapılmış skeletlərdən götürülmüş nümunələrin DNT analizlərinin nəticələrindən gedir. Məsələ burasındadır ki, həmin kurqanlardan tapılmış sümük qalıqlarının DNT analizi onların R1b və R1a haploqrupunun daşıyıcısı (5), yəni türk olduqlarını ortaya qoymuşdur.

Şübhəsiz ki, bunlardan daha qədim olması baxımından Sərdarabaddan (Armavir rayonunun Alkaniç kəndindən) tapılan 5 və 6 №-li kurqanlar daha böyük önəm daşıyır. Lakin ilk tunc dövrünə aid Alagöz (Talin) və Əmirxeyir (Kalavan) kurqanları onlardan az önəm daşımır.

Qeyd edək ki, əldə edilən nəticələr təkcə bu kurqanlarla sınırlı deyil. Orta tunc dövrünə (e.ə. II minillik) aid Adyaman (hazırki adı Getaşen-Nerkin) və Qafan yaxınlığındakı son tunc dövrünə aid kurqanlaran (16) əldə edilmiş nümunələrin DNT analizləri də eyni nəticəni vermiş və onlardan da R1b Y-xromosomu tapılmışdır (5).

Əldə edilən bu nəticələr Cənubi Qafqaz ərazisindəki orta Eneolit və Tunc dövrü mədəniyyətlərinin eyni xalq tərəfindən yarandığını və bölgədə qırılmayan, davamlı vahid bir etnik mədəniyyətin mövcud olduğunu sübut edir.

Azərbaycan Respublikasında sistemli və əsaslı genetik analizlər aparılmadığından bizim genetik yapımız haqqında məlumatları Rusiya alimlərinin Dağıstan (Dərbənd) azərbaycanlıları üzərində apardıqları tədqiqatlardan öyrənmiş oluruq. Həmin tədqiqatlardan belə məlum olur ki, bu gün də Azərbaycan türklərinin genetik yapısında, Kür-Araz mədəniyyəti və «Kür-Araz eneoliti» dövründə olduğu kimi, R1b Y-xromosomu aparıcı yer tutur.

Qafqazın 6 türk xalqının – azərbaycanlıların, balkarların, qaraçaylıların, qaranoqayların, qumuqların və noqayların Y-xromosom markerlərinin (N=870) genişləndirilmiş vahid panel (58 SNP və 17 STR) üzrə təhlilini verən R. A. Saxalyaxo yazır ki, Azərbaycan və qumuq türklərində R1b və R1a haploqrupları dominantlıq təşkil edir (17, s. 4).

Beləliklə, genetik tədqiqatlar Kür-Araz mədəniyyətini, eləcə də Araslantəpədə izlərinə rast gəlinmiş ilk dövlətçilik ənənəsinin məhz Azərbaycan türklərinin genetik əcdadları tərə-

findən yaradıldığını birmənalı şəkildə söyləməyə əsas verir. İşin ən maraqlı tərəfi isə budur ki, əlimizdə həmin mədəniyyətin və ilk dövlətçiliyimizi yaradılmasında bilavasitə hansı soy və boyların iştirak etdiyini tam əminliklə söyləyə bilmətimizə əsas verən başqa təkzibedilməz faktlar da mövcuddur.

Söhbət e.ə. III minilliyə aid edilən, İranın şimal-qərbində yerləşən və vaxtilə Kür-Araz mədəniyyətinin əhatə arealına daxil olmuş olan Timərə (Teymərə) qayalıqlarında rast gəlinən oğuz boylarına məxsus damğalardan gedir (12) Bu damğalar protooğuzların bu ərazilərin ən qədim avtoxton sahibləri olduğunun, buralarda ən azı Erkən Tunc dövründən məskun olduqlarının və dünya sivilizasiyasında önəmli mərhəllərdən biri olan Kür-Araz mədəniyyətinin yaradıcıları qismində çıxış etdiklərinin təkzibedilmz sübutudur.





Eymür (Ayrım) boyu damğası



QAYIĞ (Qayı) boyu damğası



BAYAT boyu damğası



BAYUNDUR Boyu



Bayat boyu



Qayığ (Qayı) boyu   Salğur (salur) boyu

## QAYNAQLAR


1. Akkermans P.M. M.G. The period V pottery. İn M.N. van Loon (ed.) // Hammam et-Turkman I. Report on the University of Amsterdams 1981-84 Excavations in Syria I. Nederlands Historisch-Archeologisch İnstitut te İstanbul. 1988.

2. Burney C. Arslantepe as a gateway to the highland: a note on periods VI A-VI D. In: M. Frangipane, H. Hauptmann, M. Liverani, P. Matthiae & M. Mellink (eds.), Between the Rivers and over the Mountains, Archaeologica Anatolica et Mesopotamica Alba Palmieri edicate, Rom, 1993, s. 311-317.

3. Frangipane M. Yakındoğuda devletin doğuşu. İstanbul, 2002. 560 s.

4. Helwing B. The Oylum Höyük western terrace Post-Ubaid assemblage and its plase within the late Chalcolithic of Western Asia // Varia Anatloica XXVII. Affer the Ubaid: interpreting change from the Caucasus to Mesopotamia at the down of urban civilization (4500-3500 Bc). Ed. By C.Marro. Paris 2012.

5. İain Mathieson, et al. The genetic structure of the world's first farmers // BioRxiv, June 16, 2016.

6. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999.

7. Laporte L. Malatya – Céramique du Hittite Recent, Review Hittites et Asian, vol. 2, no. 15, 1934, s. 257-285.

8. Morten E. Allentoft et al. Population genomics of Bronze Age Eurasia // Nature. 2015. Vol. 522, p. 167–172.

9. Muradyan F. Discovery of the First Chalcolithic Burial Mounds in the Republic of Armenia // A Guide-book to the Stone Age Archaeology in the Republic of Armenia. Monograph of the JSPS-Bilateral Joint Research Project

Center for Cultural Resource Studies, Kanazawa University, 2014, s. 339-369.

10. Müseyibli N. Azərbaycan arxeologiya elminin inkişafı və propitet istiqamətləri // «Azərbaycan» qəzeti, 16 mart 2014 a.

11. Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı, 2014 b. 140 s.

12. Naserfərd M. Səngneqarehaye-İran: Zəbane moştərəke cəhani. Qum. Moəsseyi çap və nəşre-Vasef, 1395 (2016).

13. Oğuz Y. Qədim Azəbaycan və Anadolu türkləri. Bakı: "Azərbaycan Milli Ensiklopediyası" NPB., 2002.

14. Palmiery A. Scavi nell'Area Sud-Occidentale di Arslantepe. // Origini, vol. YII. 1973, p. 36-44.

15. Palmieri A. Excavations at Arslantepe (Malatya), Anatolian Studies, vol. 31, 1981, s.101-119.

16. Пиатровский Б. Б. Ванское царство. М.,1959.

17. Схаляхо Р.А. Генеография тюркоязычных народов Кавказа: Анализ изменчивости Y-хромосомы. Автореферат диссертации на соискание ученой степени кандидата биологических наук. Москва, 2013.

18. Церен Э. Библейские холмы. «Правда», Москва,1986.

## KİTABIN İÇİNDƏKİLƏR

**Muxtar Kazımoğlu.** Heydər Əliyev və
"Kitabi-Dədə Qorqud" eposu ..................................... 3

**Əfzələddin Əsgər.** Oğuznamənin sosial,
siyasi-ideoloji anlamı ................................................ 17

**Tahirə Məmməd.** Meydan tamaşalarında dövlət
idarəçilik sistemi ilə bağlı motiv və elementlər............ 81

**Almaz Həsənqızı.** Folklor və milli dövlətçilik
təfəkkürü ........................................................... 91

**Cavanşir Yusifli.** Azərbaycan mühacirət
ədəbiyyatında folkora dönüş ...................................... 108

**Nizami Muradoğlu.** "Kitabi-dədə qorqud"da
dövlətçilik ənənəsi ümummilli lider Heydər Əliyevin
baxışları kontekstində ............................................... 118

**Ağaverdi Xəlil.** Folklorda dövlətçilik düşüncəsi
və arxaik ritual.......................................................... 132

**Elçin Abbasov.** Türklərdə dövlət və
hakimiyyət simvollarının semantikası:
ənənəvi mədəniyyət konteksti ..................................... 143

**Atif İslamzadə.** "Dədə Qorqud Kitabı"nda
dövlətçilik anlayişinin obraz təcəssümü ...................... 190

**Sevinc Qasımova.** Novruz bayramının qədim
Azərbaycan dövlətçiliyi tarixində yeri......................... 202

**Tahir Nəsib.** Ural-altayların qədim dövlətçilik
ənənələrinə mifoloji görüşlərin, inancların təsiri.......... 216

**Seyfəddin Altaylı.** "Kitabi-Dədə Qorqud"da
at rənglərinin dövlət gələnəyi ilə bağlılığı və
dövlət protokolunun göstəriciləri................................ 226

**Bəxtiyar Tuncay.** Folklor yaddaşımızdakı ilk
türk-oğuz dövləti və Kür-Araz mədəniyyəti ................ 240

**Folklor və dövlətçilik düşüncəsi.**
**III kitab.**
Bakı, Elm və təhsil, 2018

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 254 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.